# AZƏRBAYCAN DİLİ

təfdris dili

7

DƏRSLİK

LAYİHƏ

 

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** *Üzeyir Hacıbəylinin,*
**sözləri** *Əhməd Cavadındır.*

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

RAFİQ İSMAYILOV, AYNUR RÜSTƏMOVA,
HİDAYƏT ALLAHVERDİ, SAHİBƏ MƏMMƏDOVA

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(tədris dili)*

*fənni üzrə*

# DƏRSLİK

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi altunkitab2004@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

altun kitab

LAYİHƏ

# MÜNDƏRİCAT


| MÖVZULAR | səhifə |
|---|---|
| **I BÖLMƏ. FƏRD VƏ CƏMİYYƏT** | **9-32** |
| Hərənin öz imzası | 10-12 |
| Mübariz<br>*Hərəkətin subyekti və obyekti* | 13-16 |
| Son yarpaq<br>*Məlum, məchul və şəxssiz növ feillər* | 17-20 |
| Səhv düşəndə yerimiz<br>*Qayıdış növ* | 21-22 |
| Polyanna<br>*Qarşılıq-birgəlik növ* | 23-27 |
| Qayıqda dörd nəfər<br>*İcbar növ* | 28-31 |
| Ümumiləşdirici təkrar | 32 |
| **II BÖLMƏ. HƏR SÖZÜN BİR TALEYİ VAR** | **33-54** |
| Molla Nəsrəddin demişkən...<br>*İdi, imiş köməkçi sözləri* | 34-37 |
| Onlar kimdir<br>*İsə hissəciyi* | 38-41 |
| Bunu kim deyib<br>*İdi, imiş köməkçi sözlərinin yazılışı* | 42-45 |
| Ay adları və onların mənşəyi<br>*İdi, imiş köməkşi sözləri və keçmiş zaman şəkilçiləri* | 46-49 |
| Barbarlar və vandallar<br>*İsə köməkçi sözü və feilin şərt şəklinin əlaməti* | 50-53 |
| Ümumiləşdirici təkrar | 54 |




LAYİHƏ

| MÖVZULAR | səhifə |
| --- | --- |
| **III BÖLMƏ. ANA TƏBİƏT** | **55-76** |
| Gürzə<br>*Feilin təsriflənməyən formaları* | 56-60 |
| İşgüzar təklif<br>*Məsdər* | 61-64 |
| Təbiət “mühəndis”ləri<br>*Feili sifət*<br>*Feili sifət və feildən düzələn sifət* | 65-68 |
| Fəryad. Maşuk meşəsi<br>*Feili bağlama* | 69-71 |
| Alternativ enerji | 72-74 |
| Ümumiləşdirici təkrar | 75-76 |
| **IV BÖLMƏ. KAMİLLİYƏ DOĞRU** | **77-102** |
| Zamanın idarə olunması<br>*Qoşma* | 78-82 |
| Uğura gedən yol<br>*Qoşmaların deyilişi və yazılışı* | 83-86 |
| Təqvim<br>*Bağlayıcı* | 87-90 |
| Yazı – piktoqramdan hərflərə<br>*Bağlayıcılarda vergülün işlənməsi* | 91-94 |
| Qədim yazı materialları<br>*Mürəkkəb bağlayıcılar* | 95-98 |
| Eynşteyn dərslərindən “2” alırdı? | 99-101 |
| Ümumiləşdirici təkrar | 102 |




LAYİHƏ

| MÖVZULAR | səhifə |
|---|---|
| **V BÖLMƏ. DƏYƏRLƏRİMİZ 103-124** | |
| ● Həsrət<br>*Ədat və onun məna növləri* | 104-107 |
| ● Səkkiz və tariximiz<br>*Ədatların orfoqrafiyası* | 108-110 |
| ● Şəki Xan sarayı<br>*Modal sözlər* | 111-114 |
| ● Dünya 20 Yanvardan necə xəbər tutdu<br>*Modal sözlərdə durğu işarələrinin işlənməsi* | 115-117 |
| ● Neft daşları<br>*Nida* | 118-122 |
| ● Ümumiləşdirici təkrar | 123-124 |
| **VI BÖLMƏ. İXTİRALAR VƏ KƏŞFLƏR 125- 146** | |
| ● İsaak Nyuton<br>*Köməkçi və əsas nitq hissələrinin omonimliyi* | 126-129 |
| ● Avtomobil<br>*Köməkçi nitq hissələrinin omonimliyi* | 130-133 |
| ● Bumeranqı kim icad edib<br>*Bağlayıcı, ədat, yoxsa şəkilçi?* | 134-137 |
| ● Əl-Xarəzmi<br>*Köməkçi nitq hissələrinin sinonimliyi* | 138-141 |
| ● Kompüter oyunlarını kim ixtira edib | 142-145 |
| ● Ümumiləşdirici təkrar | 146 |


LAYİHƏ

| MÖVZULAR | səhifə |
|---|---|
| **VII BÖLMƏ. KİTABIN TARİXİ** | **147-167** |
| • Qədimdə kitab işi<br>*Cümlənin quruluşca növləri* | 148-151 |
| • Kitabxanalar | 152-155 |
| • Kitab çapının ixtirası | 156-158 |
| • Azərbaycanda ilk mətbəələr | 159-162 |
| • Elektron kitab | 163-165 |
| • Ümumiləşdirici təkrar | 166-167 |
| SÖZLÜK | 168-175 |




LAYİHƏ

LAYİHƏ



# I BÖLMƏ

# FƏRD VƏ CƏMİYYƏT



LAYİHƏ

# HƏRƏNİN ÖZ İMZASI



Bu, adi bir supermarket idi: nə böyük, nə də kiçik. Müştəriləri o qədər də çox deyildi. Buraya gələnlər, əsasən, ətraf binaların sakinləri idi. Üç ay əvvəl həmin küçədən iki tin yuxarıda daha iri supermarket açıldıqdan sonra burada alış-veriş xeyli zəifləmişdi. İş o həddə çatmışdı ki, satıcılar günün çox hissəsini bir-biri ilə söhbət etməklə keçirirdilər. Şayiə gəzirdi ki, yaxınlarda supermarket bağlanacaq. Lakin günlərin bir günü supermarketə yeni müdir təyin olundu və tez bir zamanda hər şey dəyişdi.

**1.** Sizcə, yeni müdir vəziyyəti düzəltmək üçün nə edəcək?

Həsən bəy müdir təyin olunan günün səhəri supermarketdə divara lövhə vuruldu:

"Müştərilərə hörmət və qayğı ilə yanaşın. Sizə maaş verən onlardır".

Həmin gün axşam Həsən bəy bütün işçiləri iclasa yığdı. Əvvəlcə o hamı ilə tanış oldu. Söhbət zamanı hər kəsə öz adı ilə müraciət etməsi işçiləri çox təəccübləndirdi. Bu qədər adamın adını ilk dəfədən yadda saxlaması istər-istəməz yeni müdirə qarşı rəğbət hissi yaratdı.

Həsən bəy işçilərə dedi:

– Çalışın, marketimizə gələn insanlarla ünsiyyətdə alıcı-satıcı münasibətlərindən bir qədər kənara çıxasınız. Siz bu insanları, demək olar, hər gün görürsünüz. Onların da, yəqin ki, bir xoş sözə, səmimi təbəssümə ehtiyacı var. Hər bir işdə uğur gətirən əsas amillərdən biri də yaradıcı yanaşmadır. Hər bir şəxs öz işini Səttar Bəhlulzadənin şəkil çəkdiyi, Üzeyir bəyin musiqi bəstələdiyi, ya da Füzulinin şeir yazdığı kimi yerinə yetirməlidir.

Bu zaman cavan bir oğlan əlini qaldırıb söz istədi. Bu, supermarketdə şən və zarafatcıl adam kimi tanınmış Səlim idi. O ayağa qalxıb dedi:

– Həsən bəy, mənim işim kassanın yanında dayanıb müştərilərin aldığı malı torbalara doldurmaqdır. Deyə bilərsinizmi, mən bu işi yaradıcı şəkildə necə görə bilərəm?



LAYİHƏ

Həsən bəy gülümsündü:
– İclasdan sonra qalın, bir şey fikirləşərik.
Səlim iclasdan sonra Həsən bəyə yaxınlaşdı. Maraq dolu nəzərlərlə ona baxdı. Həsən bəy soruşdu:
– Sən, deyəsən, tələbəsən?
– Bəli, qiyabi oxuyuram.
– Yəqin ki, evdə kompüterin var?
– Əlbəttə.
Həsən bəy ayağa qalxıb kitab rəfinə yaxınlaşdı. Qalın bir kitabı götürüb Səlimə uzatdı:
– Bu, aforizmlər kitabıdır. Xoşuna gələn aforizmləri seç, kompüterə köçür. Sonra onları çap elə. Hər müştərinin torbasına bir aforizm qoy. Yadında saxla: işə yaradıcı yanaşma ona öz imzanı atmaq deməkdir.
...Bir həftə keçdi.
Həsən bəy supermarketi gəzir, satıcılara göz qoyurdu. Ət şöbəsinin yanından keçəndə satıcı ilə alıcının söhbətini eşitdi:
– Zərifə xanım, bu gün xüsusilə gözəl görünürsünüz. Elə bil arıqlamısınız.
– Doğrudan? – şişman qadın sevinclə soruşdu.

**2. Ət şöbəsindəki satıcının alıcıya dediyi ifadəni nə adlandırmaq olar?**
A) nitq etiketi B) kompliment C) muştuluq

Həsən bəy gül şöbəsinə yaxınlaşdı. Burada işləyən iki qız saplağı qırılmış gülləri bir qaba yığırdı.
– Qızlar, bunları nə edirsiniz? Birdən satarsınız ha!
– Yox, Həsən bəy. Bunları müştərilərin uşaqlarının yaxalarına taxırıq. Elə sevinirlər ki!
Bu zaman başqa bir işçi müdirə yaxınlaşdı:
– Həsən bəy, qonşu binada bir qoca yaşayır. Heç kimi yoxdur. Neçə gündür ki, xəstədir. İcazə verin, onun ərzağını evinə çatdırım. Pulunu gətirib kassaya ödəyərəm.
– Əlbəttə, qızım, xeyirxah iş görmüş olarsan.
Bu zaman kassada işləyən qızlardan birinin səsi gəldi:
– Xahiş edirəm, o biri kassaya keçin. Orada növbə yoxdur.
Buna cavab olaraq növbədə duranlardan biri dilləndi:
– Kim istəyirsə, keçsin. Mən Səlimin kəlamlarından almaq istəyirəm.
Həsən bəy razı halda kabinetinə sarı yollandı: “Hərənin öz imzası var. Deməli, hər şey öz qaydasındadır...”

*Rafiq Ələkbəroğlu*


LAYİHƏ

### Söz ehtiyatı

**3.** Mətndə "imza" sözü hansı mənada işlənib? Bu sözü yerinə görə hansı sözlə əvəz etmək olar: "qol", yoxsa "dəstxət"?

### Düşün və cavab ver

**4.** Supermarketdə işləyənlər Həsən bəyin tövsiyəsini yerinə yetirmək üçün daha nə edə bilərlər?

**5.** Siz öz işinizə yaradıcı yanaşmaq üçün nə edirsiniz?

### Yazı

**6.** Verilmiş aforizmləri mətnin məzmunu ilə əlaqələndirin. Ən çox bəyəndiyiniz aforizmi başlıq kimi seçərək kiçik esse yazın.

- Kiçik işlərdə də böyük olmaq lazımdır. *(A.Morua)*
- Yoxdan vara çevrilən hər bir şey yaradıcılıqdır. *(Platon)*
- Hər bir insan öz uğurunun memarıdır. *(Sallüsti)*

### Dil qaydaları

**7.** Mətndə altından xətt çəkilmiş "qonşu" və "qoca" sözlərinin hansı suala cavab verdiyini və hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

**8.** Mətndə defislə yazılmış mürəkkəb sözləri seçin və onların hansı nitq hissələrinə aid olduğunu müəyyənləşdirin.

**9.** Uyğunluğu müəyyən edin. Alınmış mürəkkəb sözləri dəftərinizə yazın.

| | |
|---|---|
| 1) əks | A) admiral |
| 2) qeyri | B) arqument |
| 3) anti | C) çempion |
| 4) eks | Ç) faşist |
| 5) kontr | D) adi |

***10.** Verilmiş sözlərdən yaranan mürəkkəb sözlərin bitişik, yoxsa defislə yazıldığını müəyyənləşdirin

| | |
|---|---|
| 1) qayda, qanun | 2) qanun, verici |
| 3) ara, bir | 4) ara, sıra |
| 5) beş, illik | 6) beş, altı |



LAYİHƏ

# MÜBARİZ



2010-cu ilin qızmar yay günləri idi. Mübariz hərbi hissədə, düşmənlə üzbəüz səngərdə durmuşdu. Üzünü işğal olunmuş kəndlərə tutub saatlarla seyr edir, qəlbi odsuz-ocaqsız yanırdı. Düşmən *xanimanları* viran qoymuş, yüz minlərlə insanı yurd-yuvasından didərgin salmışdı. Hələ bu azmış kimi, gəlib torpaqlarımızda səngər qurmuşdu. Mübarizi yandıran da elə bu idi.

O, gündüzlər bu hala birtəhər dözürdü. Dostlarıyla, əsgərləriylə başı qarışırdı. Amma gecə düşəndə, *illah* da, səngərdə olanda dünya başına fırlanırdı. Ona elə gəlirdi ki, Xocalı hadisəsi elə indicə baş verir. Qulağına vay-şivən səsləri gəlirdi. Telejurnalist Çingiz Mustafayevin Xocalı faciəsindən çəkdiyi görüntülər gözləri önündən getmirdi. Qəhrəman jurnalistin hönkürtüsü, "çək!" deyən ağlar səsi qulaqlarında cingildəyirdi.

Yox, yetər daha! Bu mənfurların dərsini vermək lazımdır. <u>Dərəni xəlvət görüb bəy olmaq istəyənlər</u> gərək bilsinlər ki, bu dərələrin yiyəsi var, bəyi var... Bu səngəri aşıb yetmişcə metr o tərəfə adlaya bilsə, düşmənin səngərində olacaqdı. Çətini o səngərə salamat çatmaqdı.

Ölməyə nə var?!. Başını səngərdən qaldır, tuş gələcəksən *snayper* gülləsinə. Bu, canına qəsd etmək kimi bir iş olardı. O isə *qazilik* edib şəhidlik şərbətini başına çəkmək istəyirdi.

**1.** Altından xətt çəkilmiş ifadə hansı atalar sözü ilə əlaqədardır?
**2.** Oxuduğunuz hissədəki sonuncu cümləni izah edin.

Səbirsizliklə axşamın düşməsini gözləyirdi. Fikirləşdi ki, valideynlərinə məktub yazsın. Bir parça kağız tapıb yazmağa başladı:

*"Canım atam və anam. Məndən ötrü darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xətir bunu etməliyəm. Ən azı ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. ...Allah böyükdür. Vətən sağ olsun! Oğlunuz Mübariz. Haqqınızı halal edin".*

Artıq gecə saat on ikinin yarısı idi. Xəlvətcə silahlandı. Azərbaycan bayrağını götürüb səngərdən çıxdı. Fikirləşirdi ki, təki minaya düşməsin. Təsadüfi ölüm onun arzusunu gözündə qoyardı.



LAYİHƏ

Addımlarını inamla atırdı. Elə bil gözəgörünməz bir qüvvə onu minalanmış sahədən salamat keçirirdi. Susuzluqdan yanan kol-kosa, tez-tez rast gəldiyi xırdaca təpəciklərə *sinə-sinə* gedirdi. Düşmən səngəri lap yaxınlıqda idi.

On-on beş addım da irəli sürünüb düşmən səngərinə atıldı. İyirmi iki ilin qəzəbi, nifrəti qollarına toplanmışdı. Səs olmasın deyə avtomatı işə salmadı. İlk qarşısına çıxan altı nəfəri döyüş bıçağı ilə məhv etdi. "Can Vətən!" – deyib Azərbaycan bayrağını torpağa sancdı və səngərdən çıxdı. Fikri düşmənin *kazarmasına* girib əsgərlərin arasında çaxnaşma salmaq idi. Oraya tərəf irəlilədi. Birdən ona elə gəldi ki, iyirmi min şəhid onun ardınca gedir. Qanlı köynəklərini bayraq kimi başlarının üzərində yelləyirlər. Bir əli ilə ağır pulemyotu qaldırıb düşmənin üstünə güllə yağdırdı.

Düşmən gecənin bir aləmində bu bəlanın haradan gəldiyini hələ də *kəsdirə bilmirdi*. Qəfil hücum onu karıxdırmışdı. Elə bilirdi ki, üstünə böyük bir dəstə gəlib. Erməni əsgərlər təntiyib bir-biri ilə atışırdılar. Sonra özlərini ələ aldılar. Bərabər olmayan qüvvələr arasında döyüş bir neçə saat çəkdi.

Qan-tər içində idi. Dayanmadan atəş açırdı. Yerini tez-tez dəyişirdi. Güllə atmaqdan biləyi ağrıyırdı. Ovcunun içi də bərk göynəyirdi. Amma indi yalnız döyüşmək, intiqam almaq haqda düşünürdü.

Saat beşdə Mübariz geri çəkildi. Düşmən onu tələyə salmaq istəyirdi. O isə Allahdan çox yox, bir-iki dəqiqə də möhlət istəyirdi. İstəyirdi ki, xalqına düşmən kəsilmiş bu mənfurlardan bir neçəsini də o dünyaya göndərsin.

Düşmən əsgərlərinin ayaq səslərini aydınca eşidirdi. Yoldan çıxıb yerə yıxılmış tənək dirəyinin yanında ayaq saxladı, əllərini Allahın *dərgahına* açdı: "Bismillahir-rəhmanir-rəhim... Ey böyük Allah, bu günə şükür, arzumu ürəyimdə qoymadın. Günahım varsa, bağışla, Tanrım! Allahım, şəhidliyimi qəbul et! Vətən sağ olsun!"

Ayaq səsləri yaxınlaşırdı. O, diri tutulmağına imkan verə bilməzdi. Mübariz avtomatı bərk-bərk sinəsinə sıxdı. Hələ bir-iki gülləsi vardı. Amma bu an qəfildən atəş açıldı. Düşmən gülləsi onun sol böyründən və başından dəydi. Arxası üstə çevrildi. Güclə: "Vətən sağ olsun!" – deyə bildi. Dağlar əks-səda verdi: "Vətən sağ olsun!"

İyirmi min şəhid Mübarizin bədənini tərk eləyən qəhrəman ruhunu götürüb göylərə çəkildi.

*Mustafa Çəmənli*

**Söz ehtiyatı**

**3.** "Xaniman", "illah", "sinmək", "kazarma", "kəsdirə bilməmək", "dərgah" söz və ifadələrinin mənasını kontekstə görə izah etməyə çalışın.



LAYİHƏ

### Düşün və cavab verm

4. Tarixi fakta və mətndəki məlumatlara əsaslanaraq cavab verin: Xocalı faciəsi baş verəndə Mübarizin neçə yaşı var idi?

5. "İyirmi min şəhid" dedikdə müəllif kimləri nəzərdə tutur?

### Yazı

6. Qarabağ müharibəsi ilə bağlı araşdırma aparın. Mətndən və aşağıdakı məlumatdan da istifadə etməklə verilmiş plan üzrə informativ mətn yazın.

> Müdafiə Nazirliyinin oktyabrın 4-də yaydığı məlumata görə, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

1. Birinci Qarabağ müharibəsi. Xocalı faciəsi.
2. İşğalla barışmayan Azərbaycan ordusu. Mübarizin qisası.
3. 44 günlük müharibə. Azərbaycan bayrağı Mübariz postunda.

### Dil qaydaları

7. Mətndə göy rənglə verilmiş cümlədə hansı söz:
   - hərəkət bildirir?
   - hərəkəti icra edəni bildirir?
   - üzərində hərəkət icra olunanı bildirir?

**Yadda saxla!** **HƏRƏKƏTİN SUBYEKTİ VƏ OBYEKTİ**

Hərəkətin, adətən, subyekti və obyekti olur:

(subyekt) (obyekt) (hərəkət)
***Uşaq kitab oxuyur.***

Subyekt hərəkəti icra edəndir. Hərəkət obyekt üzərində icra olunur.

Subyektlə obyektin qarşılıqlı münasibətindən asılı olaraq feil müxtəlif qrammatik mənalar kəsb edir.

8. Altından xətt çəkilmiş hansı cümlədə:
   - hərəkətin subyekti və obyekti məlumdur?
   - hərəkətin subyekti məlum deyil?
   - subyekt hərəkəti öz üzərində icra edir?
   - hərəkət qarşılıqlı icra olunur?



LAYİHƏ

**9.** Nümunəyə uyğun cədvəl qurun və altından xətt çəkilmiş sözləri müvafiq xanalarda yazın.

1. Ən uzun velosipedi Belçika mühəndisləri düzəltmişlər.
2. Gözəllik gözəlliyi cəlb edər.
3. Biz bütün yayı ağaclara qulluq etdik.
4. Suya batan cisim onun bir hissəsini sıxışdırıb çıxardır.

| Hərəkəti (işi) icra edən | Üzərində hərəkət (iş) icra olunan |
|---|---|
| | |
| | |

**10.** Uyğunluğu müəyyən edin.

**A.** Bu məktub iki il bundan əvvəl yazılıb.
**B.** Biz üç ildir ki, Elxanla yazışırıq.
**C.** Yazıda xətaya yol verilib.
**D.** Əsgərlər irəli atıldılar.
**E.** Bu gün müəllim bizə imla yazdırdı.

1. Cümlənin mübtədası yoxdur və hərəkətin subyekti məlum deyil. A B C D E
2. Cümlənin mübtədası var, lakin hərəkətin subyekti məlum deyil. A B C D E
3. Subyekt hərəkəti öz üzərində icra edir. A B C D E
4. Subyekt başqasını hərəkəti icra etməyə məcbur edir. A B C D E
5. Hərəkət bir neçə subyekt tərəfindən icra olunur. A B C D E

**11.** Sözləri cümlələrdə işlədib dəftərinizə köçürün. Eyni hərəkətdə subyektin dəyişməsinə səbəb olan morfoloji əlaməti (şəkilçini) müəyyən edib altından xətt çəkin.

*yazmaq, yazılmaq, yazışmaq*

***12.** Mətni oxuyun. Cümlələrin qrammatik əsasını müəyyən edin. Fərqləndirilmiş cümlələrdə hərəkətin obyektini və subyektini müəyyənləşdirin.

*Məşhur ixtiraçı Edisonun həyət qapısı çox çətin açılırdı.* Bunu görən bir tanışı təəccüblə alimdən soruşur:

– Sənin kimi dahi ixtiraçı bundan yaxşısını düzəldə bilmirdi?

Edison cavabında deyir:

– *Məncə, qapı dahiyanə düzəldilib. Məsələ burasındadır ki, o, su nasosu ilə birləşdirilib. Hər dəfə qapı açılanda çənə 20 litr su vurulur.*



LAYİHƏ

# SON YARPAQ



Vaşinqton xiyabanından qərbdə yerləşən kərpic binalardan birində iki rəssam qızın – Syu və Consinin studiyası yerləşirdi. Qızların xasiyyət və zövqlərindəki oxşarlıq onları yaxın rəfiqəyə çevirmişdi.

Bu hadisə noyabr ayında baş vermişdi. Şəhər böyük bir narahatlıq içində idi. Həkimlərin pnevmoniya adlandırdıqları xəstəlik bir çox evləri matəmə bürümüşdü. Consi də bu xəstəliyə tutulmuşdu. Həkimlərin müalicəsi heç bir nəticə vermirdi. Onsuz da, zəif olan qız xəstəlikdən daha da solmuşdu. Həyatdan tamamilə əlini üzüb günlərlə sakitcə yerində uzanır, heç nə yemir, içmir, danışmırdı. Təngnəfəslikdən boğulur, onu dünyaya bağlayan son ümidlərini də günbəgün itirirdi. Syunun da qanı qara idi, rəfiqəsi üçün çox üzülürdü.

Bir səhər Consini müalicə edən həkim qayğılı halda Syuya yaxınlaşıb dedi:

– Consinin vəziyyəti ağırdır. Bilirsinizmi, inam olmayan yerdə təbabət acizdir. O özü sağalacağına ümid etmir. Bu ümidsizlik verdiyim dərmanların təsirini ikiqat azaldır. Sizdən rica edirəm, əgər rəfiqənizin yaşamasını istəyirsinizsə, onun həyata olan marağını geri qaytarın. Əgər bir gün rəfiqəniz bu soyuq qış günündə sizdən nəyin dəbdə olması barədə soruşsa, hesab edin ki, vəzifənizi yerinə yetirməyə müvəffəq olmusunuz.

**1.** Həkimin sonuncu cümləsinin mənasını izah edin. Onun fikrinə münasibət bildirin.

Həkim gedəndən sonra Syu emalatxanaya gedib bir xeyli ağladı. Sonra göz yaşlarını sildi, molberti götürüb cəsarətlə Consinin otağına daxil oldu. Consi yorğanın altında büzüşmüşdü. Xəstəlikdən də çox, ümidsizlikdən solmuş gözlərini pəncərəyə zilləmişdi. Syunun ürəyi ağrıdı. Lakin büruzə vermədi. Molbertini qurdu və şəkil çəkməyə başladı.

Birdən qulağına pıçıltı səsi gəldi. Tez çarpayıya yaxınlaşdı və diqqətlə qulaq asmağa başladı. Consi gözlərini geniş açaraq pəncərəyə baxır və tərsinə sayırdı:



LAYİHƏ

– On iki, on bir... – Bir qədər gözlədikdən sonra yenidən saymağa başladı. – On, doqquz, səkkiz, yeddi...

Syu pəncərəyə baxdı. Orda sayılası nə var idi ki? Yalnız köhnə kərpic binanın divarı və ona sarılmış, solmaqda olan sarmaşıq...

– Nəyə baxırsan?

– Altı, – Consi zəif səslə dedi. – Getdikcə daha sürətlə azalır. Hələ üç gün bundan əvvəl yüzdən çox idi. Bax, biri də düşdü. Artıq beş dənədir.

– Axı sən nədən danışırsan?

– O sarmaşığı görürsən? Onun axırıncı yarpağı düşəndə mən də öləcəyəm.

– Bu nə mənasız söhbətdir? Sarmaşığın yarpaqlarının düşməsi ilə sənin ölməyinin nə əlaqəsi ola bilər?! Əksinə, həkim mənə dedi ki, sən tezliklə sağalacaqsan.

– Bilirəm, bunların hamısını məni sakitləşdirmək üçün deyirsən.

– Boş-boş danışma. Yaxşısı budur, yat, dincəl. Mən Bermanı çağırmağa gedirəm. Rəsmi tamamlamaq üçün onun köməyinə ehtiyacım var.

Qoca Berman aşağı mərtəbədə yaşayırdı. Rəssam idi. Amma bütün ömrü boyu heç bir diqqətəlayiq əsər yaratmamışdı. Həmişə bir gün şah əsərini yaradacağından danışsa da, onu hələ çəkməyə belə başlamamışdı.

Syu Bermanı tapıb ağlaya-ağlaya Consinin düşüncələri haqqında qocaya danışdı. Berman özündən çıxdı:

– Nə? Bu nə axmaqlıqdır belə? Lənətə gəlmiş sarmaşıqdan tökülən yarpaqlar ölümə necə səbəb ola bilər? İlk dəfədir, eşidirəm. Ah, zavallı balaca miss Consi!.. Buna son qoymaq lazımdır. Amma necə?!

Növbəti gün səhər qısamüddətli yuxudan sonra Syu gördü ki, Consi gözlərini pəncərədən çəkmir. Syu onun baxdığı istiqamətə diqqət yetirəndə təəccübləndi: çox şiddətli yağışdan və güclü küləkdən sonra divarda sarmaşığın yeganə – sonuncu yarpağı görünürdü!..

Üzücü günə bir gecə də əlavə olundu. Sanki yarpaq ağaca yapışdırılmışdı. Onlar hətta alaqaranlıqda belə yeganə yarpağın kərpic divara toxunan saplağının üstündə olduğunu görürdülər.

Ertəsi gün Consi uzanmış halda uzun müddət yarpağı seyr etdi. Sonra Syunu çağırdı və onun üçün toyuq bulyonu bişirməsini xahiş etdi.

– Mən düz eləmirəm, – Consi dedi. – Öz ölümünü arzulamaq günahdır. Son yarpaq mənə bunu demək istəyir. Mənə bir az bulyon ver. Amma yox, əvvəlcə güzgünü gətir, sonra isə mənə de görüm, indi nə dəbdədir?

Syu sevincindən özünə yer tapa bilmirdi. Həkimin dedikləri həyata keçmişdi, təhlükə sovuşmuşdu. Consi artıq sağalmağa başlamışdı.

Bir neçə gündən sonra Syu Consini qucaqlayıb dedi:



LAYİHƏ

– Sənə bir söz deməliyəm, Consi. Mister Berman xəstəxanada sətəlcəmdən vəfat etdi. Bir gün əvvəl qapıçı bədbəxt qocanı öz otağında döşəmənin üstündə uzanmış vəziyyətdə tapıb. Paltarları yamyaş imiş. Heç kim onun belə dəhşətli bir gecədə hara çıxdığını anlaya bilməyib. Yanında fənər, nərdivan, fırça və palitra varmış... Pəncərəyə bax, sarmaşığın sonuncu yarpağına nəzər sal, əzizim. Güclü küləyin onu yerindən tərpədib qopara bilməməsi səni təəccübləndirmirmi? Bəli, əzizim, Bermanın şah əsəri budur! Onu sonuncu yarpağın düşdüyü həmin gecə yaradıb!

*O.Henri*

**Söz ehtiyatı**

**2.** Lüğətdən istifadə edərək "studiya" və "pnevmoniya" sözlərinin mənasını aydınlaşdırın.

**Düşün və cavab ver**

**3.** Sizcə, Syu Bermanın çəkdiyi yarpağı niyə onun "şah əsəri" hesab edir?

**Dil qaydaları**

**4.** Mətndə göy rənglə verilmiş hansı cümlədə hərəkətin obyekti mübtəda rolundadır, subyekt isə məlum deyil?

**Yadda saxla!** **MƏLUM, MƏCHUL VƏ ŞƏXSSİZ NÖV FEİLLƏR**

Məlum növ feillərdə hərəkəti icra edən qrammatik cəhətdən məlum olur: *Xaliq bağçaya getdi. Qarabağı işğaldan azad edəcəyik.*

Məlum növdən fərqli olaraq məchul növ feillər olan cümlədə subyekt məlum olmur. Məchul növ müxtəlif feillərə -ıl$^4$ və -ın$^4$ (-n) şəkilçiləri artırmaqla düzəlir: *Torpaq şumla-n-dı. Toxum səp-il-di.*

Bu cümlələrdə obyekt mübtəda rolunda çıxış edir.

Bu şəkilçilərlə düzələn bəzi feillərin xəbər vəzifəsində işləndiyi cümlənin mübtədası olmur. Belə feillərə şəxssiz növ feillər deyilir: *Bizdə qonağa hörmət edilir. Orkestrdə bu alətdən istifadə olunmur.*

**5.** Nümunəyə əsasən cədvəl qurun. Feilləri seçib müvafiq sütunlarda yazın.

Gözəl bir yerdə alaçıqlar quruldu. Qoyunlar kəsildi, şadyanalıq edildi. Bayandır xan dedi:

– Oğlu olanı ağ çadırda, qızı olanı qızıl çadırda, övladı olmayanı isə qara çadırda oturdun.



LAYİHƏ

Onun əmri ilə oğlu olan ağ çadıra, qızı olan qızıl çadıra, övladı olmayan isə qara çadıra göndərildi.

**6.** Verilmiş feilləri məlum və məchul növdə cümlələrdə işlədin.

| Məlum növ | Məchul növ |
|---|---|
| | |

*tutmaq, öyrətmək, təmizləmək, açmaq*

**7.** Feilləri məchul və ya şəxssiz növdə işlətməklə mətni dəyişib dəftərinizə yazın.

*Onlar Hüseyn Cavid haqqında maraqlı tədqiqat apardılar. İlk növbədə, ədibin bir çox əsərlərini nəzərdən keçirdilər. Onun Şərq və Qərb mədəniyyətinə münasibətini araşdırdılar. Təqdim olunan tədqiqatda Hüseyn Cavidin yaradıcılığına obyektiv münasibət bildirdilər.*

**8.** Sütunlarda verilmiş sözləri uyğunlaşdırıb cümlələr qurun. Hansı cümlələrdə isim mübtəda vəzifəsində çıxış edə bilmir?

| | |
|---|---|
| 1) tapşırıq | A) cavab verildi |
| 2) söz | B) yerinə yetirildi |
| 3) otaq | C) baxıldı |
| 4) məsələ | Ç) süzüldü |
| 5) çay | D) təmizləndi |
| 6) sual | E) əməl olundu |

***9.** Verilmiş feilləri cümlələrdə işlədin və suallara cavab verin.

*çağırılmaq, baxılmaq, əməl olunmaq, döyülmək, qaçırılmaq, danışılmaq*

– Hansı cümlələrdə hərəkətin obyekti mübtəda rolunda çıxış edir?

– Hansı cümlələrdə hərəkətin obyekti mübtəda rolunda çıxış edə bilmir?

– Hansı feillər cümlədə yalnız III şəxsin təkində işlənir?



LAYİHƏ

# SƏHV DÜŞƏNDƏ YERİMİZ

Duman dağı dolanar,
Qiyamət olar.
Duman yola sallanar,
Müsibət olar.
Müsibət oluruq biz
Səhv düşəndə yerimiz.

Ümman gəmisi çayda
Oturar, üzməz!
Çay gəmisi dağ boyda
Dalğaya dözməz!
Dözümsüz oluruq biz
Səhv düşəndə yerimiz.

Buludlar xəsis...
Yağış tökür Talışa
Hey-hey gərəksiz...
Gərəksiz oluruq biz
Səhv düşəndə yerimiz.

Tarın pərdələrini
Düzənə qurban!
Yerdəyiş et birini,
Xaric vurarsan.
Xaric səslənirik biz
Səhv düşəndə yerimiz.

*Qabil*

**Söz ehtiyatı**

**1.** Kontekstdən çıxış edərək "qiyamət", "pərdə", "oturar", "ümman", "xaric" sözlərinin leksik mənalarını aydınlaşdırın. Hansı sözlər mətndə məcazi mənada işlənmişdir?

**Düşün və cavab ver**

**2.** Şeirdən çıxış edərək Muğan çölü və Talış dağları haqqında nə deyə bilərsiniz?

***3.** "Gülünc, maraqsız oluruq biz, Səhv düşəndə yerimiz" qənaətinə gəlmək üçün situasiya fikirləşib tapın.

**Yazı**

**4.** "Həyatda öz yerini tapan insan xoşbəxtdir" mövzusunda esse yazın.

**Dil qaydaları**

**5.** Şeirdə göy rənglə verilmiş cümlələrdə hərəkətin obyektini və subyektini təyin edin.



LAYİHƏ

**Yadda saxla!** **QAYIDIŞ NÖV**

Qayıdış növ də feillərə *-ıl⁴* və *-ın⁴ (-n)* şəkilçiləri artırmaqla düzəlir. Lakin bu növ feillərdə subyekt hərəkəti öz üzərində icra edir: *Samir köynəyini gey-in-di. Onun ürəyi döy-ün-ür. Duman çək-il-di. Fidan bəzə-n-di.*

Göründüyü kimi, bu növ feillərdə hərəkətin subyekti həm də obyekt olur.

**6.** Uyğun şəkilçilər əlavə etməklə feilləri qayıdış növdə işlədin.

*Səhər aç…dı. Ağaclar yaşıl donunu gey…di. Çiçəklər yuxudan oyanıb bəzə…di. Yarpaqlar səhər şehi ilə yu…du. Gecədən ətrafı bürüyən duman da bu gözəllikdən qorxub çək…di.*

**7.** Cümlələrdə altından xətt çəkilmiş feillərin hansı növə aid olduğunu müəyyən edin.

**A.** Milli Məclisin qəbul etdiyi qanuna əsasən, Novruz rəsmi dövlət bayramı kimi qeyd olunur.
**B.** Burada səhvə yol verilib.
**C.** Yazın gəlişi ilə əlaqədar ilin axır çərşənbə axşamı həyətlərdə tonqal qalanır.
**Ç.** Bu bitki növünə ölkəmizdə nadir hallarda təsadüf edilir.
**D.** Meşələr və çəmənlər yaşıl rəngə boyandı.
**E.** Oyunçuya sonuncu dəfə xəbərdarlıq edildi.
**Ə.** Klassiklərimizin əsərləri bu gün də sevilə-sevilə oxunur.
**F.** Bu döyüşdə o, çiynindən yaralandı.
**G.** Uzaqdan kiçik bir kənd görünürdü.

Məchul növ feillər: A B C Ç D E Ə F G
Qayıdış növ feillər: A B C Ç D E Ə F G
Şəxssiz növ feillər: A B C Ç D E Ə F G

***8.** *Müzakirə.* "Su duruldu" cümləsində *duruldu* feili:

A) qayıdış növdədir.
B) məlum növdədir.

***9.** "Daşınmaq" sözünü cümlələrdə məchul və qayıdış növdə işlədin.



LAYİHƏ

# POLYANNA



Miss Polli Harrinqton çardaqdakı balaca otağı on bir yaşlı bacısı qızı üçün hazırlamağı tapşıranda xidmətçi Nensi çox sevindi:

– Ah, miss Harrinqton, buraya balaca qız gələcək? Nə yaxşı!

– Yaxşı? – deyə miss Polli soyuq bir tərzdə təkrar etdi. – Mən belə deməzdim. Başa düşmürəm, bacım axmaqlıq edib ərə gedibsə və onsuz da həddindən çox adam olan dünyaya daha bir uşaq bəxş edibsə, bunun cəzasını mən niyə çəkməliyəm?! Əlbəttə, onun üçün məndən asılı olan hər şeyi edəcəyəm. Bacım vəfat edəndən sonra bu mənim borcumdur. Mən isə borcumu həmişə yerinə yetirirəm...

Çardaqdakı balaca otağı silib-süpürməkdə olan Nensi pıçıldayırdı: "Borcunu həmişə yerinə yetirir... Beləmi yetirir?! Evdə o qədər boş otaq olduğu halda, zavallı uşağı gör hara salır. Yayda burada istidən nəfəs almaq olmur, qışda isə soyuqdan adamın qanı donur. Sözə bir bax: "onsuz da həddindən çox adam olan dünyaya daha bir uşaq bəxş etmək..." Məncə, dünyada uşaq yox, belə daşqəlbli adamlar həddindən artıq çoxdur!"

**1.** Miss Polli Harrinqton və xidmətçi Nensi haqqında ilk təəssüratlarınızı söyləyin.

***

Miss Polli bacısı qızını qarşılamağa getmədi. Bunu xidmətçisinə tapşırdı. Nensi stansiyada diqqətlə adamlara göz gəzdirirdi. Birdən o, teleqramda təsvir edildiyi kimi, sarışın saçlı, əynində qırmızı damalı çit don, başında həsir şlyapa olan qızla qarşılaşdı. Nensi həyəcanını boğaraq:

– Siz miss Polyannasınız? – demişdi ki, iki balaca qol boynuna sarıldı.

– Oy! Mən necə də xoşbəxtəm! Sizi görməyimə çox şadam! Məni qarşılamağa gəlməyinizə elə sevinirəm ki! Mən yolboyu sizi təsəvvürümdə canlandırmağa çalışırdım, Polli xala!



LAYİHƏ

Qızcığaz xidmətçinin miss Polli olduğunu zənn etmişdi. Yanıldığını biləndə o, əvvəlcə bir qədər tutuldu, sonra isə halını pozmadan şən bir tərzdə dedi:

– Bilirsiniz, mən hətta sevinirəm ki, Polli xala məni qarşılamağa gəlməyib. Axı onda mən artıq onun necə olduğunu bilərdim, indi isə mən hələ onu tanımıram. Üstəlik, indi mənim sizin kimi dostum var.

Yolboyu Polyanna elə hey danışırdı:

– Polli xala mənim yeganə xalamdır. Mən heç onu görməmişəm. Atam mənə onun haqqında danışıb. O deyirdi ki, Polli xala təpənin başında ucalan gözəl evdə yaşayır. Onun evində hər otaqda xalça var. Divarlarda da gözəl şəkillər asılıb. Bizim evimizdə nə xalça, nə də şəkil var idi. Mən həmişə arzu etmişəm ki, otağımda xalça və şəkillər olsun...

**2.** **Doğrudanmı, Polyanna xalasının onu qarşılamağa gəlmədiyinə şad idi? Bu epizoddan çıxış edərək Polyannanın xarakteri haqqında fikir yürüdün.**

***

Polyanna otağa daxil olanda miss Polli ayağa qalxıb bacısı qızı ilə görüşmədi. Amma, insafən, demək lazımdır ki, gözlərini kitabdan ayırdı və hətta hər barmağı "çox inkişaf etmiş borc hissinin" *mücəssəməsi* kimi görünən əlini Polyannaya uzatdı:

– Salam, Polyanna. Mən...

Miss Polli bundan başqa bir söz deməyə macal tapmadı, çünki Polyanna otağın bu başından o başına güllə kimi keçərək xalasının dizləri üstünə atıldı.

– Ah, Polli xala! Mən burada, sizinlə yaşayacağıma elə sevinirəm ki! Axı atamın ölümündən sonra mənim heç kimim qalmayıb, indi isə siz və Nensi varsınız...

– Kifayətdir, Polyanna, – deyə miss Polli qızın sözünü kəsdi. – Özünü təmkinli apar. Gedək, sənə otağını göstərim.

Yolboyu divarlardan asılmış şəkillərə, gözəl mebellərə, yumşaq xalılara heyranlıqla baxan Polyanna öz otağını xəyalında canlandırmağa çalışırdı. Lakin ikinci mərtəbədən sonra mənzərə dəyişdi. Burada artıq maraqlı heç nə yox idi. Üstəlik, çardağın havası da çox ağır idi.

Polli xala soyuq tərzdə dedi:

– Bu da sənin otağın. İndi Nensini göndərərəm, əşyalarını yerləşdirməyə kömək edər.

Xalası gedəndən sonra diqqətlə otağının çılpaq divarlarına, döşəməsinə baxan Polyanna dizi üstə yerə çöküb əlləri ilə üzünü örtdü.



LAYİHƏ

**3.** Müəllifin miss Polliyə münasibətini əks etdirən məqamları göstərin.

***

Polyannanın otağına daxil olan Nensi qızcığazı kədərli görüb dedi:

– Ah, mənim zavallı quzum, qəm yemə. Gəl sənin paltarlarını yerbə-yer edək.

Polyanna astadan:

– Mənim əşyalarım çox azdır, – dedi.

– Onda biz işimizi də tezliklə qurtararıq.

Qızın üzünü birdən təbəssüm bürüdü:

– Doğrudan da, yır-yığışa çox vaxt sərf etməli olmayacağıq. Deməli, mən belə az əşyam olduğu üçün sevinə bilərəm.

Bu sözləri eşidən Nensi yerində donub-qaldı. Polyanna isə artıq tamamilə sakitləşmişdi.

– İndi mən görürəm, bu çox gözəl otaqdır. Güzgünün olmaması məni hətta sevindirir. Hər an üzümdəki çillərə baxıb qanımı qaraltmayacağam. Pəncərədən də gör necə mənzərə açılır! Heç bir şəklə də ehtiyac yoxdur. Xalamın mənə bu otağı verməsinə çox sevinirəm!

**4.** Nensi ilə Polyannanın bu dialoqundan sonra balaca qızın xarakteri haqqında fikirlərinizə nə əlavə olundu?

Bu sözlərdən sonra Nensi daha özünü saxlaya bilməyib hönkürdü. Polyannanı qucaqlayıb başını sinəsinə sıxdı:

– Polyanna... Sən göylərdən enmiş bir mələksən... Sən hər şeyə sevinə bilirsən...

– Oyunun qaydası belədir.

– Oyunun?

– Hə də. Bu belə oyundur, həmişə sevinmək oyunu. Bu oyunu mən balaca olanda atam öyrətmişdi. Bir bayram axşamı şəhərimizdəki xeyriyyə cəmiyyəti ailələrə hədiyyələr göndərmişdi. Çox istəyirdim ki, mənim payıma gəlincik düşsün. Amma bizə dava-dərmanla dolu qutu göndərmişdilər. Mən ağlayanda atam mənə dedi ki, əslində, sevinməliyəm. Hə, hə, sevinməliyəm ki, bu dava-dərman mənə lazım deyil. Və bundan sonra mənə həmişə sevinmək oyununu öyrətdi. Oyunun qaydası belədir ki, ən kədərli anlarda da sevinməli bir məqam tapasan. Atam... – Polyannanın səsi



LAYİHƏ

titrədi. – Atam bu oyunu çox xoşlayırdı. İndi atam yoxdur, tək oynamaq isə elə də asan deyil. Bəlkə, Polli xala mənimlə oynamağa razı olar?

– Bilirsən nə var, yaxşısı budur, mənimlə oynayasan. Yaxşı oynayacağıma əmin deyiləm, amma mən çalışaram, mütləq çalışaram.

**5.** Nensi nə üçün Polyannaya "Həmişə sevinmək oyunu"nu xalası ilə deyil, onunla oynamasını təklif etdi?

– Ah, Nensi! – deyə Polyanna Nensini qucaqladı. – Mən əminəm, sizdə çox yaxşı alınacaq!

Bir qədər sonra çardaqdakı balaca otaqda tənha qalmış qızcığaz üzünü balışa sıxaraq acı göz yaşları tökürdü:

– Ah, atacan, mən indi bizim oyunumuzu oynaya bilmirəm. Mənə elə gəlir ki, qaranlıq, qorxulu otaqda yatanda nəyə sevinmək mümkün olduğunu heç sən də bilməzdin. Ah, əgər mən, heç olmasa, bir azca Nensiyə, ya da Polli xalaya yaxın olsaydım! Onda mən, bəlkə də, sevinərdim...

Nensi həmin vaxt mətbəxtdə qabları yuyur, öz-özünə danışırdı:

– Hm... hər şeyə sevinmək... Əgər mən bu qəribə oyunu oynamalı olsam, onu öz bildiyim kimi oynayacağam. Mən çalışacağam ki, zavallı qızcığaza dayaq olum. Mən buna çalışacağam, çox çalışacağam...

*Eleanor Porterin eyniadlı əsəri əsasında işlənmişdir.*

### Düşün və cavab ver

**6.** Hekayədəki hansı məqamlar Polyannanın kasıb ailədə böyüdüyündən xəbər verir?

**7.** Sizcə, Polyannanın sonrakı taleyi necə olacaq?

**8.** **Qruplarla iş.** Hər qrup müəyyən xoşagəlməz situasiyalar fikirləşir, digər qruplar bu situasiyalarda sevinməli məqamları tapmağa çalışır.

### Yazı

**9.** Sxemə əsasən, Polyannanın xalasıgilə gəlişi ilə bağlı göndərilmiş teleqramın mətnini tərtib edin.

TELEQRAM

Hara ____________________

Kimə ____________________

Məzmun ____________________

Haradan ____________________

Kimdən ____________________

LAYİHƏ

### Dil qaydaları

**10.** Mətndə göy rənglə verilmiş sözlərin tərkibini müəyyən edin. Hansı feillər hərəkətin icrasında iki subyektin iştirakını tələb edir?

**Yadda saxla!** **QARŞILIQ-BİRGƏLİK NÖV**

Qarşılıq-birgəlik növ, feillərə *-ış⁴ (-ş)* şəkilçisi artırmaqla düzəlir. Bu növ feillərdə hərəkət iki və ya daha çox subyekt tərəfindən qarşılıqlı şəkildə və ya birgə icra edilir:

*Uşaqlar gülüşdülər. (birgə hərəkət)*
*Dostlar çoxdan yazışırlar. (qarşılıqlı hərəkət)*

**11.** Hərəkətin qarşılıqlı və ya birgə icra edildiyinə görə feilləri qruplaşdırın.

1. Həyətdə uşaqlar qaçışırdılar.
2. Ağcaqanadlar başımızın üstündə vızıldaşırdılar.
3. Onlar dost kimi görüşdülər.
4. Tərəflər səhərə kimi atışdılar.
5. Meydandakılar evlərinə dağılışdılar.
6. Qoşunlar səhərə kimi döyüşdülər.

**12.** *Yaz, de, anla, gül* feillərinə ***-ış⁴ (-ş)*** şəkilçilərini artırmaqla cümlədə işlədib yazın. Hərəkətin qarşılıqlı, yoxsa birgə şəkildə icra olunduğunu göstərin.

**13.** Verilmiş sözləri həm isim, həm də feil kimi cümlədə işlədib yazın.

*görüş, qaçış, döyüş, gülüş*

***14. Debat.**

**I qrup:** *gəzişmək, qızışmaq* qarşılıq-birgəlik növ feillərdir.
**II qrup:** *gəzişmək, qızışmaq* məlum növ feillərdir.

**15.** Dördündən biri qrammatik məna növü baxımından fərqlidir:

**A)** atış(maq) **B)** civildəş(mək) **C)** soruş(maq) **D)** ağlaş(maq)
**A)** barış(maq) **B)** yazış(maq) **C)** yapış(maq) **D)** alış(maq)
**A)** mələş(mək) **B)** quruldaş(maq) **C)** güləş(mək) **D)** salamlaş(maq)
**A)** qarış(maq) **B)** axış(maq) **C)** döyüş(mək) **D)** atış(maq)

LAYİHƏ

# QAYIQDA DÖRD NƏFƏR



Göyərtəni işıqlandıran zəif lampanın kədərli işığında dörd nəfər idilər: sarısaçlı qadın, çiy ət qoxuyan qəssab, daz professor, bir də tənbəki çəkən gənc. Dördü də sonuncu gəmiyə gecikmiş, qayığa minmişdi.

Gecə ulduzsuz, dəniz azacıq dalğalı idi. Qayığa çırpılan kiçik dalğalar arabir göyərtəni isladırdı.

Sarışın qadın skamyada əyləşib dənizə baxırdı. Gənc oğlan gözaltı onu süzürdü. Professorun fikri tramvayda oxuduğu məqalədə qalmışdı. Qəssab isə bu gün alverdən əldə etdiyi gəliri hesablayırdı.

Qadın, deyəsən, üşümüşdü. O qalxıb kayuta doğru getdi. Amma içəri girəndə başı fırlandı. İçəridən benzin və qızmış dəmir qoxusu gəlirdi. Qadın dərhal pəncərəni açıb qarşısında oturdu.

Uzaqda iki zenit projektoru sanki göy üzündə nə isə axtarırdı. Projektorlardan birinin işığı qaranlıq səmada sağdan sola, o birininki soldan sağa sürətlə hərəkət edir, bəzən ortada birləşirdi. Bu zaman gecənin zülmətini yaran gur işıq zövq oxşayırdı.

Sarışın qadın bu mənzərəyə baxarkən bir az aralıda işıldaböcək kimi bir şey uçdu. Sonra onların sayı çoxalmağa başladı. Qadın bir-birini qovan bu əcaib böcəklərin qapqara dənizə enmələrinə dalğın şəkildə tamaşa etdi.

Birdən qızmış dəmir qoxusu daha da kəskinləşdi. Qadın nə baş verdiyini bilmək üçün ətrafa göz gəzdirdi. Kapitan kayutunun qapısından bayıra tüstü sızırdı. Qadın çaşmış halda qapının dəstəyindən yapışıb açdı və bu zaman tüstünün içində kapitanla köməkçisini yerə çömbəlmiş halda, qan-tər içində gördü. Az qaldı özündən getsin. Sonra: "Yanırıq!.. Kömək edin!" – deyib özünü kənara atdı.

1. Oxuduğunuz hissədə təhkiyə və təsvir verilmiş abzasları fərqləndirin.

Qadının fəryadı bir andaca göyərtədəkiləri bir-birinə vurdu. Kapitan kayutunun açıq qapısından sızan acı tüstü vahiməli şəkildə burularaq göyərtəni ağuşuna alırdı. Qəssab çaşmış halda bayaqdan üstündə oturduğu



LAYİHƏ

döşəkçəni qucaqlamış, professor isə qayıqdakı yeganə xilasedici həlqəni boynuna keçirmişdi.

Sarışın qadın həyəcandan tənbəkisini əlindən salan gənc oğlana doğru qaçdı:

– Xilas edin məni... Məni xilas edin, üzməyi bacarmıram! – deyə yalvardı.

Gənc titrək bir səslə: "Mən də bacarmıram", – dedi. Amma yalan danışırdı. Az da olsa, üzməyi bacarırdı. Hər halda, yarım saat suyun üzündə qala bilirdi... Amma tək özü...

Qadın ondan ümidini kəsib qəssabdan kömək istədi. Qəssab isə əllərini qaldırıb: "Bu təhlükəli vəziyyətdən qurtulsam, üç qurban kəsdirəcəyəm", – deyə Allahdan kömək istəyirdi.

Professorun vəziyyəti lap xarab idi. Hələ səhər dərsdə Sokratın həyata önəm vermədiyini bildirir, əsl filosof üçün bunun heç də çətin olmadığını, özünün də Sokrat kimi ölümü təbəssümlə qarşılaya biləcəyini söyləyirdi. Təəccüblüsü də budur ki, bütün bunlara tələbələri kimi özünü də inandırmışdı.

Qadın indi də qaba su dolduran köməkçini qucaqlayaraq yalvarırdı: "Siz Allah, məni buraxmayın, nə olursa olsun, tək qoymayın". Köməkçi onu sakitləşdirməyə çalışdı. Elə bu zaman kapitanın səsi eşidildi:

– Tərpənməyin, nə edirsiniz?! Qayığı batıracaqsınız!

Hiddətli olmasına baxmayaraq, səsində insana inam verən bir şey vardı. Yoxsa... Yoxsa yanğını söndürmüşdü? Bəli, əlbəttə, söndürmüşdü. Söndürməsəydi, qışqırmağa vaxt tapardı?

– Necə mərdimazarlara rast gəldik e!

Nə qədər təhqiramiz səslənsə də, indi kapitanın sözləri sərnişinlər üçün xoş avaz kimi səsləndi.

**2. Sizcə, bundan sonra hekayə qəhrəmanları özlərini necə aparacaqlar?**

Professor yaxasını düzəldib bir-iki dəfə öskürdü. O da istədi: "Bu nə çaşqınlıqdır? Bir sakitləşin, bəylər", – deyə hamını təmkinli olmağa çağırsın. Ancaq yaxşı ki, demədi. Çünki xilasedici həlqə hələ də boynunda idi.

Bir az sonra hər şey öz qaydasına düşmüşdü. Külək boğucu tüstü ilə bərabər, ölüm qorxusunu da göyərtənin üstündən sovurub aparmışdı. Köməkçi qolu ilə tərini silirdi. Bu həngamədə çox yorulmuşdu.

Göyərtəni işıqlandıran lampanın kədərli işığında yenə dörd nəfər idilər. Yenə öz dünyasına qapanmış dörd adam.

Qadın sakitləşmiş kimi görünürdü. Gənc yenə tənbəkisini çəkirdi. Amma artıq qadına tərəf baxmırdı.



LAYİHƏ

Professor evdə onu gözləyən arvadını, indi həmişəkindən çox sevdiyi çəhrayı yanaqlı uşaqlarını düşünürdü.

Qəssab isə bir az əvvəl dediyi üç qurbanı ikiyə endirmək üçün vicdanını yola gətirirdi. Hətta sahilin işıqları görünəndə iki qurban birə endi. Həm də onu artıq Qurban bayramında kəsəcəkdi.

Qayıqdan ilk tullanan professor oldu. Onun dalınca qayığı gənc tərk elədi. Qəssab qaça-qaça, hoppana-hoppana bir andaca yoxa çıxdı.

Sarışın qadın ən axıra qalmışdı. Yellənən qayıqdan sahilə düşməyə heç cür cəsarət etmirdi. Köməkçi əlini ona uzatmaq istədi. Amma qadın bu tər qoxulu kobud adamın əlini tutmamaq üçün sıçrayışla sahilə atıldı, qürurlu və dəbdəbəli yerişlə buradan uzaqlaşdı.

*Haldun Tanerin eyniadlı hekayəsi əsasında işlənmişdir.*

### Düşün və cavab ver

**3.** Əsərdə yanğın zamanı və ondan sonra obrazların xarakterini açan incə məqamları qeyd edin.

**4.** "Bağda ərik var idi, salaməleyk var idi, bağdan ərik qurtardı, salaməleyk qurtardı" atalar sözü hekayənin hansı qəhrəmanının davranışına uyğundur?

**5.** Mətni bitkin hissələrə bölün. Əsərə mühakimə xarakterli sonluq yazın. Yazınızda "ekstremal vəziyyət", "psixoloji məqam", "eqoizm", "altruizm", "centlmen" kimi söz və ifadələrdən yerli-yerində istifadə etməyə çalışın.

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş hansı cümlədə bir subyekt başqa birini hərəkəti icra etməyə yönəldir?

**Yadda saxla!** **İCBAR NÖV**

İcbar növ feillərdə hərəkətin obyekti ilə yanaşı, ən azı, iki subyekti olur: 1) hərəkətə yönəldən, 2) hərəkəti bilavasitə icra edən; məsələn: *Qoca (I subyekt) nəvəsindən gələn məktubu (obyekt) qızına (II subyekt) oxutdu.*

Bu növ feillər *-dır*[4], *-t* şəkilçiləri vasitəsilə düzəlir.



LAYİHƏ

**7.** Aşağıdakı cümlələrdə icbar növ feilləri seçib dəftərinizə köçürün.

*Gülpəri Cəfəri göndərib iki fayton tutdurdu, faytonun birinə nökəri və şeyləri qoyub o birinə də özü Nurəddinlə oturdu. Erkən gedib mənzilə çatmaq üçün faytonları qovdurdu. (S.S.Axundov)*

8. Verilmiş cümlələrdə hərəkətin obyektini və I, II subyektini müəyyən edin.

Nümunə: *Xudayar bəy (I subyekt), məktubu (obyekt), mollaya (II subyekt) yazdırdı.*

1. Dünən Tahir əmi bağda ustalara quyu qazdırdı.
2. **Babam aşığa “Yanıq Kərəmi” havasını çaldırdı.**
3. Fermerlər torpağı fəhlələrə şumlatdılar.
4. “Azərbaycan” şeirini müəllim bizə dünən oxutdurdu.

9. Hansı cümlələrdə feil icbar növdə olsa da, hərəkəti bilavasitə icra edən (II subyekt) məlum deyil?

1. **Yaxşı at özünə qamçı vurdurmaz.**
2. Ana məktubu qızına yenidən oxutdurdu.
3. Müəllim bu gün inşa yazdırdı.
4. Kral məşhur rəssama öz portretini çəkdirdi.

**10.** Hər sırada verilmiş iki cümləni icbar növ feilli bir cümlə ilə əvəz edin.

1. Ata yorulmuşdu. Odunları uşaqlar daşıdılar.
2. Nənə eynəyini itirmişdi. Məktubu nəvəsi oxudu.
3. Səlim xəmir xörəklərini çox sevir. Bacısı onun üçün xəngəl bişirdi.

***11.** Aşağıdakı cümlələrdə xəbər vəzifəsində işlənən feillərin hansı qrammatik məna növünə aid olduğunu müəyyənləşdirin.

- Bu gün uşaqlar bayram tonqalı yandırdılar.
- Oğlan iti parkda gəzdirirdi.
- Fəhlələr işi dayandırdılar.
- Yeni gələn mühəndis köhnə binaları sökdürdü.
- Sərvər Gülnazı inandırdı.
- Bakıdakı ən gözəl binaları H.Z.Tağıyev tikdirmişdir.

***12. Debat.** *“Oğul mənimdir əgər, oxutmuram, əl çəkin”* (M.Ə.Sabir) misrasında altından xətt çəkilmiş feilin məlum, yoxsa icbar növə aid olduğunu müəyyənləşdirin. Fikrinizi əsaslandırın.



LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1.** Bu bölmədə tanış olduğunuz yeni sözləri onların izahı ilə uyğunlaşdırın.

| | |
|---|---|
| 1) xaniman | A) bəzi simli musiqi alətlərinin qolundakı bölmələrdən hər biri. |
| 2) ümman | B) ev-eşik, ata yurdu, ocaq, məskən |
| 3) xaric | C) böyük dəniz, dərya, okean |
| 4) pərdə | Ç) məhşər günü |
| 5) qiyamət | D) musiqidə mövcud ölçü və ahəngdən kənara çıxma, yanlış ifa |

**2.** Bölmədəki mətnlərə əsasən cümləni tamamlayın.

... mətnindəki ... obrazını bəyəndim, ona görə ki ...

**3.** Cümlələrdəki feillərin qrammatik məna növlərini müəyyənləşdirin.

1. Uzun fasilədən sonra döyüş yenə başladı.
2. Xəbər bir anda kəndə yayıldı.
3. Musiqinin xoş sədası otağa yayıldı.
4. Kəndə yeni yol çəkdirdilər.
5. Bizim yerlərdə bu ağaca rast gəlinmir.
6. Onlar köhnə dostlar kimi görüşdülər.

**4.** Fərqləndirilmiş sözlərdə omonim şəkilçilərin funksiyasını təyin edin.

1. Döyüşçülər xeyli *vuruşdular*.
   *Vuruş* xeyli davam etdi.
2. İki tərəf arasında baş tutan *görüş* televiziya kanallarında nümayiş etdirildi.
   İdmançılarımız ikinci yarımfinaldan sonra *görüşdülər*.

**5.** Cədvəldə verilmiş sütunları düzgün şəkildə qruplaşdırın.

| | | | |
|---|---|---|---|
| Məlum növ | İş görən məlum deyil | *-ıl⁴,-ın⁴ (-n)* | Görün(mək) |
| Qayıdış növ | İş görən bilavasitə məlumdur | *-ış⁴ (-ş)* | Kədərlən(mək Qaldır(maq) |
| Məchul növ | İş iş görənin üzərində icra olunur | *-ıl⁴,-ın⁴ (-n)* | Nəzər salın(maq) Baxıl(maq) |
| Qarşılıq-birgəlik növ | İş başqasına gördürülür | *-dır⁴, -t* | Toplaş(maq) Parıldaş(maq) |
| İcbar növ | İş müştərək və ya qarşılıqlı görülür. | *-ıl⁴,-ın⁴ (-n)* | Tanıtdır(maq) Düzəltdir(mək) |
| Şəxssiz növ | Cümlənin mübtədası olmur. | --- | Tapıl(maq) Anlaşıl(maq) |



LAYİHƏ



# II BÖLMƏ

# HƏR SÖZÜN BİR TALEYİ VAR



LAYİHƏ

# MOLLA NƏSRƏDDİN DEMİŞKƏN...



Səkkiz əsrə yaxındır ki, onun adı gələndə Anadoludan Çinə qədər böyük bir ərazidə yaşayan türklər istər-istəməz gülürlər. Çünki bu adı eşidəndə yadımıza hansısa bir lətifə düşür.

Söhbət uzun əsrlər boyu insanlara gülüş bəxş edən Nəsrəddindən gedir. Bu ad hər bir türk üçün doğmadır. Anadoluda ona Nəsrəddin Xoca, Azərbaycanda Molla Nəsrəddin, Orta Asiyada Xoca Nəsrəddin deyirlər.

Molla Nəsrəddinin harada, nə vaxt yaşadığı barədə dəqiq məlumat yoxdur. Bəzi folklorşünaslar Molla Nəsrəddinin *prototipinin* XIII əsrdə yaşamış məşhur Azərbaycan alimi Nəsirəddin Tusi olduğunu iddia edirlər. Doğrudan da, Tusinin məşhur "Əxlaqi-Nasiri" əsərində lətifələr də var. Bu isə onun yumora meyilli olduğundan xəbər verir. Bundan başqa, Molla Nəsrəddin lətifələrinin birində onun digər adının Həsən olduğuna işarə var. Məlumdur ki, Nəsirəddin Tusinin də əsl adı Məhəmməd ibn Həsən olmuşdur.

Lakin digər türkdilli xalqlar da lətifə qəhrəmanının onlara məxsus olduğunu sübut etmək üçün müxtəlif arqumentlər gətirirlər. Molla Nəsrəddin lətifələrində Teymurləng adının tez-tez çəkildiyini əsas tutaraq bəzi tədqiqatçılar onun özbək olması ehtimalını irəli sürürlər.

**1.** Molla Nəsrəddinin milli mənsubiyyəti ilə bağlı 1-ci və 2-ci ehtimalları müqayisə edin. Fikirlərə öz münasibətinizi bildirin.

Xalq arasında geniş yayılmış "O vaxta ya şah (xan) ölər, ya eşşək" məsəli də Teymurləngin adı ilə əlaqələndirilir.

*Belə deyirlər ki, bir gün Teymurləngə bir eşşək bağışlayırlar. Teymur üzünü Mollaya tutub deyir ki, Molla, sənin eşşəkdən yaxşı başın çıxır, bu eşşəyə bir qiymət ver. Molla isə cavabında deyir:*

*– Qibleyi-aləm sağ olsun, bu çox zəkalı heyvandır. Əgər bunu mənə versəniz, mən ona beş ilə danışmaq öyrədərəm.*



LAYİHƏ

*Teymurləng Mollaya xeyli qızıl verib yola salır ki, eşşəyə danışmaq öyrətsin. Evə gələndə arvadı ondan nə baş verdiyini soruşur. Molla başına gələnləri deyəndə arvadı bərk narahat olub soruşur ki, ay kişi, birdən eşşək danışa bilmədi, onda nə edərik? Molla deyir:*

*– Arvad, mən elə bilirdim ki, təkcə Teymur ağılsızdır, demə, sən də onun tayı imişsən. Əlbəttə, eşşək danışmaz. Allah kərimdir. Beş ilə ya eşşək ölə, ya Teymur. Elə ikisi də dünyanı tutub durmayacaq ki?*

Nəzərə almaq lazımdır ki, bu və digər Molla Nəsrəddin lətifələrində Teymur əzazil hökmdar kimi satira hədəfinə çevrilir. Məlumdur ki, Əmir Teymur Zaqafqaziya və Şərq ölkələrinin bir çoxunu işğal etmişdi. İşğalçı hökmdarlar isə həmişə işğala məruz qalan xalqların folklorunda mənfi obraz kimi qələmə verilir. Molla Nəsrəddin milliyyətcə özbək olsa idi, çətin ki, Teymurləng obrazı bu dərəcədə gülüş obyektinə çevrilərdi. "Beş ilə ya eşşək ölə, ya Teymur" lətifəsində eyni zamanda xalqın Teymur hakimiyyətinin müvəqqətiliyinə inamı özünü göstərir. Beləliklə, güman etmək olar ki, Molla Nəsrəddin Teymur işğalı dövründə Azərbaycanda yaşamış zarafatcıl və hazırcavab bir şəxs olmuşdur.

Molla Nəsrəddinin hazırcavablığı, onun dilinin şirinliyi dilimizdə bir çox məsəllərin yaranmasına səbəb olub. Bir çox lətifələrdə Mollanın nitqində çox maraqlı söz oyununa rast gəlirik:

*Bir gün Molla eşidir ki, şəhərin hakimi azarlayıb. Ağacdan bir neçə alma dərib hakimi yoluxmağa gedir. Hakim deyir:*

*– Molla, birdən-birə dişim də başladı ağrımağa, qulağım da... Daha mənə bir əzab verdilər ki, gəl görəsən. Bu gün bir yaxşı dəllək tapıb dişimi çəkdirdim. İndi onun ağrısı qurtarıb. Amma bu zəhrimar qulağım elə ağrıyır ki, ağrıyır. Bir həkim də tapılaydı ki...*

*Molla tez onun sözünü kəsib deyir:*

*– Hə... hə... Bircə halal süd əmmiş adam tapılıb sənin o qulağını da çəksəydi... Sən də rahatlanardın, camaat da.*

**2.** Bu lətifədə Mollanın nitqindəki söz oyununu izah edin.

Milli mənsubiyyətindən asılı olmayaraq, Molla Nəsrəddin bütün türk xalqlarına mənsub olan bir obrazdır. Onun lətifələri türkdilli xalqlar tərəfindən sevildiyi kimi, bu lətifələrdən doğan məsəllər də həmin xalqların dilinə daxil olub və bu dilləri birləşdirən amillərdən birinə çevrilib.

*Sahibə Tərtərli*

LAYİHƏ

### Söz ehtiyatı

**3.** Kontekstə görə “prototip” sözünün mənasını müəyyənləşdirin.

### Düşün və cavab ver

**4.** “Sən çaldın” lətifəsini tapıb oxuyun. Bu ifadədəki söz oyununu izah edin.

***5.** Aşağıdakı məsəllərlə bağlı olan lətifələri tapıb oxuyun və həmin məsəllərin işlənmə məqamını müəyyənləşdirin.

1. Deyəsən, işin düzəlib, gülürsən.
2. Əli aşından da oldu, Vəli aşından da.
3. Hamıya qulaq assan, gərək eşşəyi dalına alasan.

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş feildəki zaman şəkilçisini müəyyən etməyə çalışın. Sizcə, feil eyni zamanda iki zaman şəkilçisi qəbul edə bilərmi?

**Yadda saxla!** ***İDİ, İMİŞ*** **KÖMƏKÇİ SÖZLƏRİ**

*İdi, imiş* köməkçi sözləri müxtəlif nitq hissələrinə artırılaraq hərəkətin, hökmün keçmişdə baş verdiyini bildirir:

*Arzu məktəbli idi. Arzu məktəbli imiş.*

*Ramin yazmalı idi. Ramin yazmalı imiş.*

*İdi, imiş* köməkçi sözləri feilə artırıldıqda bütöv şəkildə (*idi, imiş*) və ya ixtisar formasında (*-dı$^4$, -mış$^4$*) işlənir.

*İdi* köməkçi sözü həmişə şəxs şəkilçisindən əvvəl işlənir: *gəlməli idi-m, oxumuş-du-nuz. İmiş* köməkçi sözü isə şəxs şəkilçisindən əvvəl də, sonra da əlavə edilə bilər: *gəlməli imiş-əm – gəlməli-yəm-miş, oxuyur-muş-sunuz – oxuyur-sunuz-muş.*

**7.** *Oxu(maq)* feilinin müxtəlif şəkillərinə *idi, imiş* köməkçi sözləri artırmaqla cümlələr qurun.

**8.** Verilmiş mətndə *idi, imiş* köməkçi sözü ilə işlənmiş sözləri seçin.

## OVÇU PİRİM

Keçmiş əyyamlarda bir Ovçu Pirim var imiş. Həmişə sal qayalarda gəzib ov edərmiş. Özü də bütün heyvanların dilini bilərmiş. Ona görə də heyvanlar ondan qorxub çəkinmirdilər.

Ovçu Pirim İlisu dağlarında məskən salıbmış. Hündür bir qayanın

LAYİHƏ

başında özünə sığınacaq qurubmuş. Çıxanda da qayanın üzü ilə düz yuxarı çıxarmış. Deyirlər ki, indi də oralarda silahının izi qalıb.

Orada dağ döşündə bir yer var. Adına Hamam deyirlər. Oraya su yerdən çıxır, özü də istidir. Deyirlər, həmin suyu tapan da, hamamı tikən də Ovçu Pirim imiş. Günlərin bir günündə Ovçu Pirim ova çıxıbmış. Gəzə-gəzə gəlib yetişibmiş bu dərəyə. Qayanın döşündə bir maral görüb güllə ilə vurubmuş. Yaralı maral qaçıb, Ovçu Pirim də onun dalınca düşüb. Bu qovhaqovla gəlib bu yerə çatıblarmış. Burada yerdən su çıxırmış. Maral yaralı yerini suya vurub təzədən qaçmağa başlayıbmış. Amma bu heç bayaqkı yaralı maralın qaçışı deyilmiş. Ovçu Pirim başa düşübmüş ki, bu su şəfa suyudur. Yaralı yerə dəyən kimi sağaldır. Maral da bu sirri bildiyindən qaçıb özünü həmin suya çatdırmağa tələsirmiş.

Ovçu Pirim burada hamam tikib adamlara xəbər verir.

• "Çatıblarmış" feilinin şəkilçiləri ilə bağlı deyilənlərdən hansı doğrudur?

**-ıb⁴:** A) Keçmiş zaman şəkilçisidir.
B) Feil düzəldən şəkilçidir.

**-lar²:** A) Cəm şəkilçisidir.
B) Şəxs şəkilçisidir.

**-mış⁴:** A) *İmiş* köməkçi sözünün ixtisar formasıdır.
B) Nəqli keçmiş zaman şəkilçisidir.

**9.** Kontekstə uyğun olaraq feillərin qrammatik formasını bərpa etməklə mətni köçürün.

**BÜLBÜL VƏ QARATİKAN KOLU**
**(rəvayət)**

Rəvayətə görə, bir xan qəfəsdə bülbül saxla... . Qəfəsin yan-yörəsində hər cür gül əkdir... . Ancaq bülbül hətta bahar fəslində belə səsini çıxarıb oxumaz... .

Bir gün xan bülbülü qəfəsdən burax... . Görür ki, quş bir qaratikan kolunun üstündəki yuvaya qon... və cəh-cəh vurub oxumağa başla... . Xan öz-özünə fikirləş... : " Mən onu gül-çiçəyə qərq elə... . Sən demə, bütün bunlar qaratikan kolunun yanında heç nə imiş".



LAYİHƏ

# ONLAR KİMDİR

Dilimizə başqa dillərdən keçmiş bir çox ifadələrdə müxtəlif şəxs adlarına rast gəlirik: Axillesin dabanı, Damokl qılıncı, Pirr qələbəsi, Sem dayı, Sizif əməyi və sairə. Bu şəxslər kimlərdir? Həmin ifadələrin mənasını bilmək üçün bu sualı araşdırmaq lazım gəlir. Yalnız bu halda onları nitqdə yerli-yerində işlətmək olar. Bu ifadələr nitqi daha emosional, təsirli, obrazlı edir.

Təsəvvür edin ki, çox çətin və həllolunmaz bir işlə məşğulsunuz. Hətta bu işin öhdəsindən gəlsəniz belə, onun nə özünüz, nə də ətrafdakılar üçün heç bir faydası olmayacaq. Nəhayət, bir adam yaxınlaşıb sizə deyir:

– Burax bu işin başını. Bu ki lap Sizif əməyidir.

Əlbəttə, siz həmin adamın nə demək istədiyini təxmin edə bilərsiniz. Lakin “Sizif əməyi” ifadəsinin mənşəyini bilsəniz, onun sözlərini daha dəqiq başa düşər və düzgün nəticə çıxararsınız.

Bu ifadə yunan mifologiyası ilə bağlıdır. Öz hiyləgərliyi ilə məşhur olan Sizif baş ilah Zevsin qəzəbinə düçar olur. Zevs onu cəzalandırmaq qərarına gəlir. Sizif onun əmri ilə ağır bir daşı diyirlədə-diyirlədə yüksək bir dağın başına qaldırmalı olur. Lakin dağın başına çatan kimi daş aşağı diyirlənir və bu iş əbədi təkrarlanır.

Beləliklə, biri ağır və mənasız bir işlə məşğul olanda bunu “Sizif əməyi” adlandırırlar.

***

Dünya tarixinin yaddaşında ən böyük sərkərdə kimi qalmış Makedoniyalı İsgəndərin adı ilə bir çox məsəllər, deyimlər, ifadələr bağlıdır. Onlardan biri də “İsgəndərin buynuzu var” məsəlidir. Şərqdə geniş yayılmış bir rəvayətə görə, İsgəndərin buynuzu varmış, buna görə də o, daim ucu şiş dəbilqədə gəzirmiş. Onun buynuzundan yalnız saray bərbərinin xəbəri varmış. Sirr bərbərin *içini yeyir*, amma o, hökmdarın qorxusundan bunu heç kimə aça bilmirmiş. Nəhayət, bərbər dözmür, bir su quyusunun başına gəlib quyuya tərəf əyilərək: “İsgəndərin buynuzu var”, – deyə pıçıldayır. Bir müddət keçir, quyuda qamış bitir. Bir çoban qamışdan tütək düzəldir. Çoban hər dəfə bu tütəkdə çalanda ətrafa “İsgəndərin buynuzu var” sədası yayılır. Bu səbəbdən birinin cidd-cəhdlə gizlətdiyi sirrə eyhamla həmin ifadəni işlədirlər.

İsgəndər şəxsiyyəti ilə bağlı elə ifadələr də var ki, orada bu hökmdarın adı çəkilmir; məsələn, “Qordi düyünü” kimi.

Deyilənə görə, Kiçik Asiya şəhərlərindən birinin hökmdarı yerinə varis qoymadan vəfat edir. *Orakul* deyir ki, şəhərə arabada daxil olan ilk şəxs



LAYİHƏ



hökmdar olacaq. Elə bu vaxt Qordi adlı bir kəndli öz arabasında şəhər darvazalarından içəri girir və camaat onu hökmdar taxtına otuzdurur. Taleyinə təşəkkür əlaməti olaraq Qordi arabasını möhkəm düyünlə Zevsin məbədindəki hündür bir sütuna bağlayır. Kəndirin uclarını düyünün içində elə gizlədir ki, heç kim bu düyünü aça bilmir. Orakul bildirir ki, kim bu düyünü açsa, bütün Asiyanın hakimi olacaq.

Əsrlər keçir. Bir gün Makedoniyalı İsgəndər artıq Qordium adlanan həmin şəhərə gəlir və Zevsin məbədini ziyarət edir. Sütuna bağlanmış arabanı görən sərkərdə yerli adamlardan: “Bu nədir?” – deyə soruşur. Yerlilər Qordi düyününün tarixçəsini və orakulun yozmasını ona danışırlar. Bunu eşidən İsgəndər qılıncını çıxarıb bir zərbə ilə düyünü kəsib deyir:

– Orakul haqlı idi.

Bundan sonra böyük sərkərdə yürüşlərinə davam edərək, doğrudan da, bütün Asiyanın hakimi olur.

**1.** Rəvayətdən çıxış edərək “Qordi düyünü” və “Qordi düyününü açmaq” ifadələrinin mənalarını izah edin. Bu tarixçədə İsgəndərin xarakterinin hansı cəhəti açılır?

Başqa bir ifadə – “Pirr qələbəsi” isə İsgəndərin ölümündən sonra yaranmışdır. Böyük fateh vəfat etdikdən sonra onun qüdrətli imperiyası parçalanmağa başlayır. Bundan istifadə edən Roma dövləti bu imperiyanın ərazilərini ələ keçirməyə çalışır. Bəzi şəhərlər romalılara boyun əyir, bəziləri isə müdafiə olunmağa çalışır. Mübarizəyə qalxan şəhərlər arasında ən böyüyü Tarent idi. Tarent hökmdarı Roma ilə döyüşmək üçün qonşu hökmdardan – Pirrdən kömək istəyir. Səriştəli və təcrübəli sərkərdə olan Pirr heç



LAYİHƏ

düşünmədən buna razılıq verir. Dəfələrlə romalılara qalib gəldiyi üçün bu ona su içmək kimi asan görünür.

Lakin hər şey heç də onun gözlədiyi kimi olmur. İkinci və həlledici qələbədən sonra Pirr elə itkilər verir ki, sonradan bir daha gücünü bərpa edə bilmir. Bunu başa düşən Pirr həmin döyüşdən sonra: "Bu qələbə mənim məğlubiyyətimdir", – deyir.

Qələbə böyük itkilər hesabına əldə olunarkən bir çox dillərdə "Bu, Pirr qələbəsidir" ifadəsini işlədirlər.

Hər bir dildə şəxs adlarının iştirakı ilə yaranmış çoxlu sayda ifadələr var. Hər hansı şəxs öz nitqində belə ifadələr işlədirsə, bu onun yüksək intellekt sahibi olduğundan xəbər verir. Çünki insanın söz ehtiyatı nə qədər zəngindirsə, o, söz və ifadələrin tarixi etimologiyasını nə qədər yaxşı bilirsə, deməli, həmin şəxsin dünyagörüşü və bilik dairəsi də bir o qədər genişdir.

*Rafiq İsmayılov*

### Söz ehtiyatı

**2.** "İçini yeyir" ifadəsinin mənasını kontekstə uyğun izah edin.

### Düşün və cavab ver

**3.** Mətndəki məlumatlardan istifadə edərək cədvəli doldurun.

| İfadə | İfadənin yaranma tarixi | İfadənin mənası |
|---|---|---|
| | | |

**4.** Doğru, yoxsa yanlış?

1. Sizif sonu olmayan, mənasız bir iş görməyə məhkum olunmuşdu.
2. Qordi əslən kim olduğunu unutmamaq üçün arabanı sütuna bağlamışdı.
3. Qordi Makedoniyalı İsgəndərin müasiri olub.
4. İsgəndər Qordi düyününü açmağa müvəffəq oldu.
5. Pirr İsgəndərin ölümündən sonra onun imperiyasını qorumağa çalışan hökmdar idi.

**5.** "Damokl qılıncı" ifadəsinin etimologiyasını araşdırın və bu mövzuda məruzə hazırlayın.

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş sözlərdən hansı feilin şərt şəklindədir? Bəs bu sözlərdən hansı feil deyil?



LAYİHƏ

**Yadda saxla!** **İSƏ KÖMƏKÇİ SÖZÜ**

*İsə* köməkçi sözü, adətən, sözlərə *-sa²* şəklində əlavə edilir və şərt mənası yaradır: *Bunu bilirdisə, vaxtında deməli idi. Çalışqandırsa, buna nail olacaq.*

*İsə* köməkçi sözü şəxs şəkilçilərindən sonra əlavə olunur. Cümlədə *isə* köməkçi sözü artırılmış sözdən sonra vergül qoyulur.

**7.** Cümlələrdə *isə* köməkçi sözünün qoşulduğu sözlərin hansı nitq hissəsinə aid olduğunu deyin.

1. Əgər etimadı doğruldubsa, deməli, məsuliyyət hissi yüksəkdir.
2. Əgər adamsansa, sev adamları,
   Demə: – Bu, dostumdur, bu, düşmənimdir. *(B.Vahabzadə)*
3. Məktəb olimpiadasında birincisənsə, növbəti mərhələdə iştirak edəcəksən.
4. Əgər mən bir adama yaxşılıq eləyirəmsə, demək, öz mənəvi ehtiyacımı ödəyirəm.
5. Əgər yaratdığın abidə uzunömürlüdürsə, əsl sənətkarsan.

**8.** Cümlədə düzgün söz sırasına əməl etməklə şeir parçasını nəsrə çevirin. Durğu işarələrinin işlənməsindəki fərqi izah edin.

1. Bir gün yadınıza düşərəmsə mən,
   Bu doğma ellərdə axtararsınız. *(S.Rüstəm)*
2. Od vermirsə qəlbə, cana,
   Demək, o heç ürək deyil... *(B.Vahabzadə)*
3. Olmasaydı bu cahanda sarsaqlar,
   Ac qalardı, yəqin ki, yaltaqlar. *(İ.A.Krılov)*

**9.** Verilmiş feillərin xəbər şəklinə *isə* köməkçi sözü artırıb müvafiq cümlələrdə işlətməklə dəftərinizə köçürün.

*bilmək, istəmək, ummaq, getmək, sevmək*

1. Yaxşılıq eləyib bir şey ......... , eləməsən, yaxşıdır.
2. Arabanın qabaq çarxları hara ....... , dal çarxları da ora gedər.
3. Sağlam olmaq ......... , az ye.
4. Kim öz vətənini ......... , deməli, heç kimi və heç nəyi sevmir.
5. İnsan nə qədər az ......... , bir o qədər çox bildiyini düşünür.



LAYİHƏ

# BUNU KİM DEYİB



Vaxtilə tarixi şəxsiyyətlərin dilindən çıxmış və ya bədii əsərlərdə işlənmiş bir sıra kəlamlar bu gün geniş yayılaraq zərbi-məsələ, aforizmə çevrilmişdir. Məsələn, müəyyən işdə, yarışda asanlıqla uğur qazanan şəxslər bəzən təkəbbürlə **"Gəldim, gördüm, qələbə çaldım"** deyirlər. Bu ifadəni ilk dəfə Qay Yuli Sezar işlətmişdir. Bir-birinin ardınca başqa əraziləri zəbt edən Roma imperatoru hər dəfə senata öz qələbəsini təsvir edən uzun hesabat məktubları yazırdı. Nəhayət, bu qələbələr o qədər adiləşdi ki, Sezar məktublarında cəmi üç söz yazmağa başladı: "Veni, vidi, vici" ("Gəldim, gördüm, qələbə çaldım"). Hər qələbədən sonra Romaya *triumfla* daxil olan Sezarın önündə əsgərlər bu sözlərin yazıldığı plakat aparırmışlar.

Qanadlı ifadəyə çevrilmiş elə kəlamlar da var ki, onların ilk dəfə kim tərəfindən deyildiyi tədqiqatçılar arasında mübahisə doğurur.

Maksim Qorkinin 1898-ci ildə yazdığı "Şahin nəğməsi" əsərindən sonra **"Sürünmək üçün doğulanlar uça bilməzlər"** aforizmi dillərdə əzbər oldu. İndinin özündə də bu aforizmi işlədəndə böyük rus yazıçısına istinad edir, onun məşhur əsərini nəzərdə tuturlar. Lakin tədqiqatçılar başqa fikirdədirlər. Məsələ burasındadır ki, "Şahin nəğməsi"ndən 119 il əvvəl Rusiya Akademiyasının üzvü, şair və tərcüməçi İvan Xemnitserin "Kişi və inək" təmsili çap edilib. Təmsilin son sətirləri belədir:

*Belindəki adamın altında sərilərək*
*Yıxıldı heç çapmağı bacarmayan bu inək.*
*Burda qəribə nə var: bilməliydi o nadan,*
*Sürünməkçün doğulan uça bilməz heç zaman.*

Ola bilsin ki, Maksim Qorki özündən bir əsr əvvəl yaşamış şairin bu təmsilindən xəbərsiz idi. Bəlkə də, əksinə, bilərəkdən Xemnitserin yaradıcılığından bəhrələnmişdi, çünki XIX əsrdə bu müəllif Rusiyada hələ *populyarlığını* saxlayırdı, əsərləri təkrar-təkrar çap edilirdi. İstənilən halda etiraf olunmalıdır ki, aforizmi məhz Qorki məşhurlaşdırıb, amma Xemnitserin birincilik haqqı da özünə qaytarılmalıdır.

"Sürünmək üçün doğulanlar uça bilməzlər" ifadəsi o qədər populyardır



LAYİHƏ

ki, ondan yeni-yeni aforizmlər yaranır: "Uçmaq üçün doğulanlar sürünə bilməzlər" və ya "Sürünmək üçün doğulmuşlar heç vaxt büdrəməzlər".

**1.** Bu üç ifadə arasında məna fərqini və onlardan hər birinin işlənmə məqamını aydınlaşdırın.

Sovet dövründə nəşr olunmuş bir çox kitablarda, eləcə də dərsliklərdə XVIII əsrin böyük rus sərkərdəsi Aleksandr Suvorovdan (1730-1800) sitat gətirilirdi: **"General olmağı arzulamayan əsgər yaxşı əsgər deyil".** Lakin Suvorovun, həqiqətən, bu ifadəni işlətdiyinə dair heç bir elmi sübut yoxdur. Onun müasirlərindən heç kim bunu təsdiqləmir. Rus mənbələrində həmin aforizmə ilk dəfə yazıçı Aleksandr Poqosskinin 1855-ci ildə yazdığı "Əsgər qeydləri" kitabında rast gəlinir: "General olmağı arzulamayan əsgər yaxşı əsgər deyil, amma gələcək taleyi barədə çox düşünən əsgər ondan da pisdir". Cümlənin birinci hissəsi aforizmə çevrilib, davamı isə unudulub. Belə şeylər tez-tez baş verir.

**2.** Poqosskinin aforizmini izah edin.

Tədqiqatçılar fransız sərkərdəsi Napoleonun bu ifadəni Poqosskidən də əvvəl işlətdiyini iddia edirlər. Napoleonun ordusu Avropada adi əsgərin marşal rütbəsinə qədər yüksələ biləcəyi yeganə ordu idi. Rusiyada isə həmin illərdə səhvə yol vermiş əsgəri bəzən ölənədək döyürdülər, zabit rütbələri yalnız zadəganlara verilirdi. Bu səbəbdən də həmin qanadlı ifadənin XVIII əsr Rusiyasında yarana biləcəyi inandırıcı görünmür.

Rəvayətə görə, 1773-cü ildə rus sərkərdəsi Aleksandr Suvorov baş komandanın əmri olmadan türklərin Turtukay qalasına hücum edibmiş. Hücum uğurla nəticələnib. Lakin Suvorov tabelik qaydalarını pozduğuna görə baş komandan onun cəzalandırılması tələbi ilə hərbi *tribunala* müraciət edib. İmperatriçə II Yekaterina bundan xəbər tutanda **"Qalibləri mühakimə etmirlər"** deyərək məhkəmə prosesinin başlanmasına icazə verməyib.

Lakin Suvorovun Turtukay uğrunda döyüşlərdə özbaşına hərəkət etməsi və buna görə məhkəməyə verilməsi haqda rəvayət heç bir tarixi mənbə ilə təsdiq olunmur. Əgər o, baş komandana tabe olmasa idi, bu cəbhədə qələbələrə görə "Müqəddəs Georgi" ordeni ilə təltif olunmazdı.

"Qalibləri mühakimə etmirlər" ifadəsi isə qədim latın aforizminin ("Victoria non arbitrare") hərfi tərcüməsidir. Onun hansı şəraitdə yarandığı və ilk dəfə kim tərəfindən işlədildiyi barədə dəqiq məlumat yoxdur.



LAYİHƏ

“Qalibləri mühakimə etmirlər” o deməkdir ki, əsas məqsəd, hansı yolla olursa olsun, uğur qazanmaqdır, çünki qalibi heç kim cəzalandıra bilməz. Bu mənada o, başqa bir qanadlı ifadə – **“Məqsədə çatmaq üçün istənilən üsul yaxşıdır”** ilə həmahəng səslənir. Bu ifadənin isə ilk dəfə XVI əsrdə yaşamış italyan dövlət xadimi Nikkolo Makiavelli tərəfindən deyildiyi iddia olunur. Doğrudan da, Makiavellinin “Hökmdar” əsərində belə bir ifadəyə rast gəlirik: “Məqsəd üsula haqq qazandırır”. Bu aforizmin iziilədən tədqiqatçılar isə eramızın ilk illərinə qədər çatıblar. Bəlli olub ki, bu qanadlı ifadəni ilk dəfə o dövrdə yaşamış Roma şairi Ovidi işlədib: “Nəticə əmələ haqq qazandırır”.

*Arif Əliyevin “Tarixdə yanlışlıqlar” kitabından*

### Düşün və cavab ver

**3.** Mətnə əsasən aforizmlərlə bağlı uyğunluğu müəyyən edin.

A. “Gəldim, gördüm, qələbə çaldım”.
B. “Sürünmək üçün doğulanlar uça bilməzlər”.
C. “General olmağı arzulamayan əsgər yaxşı əsgər deyil”.
D. “Qalibləri mühakimə etmirlər”.
E. “Məqsədə çatmaq üçün istənilən üsul yaxşıdır”.

1. Tam variantı hazırda işlənmir. A B C D E
2. İşləndiyi rəvayət tarixi faktlara əsaslanmır. A B C D E
3. Yaranma tarixi və müəllifi məlumdur. A B C D E
4. İlk dəfə I əsrin əvvəllərində işləndiyi məlumdur. A B C D E
5. İlk müəllifi məlum olsa da, başqası məşhurlaşdırıb. A B C D E

**4.** Mətni tərkib hissələrinə bölün. Hansı hissələr arasında keçid cümlələri yoxdur? Həmin hissələrə keçid cümlələri əlavə edin.

**5.** Mətndəki məlumatları ümumiləşdirib sonluq yazın.

***6. Debat**

Tezis: *Məqsəd hər cür üsula haqq qazandırır.*
Antitezis: *Məqsəd nə qədər ali olsa da, çirkin üsula haqq qazandıra bilməz.*

### Dil qaydaları

**7.** I abzasdan *idi, imiş* köməkçi sözlərinin qoşulduğu feilləri seçib yazın.

LAYİHƏ

**Yadda saxla!** ***İDİ, İMİŞ* KÖMƏKÇİ SÖZLƏRİNİN YAZILIŞI**

*İdi, imiş* köməkçi sözləri feillərə artırıldıqda həm ayrı, həm də şəkilçiləşmiş variantda bitişik yazıla bilər:

Samitlə bitən feillərə qoşulduqda bu köməkçi sözlər, adətən, bitişik yazılır: *oxuyacaqmış, saxlayırdı, keçibmiş, gəlmişdi* və s.

Saitlə bitən feillərə artırıldıqda isə *idi, imiş* həm bitişik, həm də ayrı yazıla bilər: *gəlməliydi, baxası imiş, kaş biləydi* və s.

Başqa nitq hissələri ilə işlənərkən bu köməkçi sözlər, adətən, ayrı yazılır. Lakin bədii ədəbiyyatda, xüsusilə folklor nümunələrində onların tələffüz qaydasına uyğun yazılmasına tez-tez rast gəlmək olar: "Biri *vardı*, biri *yoxdu*", "... Başqa bir dərdi *yoxdu*, oğul *dərdiydi* dərdi". *(S.Rüstəm)*

**8.** Fərqləndirilmiş sözləri orfoqrafik qaydaya uyğun şəkildə dəftərinizə yazın.

1. Birdən ayılıb gördü ki, bunlar hamısı **yalanmış**.
2. Elə **insandı** ki, onu sevməyən tapılmazdı.
3. Koroğlu, **təqsirkardı** deyə, dinib-danışa bilmirdi.
4. Zərif ipəkdən toxunmuş xalça ceyran dərisi kimi **yumşaqdı**.
5. Müharibədə bir dəqiqə bir ömür **kimiydi**.
6. Sona da bazara gedənlərin **arasındaydı**. *(Mir Cəlal)*
7. Deyirlər, o, cavanlıqda çox **gözəlmiş**.

**9.** Fərqləndirilmiş sözlərdə nöqtələrin yerinə *idi* köməkçi sözünü qaydaya uyğun artırmaqla mətni dəftərinizə köçürün.

Onun ən böyük arzusu anasının portretini *yaratmaq...* . Artıq neçə vaxt idi ki, bu əsər üzərində *işləyir...* . Lakin dəhşətli müharibə hər şeyi yarımçıq qoydu.

Ana evdə oğlunu *gözləyir...* . Samir indilərdə *gələsi...* . Birdən qapı açıldı. Ananın qarşısında əsgər paltarı geymiş Samir *dayanmış...* :

– Gedirəm, anacan. Mənə xeyir-dua ver.

Ananın gözləri doldu, nitqi qurudu. Sonralar bu səhnə yadına düşdükcə özünü *danlayır...* . Kaş ki ayağına *düşə...* , qabağını *kəsə...* , *yalvara...* , amma onu getməyə *qoymaya...* .

Ana masanın üstündə Samirin şəklini özünün yarımçıq qalan portreti ilə üzbəüz qoymuşdu. Hər an Samirin dostlarının sözlərini *xatırlayır...* : "Son nəfəsində Samir bunu dedi: – Bircə anamın portretini *tamamlaya...*".



LAYİHƏ

# AY ADLARI VƏ ONLARIN MƏNŞƏYİ

Azərbaycan dilində ay adları bir çox Avropa dillərindəki analoji adlarla eynidir. ____, müasir dillərdə beynəlxalq *status* qazanmış söz və terminlərin əksəriyyətinin kökü qədim yunan və ya latın dilinə gedib çıxır. Ay adları da *istisna* deyil.

“Yanvar” sözü Roma ilahı Yanusun adı ilə bağlıdır. Bu sözün ilkin mənası qapı deməkdir. Başlanğıc, zaman tanrısı olan Yanus şəkillərdə əks istiqamətlərə baxan ikisifətli insan kimi təsvir olunurdu. Üzünün biri önə, yəni gələcəyə baxırdısa, digəri arxaya, yəni keçmişə nəzər salırdı.

**1.** Sizcə, nəyə görə Yanus məhz belə təsvir olunurdu?
**2.** Aşağıdakı şəkillərə diqqət yetirin. Sizcə, nə üçün şəkillərdən birində Yanusun sağa baxan sifəti gənc, sola baxanı isə qoca təsvir olunub?





Beləliklə, tədqiqatçılar ilin ilk altı ayının adlarını yunan ilahlarının adları ilə bağlayırlar.

**3.** Aşağıdakı cədvəli şərh etməklə mətnin davamını oxuyun.

| *Aylar* | *İlahlar* |
|---|---|
| fevral | Februus – yeraltı dünyanın ilahı |
| mart | Mars – müharibə ilahı |
| aprel | Afrodita – gözəllik və bahar ilahəsi |
| may | Mayesta – məhsuldarlıq ilahəsi |
| iyun | Yunona – qadınların himayədarı, nikah ilahəsi |



LAYİHƏ

, demək lazımdır ki, alimlərin “aprel”, “may”, “iyun” adlarının mənşəyi ilə bağlı fikirləri ziddiyyətlidir. Belə bir fikir var ki, “iyun” sözü ilk Roma konsulu Yuni Brutun adı ilə bağlıdır. Bəzi tədqiqatçılar isə “aprel” sözünün latınca “açmaq” mənası verən *aperire* feilindən yarandığını iddia edirlər.

Roma təqviminə görə yeraltı dünyanın ilahı Februusun adını daşıyan **fevral** ilin son ayı idi. Bu ilahın adı isə latınca “februa” (təmizlənmə) sözü ilə bağlıdır. Qədim Romada hər il keçirilən təmizlənmə mərasimi məhz bu aya düşürdü.

**Mart** ayının adı müharibə ilahı Marsın adından götürülmüşdür. Görünür, əkin işləri başlandığından romalılar bu ay Marsa xüsusi ehtiram göstərirdilər ki, onların üzərinə müharibə göndərməsin. Ola bilər, əksinə, havalar qızdığına görə həmin ay romalılar qonşu ərazilərə hərbi yürüşlərə hazırlaşır və müharibə ilahının şərəfinə qurbanlar kəsirdilər.

Bəzi dilçi alimlər “**aprel**” sözünü latın dilindəki *apricus* sözü ilə əlaqələndirirlər. Bu sözün ilkin mənası “günəşlə qızdırılan” deməkdir. Lakin *apricus* sözü eyni zamanda “ərik” mənası verir. Ola bilər, bu ayda ilk çiçək açan ağac ərik olduğundan romalılar aprel ayını həmin ağacın adı ilə adlandırmışlar.

“**May**” və “**iyun**” sözlərinin mənşəyi hələ antik dövrdə mübahisə predmeti olmuşdur. Qədim Roma şairi Ovidi belə bir *fərziyyə* də irəli sürmüşdü ki, “may” sözü *maiores* (ahıllar), “iyun” sözü isə *yuniores* (cavanlar) sözlərindən əmələ gəlmişdir.

* * *

Rəvayətə görə, Qədim Romada ilk təqvim şəhərin əsasını qoymuş Romul və Rem tərəfindən yaradılmışdı. Onların təqvimində il mart ayında başlayır və dekabrda bitirmiş. Yanvar və fevral aylarını isə təqvimə ilk dəfə Roma çarı Məğrur Tarkvini əlavə etmişdi.

Roma imperatoru Qay Yuli Sezarın dövrünə qədər iyundan sonrakı aylar rəqəm adları ilə adlandırılmışdı. Belə ki, iyul ayı kvintilis (beşinci), avqust ayı sekstilis (altıncı) adlanırdı.

, Roma təqvimində il mart ayından başlayırdı. Miladdan öncə 46-cı ildə Qay Yuli Sezar Misirin Günəş təqvimini öz ölkəsində tətbiq etdi və növbəti ildən təqvimdə ilk gün yanvarın 1-i qəbul edildi. Onun bu islahatını nəzərə alaraq romalılar yeni təqvim üzrə yeddinci ayı, yəni kvintilisi Sezarın şərəfinə iyul adlandırdılar.



LAYİHƏ

M.ö. 44-cü ildə Sezar öldürüldükdən sonra hakimiyyət uğrunda uzun müddət mübarizə getdi. Nəhayət, 31-ci ildə Sezarın bacısı nəvəsi Oktavian qalib gəldi. Onun hakimiyyəti dövründə romalılar ölkədə sabitliyə görə sevinir və Oktaviana sədaqət nümayiş etdirirdilər. Onu Avqust adlandırmağa başladılar. Bu söz "avqur" sözündən idi və "uzaqgörən" mənasını verirdi.

Oktavian Avqust öz sələfinin – Yuli Sezarın təqvim islahatlarını davam etdirdi. Dörd ildən bir fevralın 29 gündən ibarət olması məhz bu imperatorun adı ilə bağlıdır. Buna görə də sekstilis ayının adı dəyişdirilib avqust adlandırıldı.

Sonrakı aylar isə olduğu kimi qaldı: sentyabr (lat. *septem* – yeddinci), oktyabr (lat. *okto* – səkkizinci), noyabr (lat. *novem* – doqquzuncu), dekabr (lat. *dekem* – onuncu). Lakin bu halda ayların adı ilə real sıra nömrəsi arasında uyğunluq pozuldu.

Göründüyü kimi, gündəlik həyatda istifadə etdiyimiz, bizə çox adi görünən ay adlarının hər birinin çox maraqlı tarixi var.

*Rafiq Ələkbəroğlu*

### Söz ehtiyatı

**4.** Verilmiş ifadələrin mətndəki göy rəngli boşluqlara uyğunluğunu müəyyən edin:
*Bununla belə*
*Qeyd edildiyi kimi*
*Məlum olduğu kimi*

**5.** Dilimizdə "status" sözünün başqa hansı mənası var?

**6.** Latınca "okto" sözündən yaranmış "oktava", "dekem" sözündən yaranmış "dekada" sözlərinin mənalarını araşdırın.

### Düşün və cavab ver

**7.** Mətndə altından xətt çəkilmiş cümləni şərh edin. Nəyə görə latınca "septem" sözü "yeddinci" mənasını verdiyinə baxmayaraq, sentyabr ilin doqquzuncu ayıdır?

***8.** Doğru, yanlış, yoxsa mübahisəli?

1. İlk altı ayın adı ilahların adından götürülmüşdür.
2. Müasir ay adları Miladdan öncə VI–V əsrlərdə formalaşmışdır.
3. Miladdan öncə 46-cı ili tarixdə ən qısa təqvim ili hesab etmək olar.

### Dil qaydaları

**9.** Mətndə göy rənglə verilmiş feillərin zamanını müəyyən edin.



LAYİHƏ

**Yadda saxla!** **İDİ, İMİŞ KÖMƏKÇI SÖZLƏRİ VƏ KEÇMİŞ ZAMAN ŞƏKİLÇİLƏRİ**

*İdi, imiş* köməkçi sözlərinin ixtisar formaları olan *-dı*[4], *-mış*[4] feilin müvafiq zaman şəkilçilərinə (*-dı*[4], *-mış*[4]) oxşayır.

Nəzərə almaq lazımdır ki, zaman şəkilçiləri feilin kökünə, başlanğıc formasına və ya inkar şəkilçisindən sonra artırılır: yaz-dı-m, yaz-ıl-mış-ıq, yaz-ış-ma-dı-lar. *İdi, imiş* köməkçi sözlərinin qısa formaları isə feil şəkillərinin əlamətlərindən sonra işlənir.

*İdi, imiş* köməkçi sözləri: *gəl-ir-di-m, gəl-ir-miş-əm.*

Feilin zaman şəkilçiləri: *gəl-di-m, gəl-miş-dir.*

**10.** Verilmiş feilləri müqayisə edin. *İdi, imiş* köməkçi sözlərini qəbul etmiş feilləri kök və şəkilçilərə ayırmaqla dəftərinizə köçürün. Seçiminizi əsaslandırın.

güldüm – gülürdüm
sevildi – sevirdi
baxılırdı – baxıldı
nail oldular – nail olmuşdular
danışacaqmış – danışılmışdır
sərilmişdi – sərəcəkdi
çatmışdıq – çatdırıldı

***11.** Verilmiş cümlələrdə altından xətt çəkilmiş feillərin hansının *idi* köməkçi sözü ilə işləndiyini yazın.

1. Həyəcan getdikcə artırdı.
2. Elektrik mühəndisi şəbəkədəki gərginliyi bir qədər də artırdı.
3. Güclü tufan gözlənildiyindən sahildə yaşayan əhalini şəhərə köçürdülər.
4. Elat yaylağa köçürdü.
5. Çox keçmədi ki, onu gözdən itirdim.
6. Kənddən uzaqlaşdıqca evlərin işıqları yavaş-yavaş gözdən itirdi.
7. Bülbül o kolluğa çatmaq üçün dayanmadan uçur, uçurdu.
8. Buldozer nərilti-gurultu ilə irəliləyib binanın son qalıqlarını da uçurdu.

Tapşırıqdakı nümunələrdən çıxış edərək *idi, imiş* köməkçi sözlərinin feilin keçmiş zaman şəkilçilərindən fərqli əlamətlərini izah edin.



LAYİHƏ

# BARBARLAR VƏ VANDALLAR

*Bəzən insanlar yazılışı və ya mənası yaxın olan sözləri səhv salırlar. Məsələn, "doraǧacı" əvəzinə "daraǧacı", "kompaniya" əvəzinə "kampaniya" sözünü işlədirlər. Bu qüsur xüsusilə əcnəbi sözlərdən istifadə zamanı özünü göstərir. "Barbar" və "vandal" da belə sözlərdəndir. Bir çox lüǧətlərdə bu sözlərin hər ikisi, demək olar, eyni cür izah olunur: "vəhşi, mədəniyyətsiz". Bununla belə, həmin sözlərin məna çalarları arasında fərq var. Onları fərqləndirməyin ən yaxşı yolu bu sözlərin mənşəyini araşdırmaqdır.*

Qədim yunanlar üçün xarici dildə danışanların nitqi mənasız söz yığını idi: "bar-bar-bar". Ona görə də onlar əcnəbiləri "barbaroi" adlandırırdılar. "Barbar" sözü də mənşəyini buradan götürür.

İlk vaxtlar bu söz mənfi məna daşımırdı. Sadəcə, əcnəbi, yadelli demək idi. O dövrdə yunanlar daha çox Suriya, Misir, Babildən gəlmiş əcnəbilərlə təmasda olurdular. Bu xalqlar yunanlar üçün barbarlar idi və bu heç də həmin xalqların mədəniyyətdən uzaq olması anlamına gəlmirdi.

Miladdan öncə IV əsrdən başlayaraq yunanlar bir çox əraziləri zəbt etdilər. Onlar əsarət altına saldıqları xalqlara yuxarıdan aşağı baxırdılar. Elm, ədəbiyyat və mədəniyyətin inkişaf səviyyəsinə görə yunanlar özlərini digər xalqlardan üstün sayırdılar. Onlar yunan dilində danışmayan barbarlarla, yəni əcnəbilərlə ikincidərəcəli adamlar kimi davranırdılar.

E.ə. II əsrdə Yunanıstan Romadan asılı vəziyyətə düşdü. Latın dili yunan dilindən fərqlənsə də, yunanlar onları istila edənlərə aşağı irqin nümayəndələri kimi baxa bilməzdilər. Artıq yalnız yunan deyil, həm də latın dilində danışa bilməyənlər barbar sayılırdı.

III–V əsrlərdə Şimali Avropada yaşayan german tayfaları Roma imperiyasının bu başından girib o başından çıxırdılar. Onlar imperiyanın qərb hissəsini tamamilə məhv etmişdilər. Elə həmin dövrdə Avropaya köç etmiş hun tayfaları da Roma üçün böyük təhlükə yaradırdı. Sözsüz ki, həm german, həm də hun tayfaları şəhər mədəniyyətinin inkişafı baxımından yunan və romalılardan geri qalırdı. Məhz həmin dövrdən etibarən "barbar" sözü yalnız "yadelli" deyil, həm də "mədəniyyətsiz, kobud, nadan" mənası kəsb etməyə başladı.

Roma imperiyasının qərb əyalətlərinə soxulan və faktiki olaraq bu imperiyanı süquta yetirən german tayfalarının sayı çox idi. Bu tayfalardan biri vandal adlanırdı. Bu çox qəddar və amansız bir tayfa idi. Hərçənd bu xüsusiyyətlərinə görə vandallar digər tayfalardan – vestqot, ostqot, frank, burqund və başqalarından çox da fərqlənmirdilər.



LAYİHƏ

Çox keçmədi ki, vandallar romalıları Şimali Afrikadan sıxışdıraraq Karfagen yaxınlığında öz dövlətlərini qurdular. Bundan sonra onlar öz donanmalarını yaratdılar və Aralıq dənizində bir neçə adanı ələ keçirdilər. Vandalların gücləndiyini görən Roma imperatoru Valentinian onların kralı ilə sülh müqaviləsi bağladı. Lakin bu müqavilə uzun çəkmədi.

İmperator Valentinian sui-qəsd nəticəsində öldürüldükdən sonra hakimiyyətə senator Maksim gəlmişdi. Lakin Roma camaatı onu *uzurpasiyada* ittiham etmiş və ayağa qalxıb Maksimi qətlə yetirmişdi.

Beləliklə, 455-ci ilin yazında Romada siyasi hərc-mərclik hökm sürürdü. Belə bir vaxtda kral Gizerix başda olmaqla vandalların donanması Romaya yaxınlaşdı. Şəhər başsız qaldığından onların qarşısına Roma papası çıxdı. Papa başa düşürdü ki, Gizerix müqavimətə rast gələrsə, şəhərdə daşı daş üstə qoymaz. Buna görə də vandallara bildirdi ki, romalılar şəhəri döyüşsüz təslim etməyə hazırdırlar və yalvardı ki, şəhəri dağıtmasınlar.

Vandallar Romanı ələ keçirərək şəhəri qarət etməyə başladılar. Qarət iki həftə çəkdi. Vandallar, söz verdikləri kimi, binaları və abidələri dağıtmadılar, müqavimət göstərməyənləri öldürmədilər. Onlar 1000-dən çox Roma sakinini girov götürərək özləri ilə apardılar. Sonradan onların çoxunu pul müqabilində geri qaytardılar.

Sözsüz ki, 455-ci il qarəti romalıların yaddaşında dərin iz buraxdı və Roma tarixində qara ləkə kimi qaldı. 1300 ildən çox vaxt keçdi və XVIII əsrin sonlarında "vandalizm" sözü meydana gəldi. O dövrdən bəri bu söz "nadanlıq səbəbindən incəsənət əsərlərinin və memarlıq abidələrinin məhv edilməsi" mənasında işlədilir. Hərçənd bu mənanın vandallarla əlaqələndirilməsi bir çox tarixçilərin etirazına səbəb olur.

Otuz illik işğal dövründə erməni qəsbkarları Azərbaycan torpaqlarında ağlasığmaz vəhşiliklər törətmişlər. Şəhər və kəndlərimiz dağıdılmış, maddi-mədəni sərvətlərimiz talan edilmişdi. Vandallar bütün bunların şahidi olsaydılar, yəqin ki, özləri də erməni vəhşiliklərinin onların adı ilə adlandırılmasından narazı qalardılar.

*Ayzek Azimovun "Sözlərin tarixi" kitabı əsasında işlənmişdir.*



Dahi şair Nizami Gəncəvinin ermənilər tərəfindən dağıdılmış büstü
(Foto Rza Diqqətinindir.)

LAYİHƏ

## Söz ehtiyatı

1. Kontekstdən çıxış edərək "uzurpasiya" sözünü izah edin.

2. Altından xətt çəkilmiş "ayağa qalxmaq" ifadəsi mətndə hansı mənada işlənmişdir?
   A) sağalmaq, yaxşı olmaq
   B) hərəkata başlamaq, üsyan etmək
   C) maddi cəhətdən müstəqil olmaq, pul qazanmağa başlamaq

3. Hansı izah yalnız "vandal" sözünə uyğun gəlir?
   A) başqa dildə danışan
   B) mədəni səviyyəsi aşağı olan
   C) mədəni abidələri dağıdan
   D) kobud, nadan, yöndəmsiz

4. Cümlədə nöqtələrin yerinə hansı söz uyğun gəlir?
   *Erməni ... (barbarları/vandalları) Qarabağda bir çox məscidləri və tarixi abidələri məhv etmişlər.*

## Düşün və cavab ver

5. Hansı söz əvvəl yaranıb: *barbar*, yoxsa *vandal*?

6. Mətnin məzmunundan çıxış edərək son iki abzasda deyilənləri izah edin: nəyə görə "vandalizm" sözü tarixçilərin etirazına səbəb olur? Bəs vandallar özləri niyə bundan narazı qalardılar?

## Yazı

7. Araşdırma apararaq "Erməni barbarlığı və vandalizmi" mövzusunda təqdimat hazırlayın.

## Dil qaydaları

8. Aşağıdakı fikirlər mətndə göy rənglə verilmiş hansı feildəki *-sa*² şəkilçisinə uyğun gəlir?
   A. Vurğu qəbul edir.
   B. Vurğu qəbul etmir.
   C. Şəxs şəkilçisindən əvvəl gəlir.
   Ç. Şəxs şəkilçisindən sonra gəlir.
   D. Başlanğıc formaya artırılmışdır.
   E. Feil şəklinə artırılmışdır.



LAYİHƏ

**Yadda saxla!** **İSƏ KÖMƏKÇİ SÖZÜ VƏ FEİLİN ŞƏRT ŞƏKLİNİN ƏLAMƏTİ**

*İsə* köməkçi sözünün ixtisar forması (*-sa*²) feilin şərt şəklinin şəkilçisi (*-sa*²) ilə oxşar olsa da, işlənmə yerinə görə ondan fərqlənir.

| *İsə* köməkçi sözünün ixtisar forması (*-sa*²) | Feilin şərt şəkli (*-sa*²) |
|---|---|
| Feilin müxtəlif şəkil əlamətlərindən, hətta *idi, imiş* köməkçi sözlərindən sonra qoşula bilir: *getməlidirsə, yazdırılmışdısa, gec idisə, baxacaqsa.* | Feilin kökünə və ya başlanğıc formasına artırılır: *getsə, yazdırılsa.* |
| Şəxs şəkilçisindən sonra artırılır: *al-acağ-am-sa* | Şəxs şəkilçisindən əvvəl işlənir: *al-sa-m* |

**9.** Uyğunluğu müəyyən edin. Hansı cümlədə *-sa*²:
A) feilin şərt şəklinin əlamətidir;
B) *isə* köməkçi sözünün ixtisar formasıdır.

1. İlanın quyruğunu tapdalamasan, çalmaz.
2. Quşlar alçaqdan uçarsa, hava soyuq və yağmurlu olar.
3. Hər kəs şər əkərsə, peşmanlıq biçər.
4. Hərə bir sap versə, çılpağa köynək çıxar.

**10.** Hansı cümlədəki feillərdə *-sa*² şəkilçisi var?
A) Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.
B) Bağa baxsan, bağ olar, baxmasan, dağ olar.

**11.** Verilmiş hansı feillərə *isə* köməkçi sözünü artırmaq mümkün deyil? Onların feilin hansı şəklində olduğunu müəyyənləşdirin.

*gəzməliyəm, bəyəndi, düzəltsin, seyr etmişik, çıxasan, sağalasısan, qocalsa, birləşin, geyinirsən, oxuyum, götürə, dağıdarıq*

**12.** Cədvəldəki feillərin tərkib hissələrini qeyd edin.

| Feillər | Başlanğıc forma | Feil şəklinin əlaməti | Zaman şəkilçisi | İdi (-dı), imiş (-mış) | Şəxs sonluğu | İsə (-sa) |
|---|---|---|---|---|---|---|
| oxşasınlar | | | | | | |
| çalışacaqlarsa | | | | | | |
| çəkilirmişəmsə | | | | | | |
| daxil olsa | | | | | | |



LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1.** Bu bölmədən yadınızda qalan beş elmi məlumatı dəftərinizə yazın.

**2.** “Qordi düyünü”, “Pirr qələbəsi”, “Sizif əməyi” ifadələrinin mənasını açıqlayın.

**3.** Hansı cümlədə nöqtələrin yerinə həm *idi* köməkçi sözünü, həm də *-dır*⁴ şəkilçisini artırmaq olar?

A. O zamanlar sözünün üstündə durmamaq yalan danışmağa bərabər...
B. Deyilənə görə, bu məsəl də elə o vaxtdan qalmış...
C. Cəsur olmaq qorxmamaq deyil, qorxunu büruzə verməmək...
D. Həmin il yaz erkən gəlmiş...
E. Sadıqcan Azərbaycan tarını təkmilləşdirərək simlərinin sayını 11-ə çatdırmış…

**4.** Cümlədə şərt şəkilçili və *isə* köməkçi sözlü feilləri müəyyən edin.

Adam nə qədər ağıllı olsa da, çox danışarsa, axırda axmaq bir söz deyəcək.

**5.** Fərqləndirilmiş sözləri orfoqrafik qaydaya uyğun şəkildə dəftərinizə yazın.

1. Məlum oldu ki, yaranan problem məktəblilərin imtahana hazırlığı ilə *bağlıymış*.
2. Qızın gözləri səma kimi maviydi.
3. Turistlərin üz tutduqları sonuncu abidə *Qız qalasıydı*.
4. Biz kəndə çatanda axşam saat *altıydı*.
5. Onun xasiyyəti, deyəsən, əzəldən *beləymiş*.
6. Sən demə, görüləcək işlərimiz hələ *irəlidəymiş*.

**6.** Sözlərin tərkibini müəyyən edib cədvəli doldurun.

*gələcəkmiş, oxuyardım, sevəcəkdiksə, başlayırıq, gülmüşüksə, görsələr, bağışlamışdınız, yazacaqsa*

| Feilin başlanğıc forması | Zaman şəkilçisi | Şərt şəklinin əlaməti | *İdi, imiş, isə* köməkçi sözləri | Şəxs şəkilçisi |
|---|---|---|---|---|
| | | | | |

LAYİHƏ





# III BÖLMƏ

# ANA TƏBİƏT



LAYİHƏ

# GÜRZƏ



Borya nənəsi ilə görüşüb vaqona girdi. Bir əlində iri zənbil, o biri əlində içində göy rəngli şüşə banka olan parça çanta tutmuşdu.

Vaqon dolu idi. Kupelərdən birində pəncərənin yanında oturmuş panamal bir qoca Boryaya öz yanında yer verdi. Borya təşəkkür etdi, zənbilini və çantasını skamyanın altına qoyub əyləşdi.

Vaqondakıların çoxu yatırdı. Borya gələnə qədər sükutu yalnız təkərlərin taqqıltısı pozurdu. İndi bu yeknəsəq səsə skamyanın altından gələn qəribə xışıltı da əlavə olunmuşdu.

Panamalı qoca Boryanı söhbətə tutdu:

– Yükünüz heç boyunuza görə deyil.

– Yox, yüngüldür. Suda-quruda yaşayanlar və sürünənlərdir.

– Bunu necə başa düşək: suda-quruda yaşayanlar və sürünənlər?– deyə Borya ilə üzbəüz oturan eynəkli sərnişin söhbətə qoşuldu.

– Yəni qurbağalar, kərtənkələlər, koramallar... Biz məktəbdə terrarium hazırlayırıq.

**1.** Kontekstdən çıxış edərək "terrarium" sözünün mənasını izah etməyə çalışın. Bu sözü "akvarium" sözü ilə müqayisə edin.

Söhbət qalan sərnişinləri də maraqlandırdı. Bu diqqət, deyəsən, Boryanın xoşuna gəlmişdi. O, həvəslə danışmağa başladı:

– Bilirsiniz, biz məktəbə nə qədər xeyir gətiririk... Zoomağazada bir koramal yeddi manat yarımdır, onu da əgər tapsan! Onları tutmağa xeyli vaxt sərf etmişəm. Qurbağalarla elə də çətin olmurdu, kərtənkələlərə də tez-tez rast gəlirdim, amma koramallar... Təhlükəli işdir.

İndi, demək olar ki, bütün vaqon söhbətə qulaq asırdı. Hər yerdən gülümsər üzlər boylanırdı, xəfif gülüş və astadan deyilən sözlər eşidilirdi: "Gülməli oğlandır! Balacadır, amma necə düşüncəlidir!"

– Hələ bunlar bir yana, – Borya sözünə davam etdi. – Ən təhlükəlisi gürzəni tutmaqdır. Mən onu dörd saat güdmüşəm. O, daşın altına girdi, mən isə onu gözlədim. Sonra o çıxdı, mən də onu tutdum...

– Deməli, gürzə də aparırsan? – eynəkli sərnişin onun sözünü kəsdi.

– Hə, o, bankadadır, ayrıca.



LAYİHƏ

Sərnişinlərin üzləri ciddiləşdi. Təkcə eynəkli sərnişinin yanında oturan cavan leytenant hələ də gülümsəyərək:

– Bəlkə, bu heç gürzə deyil? O da koramaldır.

Borya incidi:

– Deyirsiniz, mən koramalı gürzədən seçə bilmirəm?

O, çantanı skamyanın altından çıxartdı. Eynəkli sərnişin dedi:

– Qırx il ömür sürmüşəm, amma gürzəni koramaldan ayıra bilmərəm.

– Amma məktəbinizdə terrarium olsaydı, ayıra bilərdiniz, – deyə qoca ona cavab verdi.

– Koramalın başında balaca sarı ləkələr olur, – deyə Borya bankanı çantadan çıxara-çıxara dedi. – Gürzədə isə belə ləkələr... – o, birdən susdu, sifəti çox ciddi ifadə aldı, əyilib skamyanın altına baxdı, sonra diqqətlə ətrafına göz gəzdirdi.

– Nə olub, yoxdur? – deyə kimsə soruşdu.

– Burada idi... Əsgi açılıb. Mən onu çox bərk bağlamışdım, o isə... görürsünüz? – Borya boş bankanı sərnişinlərə göstərdi.

**2.** Borya olan kupeni və oradakı sərnişinləri təsəvvür edin. Mətnə çəkilmiş illüstrasiyada rəssamın səhvlərini müəyyənləşdirin.

– Belə də iş olar?! – deyə eynəkli sərnişin mızıldandı. – Belə çıxır ki, o, indi haradasa buralarda sürünür.

Vaqonda səslər eşidildi.

– Maşa xala! Orada ehtiyatlı olun. Skamyaların altında gürzə sürünür.

– Necə yəni gürzə?..

**3.** Vaqonda yaranmış təlaşlı hay-küyü təsvir etmək üçün dialoqu davam etdirin.

Səs-küyə qaçıb gəlmiş bələdçi qız Boryanın üstünə qışqırdı:

– İndi gir skamyanın altına, ilanını tut! Nə baxırsan?! Mən sənin yerinə ora girəcəyəm? Gir, sənə deyirəm!

Borya skamyanın altına girəndə bələdçi qız onun çəkməsindən yapışıb əvvəlkindən də bərk qışqırdı:

– Sən nə edirsən? Dəli olubsan?.. Çıx! Çıx, deyirəm sənə!

– Bəsdir, dostum, dəlilik eləmə,– deyə leytenant başabəla ovçunu skamyanın altından çıxartdı.

Bələdçi qız qatarın rəisinə xəbər verməyə getdi. Leytenant, iki tələbə və daha bir neçə nəfər gürzəni axtarır, qalanları zəhərli ilanlar haqqında söhbət edirdilər.

Qəflətən sərnişinlərdən biri qışqırdı:

– Tapdım! Buradadır!



LAYİHƏ

Elə bil vaqonun özü də rahatlıqla nəfəs aldı və təkərlər daha şən taqqıldamağa başladı.

**Söz ehtiyatı**

**4.** Altından xətt çəkilmiş cümlədə məcazi mənalı söz və ifadələri müəyyən edin.

**Düşün və cavab ver**

**5.** Boryaya və onun "yük"ünə münasibətlərinə görə sərnişinləri xarakterizə edin.

**6. Müzakirə.** Sizcə, gürzəni tapdıqdan sonra sərnişinlər nə etməlidirlər?

**7. Rollu oyun.** Hekayənin davamını ucadan oxuyun. Səs tonu, temp və fasiləni gözləməklə obrazların nitqini onların xarakterinə uyğun səsləndirin.

***

Nəhayət, qatarın rəisi və əlində maşa tutmuş bələdçi qız gəlib çıxdılar. Deyəsən, onların fikri gürzəni öldürmək idi. Vaqona sükut çökdü. Hamı məsələnin nə ilə qurtaracağını gözləyirdi.

Leytenant gözü yaşarmış Boryaya baxıb ucadan dilləndi:

– Deyəsən, axı, doğrudan da, yaxşı çıxmır. Öldürmək, mənim fikrimcə, düzgün deyil. Yoldaşlar, bəlkə, öldürməyək, hə?

– Bəs, sizcə, nə etmək lazımdır?– deyə eynəkli sərnişin soruşdu.

Leytenant dedi:

– Əfv edək gürzəni. Oğlan onu əyləncə üçün aparmır axı. Bir ona baxın, görün nə qədər işləyib, zəhmət çəkib!

Çaşıb-qalan sərnişinlər susurdular. Qatarın rəisi leytenanta baxdı:

– Vətəndaş, sərnişinlərə bir şey olsa, bizi məsuliyyətə cəlb edə bilərlər!

– Gürzəni öldürsəniz, başqa şeyə görə cəlb edərlər.

– Nəyə görə?

– Necə yəni nəyə görə? Məktəb ləvazimatını korladığınıza görə!

Hamı güldü, sonra mübahisə etməyə başladılar:

– Məktəbdə onsuz da gürzəni saxlamazlar.

– Saxlayarlar, amma biologiya müəlliminin nəzarəti altında.

– Elədir, ancaq gürzəni Boryaya vermək təhlükəlidir.

– Birdən o, yenə gürzəni tramvayda, ya metroda əldən buraxar!

– Buraxmaram! And içirəm, buraxmaram! – Borya ümid yeri olduğunu görüb həyəcanla qışqırdı.



LAYİHƏ

O, sərnişinlərə elə baxdı ki, yaşlı bir qadının ürəyi yumşaldı:

– Bir də buraxmaz, əmisi, indi bilir daha... Həm də başa düşmək lazımdır axı: başqa uşaqlar tətil vaxtı oynayırlar, əylənirlər, o isə bütün yayı bu heyvanlarla əlləşib.

– Düzdür, başqasının əməyinə hörmətlə yanaşmaq lazımdır, – deyə panamalı qoca da razılaşdı.

Eynəkli sərnişin başını qaldırdı:

– Danışmaq asandır... Bəs uşağı ilanla birgə evinəcən kim ötürəcək?

Leytenant:

– Mən ötürərəm, – dedi.

Qatarın rəisi qaşqabaqla sərnişinləri süzdü və bələdçi qıza tərəf döndü:

– Yaxşı, xəkəndazı gətir. Onu ilanın altına salıb maşa ilə sıxarıq!

On dəqiqə sonra gürzə yenə bankada, ağzı bu dəfə çox etibarlı bağlanmış banka isə leytenantın dizləri üstündə idi. Sevincindən gözləri işıq saçan Borya leytenantın yanında sakitcə oturmuşdu.

Düz Moskvayacan sərnişinlər öz məktəb illərindən xatirələr danışdılar. Vaqonda hamı çox şən idi.

*Yuri Sotnik*

### Düşün və cavab ver

**8.** Əsərdəki obrazlardan hansı daha çox xoşunuza gəldi? Seçiminizi əsaslandırın.

**9.** Sizcə, nə üçün bütün sərnişinlər son nəticədə Boryanı dəstəklədilər?

**10.** Hekayənin hansı hissələri sizdə təbəssüm doğurdu?

**11.** Məktəblərdə canlı guşənin olmasına necə münasibət bəsləyirsiniz? Burada hansı heyvan və quşların saxlanmasını istərdiniz? Sizcə, bu, şagirdlərə nə verər?

### Yazı

**12.** Gürzə və onun insan həyatı üçün təhlükəsi haqqında araşdırma aparıb mətn yazın. Onun məktəbdə saxlanılması doğrudurmu? Fikrinizi əsaslandırın.

### Dil qaydaları

**13.** Mətndə göy rənglə verilmiş feillər cümlə daxilində hansı suallara cavab verir? Bu feilləri şəxsə və kəmiyyətə görə dəyişmək mümkündürmü?



LAYİHƏ

**Yadda saxla!** **FEİLİN TƏSRİFLƏNMƏYƏN FORMALARI**

Şəxsə görə dəyişmək feilin əsas xüsusiyyətlərindən biridir. Lakin şəxsə və kəmiyyətə görə dəyişməyən feillər də var. Belə feillərə təsriflənməyən (dəyişməyən) feillər deyilir.

Feilin təsriflənməyən formaları bunlardır:

- **məsdər** – *Bilməmək* (nə?) *eyib deyil, soruşmamaq* (nə?) *eyibdir.*
- **feili sifət** – *Çağırılan* (hansı?) *yerə ar eləmə, çağırılmayan* (hansı?) *yeri dar eləmə.*
- **feili bağlama** – *Sevinc paylandıqca* (nə zaman?) *çoxalır, kədər paylandıqca* (nə zaman?) *azalır.*

*Təsriflənməyən feillər feillə yanaşı, başqa bir nitq hissəsinin də xüsusiyyətlərinə malik olur.*

**13.** Cümlələrdə təsriflənməyən feilləri tapın.

1. Dünyada eyni cür düşünən iki insan tapmaq çətindir. (A.Klauber)
2. Dünyada ac qalır tər tökməyənlər,
   Onların ömrü də tez gedir bada,
   Hər kəs əkdiyini biçər dünyada. (S.Vurğun)
3. İnsan yanılanda bunu hamı görür, yalan danışanda isə çox az adam görə bilir. (İ.Höte)
4. Sözlə insanları birləşdirmək də olar, ayırmaq da.
5. Ucadan danışmaq lazımdır ki, səni eşitsinlər, astadan danışmaq lazımdır ki, səni dinləsinlər. (P.Klodel)
6. Susmaq bilikliyə yaraşır, biliksizin isə eyibini ört-basdır edir. (Məhəmməd Peyğəmbər)

**14.** Verilmiş cümlələrdən feilləri seçib cədvəlin müvafiq xanasına yazın.

| Təsriflənən feil | Təsriflənməyən feil |
|---|---|
| | |

1. Pişik olmayan yerdə siçanlar baş qaldırar.
2. Arxa su gələnə qədər qurbağanın canı çıxar.
3. Aslan qocalanda başına çaqqallar yığılar.
4. Qurddan qorxan qoyun saxlamaz.
5. Ən güclü insan özünü idarə etməyi bacaran insandır.
6. Ağıllı adam öz səhvini düzəltməyə çalışır, axmaq isə axıracan səhvi üzərində düşünür.

LAYİHƏ

# İŞGÜZAR TƏKLİF



Həmin yay on iki yaşlı Lük əmisi Henrigilə yaşamağa gəlmişdi. Əmisinin evi çay kənarındakı balaca bir ağac emalı zavodunun yanında yerləşirdi. Atasının son sözü Lükün yadından çıxmırdı: “Çalış ki, hər şeydə əmindən ibrət alasan”. Buna görə də oğlan diqqətlə əmisinə göz qoyurdu.

Ağac emalı zavodunda müdir işləyən Henri əmi hündürboylu, möhkəmbədənl bir adam idi. Lükün əmisi haqqında öyrəndiyi ilk şey bu oldu ki, hamı ona hörmət edir. Əmisinin arvadı Helen dolubədənli, xoşsifət bir qadın idi. O, hərdən balaca qohumuna deyirdi: “İstərdim ki, sən də Henri əmin kimi olasan. O heç vaxt xeyrini əldən verməz, hər işində tədbirlidir”.

Lük həmişə əmisinin yanında gəzər, onun hər hərəkətini təkrarlamağa çalışardı. Əmisi Lükə deyərdi: “Həmişə çalış, işin məğzini başa düşə biləsən. Elə ki bunu başa düşdün, deməli, onda nədən xeyir gəldiyini biləcəksən. Daha heç kim sənə kələk gələ bilməz”.

Çox vaxt Henri əmisinə baxanda atasını yadına salır, onun üçün qəribsəyirdi. Buna görə o özünə gizli bir həyat qurmağa çalışırdı. Bu məsələdə onun dostu on bir yaşlı, bir gözü kor, bir ayağı yüngülcə axsayan Den adlı şotland iti idi. Den onun yanında olanda Lük özünü heç vaxt tənha hiss etmirdi. Lük itə elə şeylər danışırdı ki, onu heç vaxt nə əmisinə, nə də Helen bibiyə deyə bilməzdi.

**1. Oxuduğun hissədə hansı məqamlar “atası öldüyü üçün Lük əmisigildə yaşamalı olmuşdu” qənaətinə gəlməyə imkan verir?**

Bir gün Henri əmi diqqətlə itə baxıb dedi:

– İt tamam kor olub.

– Yox, kor olmayıb, – Lük cavab verdi.

– Heç ağzında dişi də qalmayıb. Axır vaxtlar qarınquluLuq edir, hürmür. Bu iti saxlamaq daha sərf eləmir.

– Ancaq itdən yaxa qurtarmaq həmişə çətin olur, – deyə Helen dilləndi.

– Məncə, bunun ən sadə yolu onu suda batırmaqdır.

Lük Deni qucaqlayaraq qışqırırdı:



LAYİHƏ

– Henri əmi, Den yaxşı itdir! Siz heç bilmirsiniz, o necə yaxşı itdir!

– Mən sənə yaxşı bir küçük taparam, oğlum. Balaca, ağıllı bir it ki, ona çəkilən xərc havayı getməz.

– Mənə küçük lazım deyil, – deyə Lük etiraz etdi.

Amma Lük çox narahat idi. O bilirdi ki, əmisi *sentimental* adam deyil. İtdən bir fayda olmadığını qərara alıbsa, onu saxlamayacaq.

**2.** Oxuduğunuz hissədə sonuncu cümləni şərh edin və "sentimentallıq" sözünün mənasını müəyyənləşdirin.
**3.** Altından xətt çəkilmiş ifadələrdən çıxış edərək Henri əminin xarakterindəki əsas cəhəti müəyyənləşdirin.

Ertəsi gün Lük evə gələndə Deni səslədi. Den cavab vermədi. Lük çaya tərəf döndü. Çayın ortasında köhnə qayıq yırğalanırdı, içində də əmisinin qoca işçisi Sem Karterlə Den oturmuşdu.

Lük iti çağırdı, Den suya atıldı, dalınca da Karterin iplə Denin boynuna bağladığı daş şappıltı ilə suya düşdü. Lük ağlayırdı. İti xilas etmək istəyirdi, amma Karterin getməsini gözləməli idi. Qoca bir qədər suyun üzərində yaranan dairələrə baxdı, sonra qayığı çevirib yavaş-yavaş oradan uzaqlaşdı. Lük bundan istifadə edib suya atıldı. Bir azdan o artıq Deni sudan çıxarmışdı. İtin böyürlərindən basmağa başladı. Bir-iki dəfə basandan sonra it tərpəndi.

– Əhsən, qoca. Hə, sən ölməməlisən, – deyə Lük sevincək qışqırdı.

İndi evə qayıtmaq olmazdı. Lük qonşuluqda yaşayan qoca Kempi xatırladı. Onun evinə gedib qocadan kömək istədi. Kemp bir qədər fikrə getdi və dedi:

– Lük, mən istəməzdim ki, sən əmini ürəksiz, qəddar hesab edəsən. O, pis adam deyil. Ola bilər ki, sərt və işgüzar adamdır. Gəlsənə ona bir işgüzar təklif edəsən?

– Nə? Siz nə demək istəyirsiniz?

– Bilirsən, düzü, axşamlar mənim inəklərimi haylayıb gətirməyin xoşuma gəlir. Sən onları gətirəndə mənim getməyimə heç ehtiyac qalmır. Tutaq ki, bunun üçün mən sənə həftədə 75 sent versəm, sən bu işi daimi edərsənmi?

– Əlbəttə, mister Kemp.

**4.** Sizcə, mister Kemp nə üçün Lükün öz əmisi haqqında pis fikirləşməsini istəmirdi?

– Onda gedərsən evə. Əminə deyərsən ki, işgüzar təklifin var, itin yemi üçün həftədə 75 sent təklif edirsən. Özü də bunu əsl kişi kimi edərsən.

– Axı əmim 75 sentə möhtac deyil, o, varlıdır.



LAYİHƏ

– Sən dediyimi elə. Nə cavab versə, mənə deyərsən.

Lük evə on addım qalmış dayandı, əmisinin evdən çıxmasını gözlədi. Deni görəndə əmisinin rəngi ağardı.

– Lük, axı onun boğazına ip bağlanmışdı?

– Mən onu sudan xilas etdim. Mənə qulaq asın, Henri əmi, – o, mümkün qədər sərt danışmağa çalışdı. – Mənim sizə bir işgüzar təklifim var.

– Nə təklifdir elə?! – Henri əmi əsəbi halda soruşdu.

– Bilirəm ki, Den məndən başqa heç kimi maraqlandırmır. Buna görə onun yeməyi üçün hər həftə 75 sent təklif edirəm.

– Lük, sən bu pulu haradan alacaqsan?

– Mən axşamlar Kempin inəklərini haylayıb gətirəcəyəm.

Əmi hirslə:

– Bu barədə söhbət belə ola bilməz, – dedi.

Amma hiss olunurdu ki, o özü də sarsılıb. Uşağa güzəştə getmək istəyir, amma ürəyiyumşaqlıq göstərməkdən utanır. Axır ki, gülümsündü:

– Ay kələkbaz, deyəsən, mən sənin təklifinlə razılaşacağam.

– Ah, nə yaxşı! Sağ ol, Henri əmi!

– Mən bu təklifi ona görə qəbul edirəm ki, bu əhvalat sənə bəzi şeylər öyrədəcək. Sən biləcəksən ki, bəzən adamlar öz mənəvi ehtiyaclarını ağır zəhmət bahasına qazandıqları pulla ödəməli olurlar.

Lük pilləkənin üstündə oturdu. Den də onun yanında *şöngüdü*. O, itin boynunu qucaqlayıb and içdi ki, ona həmişə qayğı göstərəcək. Gələcəkdə çalışacaq ki, pul qazanıb ona əziz olanların hamısını bu işgüzar adamlardan qoruya bilsin.

*Morli Kallagen*

### Düşün və cavab ver

**5.** Sizcə, hekayənin əsas ideyası nədən ibarətdir?

**6.** Henri əminin xarakterindəki mənfi və müsbət cəhətləri araşdırın və bu obraza münasibət bildirin.

**7.** Mətnin sonunda Lükün andının mahiyyətini izah etməyə çalışın.

**8. Müzakirə.**
Tezis. İşgüzar adam hər bir işdə mənfəət güdməlidir.
Antitezis. İşgüzarlığın əsas şərti heç də yalnız maddi qazancda deyil.

### Dil qaydaları

**9.** Mətndə göy rənglə verilmiş sözlərin ismə və feilə aid olan xüsusiyyətlərini sadalayın.



LAYİHƏ

**Yadda saxla!** **MƏSDƏR**

Həm feilin, həm də ismin bəzi xüsusiyyətlərinə malik olan məsdər *-maq*² şəkilçisi ilə formalaşır. Ayrılıqda *nə etmək?*, cümlə daxilində isə *nə?* sualına cavab verir:

*Çalışmaq* (nə etmək?)

*Çalışmaq* (nə?) *həyatın özü, tənbəllik isə zərərli vərdişdir.*

**10.** Cümlələrdəki məsdərləri seçib feilə və ismə oxşar xüsusiyyətlərini qeyd edin.

Nümunə:

*Bu vətən uşaqlarımız və nəvələrimiz üçün cənnət edilməyə layiqdir. (Atatürk)*

**Feilə oxşar xüsusiyyətləri:** 1. Təsdiq feildir. 2. Məchul növdədir.
**İsmə oxşar xüsusiyyətləri:** 1. *Nəyə?* sualına cavab verir. 2. Yönlük haldadır.

1. Qorxaq adam həmişə başqalarında qorxu hissi oyatmağa çalışır.
2. Köhnə paltar geymək təzəsini dilənməkdən yaxşıdır. *(S.Şirazi)*
3. Öz yerini bilsən, heç kim səni qaldırmağa cəsarət etməz.
4. Öz mənfəətin üçün başqalarına ziyan verməkdən çəkin. *(Zərdüşt)*
5. Yalanla dünyanı gəzmək olar, qayıtmaq olmaz.

**11.** Hansı cümlədə altından xətt çəkilmiş sözdə *-ma*² şəkilçisini *-maq*² şəkilçisi ilə əvəz etmək olmur? Səbəbini izah edin.

A. Dərsin başlanmasına çox az qalırdı.
B. İnsanın dahi olması üçün yüz il də bəs etmir, amma rüsvay olması üçün bir gün də bəs edir.
C. Anamın çığırtmasının dadı damağımdan getmirdi.
D. Mənə elə gəlirdi ki, bu barədə danışmamasının səbəbi onun laqeydliyidir.

**12.** Uyğun məsdərləri ismin müəyyən halında işlətməklə cümlələri tamamlayın.

*soruşmamaq, işləmək, tutmaq, sevmək, qayğı göstərmək, bilməmək*

1. ... eyib deyil, ... eyibdir.
2. ... əlləri qabar olmuşdu.
3. Bir əldə iki qarpız ... olmaz.
4. Böyüklərə ... öyrənməlisən.
5. Təbiəti ... öyrən, həyat oradan başlanır.



LAYİHƏ

# TƏBİƏT "MÜHƏNDİS"LƏRİ



Yəqin ki, 4500 il əvvəl Qədim Misirdə tikilmiş Xeops piramidası haqqında eşitmisiniz. Dünyanın yeddi möcüzəsindən ən möhtəşəmi olan bu tikilinin hündürlüyü 139 metrdir.

Şəkildə gördüyünüz yuvanın hündürlüyü isə 7 metrdir. Bununla belə, onu da möcüzə hesab etmək olar, çünki yuvanın "inşaatçı"ları boyları cəmi 1-2 sm olan həşəratlardır. Hər iki tikilini bir-biri ilə müqayisə etsək, görərik ki, bu yuva daha əsrarəngiz bir möcüzədir. Əgər bu kiçik canlıların boyu insanların boyu qədər olsa idi, onların tikdikləri yuvaların hündürlüyü Xeops piramidasının hündürlüyündən dəfələrlə çox olardı.

**1.** Hesablamalar yolu ilə müəllifin gəldiyi qənaəti əsaslandırın.

Termit adlanan bu kiçik həşəratların tikdiyi qüllələr çox mürəkkəb quruluşa malikdirlər. Burada bala termitlər üçün xüsusi otaqlar, termitlərin əsas qidası olan göbələklərin yetişdirildiyi istixanalar, ana termitin otağı və s. olur. Ən maraqlısı isə yuvalarda xüsusi *ventilyasiya* sisteminin olmasıdır. Bu sistem vasitəsilə onlar yuvanın içindəki hərarəti və rütubəti eyni dərəcədə saxlayır, bunun üçün yuvanın içində xüsusi kanallar düzəldirlər.

Termitlərin maraqlı xüsusiyyətlərindən biri də yuvalarını çox yaxşı qorumalarıdır. Yuvanın divarlarında bir dəlik açılsa, həmin an həyəcan siqnalı verilir. Keşikçi termitlər başlarını divara vuraraq təhlükə yarandığını xəbər verir, vəziyyəti *koloniyanın* bütün üzvlərinə bildirir. Ata və ana termitin olduğu otağın girişi cəld divarla örtülür. Uçulan hissə həmin an işçi termitlər tərəfindən əhatə olunur və qısa müddətdə bərpa edilir. Termitlər çox planlı şəkildə hərəkət edir və hər kəs üzərinə düşən işi yerinə yetirir.

**2.** Sizcə, termitlər nə üçün, ilk növbədə, ata və ana termitin olduğu otağın girişini bağlayırlar?

Termit yuvasında hər biri təxminən 2,5 sm enində saysız-hesabsız *hücrələr* olur. Bu hücrələr bir-biri ilə ancaq termitlərin keçəcəyi böyüklükdə



LAYİHƏ

dar dəliklərlə birləşir. Bu gözəl "bina"ları tikərkən termitlərin istifadə etdiyi material isə, sadəcə, torpaq və öz selikləridir. Bu cür bəsit materialla içində labirintlər, ventilyasiya sistemləri, su kanalları olan mürəkkəb sistemli yuvalar tikmək heyrətamizdir. Ən təəccüblüsü isə bu möhtəşəm yuvaları inşa edən termitlərin tamamilə kor olmasıdır. Onlar nə qurduqları tunelləri, nə də ucaltdıqları otaqları görə bilirlər.

Əlbəttə, təbiət möcüzələr mücrüsüdür. Canlıların ən kamili olan insana bəxş olunan ağıl belə, bəzən kiçik həşəratlara verilən *instinkti* izah edə bilmir.

*Sahibə Tərtərli*

### Söz ehtiyatı

**3.** "Ventilyasiya", "koloniya", "hücrə", "instinkt" sözlərinin mənalarını kontekstə görə izah etməyə çalışın.

### Yazı




**4.** Aşağıdakı şəkli şərh etməklə termit yuvası haqqında esse yazın.

### Dil qaydaları

**5.** Mətndə qırmızı rənglə verilmiş sözdə hansı qrammatik səhvə yol verilmişdir?

**6.** Mətndə göy rənglə verilmiş sözlərin sualını müəyyən edin. Onların aid olduğu nitq hissəsini tapın. Bu sözləri hansı nitq hissəsi hesab edirsiniz? Fikrinizi əsaslandırmaq üçün arqumentlər gətirin.



LAYİHƏ

**Yadda saxla!** **FEİLİ SİFƏT**

Feili sifət həm feilin, həm də sifətin xüsusiyyətlərinə malikdir: həm hərəkət, həm də əlamət və ya keyfiyyət bildirir: *uçan* (hansı?) *quş, soyumuş* (necə?) *çay*.

Şəkilçidən asılı olaraq feili sifət müxtəlif zaman anlayışı bildirir:

- **keçmiş zaman:** *səpilmiş (toxum), oxumuş (adam), baxdığım (film);*
- **indiki zaman:** *açılan (səhər), dinləyən (şagird);*
- **gələcək zaman:** *görüləcək (işlər), baxılası (tamaşa), yazılmalı (əsər).*

**7.** Altından xətt çəkilmiş sözləri kök və şəkilçiyə ayırın. Feili sifət şəkilçisini müəyyən edərək həmin şəkilçilərlə yeni sözlər yaradın. Tapşırığın sonunda verilmiş nəticəni tamamlayın.

1. El keçən körpüdən sən də keç.
2. Bəxt kəsilməmiş qarpız kimidir.
3. Almadığın heyvanın noxtasından yapışma.
4. Su axdığı yerdən bir də axar.
5. Deyiləsi sözümüz çoxdur.
6. Tikiləcək binaların layihəsi hazırdır.
7. Əcnəbi turistlər Şəkinin görməli yerlərini gəzdilər.

Nəticə: *... şəkilçiləri feili sifət yaradır.*

**8.** Fərqləndirilmiş sözlərə sual verib feili sifət, təsriflənən feil, yoxsa isim olduğunu müəyyən edin.

**A)** feili sifət **B)** təsriflənən feil **C)** isim

1. Tədbirdə bayrağın yanında *dayanacaq* əsgərlər müəyyənləşdirildi.
2. Növbəti *dayanacaq* elan olundu.
3. Qatar iki stansiyadan sonra *dayanacaq*.
4. *Dəvət olunası* qonaqlarımızın sayı dəqiqləşdi.
5. Dünən məktəbə qonaqlar *dəvət olunası imiş*.
6. Soyuqdan *donmuş* ovçu özünü güclə komaya çatdırdı.
7. Ana qucağında körpəsi ağaca söykənib *donmuşdu*.
8. Bu meyvə yaman *yeməlidir*.
9. Orxan xörəyini tez *yeməlidir*.

**Nümunə: 1 – A**



LAYİHƏ

**9.** Feili sifətləri tapın, onları ifadə etdiyi zaman məzmununa görə aşağıdakı qaydada qruplaşdırın.

1. Vaxtsız banlayan xoruzun başını kəsərlər.
2. Gördüyü hər şeydən göz kirəsi istəyir.
3. Ağacların altında çoxlu saralmış yarpaq var idi.
4. Daha Səmədin deyiləsi sözü qalmamışdı.
5. Qaldıracağımız məsələ hamının ürəyindən olacaq.
6. Hələ görülməli işlərimiz çoxdur.

- Keçmiş zaman:
- İndiki zaman:
- Gələcək zaman:

**Yadda saxla!** **FEİLİ SİFƏT VƏ FEİLDƏN DÜZƏLƏN SİFƏT**

Feili sifətlə feildən düzələn sifəti fərqləndirmək lazımdır: *ağlağan* uşaq (feildən düzələn sifət); *ağlayan* uşaq (feili sifət).

Bu sözləri fərqləndirməyin ən sadə yolu onları inkarda işlətməkdir. Əgər bu, mümkündürsə, deməli, həmin söz feili sifətdir: *ağlamayan uşaq.*

**10.** İnkarda işlətməklə feili sifəti feildən düzələn sifətlərdən fərqləndirin.

*deyinən (qarı), qorxmuş (adam), qorxaq (adam),*
*yazılan (məktub), küsəyən (qız), azğın (düşmən), sevdiyim (insan),*
*deyingən (qarı), qorxunc (görkəm)*

**11.** Dördündən biri morfoloji cəhətdən fərqlidir:

1. **A)** yorğun **B)** kəsici **C)** yorduğu **D)** yandırıcı
2. **A)** gəmirici **B)** kəsilən **C)** əzgin **D)** dalaşqan
3. **A)** tikilmiş **B)** açılan **C)** deyiləsi **D)** güləyən

**12.** Cümlələrdə *necə? nə cür? hansı?* suallarına cavab verən sözləri seçib sifət və ya feili sifət olduğunu müəyyən edin.

1. Yollar sürüşkən olduğundan gediş-gəliş azalmışdı.
2. Kərəm bayırda gəzişən kişini otağa çağırdı.
3. Qaçaqlar yerə döşənmiş keçələrin üstündə əyləşmişdilər.
4. Onun yorucu söhbətləri hamını bezdirmişdi.
5. Ətrafın sakitliyini adamı vahiməyə salan bayquşların səsi pozurdu.



LAYİHƏ

# FƏRYAD

Quşların səsini istədi ürək,
Cüyür mələşməsi düşdü könlümə.
Bir ana, bir bacı məhəbbətitək
Bir meşə həsrəti köçdü könlümə.

Çəkdi o yerlərə çəmən, çay məni,
Çəkdi etibarlı, boz sərçələr də.
Elə harayladı torağay məni,
Səsi qulağıma çatdı şəhərdə.

Bir qatar tərpəndi qəmimə düşmən,
Yuxunu ömrümdən yedi həsrətim.
Meşənin dilindən, quşun dilindən
Qorxulu nağıllar dedi həsrətim.

Heyrətmi nitqimi bağladı belə?
Bəs niyə ağaclar kölgə salmayıb?
Ay aman! Cüyürü demirəm hələ,
Meşənin özündən əsər qalmayıb!

*Ənvər Rza*



# MAŞUK* MEŞƏSİ

Ağaclar dırmaşıb dəcəl uşaqtək
Dağın zirvəsinə yamacla, yolla.
Tamaşa etməyə bir cüt göz gərək –
Meşə bəhsə girib göylə, maşallah!

Burdakı quşlara heç kim deməz “kiş!”
Bu gün yaman qar var, yaman boran var.
Evdə balasını yedizdirməmiş
Meşədə quşlara dən aparan var.

A yorğun əsəbim, dincini bir al!
Pərtliyim, bığımı yenə çeynəmə.
Dizimi yalayır körpə bir maral,
Bir cüt sarıköynək qonub çiyinimə.

**Maşuk – Şimali Qafqazda Maşuk dağı ətəklərində meşə*



LAYİHƏ

Baxışım heyrətdə, gözüm heyrətdə;
Elə bil nadanam, görməmişəm mən.
İnsanı, heyvanı belə ülfətdə,
Belə ünsiyyətdə görməmişəm mən.

Maral *duzağıdır* meşə başabaş,
Nə güllə səsi var, nə bir səksəkə.
Bu meşə uzadıb sağ əlini kaş
Bizim meşələrin başına çəkə!...

*Ənvər Rza*

### Söz ehtiyatı

1. "Bığını çeynəmək", "sağ əlini başına çəkmək", "tamaşa etməyə bir cüt göz gərək" ifadələrinin mənalarını izah edin. Bu ifadələri cümlələrdə işlədin.

2. Mətndən çıxış edərək "ülfət", "duzaq" sözlərinin mənalarını izah edin.

### Düşün və cavab ver

3. Şeirlərdə təsvir olunan meşələr arasındakı fərqin səbəbini izah etməyə çalışın.

### Yazı

4. Plan tutmaqla meşə haqqında hekayə yazın.

### Dil qaydaları

5. "Maşuk meşəsi" şeirində altından xətt çəkilmiş sözlərin tələffüzündəki fərqi və hansı nitq hissəsinə aid olduğunu müəyyən edin.

6. Mətndə göy rənglə verilmiş sözlərin sualını müəyyənləşdirin. Hansı sözün əsas hərəkəti, hansının hərəkətin necəliyini bildirdiyini təyin edin.

**Yadda saxla!** **FEİLİ BAĞLAMA**

Feili bağlama həm zərfin, həm də feilin xüsusiyyətlərini daşıyır: hərəkətin tərzini, zamanını, səbəbini bildirir; məsələn:

*Müəllim danışanda qulaq asmaq lazımdır* (zaman).
*O, əlini döşünə qoyaraq danışırdı* (tərz).
*Rəhim səhvini başa düşüb üzr istədi* (səbəb).



LAYİHƏ

**7.** Altından xətt çəkilmiş sözləri kök və şəkilçiyə ayırın. Feili bağlama şəkilçisini müəyyən edərək həmin şəkilçilərlə yeni sözlər yaradın. Tapşırığın sonunda verilmiş nəticəni tamamlayın.

1. İnsanın biliyi artdıqca narahatlığı da artır. *(Höte)*
2. Elm ancaq ağlın süzgəcindən keçəndə qiymətli olur. *(M.Metterlinq)*
3. Bir elmi öyrənmək istədikdə sən
   Çalış ki, hər şeyi kamil biləsən. *(N.Gəncəvi)*
4. O insan ağıllı sayılır ki, işə başlamadan nəticəni görə bilsin. *(Kant)*
5. Axmaq fikirlərə uyaraq insan
   Axtarır umulmaz yerdə səadət. *(S.Vurğun)*
6. İlan ulduz görməyincə ölməz. *(Atalar sözü)*
7. Birinin günahı varsa, bağışla, bağışlamayıb cəza versən, günahın dərəcəsinə görə ver. *(Məhəmməd Peyğəmbər)*
8. Böyük sözünə qulaq asmayan böyürə-böyürə qalar. *(Atalar sözü)*
9. Özünə yeni dostlar taparkən köhnələri unutma. *(E.Rotterdamlı)*
10. Həqiqət üzə çıxar-çıxmaz şübhələr silinir. *(C.Vaşinqton)*

Nəticə: *... şəkilçiləri feili bağlama yaradır.*

**8.** Feili bağlamaları seçin və zaman, tərz, səbəb bildirməsinə görə aşağıdakı kimi qruplaşdırın.

A) Bu sözü eşidincə Rüstəmin qaşları çatıldı.
B) Sənan qayalardan tuta-tuta, iməkləyə-iməkləyə yeriyirdi.
C) Hayqırıb açsam meydanı,
   Sutək axıdaram qanı. *("Koroğlu"dastanı)*
D) Qıza elə gəldi ki, Şahin inciyib gedir.

*Necə?* sualına cavab verir, tərz bildirir: A B C D
*Nə zaman?* sualına cavab verir, zaman bildirir: A B C D
*Nə üçün?* sualına cavab verir, səbəb bildirir: A B C D

**9.** Fərqləndirilmiş sözləri feili bağlama ilə əvəz edib cümlələri dəyişin.

1. Koroğlu dəliləri başına *topladı*, dağlara çəkildi.
2. Ağabəy yenicə içəri *girmişdi* ki, bayırda səs-küy qopdu.
3. Elə ki vaxt *tamam oldu*, dərviş gəlib amanatını istədi.
4. Körpə divardan *tutur*, yavaş-yavaş gəzirdi.



LAYİHƏ

# ALTERNATİV ENERJİ



İstənilən fəaliyyət növü üçün enerji tələb olunur. Enerji istilik, işıq, hərəkət deməkdir. Həyatda bu enerjini insanlar bərpa olunan və bərpa olunmayan enerji mənbələrindən alırlar. Bərpa olunan enerji mənbələrinə Günəş, külək, su ehtiyatları və s. aiddir. Bu enerji mənbələri nə qədər istifadə olunsa da, tükənmir. Bərpa olunmayan enerji mənbələrinə isə daş kömür, neft, qaz, torf və s. aiddir.

Gəlin insanlar tərəfindən çox qədim zamanlardan enerji mənbəyi kimi istifadə olunan külək və daş kömürü müqayisə edək. İnsanın külək enerjisindən nə qədər istifadə etməsindən asılı olmayaraq, planetimizdə külək azalmayacaq, necə əsirdisə, eləcə də daim əsəcək. Daş kömür ehtiyatı isə nə qədər çox olsa da, tükənməz deyil. Daş kömürün əmələ gəlməsi üçün yüz milyonlarla il lazımdır.

Axar suyun enerjisindən də insanlar qədim dövrlərdən istifadə edirlər. Müasir dövrdə isə su-elektrik stansiyalarında bu enerji mənbəyindən elektrik enerjisi alınır.

**1.** Sizcə, qədimdə insanlar külək və su enerjisindən hansı məqsədlə istifadə etmişlər?

Günəş bizim planetimizdə tükənməyən ən güclü enerji mənbəyidir. Günəşin enerji ehtiyatı qeyri-məhduddur. Bu enerjini bir yerdən başqa yerə nəql etmək lazım deyil, o, planetin hər bir guşəsində var.

**2.** Sizcə, Azərbaycanın müxtəlif bölgələrində bərpa olunan enerjinin hansı növlərindən istifadə edilə bilər?

Nə qədər ki Günəş işıq saçır, külək əsir, çaylar axır, Yer kürəsində bərpa olunan enerji mənbələri mövcud olacaqdır. Lakin, təəssüf ki, onlardan hələ ki kifayət qədər istifadə olunmur. İnsanlar daha çox bərpa olunmayan enerji mənbələrinə üz tuturlar. Müasir dövrdə insanlar istifadə etdikləri enerjinin 80%-ni məhz bu enerji mənbələrindən alırlar. Yer üzərində bu enerjinin miqdarı hələ ki kifayət qədər çoxdur. Lakin son dövrdə insanlar getdikcə



LAYİHƏ

daha çox onun çatışmadığı barədə danışırlar. Çünki bəşəriyyət özünün və təbiətin bərpa edə bilməyəcəyi təbii ehtiyatların istifadəsində israfçılığa yol verir. Buna görə də bərpa olunmayan enerjiyə qənaət etmək hər kəsin bor-

**3.** Enerjiyə qənaətin ən sadə yollarını təklif edin.

Beləliklə, dünya iqtisadiyyatında bərpa olunmayan enerji mənbələrindən çox istifadə edilməsi bu ehtiyatların tükənməsinə gətirib çıxarır. Eyni zamanda bu yanacaq növlərindən qalan tullantılar təbiətə və insan sağlamlığına da böyük ziyan vurur. Belə ki, təbii qazın, maye yanacağın istifadəsi zamanı ətrafa çoxlu miqdarda zərərli maddələr yayılır. Faydalı qazıntıların yanması nəticəsində atmosferə buraxılan karbon qazının getdikcə artması planetimizdə iqlim dəyişikliyinə gətirib çıxarır. Son zamanlar haqqında çox danışılan *qlobal* istiləşmənin səbəbini də məhz bununla əlaqələndirirlər. Bu mövzu ilə bağlı söylənilən bəzi fikirlər hər kəsi təşvişə salır. Çünki yaşadığımız gözəl dünyanın yaşanmaz hala düşməsini görmək, hətta təsəvvürümüzə gətirmək belə istəmirik.

**4.** “Qlobal” sözünün mənasını açıqlayın. Bu sözlə “qlobus” sözü arasındakı məna yaxınlığını izah edin.

Yer atmosferi elə yaradılmışdır ki, planetimizdə yaşayış mümkün olsun. Atmosfer təbəqəsinin yeddi qatının hər birinin özünəməxsus funksiyası vardır. Əgər bu təbəqələr olmasa idi, Günəşin məhvedici şüaları Yer səthində bütün canlı aləmi bir andaca məhv edərdi.

Müasir dövrdə insanların fəaliyyəti nəticəsində ətraf mühit kimyəvi tullantılarla çirkləndirilir. Bu, atmosfer təbəqələrinin nizamının pozulmasına gətirib çıxara bilər. Bunun nəticələri isə çox ağır olar. Pozulmuş *ekoloji tarazlığın* bərpası çox çətindir. Bir sıra alimlər iqlim dəyişməsinin səbəbini də insanların fəaliyyətində axtarırlar. Onların fikrincə, müasir dövrdə texniki-iqtisadi inkişaf elə səviyyəyə çatmışdır ki, insanlar ətraf mühitə təbii amillərdən daha çox təsir göstərirlər.

Bütün deyilənlər bərpa olunan, başqa sözlə, alternativ enerji mənbələrindən istifadənin çox vacib olduğunu bir daha sübut edir. Yer üzərində sivilizasiyanın inkişafı və bəşəriyyətin gələcəyi naminə insanlar enerjiyə olan tələbatını bərpa olunan mənbələr hesabına əldə etməyin yollarını mütləq tapmalıdırlar.

*“Community and Environment” təşkilatının*
*“Mən enerjiyə qənaət edirəm” vəsaiti əsasında hazırlanmışdır.*



LAYİHƏ

## Düşün və cavab ver

**5.** Nümunəyə uyğun cədvəl qurun və enerji mənbələrinin adlarını sütunlar üzrə qruplaşdırın.

| Bərpa olunan enerji mənbələri | Bərpa olunmayan enerji mənbələri |
|---|---|
| | |

**6.** Verilmiş ifadələri müvafiq nöqtələrin yerinə qoymaqla cümləni tamamlayın.

*külək elektrostansiyalarından,*
*biokütlənin (yonqar, talaşa) yanma texnologiyasından,*
*günəş batareyalarından, hidroenergetik qurğulardan*

Enerji almaq məqsədi ilə çaylarla zəngin ölkələrdə … , düzən ərazilərdə … , cənub regionlarında … , zəngin meşə ehtiyatlarına malik ölkələrdə … geniş istifadə edilir.

**7.** Diaqramı şərh edin və buradakı məlumatlardan çıxış edərək Azərbaycanda enerji mənbələrindən istifadə haqqında fikirlərinizi söyləyin.




## Dil qaydaları

**8.** Mətndə göy rənglə verilmiş hansı söz feili sifət deyil?

***9.** Mətndə altından xətt çəkilmiş hansı söz məsdər deyil?



LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1.** Verilmiş frazeoloji birləşmələri cümlədə işlədin.

*əldən vermək, könlümə düşmək, bığlarını çeynəmək, xeyir gətirmək*

**2.** Təsriflənməyən feilləri seçib göstərin.

*gülləndə, baxır, danışdı, güləcək, de, qayıtmaq,*
*tutarkən, qayıtmalı (yol), yazılası (məktub)*

**3.** Dördündən biri qrammatik baxımdan fərqlidir:

1. A) qaçmadan B) qaçanda C) qaçarkən D) qaçan
2. A) çatar-çatmaz B) deyib-gülmək C) sata bilmək D) başa salmaq
3. A) almaq B) aldığım C) alıcı D) aldıqda
4. A) gedər-gəlməz B) gələr-gəlməz C) girər-girməz D) bilər-bilməz

**4.** Aşağıdakı cümlələrdən hansında altından xətt çəkilmiş söz feili bağlamadır? Cavabınızı əsaslandırın.

1. Dəvənin qanadı olsa, uçmamış dam qoymaz.
2. At almamış noxta davası edir.

**5.** Çalışmanı dəftərinizə köçürün. Altından xətt çəkilmiş sözlərin təsriflənən feil (F), isim (İ), sifət (S), yoxsa feili sifət (FS) olduğunu müvafiq xanada qeyd edin.

| | F | İ | S | FS |
|---|---|---|---|---|
| *çalışqan* şagird | ☐ | ☐ | ☐ | ☐ |
| emalatxanada *çalışan* uşaqlar | ☐ | ☐ | ☐ | ☐ |
| *deyingən* qarı | ☐ | ☐ | ☐ | ☐ |
| bütün günü *deyinən* kişi | ☐ | ☐ | ☐ | ☐ |
| *salınacaq* körpünün layihəsi | ☐ | ☐ | ☐ | ☐ |
| Qatar kənddə *dayanacaq.* | ☐ | ☐ | ☐ | ☐ |
| növbəti *dayanacaq* | ☐ | ☐ | ☐ | ☐ |
| təzə *əlüzyuyan* | ☐ | ☐ | ☐ | ☐ |
| əl-üzünü *yuyan* uşaq | ☐ | ☐ | ☐ | ☐ |
| *gələcək* nəslin problemi | ☐ | ☐ | ☐ | ☐ |
| *keçilmişlərin* təkrarı | ☐ | ☐ | ☐ | ☐ |
| Bu dərs artıq *keçilmişdir.* | ☐ | ☐ | ☐ | ☐ |



LAYİHƏ

6. S.Vurğunun "Ellər dünyası" şeirindən aşağıdakı bəndləri oxuyun və suallara cavab verin.

Al-yaşıl geyinmiş uca dağların
Qartallı qoynundan uzaqlaşmışam.
Könül bulandıran, xəyal küsdürən
Tozlu bir diyarla qucaqlaşmışam.

Burada hər tərəf yerdən göyədək,
Doğrudan, yandırır, yaxır insanı.
Acı bir hiss ilə gülümsəyərək
Deyirəm, gəzdiyim o yerlər hanı?

* I bənddəki *uzaqlaşmışam* və *qucaqlaşmışam* feillərinin qrammatik xüsusiyyətləri arasındakı fərqləri göstərin.

* I bənddə işlənmiş sifətlər və feili sifətlər haqqında deyilənlərdən hansı səhvdir?

A) Dörd sifət, üç feili sifət var.
B) Sifətlərdən biri zərf məqamında işlənmişdir.
C) Feili sifətlərdən biri qayıdış, ikisi icbar növdədir.

7. Verilmiş cümlələrdə fərqləndirilmiş feillərin məna növünü müəyyənləşdirib cədvələ yazın.

| Məlum | Məchul | Qayıdış | Qarşılıq-birgəlik | İcbar |
|---|---|---|---|---|
| | | | | |

1. Ovçu əlində tüfəng boz bir qayaya daldalanıb pusquda *durmuşdu.* *(Y.Səmədoğlu)*
2. *Qıyılmış* gözlərini göyə dikərək hikkəsindən dodaqlarını gəmirirdi. (*Y.Səmədoğlu*)
3. Bir sözlə, şəhər üzük qaşı kimi *mühasirəyə alınmışdı. (M.Süleymanov)*
4. Binanın *tikilməsi* barədə müxtəlif rəvayət və ehtimallar var.
5. Xidmətçilər məcməyiləri süfrəyə *düzdülər. (Y.V.Çəmənzəminli)*
6. Süfrəyə *qoyulmuş* ağ, nazik lavaşdan bir az *kəsib* yeməyə *başladı. (Y.V.Çəmənzəminli)*
7. Bu məsələni həll etmək üçün tərəflər *görüşməli idilər.*
8. O, portretini ən məşhur rəssama *çəkdirdi.*



LAYİHƏ



# IV BÖLMƏ

# KAMİLLİYƏ DOĞRU



LAYİHƏ

# ZAMANIN İDARƏ OLUNMASI



Uğura doğru gedən yol müəyyən zaman kəsiyindən keçir. Zaman isə heç vaxt lövbər salmayan sürətli gəmiyə bənzəyir. Onu saxlamaq, geriyə döndərmək mümkün deyil. Lakin ağılla idarə etmək olar.

Səhər oyanarkən axşamacan qarşımızda uzun bir zaman kəsiyinin olduğunu zənn edirik və bir çox işlər planlaşdırırıq. Ancaq gün başa çatanda bu işlərin çox az bir hissəsini həyata keçirdiyimizin fərqinə varırıq. Vaxtın belə sürətlə ötüb-keçməsinə heyrət edir, mənasız keçirdiyimiz saatlara təəssüflənirik.

**1. Altından xətt çəkilmiş cümlənin ifadə etdiyi fikri aydınlaşdırın.**

* * *

Zaman qum saatındakı kimi axıb gedir. Onun idarə olunmasında ən böyük məharət indini əldən verməməkdir. Odur ki “Bu günün işini sabaha qoyma” atalar sözünü “Axşamın xeyrindən sabahın şəri yaxşıdır” kəlamından üstün tutun.

Yəqin ki, böyüklərinizdən tez-tez “indiki ağlım olsaydı...” kəlmələrini eşitmisiniz. Belə vəziyyətə düşməmək üçün zamandan maksimum dərəcədə səmərəli istifadə etmək lazımdır.

Bir dəfə caz ustası Lui Armstronqu məşhur fizik, Nobel mükafatı laureatı Nils Borla tanış edirlər. Onlar müəyyən müddət bir yerdə vaxt keçirməli olurlar. Armstronq fizikə şeypurda çalmağı öyrədir, Bor da, öz növbəsində, onu atom nüvəsinin parçalanması üsulları ilə tanış edir.

– Biz vaxtımızı çox səmərəli keçirdik, – deyə Armstronq jurnalistlərə danışırdı. – İndi onun caz, mənim isə atom haqqında müəyyən təsəvvürüm var.

Dünyada uğur qazanan əksər insanların nailiyyətlərinin arxasında zamandan səmərəli istifadə dayanır. Qədim Roma filosofu Seneka da bunu deyirdi: “Xoşbəxtlik uğura, uğur isə zamandan səmərəli istifadəyə bağlıdır”.

* * *

Zamanı idarə etməyi bacaran insan məqsədə doğru yolunu planlaşdıran və bunun üçün lazım olan zamanı ayırmağı bacaran insandır. Plan-

LAYİHƏ

laşdırdığınız iş ona ayırdığınız zamana uyğun olmalıdır. Həm işin çətinliyini, həm də öz əqli və fiziki imkanlarınızı nəzərə almalısınız. “Filankəs bu işi filan vaxta görür, mən də o qədər vaxt ayırım”, – deyə düşünmək olmaz.

İş və zaman nisbətini müəyyən edərkən işin keyfiyyətini əsas götürməlisiniz. Dərs oxuyarkən də bu prinsipi əldə əsas tutmaq lazımdır. İki oxşar fənni ardıcıl oxumaq düzgün deyil. Çətin dərsləri əvvələ, sevdiyiniz dərsi və ya işi yorğun vaxtınıza salsanız, vaxtınızdan daha səmərəli istifadə etmiş olarsınız. Fasiləsiz uzun müddət oxumaq da məqsədəuyğun deyil.

* * *

Bəzən vaxt azlığından şikayətlənirsiniz. Lakin vaxtı sizdən oğurlayanlar var. Geriyə dönüb baxsanız, vaxt oğrularınızı özünüz də görə bilərsiniz: faydasız televiziya verilişlərinə baxmaq, lazımsız məşğuliyyətlər, internet vasitəsilə sosial şəbəkələrdə keçirdiyiniz hədər saatlar və s. Hər halda, bu işlərə faydalı əməkdən sonra sizi əyləndirən, ovqatınızı yüksəldən bir mükafat kimi baxsanız, daha yaxşı olar. Ancaq bu məşğuliyyətə ayırdığınız vaxta ciddi məhdudiyyət qoyun, vaxt bitən kimi ondan ayrılın.

Vaxt oğrularından biri də yuxudur. Alimlər hesablamışlar ki, 80 il ömrü olan insan gündə orta hesabla 7 saat yatırsa, ömürdən 23 il 4 ay oğurlayır. Təsəvvür edin ki, gündə bircə saat az yatsanız, faydalı həyat dövrünə ayırdığınız vaxtı bir neçə il uzada bilərsiniz. Planlı hərəkət edən insanlar yuxu məsələsində daha iradəli davranırlar.

* * *

İlk baxışda planlı həyat tərzi sizə çox cansıxıcı görünə bilər. Özünüzü bir robot kimi hiss edə bilərsiniz, hətta kimsə sizi *pedantizmdə* günahlandıra bilər. Ancaq nizamlı bir həyat tərzinə uyğunlaşmağa çalışsanız, qısa müddət ərzində bunun faydasını hiss edəcəksiniz. Planla hərəkət etsəniz, işləriniz üst-üstə düşməz və yığılıb qalmaz. Beləcə, nə vaxt dincəlib, nə vaxt dərslərlə məşğul olacağınızı və nə zaman əylənəcəyinizi dəqiq biləcək, hər şeyə vaxt çatdıracaqsınız.

Zamandan düzgün istifadə qətiyyən ifrat dərəcədə çalışmaq, özünü sosial həyatdan ayırmaq, televizordan imtina etmək deyil. Zamandan səmərəli istifadə onun hansı hissəsini bunlara sərf edəcəyini qabaqcadan bilmək və bu bilgiyə görə hərəkət etməkdir. Məqsədə çatmaq və uğur qazanmaq üçün vacib amil həddən çox çalışmaq yox, zamanın yüyənini əlinə alıb səmərəli çalışmaqdır.

*Aylin Atmacanın*
*“Zamanı necə idarə etməli” kitabından*

LAYİHƏ

### Düşün və cavab ver

**2.** Aşağıdakı başlıqların mətnin hansı hissələrinə uyğun gəldiyini müəyyənləşdirin.

- Vaxt oğruları
- Zamandan səmərəli istifadə edək
- Robot olmayın
- Sürətlə axıb gedən zaman
- İş və zaman nisbətində keyfiyyəti üstün tutun

**3.** Aşağıdakı hekayəni mətnin hansı hissəsinə əlavə edərdiniz?

"Bir meşədə iki nəfər ağac kəsirmiş. Birincisi səhər tezdən yuxudan durur, ağacları kəsməyə başlayırmış. Bir ağac yıxılan kimi o birisinə keçirmiş. Gün boyunca nə dincəlir, nə də fasilə verirmiş.

İkinci odunçu isə arabir dincəlir, hava qaralanda evə gedirmiş. Bir həftə beləcə çalışırlar. Sonda məlum olur ki, ikinci odunçu daha çox ağac kəsib.

Birinci odunçu hirslənir: "Necə ola bilər? Mən daha çox çalışmışam. Səndən daha tez işə başlamışam, səndən daha gec işimi qurtarmışam. Amma necə olur ki, sən daha çox ağac doğramısan? Bu işin sirri nədir?"

İkinci odunçu ona cavab verir: "Düzdür, sən dayanmadan, dincəlmədən işləyirdin. Mən isə aradabir dincəlirdim. Dincələ-dincələ də baltamı itiləyirdim. İti balta ilə daha az zəhmət çəkib, daha çox ağac doğramaq olar".

### Şifahi nitq

**4. Müzakirə.** Verilmiş aforizmlərdə ifadə olunan fikirlərə münasibətinizi bildirin.

*Adi insan zamanını necə öldürəcəyi, bacarıqlı insan isə zamanını necə qazanacağı haqda düşünür. (A.Şopenhauer)*

*Vaxt azlığından ən çox şikayət edənlər zamanlarından ən pis formada istifadə edənlərdir. (Labruyer)*

### Yazı

**5.** "Bircə saatın qədrini bilməyən adam həyatın da dəyərini bilməz" fikrini təsdiq edən esse yazın.

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş sözlərin cümlədə hansı məna çaları – bənzətmə, səbəb, zaman, vasitə və s. əmələ gətirdiyini müəyyənləşdirin.



LAYİHƏ

**7.** Verilmiş sözləri müvafiq cümlələrdə nöqtələrin yerinə əlavə edin və onların yaratdığı məna çalarını izah edin:

*ötrü, əvvəl, kimi, doğru*

1. Səndən ... mən danışmışam.
2. Səndən ... darıxıram.
3. Şəhərə çatan ... , ilk növbədə, Şəhidlər xiyabanını ziyarət etdi.
4. Körpə əllərini anasına ... uzatdı.

**Yadda saxla!** **QOŞMA**

Qoşma köməkçi nitq hissəsidir. Leksik mənası olmasa da, cümlədə sözlərə qoşulub məna çaları yarada bilir:

*Mən məktəbə tərəf (istiqamət) gedirəm.*
*Mən məktəbə qədər (məsafə) gedirəm.*
*Sənin üçün (səbəb-məqsəd) çalışıram.*

**8.** Qoşmaları tapın və uyğunluğu müəyyən edin.

A) İnternetdən Qarabağa dair xeyli material tapdım.
B) O, ailəsi ilə başqa şəhərə köçüb.
C) Bəzi adamlar müəllifin səhvini tutmaq üçün kitab oxuyurlar.
D) Aydın sevincindən quş kimi uçmaq istəyirdi.
E) Dünəndən bəri yağan qar yeri-yurdu ağ örtüyə bürümüşdü.

| | | | | | |
|---|---|---|---|---|---|
| Bənzətmə mənası bildirir: | A | B | C | D | E |
| Birgəlik mənası bildirir: | A | B | C | D | E |
| Zaman mənası bildirir: | A | B | C | D | E |
| Səbəb-məqsəd mənası bildirir: | A | B | C | D | E |
| Aidlik mənası bildirir: | A | B | C | D | E |

**9.** Cümlələrdə nöqtələrin yerinə uyğun gələn qoşmaları əlavə edin.

*qarşı, bəri, sonra, başqa, kimi, üçün, dair, ilə*

1. Eldardan ... heç kim gəlməmişdi.
2. İllərdən ... onunla görüşməmişdim.
3. Ana qəhrəman oğlu ... fəxr edirdi.
4. Düşmənə ... nifrətim daha da artdı.
5. Onunla qarşılaşdığım ... sevinirdim.
6. Bu məsələyə dair suallarınıza cavab verə bilərəm.
7. Onun ... rejissor az tapılar.
8. Yağışdan ... güclü külək başladı.



LAYİHƏ

**10.** Hansı cümlədə "görə" qoşması istinad, hansında səbəb-məqsəd ifadə edir?

A) Plutarxa görə, Makedoniyalı İsgəndər M.ö. 356-cı ildə anadan olmuşdur.
B) Müsabiqəyə yaxşı hazırlaşmadığına görə mükafatsız qaldı.

**11.** Qoşmaların aid olduğu sözlərə müvafiq hal şəkilçiləri artırmaqla cümlələri köçürün.

1. Mən… üçün bu məsələnin həlli vacib idi.
2. Sən… başqa halımı kimsə bilməz.
3. Şəhər… kimi maşınla getdik.
4. Dünən… qədər onun haqqında yüksək fikirdə idim.
5. Dayım iti addımlarla biz… tərəf gəldi.
6. İki il… bəri görmədiyi doğma şəhərə çatmışdı.
7. O… başqa heç kəsin bu hadisədən xəbəri yox idi.

**12.** Cümlələrdə qoşmaları tapın və onların yaratdığı məna çalarını müəyyən edin.

1. Yetişmək üçün meyvənin günəşə, cavanın məsləhətə ehtiyacı var.
2. Bütün uğurlarıma görə gənclikdə çəkdiyim aclıq və əzablara borcluyam. *(Napoleon)*
3. Azadlıq yoxa çıxandan sonra yalnız ölkə qalır, vətən isə artıq yox olur. *(Şatobrian)*
4. Başqasının səhvinə dözsək də, öz səhvimizə qarşı amansız olmalıyıq. *(S.Tastu)*
5. Odunçuya gücdən əvvəl təcrübə lazımdır. *(Homer)*

**13.** Altından xətt çəkilmiş hansı söz qoşma deyil?

İnsanın əzəməti onun boyu ilə ölçülmədiyi kimi, millətin əzəməti də onun sayı ilə ölçülmür. *(V.Hüqo)*

***14.** Müşahidələrinizə istinad edərək aşağıdakı qaydaları tamamlayın.

*Tərəf, doğru, qarşı, sarı* qoşmaları … halda olan sözlərə qoşulub … mənası əmələ gətirir.

*Əvvəl, sonra, qabaq, bəri* qoşmaları … halda olan sözlərə qoşulub … mənası əmələ gətirir.

*Qədər, kimi, -dək, -can²* qoşmaları … halda olan sözlərə qoşulub … mənası əmələ gətirir.



LAYİHƏ

# UĞURA GEDƏN YOL

Həyatda uğur qazanmaq üçün, ilk növbədə, gələcəyə yönəlmiş hədəf seçməlisiniz. Daha sonra həmin məqsədə aparan yaxın hədəfləri müəyyənləşdirmək lazımdır. Özünüzə qısamüddətli hədəflər seçməklə daha uzaq hədəflərə çata bilərsiniz. Beləliklə, həyat *strategiyanızı* və *taktikanızı* müəyyən etmiş olursunuz.

**1.** "Strateji məsələ", "döyüş taktikası" ifadələrini yada salaraq "strategiya" və "taktika" sözlərini izah edin. Sizcə, bu sözlərdən hansı "son hədəf", hansı "hədəfə aparan yollar" mənasını verir?

Hədəf seçilən andan insanın həyat tərzi də dəyişir. Əgər səhər evdən çıxanda hara gedəcəyinizi bilmirsinizsə, bütün günü boş-boş veyillənib axşam evə qayıdacaqsınız. Amma harasa getməyə qərar vermisinizsə, ünvanı bilməsəniz də, soruşa-soruşa mənzilbaşına gedib çıxa bilərsiniz.

Hədəfi seçərkən vacib məqamlardan biri də realist olmaqdır. Reallıqdan uzaq olan hədəf arzu və xülyadır. Qarşınıza qoyduğunuz məqsəd təbiətinizə uyğun olmalıdır ki, ona doğru irəliləmək sizə zövq versin. Hədəfinizi düşündükcə bezməməli, əksinə, özünüzdə əzm və iradə tapmalısınız. Bunun üçün də qarşınıza qoyduğunuz hədəf qabiliyyətlərinizdən nə həddindən artıq yüksək, nə də həddindən artıq aşağı olmalıdır.

* * *

Hədəfə gedən yol çox zaman təhsildən keçir. Hansı peşəyə yiyələnməyin bir o qədər də önəmi yoxdur, önəmli olan peşəyə hansı səviyyədə yiyələnməkdir.

Təhsil insanın gələcək peşəsini, cəmiyyətdəki yerini təmin edən ən mühüm şərtlərdən biridir. Əlbəttə, kimsə etiraz edə bilər: Hacı Zeynalabdin Tağıyevin heç orta təhsili də olmayıb, amma o, Azərbaycan tarixində dərin iz qoymuş iş adamı və xeyriyyəçi olub.

Nəzərə almaq lazımdır ki, təhsil diplom almaqdan ibarət deyil. Təhsilini yarımçıq qoymaq və ya təhsil almamaq öyrənməmək deyil. Siz universitetə daxil olub ali təhsilli mütəxəssis də ola bilərsiniz, ümumi orta təhsili bitirməmiş müəyyən peşəyə yiyələnə də bilərsiniz. Əsas məsələ peşəkar olmaq, seçdiyiniz peşənin və ya ixtisasın sirlərinə dərindən bələd olmaqdır. Seçdiyiniz sahədə özünüzü təsdiqləməyə çalışın. Onu da yadda saxlayın ki,



LAYİHƏ

insanın xoşbəxt olması üçün çox vaxt pul kifayət etmir. Sevdiyi bir işdə çalışmaq tamamilə başqa bir həzdir.

Mükəmməl təhsil təkcə dərs oxumaqdan ibarət deyil. İnsan o zaman həqiqi mənada uğur qazana bilər ki, bir şəxsiyyət kimi hərtərəfli inkişaf etsin. Yalnız bir-iki fənni dərindən öyrənmək uğur qazanmaq üçün kifayət etmir. Həyatınızda idmana, sənətə, ədəbiyyata, musiqiyə, yaradıcılığa və müxtəlif sosial fəaliyyətlərə də yer ayırmalısınız. Çalışın ki, fəal, yeni-yeni təkliflərlə çıxış edən bir insan olasınız. Bu sizin ictimai nüfuzunuzu artıracaq və ətrafdakıları sizinlə hesablaşmağa məcbur edəcək.

* * *



Uğurun daha bir sirri özünəinamdır. Nə edirsinizsə edin, daim hədəfə çatmaqda israrlı olun, mənfi düşüncələri özünüzdən uzaqlaşdırın. Hədəfə doğru gedən yolda büdrəmələr də olur, taleyin gözlənilməz zərbələri də. Ancaq bütün bunlar sizi ruhdan salmamalıdır. Heç zaman özünüzə inamı itirməyin. İtirsəniz, o dəqiqə uğursuzluq başınızın üstünü alacaq.

Yeni Zelandiyanın Oklend şəhərində doğulmuş Edmund Hillari uşaq yaşlarından idmanla məşğul olur, alpinizmə həvəs göstərirdi. Onun ən böyük arzusu dünyanın ən uca zirvəsi olan Everesti fəth etmək idi. Nəhayət, 1952-ci ildə o buna cəhd etdi, lakin cəhdi uğursuzluqla nəticələndi. Bu cəhddən bir neçə həftə sonra Hillari İngiltərə məktəblərindən birinə, şagirdlərlə görüşə dəvət olunmuşdu.

Bu görüşü zamanı Hillari şagirdlərə demişdi:

– Mənə qalib gəldiyi üçün Everest gözümdə böyüdü, amma o da bir şeyi yaxşı yadında saxlamalıdır ki, hədəfimə çata bilmədiyim üçün içimdəki əzm daha da artıb, daha da güclənib, buna görə də mən ona qalib gələcəyəm...

Sonra əzmkar alpinist Everest dağının məktəb divarından asılmış şəklinə baxaraq ona meydan oxumuşdu:

– Mənə ilk cəhdimdə qalib gəldin, amma səninlə mübarizəm bitməyib, ey Everest! Gözlə məni, yenə gələcəyəm və bu dəfə sən ayaqlarımın altında olacaqsan".



LAYİHƏ

Bu çıxışından bir il sonra, doğrudan da, Everest Hillarinin ayaqları altında idi... 29 may 1953-cü ildə saat 11:15-də Edmund Hillari indiyə kimi zirvəsini heç kimin görmədiyi Everestin ən uca nöqtəsində dayanmışdı.

O bunu bacardı və bu uğuruna görə ona kraliça II Yelizaveta tərəfindən "cəngavər" adı verildi.

Bəli, hər bir uğurun arxasında səbir, əzmkarlıq, dözüm, zəhmət dayanır. Əlbəttə, bir şagird kimi siz də yaxşı oxumaq, ali məktəbə qəbul olmaq, istədiyiniz ixtisasa yiyələnmək istəyirsiniz. Unutmayın, bu çətin yolda yalnız səbirli və iradəli olanlar böyük uğurlara imza atacaqlar. Çətinliksiz həyatın mənası və marağı olmur. Odur ki istənilən problemlə üzləşəndə stressə düşməyin, ona dəf olunmalı maneə kimi baxın. Problem həllinin sevincini yaşayın. Belə olsa, uğur sizin üçün qaçılmaz olacaq.

*Aylin Atmacanın*
*"Zamanı necə idarə etməli" kitabından*

### Düşün və cavab ver

**2.** Verilmiş aforizmlər mətnin hansı abzaslarına uyğun gəlir?

1. Heç bir uğura çiçəkli yollarla gedilməz. *(Lafonten)*

2. "Mümkün deyil" ifadəsi ancaq axmaqların lüğətində ola bilər. *(Napoleon)*

3. Məqsədinizə çatmaq üçün həmin şeyi ürəkdən arzulamalısınız. *(Ovidi)*

4. Hara getdiyinizi bilmirsinizsə, heç bir yol sizi getdiyiniz yerə aparmayacaq. *(Martens)*

5. Elmdən keçməyən yolun sonu qaranlıqdır. *(Hacı Bəktaş Vəli)*

6. "Böyük işləri asanlaşdırmaq üçün onların icrasını bir neçə mərhələyə bölməlisən". *(Henri Ford)*

7. Hər istədiyini edə bilmirsənsə, edə biləcəyin şeyləri istə. *(Firdovsi)*

8. Sabah nə edəcəyini bilməyən insan bədbəxtdir. *(Konfusi)*

**3.** Verilmiş aforizmləri öz sözlərinizlə izah edin.

1. Hədəfi olmayan gəmiyə heç bir külək kömək edə bilməz. *(Mişel Monten)*

2. Bütün böyük işlərin əvvəli kiçik başlanğıclardır. *(Siseron)*



LAYİHƏ

**Dil qaydaları**

4. Mətnin sonuncu abzasında göy rənglə verilmiş qoşmaları aid olduğu sözlə birlikdə tələffüz edin. Deyilişi və yazılışı arasında olan fərqi müəyyənləşdirin.

**Yadda saxla!** **QOŞMALARIN DEYİLİŞİ VƏ YAZILIŞI**

Çoxhecalı qoşmalar qoşulduğu sözlərdən ayrı yazılır: *Çətinliklərə sinə gərə bilmək üçün qaya kimi möhkəm olmaq lazımdır.*

Təkhecalı qoşmalar (*-dək, -can*², *-ca*², *-tək*), o cümlədən *ilə* qoşmasının ixtisar forması (*-la, -lə*) qoşulduğu sözlərə bitişik yazılır: *Həmin gün səhərəcən yatmadıq. Dəryaca ağlın olsa, yoxsul olsan, gülərlər.*

*İlə* qoşması samitlə bitən sözlərdən sonra [-nan], [-nən], saitlə bitən sözlərdən sonra [-ynan], [-ynən] şəklində tələffüz olunur: *Varını heç kəslə [kəsnən] bölüşmək istəməyən yoxsuldur. Məktubu ona çatdır, qalanı ilə [qalanıynan] işin yoxdur.*

*Üçün* qoşması samitlə bitən sözlərdən sonra [-çün], saitlə bitən sözlərdən sonra [-yçün] şəklində tələffüz olunur: *Böyük insanların səhvləri axmaqlar üçün [axmaxlarçün] təsəllidir. Sərkərdə üçün [sərkərdəyçün] qələbədən şirin şey yoxdur.*

5. *Kimi, savayı, -can*², *-dək, -tək* qoşmalarını müvafiq sözlərə artıraraq cümlələrdə işlədin və dəftərinizə yazın.

6. Cümlələrdən orfoqrafik qaydaya uyğun olmayan qoşmaları seçib dəftərinizə düzgün şəkildə yazın.

1. Azad fikrini cəmləməkçün gözlərini yumub sakitləşməyə çalışdı.
2. Uşaqlar axşama can çalışdılar.
3. O, yay tək dartınıb yuxarı atıldı və topu səbətə saldı.
4. Anar səhərə dək yatmayıb atasının dedikləri haqqında düşündü.
5. Nailə rəfiqələriynən gəzməyə çıxmışdı.
6. Anasıyçün bayrama gözəl hədiyyə hazırlamışdı.

7. Qoşmaların işlənməsi ilə bağlı düzgün variantı seçib cümlələri dəftərinizə köçürün.

Bilmirdim ki, bunu məndən ***ötrü*** / ***ötəri*** edirsən.
Sinfimizdə ***səni*** / ***sənin*** qədər çalışan yoxdur.
O günlər xəyal***dək*** / ***tək*** uzaqlardadır.



LAYİHƏ

# TƏQVİM



Divardan təqvim asılıb. Onun köməyi ilə yeni dərs ilinə neçə gün qaldığını, bayramların həftənin hansı günlərinə düşdüyünü hesablamaq olar. Təqvim hamı üçün vacibdir. Hər bir insan, xalq, dövlət təqvim üzrə yaşayır.

Qədim insanlar vaxtı hesablamağı bacarmırdılar. Lakin onlar görürdülər ki, qaranlıq gecələr işıqlı gündüzləri əvəz edir, müəyyən müddət havalar soyuq keçir, sonra istilər başlayır və bütün bunlar vaxtaşırı təkrar olunur. Onlar günləri saymaq üçün ağac və ya daş üzərində işarələr qoyurdular.

Həyat tərzi dəyişdikcə insanın dəqiq vaxt ölçülərinə tələbatı artırdı. Məsələn, əkinçilər üçün səpin və məhsul yığımının nə vaxt başlanacağını bilmək çox vacib idi. Vaxtı hesablamaq hökmdarlar, tacirlər, sənətkarlar üçün də lazım idi. Bax onda təqvim meydana çıxdı.

Ən qədim təqvim Ay təqvimi olmuşdur. İlk Ay təqvimi Miladdan öncə III minillikdə tərtib edilmişdir. Bu təqvimə görə, Ayın Yer ətrafında dövr etməsi vaxtı – 29 sutka 12 saat – əsas vaxt ölçüsü kimi qəbul edilir və bir ay adlanır. Bəlkə də, bir çox dillərdə “ay” sözünün həm səma cismi, həm də zaman vahidi bildirməsi bununla əlaqədardır. Ay təqviminə görə, bir il on iki aydan ibarətdir. Bu təqvim sonralar Şərq ölkələrində geniş yayıldı. Bu gün iyirmidən çox Şərq ölkəsi Ay təqvimindən istifadə edir.

**1.** Bildiyiniz xarici dillərdə “ay” sözünün tərcüməsini və onun mənalarını araşdırın.

Müasir dövrdə təqvimin geniş yayılmış növü Günəş təqvimidir. Bu təqvimin vətəni Qədim Misirdir. Misirlilər Nil çayında suyun nə vaxt bol olacağını əvvəlcədən bilməli və həmin vaxta qədər kanalları təmizləməli, bəndləri möhkəmlətməli idilər. Əgər Nilin suyunu bəndləyib əkinlərə verməsə idilər, su axıb dənizə gedərdi və tarlalar susuz qalardı. Bütün ölkənin həyatı və abadlığı isə məhsuldan asılı idi.

Misir kahinləri gördülər ki, iyunun 22-də, ən qısa gecədən sonra günəş çıxmazdan əvvəl səmada parlaq Sirius ulduzu görünür. Elə həmin vaxt çayın suyu daşır. Onlar hesabladılar ki, Sirius ikinci dəfə görünənə qədər 365 gün keçir. Bu uzun müddəti hər biri 30 gün olan on iki mərhələyə böldülər. Artıq



LAYİHƏ

qalan beş günü isə ilin axırına caladılar. Beləliklə, Günəş təqvimi yarandı.

Bir neçə il sonra müşahidə etdilər ki, Sirius ulduzu "gecikir"! Təqvim üzrə il qurtarırdı, Sirius isə görünmək bilmirdi. Təqvim tələsirdi! Kahinlər başa düşdülər ki, vaxtı düzgün hesablamayıblar. Sən demə, il 365 gün və 6 saatdan ibarət imiş. Fərq o qədər də böyük deyildi, amma dörd ildə bir sutka edirdi.

**2.** Ay və Günəş təqvimlərinə görə ildəki günlərin sayı arasındakı fərqi hesablayın.

Təqvimi çox sonra Roma sərkərdəsi Qay Yuli Sezar dəyişdi. Tarixə yulian təqvimi kimi daxil olmuş bu təqvimə görə, bəzi aylarda 30, bəzilərində 31, fevral ayında isə cəmi 28 gün vardı. Hər dörd ildən bir bu qısa aya bir gün əlavə edilirdi ki, təqvim irəli getməsin. Həmin ildə 366 gün olur, ... biz ona uzun il deyirik. Bizim indi istifadə etdiyimiz təqvim belə yarandı.

Beləliklə, yeni təqvim yarandı. Lakin sonralar daha ciddi hesablamalar nəticəsində məlum oldu ..., bir ilimiz, əslində, 365 gün 5 saat 48 dəqiqə 46 saniyədir. Adama elə gəlir ki, il üçün 11 dəqiqə 14 saniyənin böyük əhəmiyyəti olmaz, ... hesablamalar göstərir ki, bu kiçik zaman kəsiyi təqvimdə hər 400 ildə təxminən ▬ sutkanın artıq qalmasına səbəb olur. Bunu nəzərə alaraq 1582-ci ildə Roma papası XIII Qriqori təqvimdə yeni düzəliş etdi. ..., onun göstərişi ilə təqvim 12 gün qabağa çəkildi.

**3.** Göy rəngli boşluğun yerinə hansı say uyğun gəlir?

"Təqvim" anlayışı ilə "il hesabı" anlayışını fərqləndirmək lazımdır. "İl hesabı" dedikdə ilin, tarixin başlandığı gün, hadisə nəzərdə tutulur. Qədim və orta əsrlərdə ayrı-ayrı xalqlar müxtəlif il hesablarından istifadə edirdilər. Əksər ölkələrdə, o cümlədən Azərbaycanda il yazın gəlişi ilə başlanırdı. Bəzi ölkələrdə ilin başlanğıcı kimi yeni hökmdarın hakimiyyətə keçməsi, bəzilərində paytaxt şəhərin əsasının qoyulması (Romada), Olimpiya oyunlarinin keçirilməsi (Yunanıstanda) və s. qəbul edilmişdi. Orta əsrlərdə Avropa ölkələri yanvarın 1-ni ilin ilk günü kimi qəbul etdilər. Bunu İsa Məsihin doğum günü ilə əlaqələndirirdilər. Ərəblər ilin başlanğıcı üçün Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsi (hicrət) gününü (miladi tarixlə 16 iyul 622-ci il) götürmüşlər. Müsəlman ölkələrində geniş yayılmış bu il hesabı "hicri tarix" adı ilə məşhurdur.

Azərbaycanda qriqorian təqviminə keçid və yeni ilin yanvardan başlanması 1918-ci ilə təsadüf edir.

*Rafiq Ələkbəroğlu*



LAYİHƏ

### Düşün və cavab ver

**4.** Nəyə görə hər dörd ildən bir fevral ayı 29 gündən ibarət olur?

**5.** Miladi tarixlə hicri-qəməri tarix arasındakı fərqləri izah edin.

**6.** Bəzi insanlar hər il yanvarın 13-də "köhnə" yeni ili bayram edirlər. Sizcə, bu nə ilə bağlıdır?

**7. Debat.** Azərbaycan dilində eyni məna kəsb edən aşağıdakı ifadələrdən hansını işlətmək daha düzgündür?
A) Miladdan öncə (M.ö.)
B) Bizim eradan əvvəl (b.e.ə.)

### Yazı

**8.** Oxuduğunuz və dinlədiyiniz mətnləri ümumiləşdirərək əsas məlumatları tezislər şəklində dəftərinizə yazın.

### Dil qaydaları

**9.** Mətndə göy rənglə verilmiş nöqtələrin yerinə *belə ki, lakin, ki, odur ki* sözlərindən uyğun gələnini artırmaqla mətnin həmin hissəsini bir daha oxuyun.

**Yadda saxla!** **BAĞLAYICI**

Köməkçi nitq hissələrindən biri də bağlayıcıdır. Bağlayıcı cümlə üzvləri və cümlələr arasında əlaqə yaratmağa xidmət edir:
Dalğalar sahilə can atır, ***lakin*** tez geri çəkilirdi.
Ana ***və*** Vətən müqəddəsdir.

**10.** Verilmiş bağlayıcılardan istifadə etməklə cümlələri bərpa edin.

*o cümlədən, və, halbuki, ki, ancaq*

1. Qafur dərhal hiss etdi ..., komandirin ona ehtiyacı var.
2. Məhəmməd qışda da burda olmuşdu, ... bu gözəlliyə fikir verməmişdi.
3. Ağıl ... məntiqlə düşünməyi bacaran insan mənasız işlərə baş qoşmaz.
4. Bütün nitq hissələri, ... köməkçi nitq hissələri müəyyən qrammatik mənaya malikdir.
5. Müəllim Orxanı cəzalandırdı, ... günahkar Samir idi.



LAYİHƏ

**11.** Cümlələri dəftərinizə yazın, bağlayıcıların altından xətt çəkin.

1. Azadlıq xurma deyil ki, yetişməsini gözləyəsən. *(R.Rza)*
2. O vaxta ya şah ölər, ya da eşşək. *(məsəl)*
3. Həmişə sülh tərəfdarı ol, amma müharibəyə də hazır ol. *(Napoleon)*
4. Xoşbəxtliyin yolu zəhmət ilə cəsarətdən keçir. *(O.Balzak)*
5. Namaz qılarkən onu uzatmaq istəyirəm, lakin kiçik bir uşağın ağlamasını eşidəndə namazımı uzatmıram, çünki onun ağlar səsini eşidən ananın nə hala düşdüyünü çox yaxşı bilirəm. *(Məhəmməd Peyğəmbər)*
6. Düşüncələrimizi zorla başqalarına qəbul etdirmək həm faydasız, həm də günah işdir. *(A.Klauber)*

**12.** Hansı cümlələrdəki bağlayıcılar bir-birini əvəz edə bilər?

| | | | |
|---|---|---|---|
| 1 | Şeirdə və ya musiqidə də elmə rast gəlmək olur. | A | Geriliyin əsas səbəbi elm və mədəniyyətə lazımi qiymət verilməməsidir. |
| 2 | Bu problemlə tarix elminin bir çox sahələri, o cümlədən arxeologiya məşğuldur. | B | Bir dövləti siyasi, yaxud iqtisadi cəhətdən təcrid etmək blokada adlanır. |
| 3 | Göyçək Fatma ilə qardaşı meşədə azdılar. | C | Biz kim olduğumuzu bilir, fəqət kim olacağımızı bilmirik. *(U.Şekspir)* |
| 4 | Kəşf etmək hamının gördüyünü görmək, lakin heç kəsin ağlına gəlməyəni düşünmək deməkdir. | D | Bir çox ad bildirən sözlər, eləcə də coğrafi adlar həmişə böyük hərflə yazılır. |

**13.** Aşağıdakı aforizmlərə münasibətinizi bildirin və "isə" bağlayıcısına dair suallara cavab verin.

1. Qorxaqlar taleyə təslim olur, cəsurlar isə taleyi təslim edir. *(C.Qay)*
2. Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər. *(F.Bekon)*
3. İncəsənət "mən", elm isə "biz" deməkdir. *(K.Bernar)*

- "İsə" bağlayıcısı hansı bağlayıcılarla sinonim sayıla bilər?

*• "İsə" bağlayıcısının cümlədə işlənməsi digər bağlayıcılardan nə ilə fərqlənir?



LAYİHƏ

# YAZI – PİKTOQRAMDAN HƏRFLƏRƏ

*Sivilizasiyanın* ilkin mərhələlərində yazının meydana gəlməsi insanların bilik və təcrübələrinin artması ilə bağlı idi. Əldə olunan bilikləri gələcək nəsillərə ötürmək lazım idi.  Bunu isə yazı vasitəsilə etmək olardı.

Çox qədimdə insanlar fikir və duyğularını yazıda əks etdirmək üçün rəsmlərdən istifadə edirdilər. Bu yazı növü yəni məzmunun rəsmlərlə ifadə olunması elmdə piktoqrafiya adlanır. Belə rəsmlərə isə *piktoqram* deyilir.

*Piktoqrafik* yazıların elementlərinə Azərbaycanın bir sıra bölgələrində rast gəlmək olar. Bunlardan ən məşhurları Bakı yaxınlığındakı Qobustan və Ordubaddakı Gəmiqaya rəsmləridir. Piktoqramlar vasitəsilə insanlar gələcək nəsillərə xalqın adət-ənənələri, məşğuliyyəti, inancları haqqında informasiya çatdırırdılar. Məsələn Gəmiqaya rəsmlərində günəş təsvirlərinin çoxluğu Azərbaycanda Günəşlə bağlı inancların geniş yayıldığını göstərir. Günəş tanrısına inam türk xalqlarının *mifologiyasında* əks olunmuşdur. Azərbaycan folklorunda da Günəş və Ayla bağlı xeyli əfsanə var.

***

Miladdan öncə III minillikdə Qədim Misir xalqı öz yazı sistemini yaratdı. Sonralar heroqlif (müqəddəs) adlanan bu yazı, əsasən, ilahların heykəlləri və *sarkofaqlar* üzərində həkk olunurdu.

Misir yazısı yüzlərcə heroqlifdən ibarət idi. Bəzi heroqliflər sözü (anlayışı), bəziləri isə səsi ifadə edirdi. Belə mürəkkəb yazını mənimsəmək vaxt tələb edirdi. Yazmaq və oxumaq xüsusi peşə sayılırdı və dövrünə görə şərəfli və gəlirli bir iş hesab edilirdi.

Çinlilərin Miladdan 2000 il öncə yaratdıqları və bu gün də istifadə etdikləri yazı sistemi də heroqlif yazısı hesab olunur. Çin heroqlif yazısında minlərlə işarə vardır. Bu işarələrdən bəziləri konkret səsi, bəziləri isə bütöv sözü – anlayışı bildirir.

***

Miladdan öncə III minilliyin ortalarında şumerlərin istifadə etdikləri yazı mixi yazı adlanırdı. Mixi yazını gil lövhəciklər üzərində mismarla yazırdılar. Bu lövhəcikləri günəş şüaları altında qurudurdular. Mixi yazıda minə yaxın işarədən istifadə olunurdu. Hər bir işarə bir neçə cızıqdan ibarət olub bütöv sözü ya da ayrıca bir hecanı göstərirdi.

Sonralar mixi yazı təkmilləşdirildi. Artıq 600-dən çox işarədən ibarət olan bu yazıdan Assuriya və Urartu padşahlıqlarında geniş istifadə edirdilər.

Sonuncu Assuriya padşahı Aşşurbanipal yaxşı təhsil görmüş hökmdar idi.



LAYİHƏ

Onun əmrinə əsasən, mixi yazı ilə tərtib olunmuş çoxlu gil "kitablar" bir yerə toplandı. Aşşurbanipalın kitabxanası dünyada ilk kitabxana hesab olunur.

Piktoqramdan fərqli olaraq heroqliflərlə və mixi yazı vasitəsilə fikri daha dəqiq ifadə etmək olurdu.

***

Bu gün istifadə etdiyimiz yazı sistemi fonoqrafik (səsli) yazı növünə aiddir, çünki müasir yazıdakı işarələr – hərflər ayrı-ayrı səsləri ifadə edir.

Qədimdə Aralıq dənizinin sahillərində yaşayan finikiyalılar bir neçə ixtiraları ilə tarixin yaddaşında qalıblar. Onlardan biri də əlifbadır.

Finikiya tacirləri başqa şəhərlərə mal aparır, alış-veriş edirdilər. Çox vaxt onlar borc pul və ya nisyə mal verir və bu zaman həmin şəxslərlə sövdələşirdilər. Şifahi sövdələşmələr tez-tez pozulurdu. O vaxt mövcud olan yazı sistemləri isə müqavilə şərtlərini yazıda dəqiq əks etdirməyə imkan vermirdi. Beləliklə, tacirlər əlifba yaratmalı oldular. Finikiya əlifbası 22 samit səsi işarə edən hərflərdən ibarət idi.

Əvvəlki yazı sistemlərinə nisbətən əlifba daha tez və asan mənimsənilirdi. Odur ki bu yazı növü tez bir zamanda başqa xalqlar arasında da yayıldı və maarifin inkişafına güclü təsir göstərdi. Hər xalq öz dilinin səs sisteminə uyğun əlifba yaratdı.

Zaman keçdikcə Finikiya dili və əlifbası unuduldu, lakin sonradan bu əlifbanın əsasında yaradılmış yunan və latın əlifbalarından indiyə qədər istifadə olunur.

*Rafiq Ələkbəroğlu*

**Söz ehtiyatı**

**1.** Söz və ifadələri müvafiq izahlarla uyğunlaşdırın.

| *Sözlər və ifadələr* | *İzahlar* |
|---|---|
| *sivilizasiya* | məlumatın rəsm və ya rəsm ardıcıllığı ilə verilməsi |
| *piktoqrafiya* | həyatın yaranışı, təbiət hadisələri və s. ilə bağlı inancları əks etdirən əsatirlər toplusu |
| *mifologiya* | hər bir danışıq səsinin hərf(lər)lə işarə edildiyi yazı növü |
| *sarkofaq* | cəmiyyətin müəyyən mədəni və mənəvi dəyərlərə əsaslanan tarixi inkişaf mərhələsi. |
| *mixi* | müəyyən memarlıq üslubu və bədii tərtibatı olan qəbir, tabut, kiçik sərdabə |
| *fonoqrafik yazı* | gil və ya daş üzərində mıxşəkilli cızıqlardan ibarət yazı üsulu |



LAYİHƏ

**2.** Verilmiş sözlərin hansı şəkillərə aid olduğunu müəyyən edin.

A) piktoqram B) heroqlif C) mixi D) fonoqrafik yazı

1


2



3


4


### Yazı

**3.** Aşağıdakı cümlələri mətnin müvafiq hissələrinə əlavə edin.

1. Qədim Misir heroqlifinin sirrini 1822-ci ildə fransız alimi Şampolyon aça bilmişdir.
2. Hərflərin forması bu hərflərlə başlayan əşyaların təsvirini xatırladırdı.
3. Gəmiqaya rəsmlərindəki "V" şəkilli işarələrin günəş şüası anlamına uyğun gəldiyini güman etmək olar.
4. Miladdan öncə III minillikdə Azərbaycanın cənubunda yaşayan əhali mixi yazı ilə tanış idi.

### Dil qaydaları

**4.** Göy rənglə verilmiş cümlələrdə bağlayıcıları tapın və intonasiyaya görə vergülün yerini müəyyənləşdirin.

**Yadda saxla!** **BAĞLAYICILARDA VERGÜLÜN İŞLƏNMƏSİ**

Cümlədə bir çox bağlayıcılardan əvvəl vergül qoyulur:

*Göy guruldadı, amma yağış yağmadı.*

*Mən dözürdüm, çünki gələcəyinə inanırdım.*

*"Ki"* və *"belə ki"* bağlayıcılarından sonra vergül qoyulur. Bu qayda "ki" ilə bitən digər bağlayıcılara *(ona görə ki, odur ki, madam ki, indi ki və s.)* aid deyil:

*Mən istədim ki, öz istədiyim sənəti seçim.*

*İndi ki belə oldu, gərək biz də yeni şəraitə uyğunlaşaq.*

LAYİHƏ

**5.** Dəftərinizdə nümunəyə uyğun cədvəl çəkin. Müvafiq xanalarda qeydlər etməklə qaydaların hansı cümlələrə aid olduğunu müəyyənləşdirin.

A) Təkrar olunan bağlayıcıdan əvvəl (birincisindən başqa) vergül qoyulur.
B) Təkrar olunan bağlayıcıdan sonra (sonuncudan başqa) vergül qoyulur.
C) Bağlayıcının iştirak etdiyi cümlədən sonra vergül qoyulur.
D) Bağlayıcının iştirak etdiyi cümlədən əvvəl vergül qoyulur.
E) Bağlayıcıdan nə əvvəl, nə sonra vergül qoyulur.

| | | A | B | C | D | E |
|---|---|---|---|---|---|---|
| 1 | İnsan yalnız bilmədiyi şeydən qorxur, bilik isə adamı cəsarətli edir. | | | | | |
| 2 | İfadə yazmaq həm dinləmə, həm də yazı bacarığını inkişaf etdirir. | | | | | |
| 3 | Hərçənd mənimlə yaxın dostdur, bəzən fikirlərimiz üst-üstə düşmür. | | | | | |
| 4 | İnsanın ən böyük dostu da, ən böyük düşməni də onun təxəyyülüdür. | | | | | |
| 5 | Elmin tərəqqisi alimlərin kəşfləri və ixtiraları ilə müəyyən olunur. | | | | | |
| 6 | Həqiqət gözəldirsə, xəyal da bir o qədər füsunkardır. | | | | | |

**6.** Vergülləri yerli-yerində işlətməklə cümlələri dəftərinizə köçürün.

1. Ən etibarlı adamlara da oxumağa kitab verməyin belə ki mənim kitablarımın tən yarısı oxumaq üçün alıb qaytarmadığım kitablardan ibarətdir.
2. Adama elə gəlir ki kitablar dərd çəkən insanlara təsəlli vermək üçün yazılmışdır.
3. Kim həqiqət atəşini söndürməyə cəhd etsə ya saqqalı yanar ya da bığı. (Diogen)
4. Səhvi tapmaq həqiqəti tapmaqdan qat-qat asandır çünki səhv lap üzdə olur həqiqət isə həmişə dərindədir.
5. İstəsək də istəməsək də həqiqəti qəbul etmək məcburiyyətindəyik.
6. Dostluq da düşmənçilik də bahar buludu kimi gah yağar gah kəsər.
7. Danışarkən əllərini hara qoyacağını bilməyən adam bu əllərlə ağzını örtsə həm öz canını qurtarar həm də biz xilas olarıq.

(Ş.Kalonn)



LAYİHƏ

# QƏDİM YAZI MATERİALLARI



Azərbaycanda tarixin müxtəlif dövrlərində fikri ifadə etmək üçün müxtəlif yazı materiallarından istifadə olunmuşdur.

Çox qədim zamanlarda yazı materialı kimi daş və ya gil lövhələrdən istifadə edilmişdir. Məsələn, qədim türklər Orxon-Yenisey əlifbası ilə iri daşlar üzərində öz qan yaddaşlarını həkk edirdilər. Cənubi Azərbaycanda tapılmış mixi yazılı gil lövhələr Miladdan öncə bu ərazidə gil kitabların olmasından soraq verir. Dərbənd, Mingəçevir, Xocalı və s. bölgələrdə də mixi və alban yazılı daş və gil lövhələr tapılmışdır.

Orta əsrlərdə Azərbaycan sənətkarları – memarlar və rəssamlar hökmdar sarayları, məscid və məqbərələrin inşası zamanı daş lövhələr üzərində müəyyən yazılar həkk edirdilər.

XII əsr ərəb coğrafiyaşünas səyyahı əl-Əndəlusi yazırdı: "Xəzər dənizi sahillərində tərkibində qızıl olan xeyli daş vardır. Yerli əhali onların üstündə incə xətt nümayiş etdirir. Bu daşlardan birinin üzərində Məhəmmədin və Əlinin kəlamları ən gözəl xətlə yazılmışdır".

**1.** VI sinifdə tanış olduğunuz "Orxon-Yenisey abidələri" mətnini yada salaraq oxuduğunuz hissəni genişləndirin.



Vaxtilə Nil çayının *deltası* papirus adlanan yabanı bataqlıq bitkisi ilə dolu idi. Qədim misirlilər onu emal edərək yazı materialı hazırlayırdılar. Yazı üçün hazırlanmış papirus uzun lent şəklində olduğundan onu bürmələyərək lülə şəklinə salırdılar.

Minilliklər ərzində elmin beşiyi sayılan Misirdə, Yunanıstanda və Romada papirus əsas yazı materialı olmuş, kitab və yazı mədəniyyətinin inkişafına xidmət etmişdir. Bir çox qədim alim və şairlərin əsərləri məhz papirus kitablar şəklində



LAYİHƏ

gələcək nəsillərə ötürülmüşdür. Məsələn, Evklidin (M.ö. III əsr) 13 cilddən ibarət "Həndəsə" kitabı ilk dəfə qamış qələmlə zərif papirusda yazılıb dünya kitabxanalarının qiymətli sərvətinə çevrilmişdir. Homerin "İliada" və "Odis-seya" əsərləri yazıldığı vaxtdan iki əsr sonra papirusa köçürülmüşdür.

Bu gün dünyanın bir sıra kitab xəzinələrində xeyli miqdarda yazılı papirus bürmələri saxlanılmaqdadır. Məsələn, Britaniya Muzeyi kitabxanasında papirus üzərində yazılmış üç min nüsxə əlyazma saxlanılır.

Azərbaycanda da papirusdan XII əsrə qədər yazı materialı kimi istifadə olunmuşdur. "Lülələnmiş kağıza diz üstə inci axar" deyəndə Nizami papirusu nəzərdə tutmuşdur. Azərbaycanda və digər Şərq ölkələrində minlərlə müəllifin əsərləri papirus vasitəsilə yayılmışdır.

Göründüyü kimi, Azərbaycan, Şərq və ümumiyyətlə, dünya kitab mədəniyyətinin inkişafında papirus çox mühüm rol oynamışdır. Bir çox xalqlar, məsələn, almanlar indi də kağıza "papir", fransızlar "papye", ingilislər "peypə" deyirlər. "Papka" (qovluq) sözü də papirus sözündən əmələ gəlmişdir.

**2.** **Bu hissədən aldığınız beş ən vacib məlumatı tezislər şəklində ifadə edin.**



Qədim mənbələrdə deyildiyinə görə, Miladdan öncə III-II əsrlərdə dünyada iki kitabxana zənginliyinə görə bir-biri ilə rəqabət aparırdı. Onlardan biri məşhur İsgəndəriyyə kitabxanası, digəri isə Kiçik Asiyada yerləşən Perqam şəhərinin kitabxanası idi. Bunu görən misirlilər birinciliyi əldən verməmək üçün papirusun ölkədən ixracına qadağa qoydular. Belə olduqda Perqam şəhərinin hökmdarı Evmen yeni yazı materialı yaratmaq üçün dəri emalı üsulu icad etdi. Beləliklə, papirusla yanaşı, heyvan dərisi əsas yazı materiallarından birinə çevrildi. Sonradan bir çox dillərə daxil olan "perqament" sözü Perqam şəhərinin adından götürülüb. Hazırda "yazı üçün nəzərdə tutulmuş heyvan dərisi" mənasını verir.

Perqament düzəltmək üçün inək, qoyun, keçi, balıq, ceyran, bəbir dərisindən istifadə olunurdu. Bir yazı materialı kimi dəri papirusa nisbətən daha bahalı material idi və onun emalı daha çətin başa gəlir, çox vaxt tələb edirdi. Lakin dəri daha uzunömürlü material idi. Ona görə də dəridən hətta kağız ixtira olunduqdan sonra da kitabçılıqda, xüsusən cildləmədə istifadə



LAYİHƏ

olunurdu.

Azərbaycan kitabçılıq tarixində də perqament xüsusi yer tutur. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda VIII əsrdə kufi xətti ilə dəri üzərində yazılmış "Quran" surəsi mühafizə edilir. Təbriz kitabxanasında saxlanılan perqament kitablardan biri gözəl xətlə xanı balığı dərisində yazılmış "Quran" nüsxəsidir.

**3. Müasir dövrdə "perqament" sözü başqa hansı məna kəsb edir?**



Məlum olduğu kimi, Çindən Avropaya gedən İpək yolu Azərbaycandan keçirdi. M.ö. II əsrdən başlayaraq Çindən gələn karvanlar hər il Azərbaycana minlərlə ton ipək parça gətirirdi. Azərbaycan xəttatlarının ən çox istifadə etdikləri yazı materiallarından biri də ipək parça idi. Müəlliflər və xəttatlar onların üstünü yazandan sonra ipək səhifələri üst-üstə yığıb cildçiyə verərdilər. Nizami Gəncəvinin əsərlərində oxuduğumuz bir çox misralar həmin dövrdə ipək parça üzərində *tuşla* yazının geniş yayıldığını göstərir:

"...Yazırdı ipəyə qara *müşk* ilə";

"...Müşk ilə *süslənmiş* ipək məktubu üç yerindən öpüb açdı";

"...İpək üzərində yazmaqdan katiblər yorğun düşdülər";

"...Gözəl bir ipəyə bürünüb əsər"...

Bu sözlər isə M.F.Axundovun "Kəmalüddövlə məktubları"ndandır: "Xəttatlar ağ ipək üzərində yazmağı daha çox xoşlayırdılar".

Tarixi mənbələrdə deyildiyinə görə, Zülfüqar Şirvaninin (1190-1291) bir şeirindən təsirlənmiş Şirvanşah hökmdarının vəziri ona üç ton yarım ipək bağışlamışdı ki, bundan şairin əsərlərini kitab halına salmaq üçün istifadə olunmuşdu.

*"Azərbaycanda nəşriyyat işi" kitabından*

### Düşün və cavab ver

**4. Mətnin yarımbaşlıqlarını məzmun ardıcıllığına görə sıralayın.**

A) perqament B) gil və daş C) ipək D) papirus

### Söz ehtiyatı

**5. "Tuş", "müşk", "süslənmək" sözlərini kontekstə görə izah edin.**



LAYİHƏ

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş cümlələrdə bağlayıcıları göstərin. Nə üçün bir neçə sözdən ibarət olduğunu əsaslandırmağa çalışın.

**Yadda saxla!** **MÜRƏKKƏB BAĞLAYICILAR**

Mürəkkəb bağlayıcılar iki cür yazılır:
- bitişik: *hərgah, halbuki, habelə, nəinki*
- ayrı: *ya da, gah da, gah da ki, belə ki, ona görə ki, buna görə də* və s.

*Nə, nə də* inkarlıq bağlayıcısı işlənən cümlələrin xəbəri həmişə təsdiqdə olur:

***Nə*** külək, ***nə də*** çovğun onun qarşısını ala bildi.

**7.** Nöqtələrin yerinə müvafiq bağlayıcılar işlətməklə cümlələri tamamlayın.

1. Mübarizəyə hazırlaşarkən ... güclü, ... zəif tərəflərini yaxşı bilməlisən.
2. Xəstəlikdən sonra o ... fiziki durumunu bərpa etdi, ... intensiv məşqlər hesabına yarışın qalibi oldu.
3. Atam ... televizora baxır, ... kompüterdə nə isə yazır, ... ayağa qalxaraq otaqda var-gəl edirdi.
4. Rejimə düşə bilmədiyindən o ... dərslərini yaxşı oxuyur, ... dostları ilə istədiyi kimi əylənə bilirdi.
5. Biz səninlə ... ümumi bir razılığa gələcəyik, ... yollarımız ayrılacaq.

**8.** Mürəkkəb bağlayıcıların yazılışında yol verilmiş səhvləri düzəldib yazın.

1. İşləri çatdırmırdıq, ona görədə narahat idik.
2. Halbu ki Sənubər bu yerlərə bələd idi.
3. Hər gah özü də bu yolu belə getsə, hara çıxacağını bilmirdi.
4. Həm yağış yağır, həmdə arabir qar dənələri düşürdü.
5. Gecdir, səhəri gözləmə, ona görəki dan yeri sökülər-sökülməz atlılar kənddə olacaqlar.
6. Hərçəndki içəri ön tərəfdən də yol var idi, mən arxa tərəfdən keçdim.



LAYİHƏ

# EYNŞTEYN DƏRSLƏRİNDƏN "2" ALIRDI?



Deyirlər, Albert Eynşteynin iştirak etdiyi məclislərdən birində bir nəfər ona yanaşaraq yaxından tanış olmaq istədiyini bildirir. Bu məqsədlə həmin adam dünya şöhrətli alimə öz telefon nömrəsini deyir:

– 36361144. Yaddaqalan nömrədir, elə deyilmi? İki dənə 36, iki dənə 1, iki dənə 4.

– Bəli, yaddaqalandır.

– Xahiş edirəm, təkrar edin.

– 6-nın kvadratı, 19-un kvadratı, 12-nin kvadratı.

Gülməli olsa da, bu lətifə böyük alimin intellektual özünəməxsusluğundan, orijinal təfəkkür tərzindən xəbər verir.

***

XX əsrin ən böyük alimlərindən sayılan Albert Eynşteyn 1879-cu ildə Almaniyanın Ulm şəhərində yəhudi ailəsində anadan olmuşdur. İlkin təhsilini yerli *katolik* məktəbində alan Albert altı yaşından skripkada çalır, təbiət elmləri ilə maraqlanırdı.

Belə bir geniş yayılmış fikir var ki, Eynşteyn orta məktəbdə pis oxuyurmuş. Doğrudanmı, dahi fizik, Nobel mükafatı laureatı Albert Eynşteyn uşaqlıqda orta məktəb proqramını da mənimsəyə bilmirmiş?


Der Erziehungsrat
des
Kantons Aargau
urkundet hiermit:
Herr Albert Einstein von Ulm,
geboren den 14. März 1878,

Eynşteynin 1896-cı ildə aldığı orta məktəb attestatından görünür ki, 17 yaşlı Albertin cəbr, həndəsə, fizika, tarix fənləri üzrə bilikləri altıballıq sistemlə ən yüksək qiymətə layiq görülüb. Gələcək dahinin cəmi bir "3"ü olub: fransız dilindən. Bununla belə, Eynşteyn 20 il sonra dünyanın məşhur universitetlərində müxtəlif dillərdə, o cümlədən fransız dilində mühazirələr oxuyurdu.

Bəs elə isə Eynşteynin zəif şagird olması haqqında əfsanə necə yaranıb?

Gənc Albert gimnaziyada təhsil alarkən müəllimlərlə münasibətləri həmişə gərgin olub. Azad düşüncəli şagirdin *avtoritar* müəllimlərdən, hərbi qaydaları xatırladan davranış normalarından heç



LAYİHƏ

vaxt xoşu gəlməyib. Müəllimləri də Albertə eyni “məhəbbətlə” yanaşıblar. Bir dəfə hətta müəllimlərindən biri Eynşteynin üzünə demişdi ki, “sənin burda olmağın bütün məktəbin nüfuzuna xələl gətirir”.

Eynşteyn gimnaziyadakı əzbərçilik sisteminə qarşı çıxırdı: “Ən ağır cəzaya da dözməyə hazıram, təki məni bu cəfəngiyatı əzbərləməyə məcbur etməsinlər”. Amma o, sərbəst şəkildə öz üzərində çalışır, çox mütaliə edir, uşaqlıqdan böyük alim və filosofların əsərlərini oxuyurdu.

Beləliklə, Eynşteyn pis oxuyan yox, *mühafizəkar* müəllimlərinin nəzərində “pis”, daim itaətsizlik göstərən şagird olub. Onun attestatında bəzi fənlər üzrə qiymətlərin aşağı olması da, çox güman ki, bəzi müəllimlərin ona şəxsi münasibəti ilə bağlı olub. Belə nəticə çıxarmaq olar ki, Albertin biliyini yoxlayan bəzi müəllimlər gələcək dahinin məntiqi təfəkkürünün dərinliyini və orijinallığını duya bilməmişlər.

***

Eynşteyni yaxından tanıyan müasirləri onun çox xeyirxah, istiqanlı adam olduğunu yazırdılar. Bu dahi haqqında lətifələrin çox olması, bəlkə də, onun özünün dərin yumor hissinə malik olmasından irəli gəlirdi.

O yalnız elmə qapılıb bütün gününü yazı masası arxasında keçirən alimlərdən deyildi. Eynşteyn musiqini, ədəbiyyatı, bədii filmləri çox sevir, skripkada gözəl çalır, bağçılıq, *filateliya* ilə məşğul olurdu.

Elmi dairələrdə böyük nüfuza malik olmasına baxmayaraq, Eynşteyn təkəbbürdən uzaq adam idi. Həmişə deyirdi ki, o da səhv edə bilər və əgər, doğrudan da, səhv edirdisə, bunu hamının qarşısında etiraf edirdi.

Ədalətsizlik həmişə Eynşteyndə hiddət doğururdu. Təbiəti etibarilə humanist, *pasifist* olan Eynşteynin ən çox nifrət etdiyi söz “zorakılıq” idi. Ona görə də Almaniyada faşist partiyası hakimiyyətə gələndə böyük alim doğma ölkəsini tərk etməli oldu.

Eynşteyn həm də çox xeyirxah insan olmuşdur. Onun şəxsi həkimi yazırdı ki alim rəssamlara şəklini çəkməyə razılıq vermirdi, çünki onların qarşısında saatlarla oturmağa vaxt sərf etmək istəmirdi. Lakin bir dəfə gənc bir rəssam ona bu haqda müraciət edib utana-utana demişdi:

– Mənim maddi sıxıntılarım var. Sizin portretiniz hesabına ehtiyacdan qurtara, maddi vəziyyətimi düzəldə bilərəm.

Onda Eynşteyn heç kimin tanımadığı bu rəssamı kabinetinə dəvət etmiş və ona bir neçə saat vaxt ayırmışdı.

Ömrünün sonuna yaxın Eynşteyn öz dəyərlər sistemini belə ifadə etmişdi: “Mənim yolumu işıqlandıran, mənə cəsarət və iradə verən ideallar xeyirxahlıq, gözəllik və həqiqət olmuşdur”.

*Rafiq Ələkbəroğlu*



LAYİHƏ

### Söz ehtiyatı

1. Lüğətdən istifadə edərək "katolik", "filateliya", "pasifist", "avtoritar", "mühafizəkar" sözlərini izah edin.

### Düşün və cavab ver

2. Sillogizmi tamamlayın.
   **I mühakimə:** Qay Yuli Sezar "Qall müharibəsi haqqında" əsərini latın dilində yazmışdı.
   **II mühakimə:** Albert Eynşteyn Sezarın "Qall müharibəsi haqqında" əsərini orijinaldan oxuya bilirdi.
   **Nəticə:** ...

3. Mətnin motivasiya və giriş hissələrini müəyyənləşdirin.

4. Aşağıdakı lətifələri mətnin hansı hissələrinə əlavə edərdiniz?

Eynşteyndən xahiş edirlər ki, iki kəlmə ilə nisbilik nəzəriyyəsini başa salsın. O deyir:

– Bu, çox sadədir. Baxın: başınızda cəmi iki tük varsa, bu, çox azdır, elə deyilmi?

– Tamamilə doğrudur.

– Lakin boşqabdakı şorbada iki tük görsəniz, "Aman Allah! Burada nə çox tük var" deyəcəksiniz. Düzdür?

– Elədir, deyəcəyəm.

– Vəssalam. Nisbilik nəzəriyyəsi də elə budur.

Eynşteynin Çarli Çaplinin çəkildiyi filmlərdən çox xoşu gəlirdi. Bir dəfə o, Çaplinə teleqram göndərir: "Siz dahi aktyorsunuz, çünki sizin yaratdığınız obrazları bütün dünya xalqları başa düşür. Eynşteyn".

Çarli Çaplin cavabında yazır: "Mən də sizə pərəstiş edirəm. Sizin nisbilik nəzəriyyənizi heç kim başa düşmür. Bununla belə, siz də dahi adamsınız. Çaplin".

### Dil qaydaları

5. Göy rənglə verilmiş hansı bağlayıcıdan sonra vergül qoyulmalıdır?

6. Durğu işarələrini yerli-yerində işlətməklə nöqtələrin yerinə uyğun gələn bağlayıcılar artırıb yazın.

*ona görə də, amma, da, ki*

1. Güc hər şeyə qalib gələr ... bu qələbə uzun sürməz.
2. Elə məğlubiyyət var ... şərəf və şöhrətinə görə qələbədən geri qalmır.
3. Cavanlıq gözəllikdir ... ona rəng qatmağa ehtiyac yoxdur.
4. İnsana ən böyük mükafatı ... cəzanı ... öz vicdanı verir.



LAYİHƏ

## ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1.** Bölmədəki hansı mətnlər informasiya, hansılar tərbiyəvi xarakter daşıyır? Hansı mətndə bunların hər ikisi var?

**2.** Mətnlərdən gələcək həyat yolunuzda uğur qazanmaq üçün lazım ola biləcək əsas fikirləri seçin. Seçiminizi izah edin.

**3.** Köçürün, bağlayıcıların altından bir xətt, qoşmaların altından iki xətt çəkin.

1. İnsanlar arzu və xəyallarına görə bir-birinə bənzəyir, amma xasiyyətlər və vərdişlər müxtəlif olduğu üçün bəzən bu oxşarlıq pozulur və bundan böyük fəlakətlər törəyir.
2. Nurəddin İmamverdi babanın yanında çox gözəl vaxt keçirirdi və şükür edirdi ki, Gülpəri onu özü ilə aparmadı. *(S.S.Axundov)*
3. İndi kənddə uçmuş evlərdən savayı gözə heç nə dəymirdi. Sahibsiz itlər də baxışları ilə bizi məzəmmət edirdi. Biz isə müttəhimlər kimi boynumuzu bükmüşdük.

**4.** Verilmiş cümlələrdə buraxılmış vergülləri bərpa edib dəftərinizə köçürün.

1. Özündən böyüklərə hörmətlə yanaş çünki sən də nə vaxtsa yaşlanacaqsan.
2. Həmişə öz iradənin ağası  öz vicdanının köləsi ol.
3. Ömrü uzadan da insanı yaşadan da ümiddir. Daim ümidlə yaşamaq olmaz ancaq ümidsiz də yaşamaq olmaz. Hətta ən ümidsiz insanda da bir ümid qığılcımı közərməkdədir.
4. Yağış həm kasıbın həm də varlının başına yağır amma təkcə kasıb islanır çünki varlının əlində çətir var.

**5.** Qoşmaları tapın. Aid olduğu sözlə birgə seçib dəftərinizə yazın və mənasını izah edin.

1. Tağı əminin göstərişi ilə mən və Məmmədağa qaratoyuq, alacəhrə, sərçə kimi quşları tutmağı öyrənmişdik. *(S.S.Axundov)*
2. Abbas gətirildi dar ayağına,
   Xınatək yaxıldım yar ayağına.
   Yoxsulu çəkərlər var ayağına,
   İndi mənim kimi mərdə gül, Pəri. *(A.Tufarqanlı)*
3. Seyidli və onu əhatə edən kəndlərin bağ-bağatı o qədər boldur ki, göz ətrafda ot və ağacdan savayı bir şey görmürdü. *(S.S.Axundov)*



LAYİHƏ



# V BÖLMƏ

## DƏYƏRLƏRİMİZ



LAYİHƏ

# HƏSRƏT



Şuşanın başı üzərinə yağan alovlu mərmilərdən ürkərək meşəyə tərəf qaçmışdı. Atəş birdən kəsildi. Şuşa tamam boşalmış, tərk edilmişdi. O da atılmışdı. Doğma həyətə girəndə bunu anladı. Həmişə hay-küylü olan evdən səs-səmir gəlmirdi. Saatlarca həyətdə vurnuxdu, o tərəf-bu tərəfə qaçaraq sahibini axtardı, axtardı... tapmadı. Qapqara gözlərindən iki damla yaş süzüldü. Ağlına sığışdıra bilmirdi ki, hər gün onu tumarlayan əllər necə yox ola bilər, hər gün belində gəzdirdiyi kəslər onu necə unuda bilər. Amma unudulmuşdu.

Həyətə bir dəstə qara geyimli adam doluşdu. Onların atəş açaraq insanları öldürdüklərini görmüşdü. Ona görə də gizlənməyə yer axtardı. Lakin qara geyimlilər onu gördülər, qulağına tanış olmayan dildə bir-birinə nəsə deyib güldülər. Dövrəyə alaraq fit çala-çala onu tutmağa çalışdılar. Biri evdən yataq örtüyünü gətirdi, örtüyü başına atdılar. Gözləri qaraldı, çırpınaraq xilas olmaq istəsə də, bacarmadı, onu tutdular! Köməkləşib zorla yük maşınına qaldıranda dırnaqları ilə son dəfə yeri eşdi və doğma torpağın bir parçasını dırnaqları arasında özü ilə apardı.

**1.** Haqqında danışılan obraz barədə nə deyə bilərsiniz?

O gündən ayağı doğma torpağa dəymədi, gözləri yaşıllıq görmədi. Sonra onu kiməsə satdılar. Yeni sahibi də erməni idi, neçə illər İsveçrədə yaşasa da, Qarabağda türklərin arasında böyüdüyündən atları çox sevirdi. Atı oxşayıb əzizlədi, qarşısına ot qoydu. Acından az qala dizləri bükülən At ağzını dərhal ota uzadıb tez də geri çəkdi, ağzına aldığı otu yerə tökdü. Erməni bir neçə yerdən cürbəcür ot gətirdi, At heç birini yemədi. Erməni fikir götürdü, belə getsə, At acından ölə bilərdi. Axı onu bura gətirmək üçün bir ətək pul tökmüşdü ki, ayın sonu keçiriləcək cıdır yarışında iştirak etsin. Amma nə qədər çalışsa da, At onun üzünə belə baxmır, heç nəyə ağzını vurmadan hey ətrafa boylanaraq nəyisə, kimisə axtarırdı. Erməni yenə xeyli pul tökərək Qarabağdan ot və su gətirməyə məcbur oldu. Otun iyini alan At dəli kimi kişnədi, əvvəlcə otu yaladı, yaladı, sonra acgözlüklə qırpmağa başladı. Suyu da bol-bol içəndən sonra dizlərini bükərək başını otun üstünə qoydu, qoxusunu içinə çəkməyə başladı.



LAYİHƏ

Acından arıqlamış at bir neçə günün içində özünə gəldi və atılıb-düşməyə, vurnuxmağa başladı. Atın genişlik istədiyini anlayan erməni onu gəzintiyə çıxardı, bir neçə dəfə minib doyunca çapdı. At artıq yeni sahibinə öyrəşmişdi, çünki erməni ona istədiyi otu, suyu gətirmişdi. Bundan başqa, o, Atın dilini tapmışdı, onunla azərbaycanca danışırdı.

**2.** Atın Vətən həsrəti çəkdiyini göstərən məqamları şərh edin.

Nəhayət, yarış günü gəlib çatdı. İsveçrənin ən gözəl mənzərəli yerlərinin birində – dağların ətəyindəki yaşıl düzənlikdə minlərlə insan toplaşmışdı. Aparıcı ilk sırada yarışa çıxacaq atların adını elan etdi. "Qarabağ gözəli" də onların arasında idi. Atı həmin erməni – Armen Papazyan sürəcəkdi. İşarə verilən kimi At ildırım sürəti ilə irəli atıldı. "Qarabağ gözəli" rəqiblərini bir-bir arxada qoyaraq irəli keçəndə Armen sevindiyindən öz dilində bağırdı. Beyni gicəlləndirən hay-küy içində Atın qulağı belində daşıdığı adamın yad dildə dediyi sözləri aldı, sürəti yavaşıdı. Atın gözləri artıq ayaqları altındakı torpağın yadlığını hiss edirdi. Özündən ixtiyarsız başını qaldırdı və gözləri qarşıda açılan nəhəng düzəngaha, onun sonunda görünən dağlara sataşdı. Elə bildi ki, qarşısındakı Cıdır düzüdür, bütün qüvvəsi ilə irəli atıldı.

Finişə çatmağa bir neçə addım qalmış Armen öz dilində "Qələbə!" deyə bağırdı. Bu bağırtı Atı diksindirdi. O, iki ayaqları üstə şahə qalxaraq dəli bir kişnərti çəkdi. Armen qamçı ilə atı sakitləşdirməyə çalışdı, lakin o, yenə ayaqlarını qaldırdı, bir də şahə qalxdı və qəzəblə ayaqlarını yerə çırpanda sanki torpaq titrədi. At üçüncü dəfə şahə qalxaraq dəli bir kişnərti ilə ermənini belindən atdı və finiş xəttini təkbaşına keçərək öz cıdırına sarı üz tutdu.

**3.** Sizcə, Atı qəzəbləndirən nə idi?

Arxadan fit çalır, onu qovurdular, lakin heç kölgəsinə də çata bilmirdilər. Qarabağ atını həsrət çulğamışdı, baş götürüb onu böyüdən, yetişdirən yurduna doğru qaçırdı. Lakin nə qədər qaçırdısa, doğma torpağın qoxusu dəymirdi burnuna. Bu yerlər nə qədər gözəl olsa da, nə qədər Qarabağ çöllərini xatırlatsa da, yad idi, yadların idi. O isə öz yurdunu, öz torpağını axtarırdı, ona görə də dəli kimi ürəyi atlana-atlana qaçır, qaçır, qaçırdı... Nəhayət, ürəyi dözmədi, ağzı köpükləndi. Atın dizləri büküldü, yerə gəldi. Bir neçə dəfə qüvvəsini toplayıb qalxdı, hətta iki-üç addım irəli getdi də. Amma artıq yaşıllıq qurtarmışdı, qarşıda gözqamaşdırıcı işıqlara bürünmüş yad bir şəhər görünürdü. Atın gözləri qaraldı, dizləri yerə toxundu, yorulmuş, üzülmüş vücudunu daşımağa taqəti çatmadı, torpağa sərildi. Get-gedə altındakı torpağın soyuğu canına işləyirdi. Gözləri səmaya baxırdı.


LAYİHƏ

Bu səmanın altında, haradasa onun öz torpağı, öz otu, öz suyu, yurdu vardı. Bəli, vardı, elə bunu hiss etmək də gözəl idi. Bayaqdan onu izləyən helikopter yaxınlıqda yerə endi. Oradan düşən adamlar yaxınlaşanda At artıq can verirdi...

Papazyan atın ölümünü seyr edə-edə cib telefonunu çıxardı, oğluna zəng etdi. Oğlu Ermənistan ordusunun tərkibində idi və Qarabağ üçün vuruşurdu. Qarabağ atını da atası üçün o alıb göndərmişdi. Armen oğlunun səsini eşidən kimi dedi:

– Təcili bilet al, İsveçrəyə gəl, oğlum. Vuruşmağın mənası yoxdur, Qarabağ heç vaxt bizim olmayacaq. Özgə torpaqdan vətən olmaz.

*Aygün Həsənoğlu*

### Söz ehtiyatı

4. Mətndəki "dilini tapmışdı", "fikir götürdü" ifadələri həqiqi, yoxsa məcazi mənada işlənib?

### Düşün və cavab ver

5. Mətnin sonunda erməninin telefonla oğluna dediyi sözlərə münasibətinizi bildirin. Onu bu sözləri deməyə nə məcbur etdi?

### Yazı

6. Qarabağ atları haqqında məlumat toplayaraq təqdimat hazırlayın.

### Dil qaydaları

7. Mətndə göy rənglə verilmiş sözləri ixtisar etməklə cümlələri oxuyun. Məna və intonasiyada baş vermiş dəyişikliyi izah edin.

**Yadda saxla!** **ƏDAT**

Ədat cümlədə fikrin təsirli ifadə olunmasına kömək edir: sual, əmr, arzu və s. mənaları gücləndirir.

Sual: *Məgər sən bununla razı deyilsən?*

Arzu: *Təki sən xoşbəxt olasan.*

Azərbaycan dilində ən çox işlənən ədatlar: *axı, ən, daha, olduqca, da, də, ki, artıq, nə, necə, bəs, -mı⁴, bir, ancaq, yalnız* və s.

Ədatları cümlədən çıxaranda məna dəyişikliyi baş vermir, lakin cümlənin emosionallığı azalır:

*Oxumamısan ki? – Oxumamısan?*

*Axı sən hər şeyi bilirsən. – Sən hər şeyi bilirsən.*



LAYİHƏ

**8.** Verilmiş ədatları müvafiq cümlələrə əlavə edin.

*kaş, gəl, axı, ən, çox, bəs*

1. Təəssüf ki, Müşfiqə ... qısa ömür nəsib oldu.
2. ... əvvəlcə bu mərhələni keçək.
3. Bu mənim həyatımda ... əlamətdar hadisə idi.
4. ... deməmişdim ki, bu qutuya əl vurma.
5. ... mən nə bilə idim ki, işıqlar sönəcək.
6. ... sən deyənə qulaq asa idim.

**9.** Cümlələrdə işlənmiş ədatları seçin və həmin ədatlardan da istifadə etməklə yeni cümlələr qurun.

1. İnsan öz tay-tuşları arasında üstünlüyü yalnız elm və sənətə görə əldə edir. *("Qabusnamə")*
2. Amma lap nahaq yerə hənadan söhbət saldım, heç yeri deyildi. *(Ü.Hacıbəyli)*
3. Mən artıq belə fikirlərlə razılaşa bilmirəm.
4. Sən bu barədə heç kəsə demədin ki?
5. Qoy mən yenə söhbət açım öz diyarımdan. *(M.Günər)*
6. Bəs sən işdən nə vaxt qayıdacaqsan?

**10.** Nümunəyə uyğun cədvəl çəkin. Cümlələrdən se,diyiniz ədatların qrammatik mənasını aydınlaşdırın və cədvəlin müvafiq xanasına yazın.

1. Kaş hər şey sən deyən kimi ola idi.
2. Qərarını verməzdən əvvəl qoy mən də sözümü deyim.
3. Bəli, mən sənə etibar edirəm.
4. Bəs bu gün imtahana hazırlaşmayacağıq?
5. Xeyr, mən bu fikirlə razılaşa bilmərəm.
6. Məhz bu səbəbdən iki dövlət arasında münaqişə dərinləşdi.

| Arzu | Əmr | Dəqiqləş-dirmə | Sual | Təsdiq | İnkar |
|---|---|---|---|---|---|
| | | | | | |

**11.** Bayatı və atalar sözündə ədatları tapın, onlarla bağlı olan feillərin şəklini müəyyən edin.

Bağçaları sarı gül,
Yarı qönçə, yarı gül,
Gec açıldın, tez soldun,
Olmayaydın barı, gül.

Keçmə namərd körpüsündən,
Qoy aparsın su səni,
Yatma tülkü kölgəsində,
Qoy yesin aslan səni...



LAYİHƏ

# SƏKKİZ VƏ TARİXİMİZ




Həyatımızı rəqəmlərsiz təsəvvür etmək mümkün deyil. Rəqəmlər olmasa, vaxtı təyin edə, nəyi isə ölçə bilmərik. Bununla yanaşı, bəzi rəqəmlər həm də müxtəlif anlayışların, dəyərlərin simvoluna çevrilmişdir. Məsələn, 7 müqəddəs rəqəm sayılır. Dini inanca görə, Allah dünyanı 7 günə yaradıb. Göyqurşağında 7 rəng, həftədə 7 gün, musiqidə 7 not var. Hətta Qədim dünyanın möcüzələrinin sayı da yeddidir. 7 insanların ən çox sevdiyi rəqəmlərdəndir. Bu rəqəmin uğur gətirdiyi hesab edilir. 13 rəqəminin isə, əksinə, uğursuz olması fikri geniş yayılıb. 40 rəqəmi uzun müddət insanlar üçün ən böyük ədəd olmuş, çoxluq bildirmişdir. Azərbaycan dilində çoxlu ayaqları olan böcəklər qırxayaq adlandırılır. Amma bu onların mütləq 40 ayağı olması anlamına gəlmir. Elmi adı çoxayaqlılar olan bu böcəklərin ayrı-ayrı növlərində ayaqların sayı müxtəlifdir. İnsanlar onları qırxayaq adlandırmaqla ayaqlarının çox olmasını nəzərə çatdırırlar. Yeri gəlmişkən, rus dilində də bu böcəklərin adı eyni mənanı verən sözlərdən ibarətdir: sorokonojka – qırxayaq. "Çılçıraq" sözü də *analoji* yolla yaranmışdır. Buradakı "çil" hissəciyi fars dilində "çehel" (qırx) sözünün təhrif olunmuş formasıdır; çilçıraq, yəni qırx çıraq.

Daşıdığı mənaya görə 8 rəqəmlər arasında xüsusi yer tutur. Bu rəqəm zənginlik, *rifah*, uğur rəmzidir. O özündə sabitlik, etibarlılıq *ehtiva edir.* Üfüqi vəziyyətdə isə 8 (∞) sonsuzluq simvoludur. Mart ayının adını çəkməsək də, 8 rəqəmi həmişə qadınlarla *assosiasiya* olunur. Bu rəqəm özündə sanki **bir** gözəllik, zəriflik, məlahət daşıyır.

Azərbaycan xalqı üçün bu rəqəmin xüsusi *önəmi* var; bayrağımız və gerbimizdəki ulduz səkkizguşəlidir. 1918-ci il mayın 28-i xalqımızın çoxəsrlik tarixində ən parlaq gün oldu. Şərqdə ilk dəfə olaraq demokratik cümhuriyyət məhz bizim Vətənimizdə quruldu. Qısa zaman kəsiyində çox işlər görüldü. Amma, təəssüf ki, müstəqilliyimiz uzun sürmədi. 1920-ci il aprel ayının 28-də Azərbaycan Rusiya imperiyası tərəfindən yenidən işğal olundu. Və daha 70 il biz rus, bu dəfə sovet imperiyasının *məngənəsində*



LAYİHƏ

sıxıldıq. Nəhayət, XX əsrin sonlarında Azərbaycan dövləti öz müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də qəbul olunmuş konstitusiya aktında göstərilirdi ki, Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Cümhuriyyətinin hüquqi varisidir. İndi 18 Oktyabr Müstəqilliyimizin Bərpası Günü, 28 May isə Respublika Günü kimi qeyd edilir.

18 Sentyabrda qeyd edilən Milli Musiqi Günü Üzeyir Hacıbəylinin doğum günü ilə bağlıdır. Dahi bəstəkarın ad gününün bayram kimi keçirilməsi ənənəsinin əsasını görkəmli dirijor və bəstəkar *maestro* Niyazi qoymuşdur. Üzeyir bəyin vəfatından sonra hər il sentyabrın 18-də Bakı Musiqi Akademiyasının önünə minlərlə insan toplaşardı. Niyazinin rəhbərliyi ilə Ü.Hacıbəylinin adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında dahi bəstəkarın möhtəşəm əsərləri səslənərdi. 1995-ci ildə bəstəkarın 110 illik yubileyi ərəfəsində Heydər Əliyevin fərmanı ilə 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alındı.

Beləliklə, 8 rəqəminin xalqımızın taleyində uğurlu olduğunu söyləmək olar. Amma... 1992-ci ilin may ayından sonra 8 rəqəmi bizdə tamamilə başqa hisslər yaratdı. Azərbaycanın baş tacı, göz bəbəyi olan Şuşamızın ermənilər tərəfindən işğal edilməsindən sonra bizim bu rəqəmə münasibətimiz dəyişdi. Bu rəqəmin adı çəkiləndə hər dəfə dərin ağrı, nisgil, xəcalət hissi keçirirdik. Nə yaxşı ki, həyatımıza müzəffər ordumuzun Şuşanı azad etdiyi 8 noyabr tarixi gəldi. Beləliklə, illərlə ürəyimizi sıxan dərdi, əzabı, 8 rəqəmindən isə üzüqaralığı sildi. 8 Noyabr mənliyimizin, qürurumuzun bərpası günü kimi, Zəfər Günü kimi düşdü tariximizə!

*Rafiq Yusifoğlunun "Səkkizin nağılı" əsəri əsasında işlənmişdir.*

### Söz ehtiyatı

**1.** Mətndən çıxış edərək "analoji","rifah", "ehtiva etmək", "önəm", "məngənə", "maestro" sözlərinin mənalarını izah etməyə çalışın.

**2.** "Assosiasiya" sözü mətndə hansı mənada işlənmişdir?

a. Eyni fəaliyyət növü ilə məşğul olan müəssisə və ya şəxslər birliyi.

b. Biri xatırlandıqda digəri yada düşən təsəvvürlər arasında əlaqə.

### Düşün və cavab ver

**3.** Səkkizguşəli ulduzun rəmzi mənası nədir?

**4.** Mətndəki məlumatlardan istifadə edərək Ü.Hacıbəylinin doğum tarixini müəyyənləşdirin.



LAYİHƏ

### Yazı

**5.** Doqquz rəqəmi ilə bağlı araşdırma aparıb mətnin giriş hissəsini genişləndirin.

### Dil qaydaları

**6.** "44 günlük müharibə ermənilərə *yaxşıca* dərs oldu" cümləsində fərqləndirilmiş sözdə *-ca²* hissəciyinin şəkilçiyə və ədata xas olan xüsusiyyətlərini araşdırın.

**Yadda saxla!** **ƏDATLARIN ORFOQRAFİYASI**

Ədatlar, adətən, sözlərdən ayrı yazılır. *-ca², -mı⁴, -sana²* ədatları istisnadır: *Gəlsənə dərsdən sonra parka gedək.*

*-mı⁴* ədatı *da, də* bağlayıcısından sonra işləndə ayrı yazılır: *Siz də mi ora gedirsiniz?*

Təsdiq və inkar bildirən *bəli, xeyr, hə, yox* ədatları cümlədə vergül işarəsi ilə ayrılır: *Xeyr, icazə vermirəm.*

**7.** Nöqtələrin yerinə müvafiq ədatları yazmaqla cümlələri köçürün.

*xeyr, bəli, -ca², -mı⁴, -sana²*

1. Mən sənin üçün... istəmişdim bunu?
2. ... , sizin dediklərinizlə razıyam.
3. "Qorxulu nağıllar"dan yadımda qalanı "Qara... qızdır".
4. A Kos-Kosa, gəl... , Gəlib salam ver... .
5. Fəhlə, özünü sən də bir insan... sanırsan? (M.Ə.Sabir)
6. ... , biz heç vaxt bu yoldan dönməyəcəyik.

**8.** Verilmiş bayatıdakı ədatlarla bağlı suallara cavab verin.

- Bayatıda hansı ədatlar var?
- *Nəyə görə sonuncu misradakı feilin şəklini dəqiq müəyyən etmək mümkün olmur?

Eləmi şüşə barı,
Çəkilib şüşə barı,
Sən dərdli, mən yaralı,
Gəl gəzək qoşa barı.

**9. Debat.** Mətndə qalın şriftlə verilmiş "bir" sözü saydır, yoxsa ədat?



LAYİHƏ

# ŞƏKİ XAN SARAYI

*Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı,*
*bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi.*
Nazim Hikmət

Azərbaycan memarlığında möhtəşəm yeri olan Şəki Xan sarayı hər bir qonağını təəccübləndirən *orijinal* sənət əsəridir. Dünya abidələri siyahısına daxil edilmiş bu sarayın özünəməxsus inşa üslubu var. Burada tətbiqi incəsənətin bir çox növləri, eləcə də XVIII-XIX əsrlərə məxsus divar rəssamlığı nümunələri öz əksini tapıb.

**1.** "Orijinal" sözünün mənalarını izah edin. Mətndə bu söz hansı mənada işlənmişdir?

Şəki xanlarının yay sarayı olan bu binanın kim tərəfindən tikdirilməsi haqqında dəqiq elmi məlumat yoxdur. Bəzi mənbələrə əsasən, saray Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Məhəmmədhüseyn xanın dövründə tikilmişdir. Hüseyn xan eyni zamanda "Müştaq" təxəllüsü ilə şeirlər yazdığına görə saray bəzi mənbələrdə "Müştaq imarəti" kimi də qeyd olunmuşur. Tarixi mənbələrdə Hüseyn xanın əmisi tərəfindən burada əsir saxlanıldığı və boğularaq qətlə yetirildiyi göstərilir. Qeyd edək ki, Hüseyn xan Müştaq Azərbaycanın məşhur şairləri Molla Pənah Vaqif və Molla Vəli Vidadi ilə dost olmuşdur. Vidadi öz "Müsibətnamə" əsərini də onun ölümü münasibətilə yazmışdır.



LAYİHƏ

Başqa bir mənbədə isə bu binanın XVIII əsrin sonunda Məhəmmədhüseyn xanın oğlu Məhəmmədhəsən xan tərəfindən tikdirildiyi və "Məhəmmədhəsən xan divanxanası" adlandırıldığı xəbər verilir.

***

Şəki Xan sarayı üzü cənuba baxan ikimərtəbəli binadır. Binanın bir cərgədə yerləşən üç hissəsi bir-birindən dəhlizlə ayrılır. Mərtəbələrin quruluşu eynidir.

Bura yolu düşən hər bir şəxsi, ilk növbədə, heyrətə gətirən, **...**, binanın *fasadındakı* şəbəkə pəncərə və qapılardır. Dünyada *analoqu* olmayan bu şəbəkələr çox xırda həndəsi fiqurlardan ibarətdir. Şəbəkəni yaradan ağac parçalarının aralarına müxtəlif rəngli şüşələr geydirilmişdir. Hər bir kvadratmetrdə orta hesabla 5000, mürəkkəb yerlərdə isə 14000 ağac və şüşə element vardır. Rəngli şüşələrdən düşən işıq divarlarda və döşəmədə əks olunaraq əlvan şəbəkə kölgələri yaradır. Ən maraqlısı isə odur ki, şəbəkələrin hazırlanmasında və ümumiyyətlə, binanın tikintisində nə yapışqandan, nə də mismardan istifadə edilib.

Binanın daxilində həndəsi və nəbati naxışlara, quş şəkillərinə, süjetli rəsmlərə – döyüş və ov səhnələrinə daha geniş yer verilib. Zövqlə işlənmiş *taxçalar*, güzgülü *buxarılar* əsl sənət nümunəsidir. Taxçalar Nizami Gəncəvinin "Yeddi gözəl", "Leyli və Məcnun" poemalarına çəkilmiş illüstrasiyalarla bəzədilib. Salonun qalan sahəsi isə rəsmli, ornamentli şəbəkələrlə işlənib. Otaqların divarları ilə yanaşı, tavanını da incə naxışlar bəzəyir.

**2.** Təsviri incəsənət fənnindən keçdiklərinizi xatırlayaraq həndəsi və nəbati naxışlar haqqında bildiklərinizi danışın. Bu naxışlar Azərbaycanın daha hansı qədim xalq sənətində geniş istifadə edilir?

***

Şəki Xan sarayının memarı şirazlı Hacı Zeynalabdin olmuşdur.

Divar rəsmləri XVIII əsrdə yaradılsa da, sonralar dəfələrlə bərpa edilib. Sarayın divar təsvirlərini işləyən bir neçə *nəqqaş* və ustanın adı binanın içində müxtəlif yerlərdə yazılıb. Burada şuşalı usta Qəmbərin, şamaxılı ustalar Əliqulu və Qurbanəlinin, rəssam-nəqqaş Mirzə Cəfərin adlarına rast gəlmək mümkündür. Divarlardakı kitabələrdən məlum olur ki, həmin sənətkarlar XIX əsrin sonunda binada işləmişlər.

XVIII əsrdə ilk təsvirləri işləyən nəqqaşın adı isə, **...**, bunların içində qeyd edilməyib. İkinci mərtəbənin tavanındakı təsvirdə usta Abbasqulunun adı yazılıb. Ancaq Abbasqulunun bu təsvirləri nə vaxt işləməsi haqqında əlimizdə heç bir məlumat yoxdur.



LAYİHƏ

***

Azərbaycan incəsənətinin möhtəşəm əsəri əsarət dövrünün acı zərbələrinə sinə gərib yaşadı, gözəllik və əzəmətini qoruya bildi. Vaxtilə rus müstəmləkəçilərinin qəddar münasibəti ilə üzləşən, məscidi rus kilsəsinə, hərəmxanası türməyə çevrilmiş sarayda mütəxəssislər dəfələrlə bərpa işləri apardılar və abidə ilkin halına qaytarıldı.

Bu gün Şəki Xan sarayı öz gözəlliyi, qədimliyi, qeyri-adi memarlıq üslubu ilə turistlərin ən çox üz tutduğu məkanlardandır. Sarayın qarşısında əkilmiş yüzillik xan çinarlar isə sanki tarixin səhifələrindən söz açır, gələnləri XVIII əsrə dəvət edir.

*Sahibə Tərtərli*

### Söz ehtiyatı

**3.** Mətnə əsasən, "buxarı", "taxça", "nəqqaş", "illüstrasiya", "ornament" sözlərinin mənasını təxmin edin və lüğətin köməyi ilə dəqiqləşdirin.

### Düşün və cavab ver

**4. Araşdırma.** Azərbaycan memarlığının daha hansı nümunələri ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir?

**5.** Mətnin hər bir hissəsinə uyğun başlıq verin.

**6.** Şəki Xan sarayının divarında əks olunan bu şəkil mətndəki hansı məlumatları təsdiqləyir?





LAYİHƏ

## Dil qaydaları

**7.** Mətndə göy rənglə verilmiş cümlələrdə nöqtələrin yerinə *təəssüf ki, əlbəttə ki* sözlərindən uyğun gələnini artıraraq cümləni oxuyun.

**Yadda saxla!** **MODAL SÖZLƏR**

Danışanın ifadə etdiyi fikrə münasibətini bildirən sözlərə modal sözlər deyilir: *Əlbəttə, toplantıya gedəcəyəm. Bəlkə də, toplantıya gedəcəyəm.*

Birinci cümlədən məlum olur ki, danışan toplantıya mütləq gedəcək. İkinci cümlədə isə o, toplantıya gedəcəyinə əmin deyil. Cümlədə bu münasibəti yaradan "əlbəttə", "bəlkə də" modal sözləridir.

*Doğrudan (da), əlbəttə (ki), güman (ki), deyəsən, yəqin (ki), bəlkə (də), əvvəla, nəhayət, ümumiyyətlə, beləliklə, heyif (ki), təəssüf ki, sanki, elə bil (ki), guya (ki), məncə, zənnimcə* və s. dilimizdə ən çox işlənən modal sözlərdir.

**8.** Cümlələrdə altından xətt çəkilmiş sözlərdən asılı olaraq danışanın öz fikrinə münasibətini müəyyən edin.

A. O, uzun axtarışlardan sonra, nəhayət, istədiyinə nail oldu.
B. Hekayə çox maraqlı idi, sanki təcrübəli müəllif yazmışdı.
C. Şübhəsiz, biz bu istiqamətdə işimizi davam etdirməliyik.
D. Heyif ki, bir az gec gəldin.
E. Məncə, hər işin öz vaxtı olmalıdır.
Ə. Bütün gördüklərim, olmaya, yuxu imiş.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Yəqinlik bildirir. | A | B | C | D | E | Ə |
| Güman, şübhə bildirir. | A | B | C | D | E | Ə |
| Təəssüf bildirir. | A | B | C | D | E | Ə |
| Nəticə ifadə edir. | A | B | C | D | E | Ə |
| Bənzətmə bildirir. | A | B | C | D | E | Ə |
| Fikrin mənbəyini bildirir. | A | B | C | D | E | Ə |

**9.** Nöqtələrin yerinə müvafiq modal sözləri yazmaqla cümlələri köçürün.

1. ... bu işi uğurla başa çatdıra bilmədik. *(sanki, əfsus ki)*
2. ... sən bu gün onunla görüşsən, yaxşı olardı. *(təəssüf ki, zənnimcə)*
3. ... qəlbimdən gələn bir səs məni irəli getməyə qoymurdu. *(elə bil, deməli)*
4. ... bu dəfə qalib gələcəyik. *(şübhəsiz, əfsus)*
5. ... bunu səndən heç gözləməzdim. *(ehtimal ki, düzü)*



LAYİHƏ

# DÜNYA 20 YANVARDAN NECƏ XƏBƏR TUTDU



Yayım apardığı 64 il ərzində Azərbaycan radiosu ilk dəfə idi ki, efirə vaxtından yarım saat əvvəl, özü də himnsiz, diktor elanı, "Danışır Bakı" sədaları olmadan çıxırdı. Əvvəlcə bir uğultu gəldi, efiri xışıltı bürüdü, qırıq-qırıq səslər eşidildi. Sonra kimsə kal səslə mikrofona məlumat oxumağa başladı.

Yad səslə oxunan məlumat 20 Yanvar gecəsində Bakıda baş vermiş qanlı hadisələrin mahiyyətini yalanlarla örtbasdır edir, sovet ordusunun törətdiyi vəhşiliklərə bəraət qazandırmağa çalışırdı. İnsanların sovet imperiyasına nifrətini daha da coşduran bu səs Bakıda *fövqəladə vəziyyət* elan olunduğunu bildirirdi. "Diktor" hərbi komendant Dubinyakın əmrlərini oxuyur, əhalini evlərdə oturub küçələrə çıxmamağa çağırırdı.

Bir neçə saat əvvəl Azərbaycan televiziyasının *enerji bloku* partladılmış, televiziya susdurulmuşdu. Bakı qırğınını planlaşdıran hərbçilər yalnız radio ilə istədikləri məlumatları yayırdılar.

20 Yanvarın acı səhəri bəd xəbərlər püskürürdü: yüzlərlə insan öldürülmüş, itkin düşmüş, yaralanmış, həbs olunmuşdu. İşğal olunmuş şəhər yas içində idi, şaxtalı, sazaqlı, tutqun havadan sanki ağır bir kədər yağırdı. İnsanlar nə axtardıqlarını özləri də bilmədən, məyus halda qan tökülmüş küçə və meydanları gəzib-dolaşırdılar. Hamı hüznlü və eyni zamanda qəzəbli idi. Nəqliyyat işləmirdi. Yalnız ağır tanklar mərkəzi küçələrdə öz bədheybət tırtılları ilə yolları oyaraq sağa-sola cövlan edirdi.

Səhər tezdən radioya işə gələn əməkdaşlar avtomatla qarşılandılar. Bütün studiyaların qarşısında üz-gözlərindən zəhrimar yağan rus əsgərləri keşik çəkirdilər. Artıq radionun diktor otağı da zəbt olunmuş və burada hərbi *senzor* fəaliyyətə başlamışdı. Senzor bəyan etmişdi ki, hələlik diktorlara ehtiyac olmayacaq, materialları efirə özləri oxuyacaqlar. Hərbçilər arasında Azərbaycan dilində danışanlar – *sapı özümüzdən olan baltalar* da var idi. Xüsusi canfəşanlıq göstərən bir *praporşik* də belələrindən idi. Səhər tezdən



LAYİHƏ

hərbi komendantın ilk "rəsmi" məlumatlarını höccələyə-höccələyə efirə oxuyan da, yəqin, həmin şəxs idi.

***

Həmin günlər efirdə yalnız kədərli musiqilər səslənir və hərbi komendantın məlumatları oxunurdu. Lakin qəflətən radio dalğalarında sanki ildırımlar oynadı, gurultulu bir şimşək çaxdı. O vaxt Azərbaycan Ali Sovetinin sədri olan Elmira Qafarovanın kəskin bəyanatı gözlənilmədən efirdə səsləndi. Moskvanın ünvanına kəskin ittiham kimi səslənən həmin bəyanat bu üsyankar cümlələrlə bitirdi: "Tökülən günahsız qanlar üçün bütün məsuliyyət bu qərarı qəbul etmiş və bilavasitə onun icrasını təmin etmiş SSRİ orqanlarının və onların vəzifəli şəxslərinin üzərinə düşür. Azərbaycan xalqı oğul və qızlarının bu cür faciəli surətdə həlak olmasını heç kəsə bağışlamayacaq..."

Bu bəyanat heç kimlə razılaşdırılmamışdı. Sadəcə, yanvarın 20-də günün ikinci yarısında E.Qafarova köməkçisinin müşayiəti ilə studiyaya gəlmiş və radio işçilərinin fədakarlığı sayəsində öz bəyanatını Azərbaycan və rus dillərində birbaşa efirdə oxumuşdu. Əməkdaşlar həmin bəyanatı lentə yazmış və gün ərzində bir neçə dəfə səsləndirməyə nail olmuşdular. Əlbəttə, olduqca sərt hərbi *senzura* şəraitində bu bəyanatı efirə vermək sadə iş deyildi. Ertəsi gün radio işçiləri həmin bəyanatı gizlincə Türkiyəyə, İrana və ərəb ölkələrinə yaydılar.

Bu "özbaşınalıq"dan xəbər tutan hərbi senzor yanvarın 24-də xarici verilişlərin yayımını tamamilə dayandırdı. Amma artıq gec idi. Bəyanat "Azadlıq" radiostansiyası ilə də səsləndirilmiş və bəzi qəzetlərdə çap olunmuşdu. Ümumiyyətlə, həmin günlərdə Almaniyadan efirə çıxan "Azadlıq" radiosu 20 Yanvar faciəsini geniş işıqlandırır, Azərbaycan xalqının üzləşdiyi faciə barədə dünyaya məlumatlar yayırdı.

Faciənin ertəsi günü Moskvadakı Azərbaycan nümayəndəliyində sərt çıxış edərək SSRİ rəhbərliyini tənqid atəşinə tutan görkəmli siyasətçi Heydər Əliyevin bəyanatı radio ilə dünyaya yayıldı.

*Qulu Məhərrəmli*

### Söz ehtiyatı

**1.** Kontekstdən çıxış edərək "fövqəladə vəziyyət", "enerji bloku" birləşmələrinin və "senzura", "praporşik" sözlərinin mənalarını izah edin.

**2.** "Sapı özümüzdən olan baltalar" ifadəsini necə başa düşürsünüz? Sizcə, bu ifadədə "sap" sözü hansı mənada işlənir? İfadənin mənasını təxmin edin.



LAYİHƏ

### Düşün və cavab ver

**3.** Sillogizm qurmaqla Azərbaycan radiosunun ilk dəfə efirə çıxdığı tarixi müəyyən edin.

**4.** 1990-cı il yanvarın 20-dən sonra elan edilmiş fövqəladə vəziyyət haqqında məlumat toplayıb təqdimat hazırlayın.

### Yazı

**5.** Teleqraf və internet vasitəsilə 20 Yanvar hadisələri və Xocalı faciəsi haqqında dünya ictimaiyyətini məlumatlandırmaq üçün mətnlər hazırlayın.

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş modal sözlərdə vergülün işlənməsi ilə bağlı fərqi şərh edin.

**Yadda saxla!** **MODAL SÖZLƏRDƏ DURĞU İŞARƏLƏRİNİN İŞLƏNMƏSİ**

Modal sözlər cümlədə vergüllə ayrılır: *Əvvəla, bunları sənə demişdim. Biz, deyəsən, məsələdən çox uzaqlaşdıq. Ramin bu işləri yarımçıq buraxacaq, təəssüf ki.*

*Sanki, elə bil (ki), guya (ki)* modal sözləri istisnadır: *Guya onu tanımırsan.*

**7.** Cümlələrdə modal sözləri müəyyən edin və buraxılmış vergül işarəsini qoymaqla dəftərinizə köçürün.

1. Mənəvi saflıq doğrudan ən böyük sərvətdir.
2. Ülkər deyəsən bizim gəlişimizi gözləmirdi.
3. Təəssüf dolu baxışları ilə sanki üzrxahlıq edirdi.
4. Elə bil başına bir qazan qaynar su tökdülər.
5. Guya Nadir gəlsə, hər şey düzələcək.
6. Məni unutmamısan görünür.
7. Sən də bəlkə bizim dəstəyə qoşulasan?

**8.** Verilmiş nümunələrin hansında “sözsüz” modal söz kimi işlənib? Fikrinizi əsaslandırın.

A. Qaytarsan o sözləri, sözsüz bir lal olarsan,
Qaytarsan o yerişi, yerindəcə qalarsan. *(Ə.Kərim)*

B. Müəllim tapşırıbsa, sözsüz, yerinə yetirməliyik.



LAYİHƏ

# NEFT DAŞLARI

Xəzərin dibində neftin olması qədim vaxtlardan məlum idi. Bir çox tarixçilərin, səyyahların əsərlərində dəniz səthi üzərində mazutlu daşların görünməsi, suda qaz qabarcıqlarının çıxması təsvir edilmişdi. Dənizin həmin hissəsinin "Qara daşlar" adlandırılması da məhz bununla əlaqədar idi. Yerli sakinlər su üzərinə yayılmış nefti vedrələrlə yığıb istifadə edirlərmiş. Sakit, küləksiz günlərdə dənizə yanan bir kağız düşəndə həmin yer bir an içində alova bürünərmiş. Gecələr bu mənzərə daha cazibədar olurmuş. Bayram günlərində və ya hörmətli qonaqlar gələndə bu möcüzəli atəşfəşanlıq məxsusi nümayiş etdirilər, hamını heyrətləndirərdi.

**1.** Sizcə, nə üçün bu hadisə yalnız küləksiz günlərdə mümkün olurdu?



Hələ XIX əsrin əvvəllərində dünyada ilk dəfə olaraq Bibiheybət körfəzində dənizin sahilə yaxın hissəsində qazılmış quyudan neft çıxarılmışdı. Neftin dənizdən sənaye üsulu ilə hasilatı isə ötən əsrin 20-ci illərindən başlamışdı. Həmin illərdə Bibiheybət dağının sökülüb körfəzə doldurulması qoca Xəzəri addım-addım, qarış-qarış geri çəkilməyə, öz yerini gələcək neft mədənlərinə verməyə məcbur etdi. Dənizdən qoparılmış sahədə neft buruqlarının sayı sürətlə artırdı. Buradakı quyular gələcəkdə açıq dənizdə neft hasilatı üçün, bir növ, sınaq meydançasına çevrildi. Tezliklə dənizin

LAYİHƏ

dibində də neft aşkar olundu və taxta özüllər quraşdırmaqla neft quyuları qazıldı.

**2.** Nəyə görə Bibiheybət neft quyuları dənizdə neft hasilatı üçün sınaq meydançası hesab edilirdi?

İlk nəticələr dənizdən çıxarılan neftin iqtisadi səmərəliliyini sübut etdi. Lakin texniki imkanların məhdudluğu, daha sonra isə II Cahan savaşının başlaması bu sahənin inkişafına mane oldu.

Müharibənin nəhəng sobasında 50 milyon tondan artıq Bakı nefti yandırıldı. Bakı neftçiləri gecə-gündüz yatmayıb faşist ordusuna qarşı döyüşən sovet tanklarını və təyyarələrini yanacaqla təmin etdilər. Lakin onların bu şücaəti lazımınca qiymətləndirilmədi. Müharibədən sonra bir çox şəhərlərə "Qəhrəman şəhər" adı verildi. Fəqət onların qəhrəman olmasında misilsiz qəhrəmanlıq göstərən neft paytaxtı – Bakı insafsızcasına unuduldu. Şəhər öz problemləri ilə təkbətək qaldı. Müharibənin vurduğu ziyanın miqyası son dərəcə böyük idi. Texnoloji standartları pozmaqla mədənlərin vəhşicəsinə istismarı nəticəsində dörd mindən artıq neft quyusu sıradan çıxmışdı. Onları həyata qaytarmaq, eyni zamanda yenilərini qazmaq asan məsələ deyildi. Nəhəng SSRİ isə iqtisadiyyatın bərpası üçün yenə də Bakıdan neft tələb edirdi. Azərbaycan neftçiləri müharibənin neft sənayesində yaratdığı problemləri tezliklə aradan qaldırmalı idilər. Köməyə yenə də doğma Xəzər gəldi.

**3.** Altından xətt çəkilmiş cümlələri şərh edin.

1947-ci ildə dənizin 5-6 metr dərinliyində ilk estakadalar quruldu. Beləliklə, Xəzərin genişmiqyaslı tədqiqinin, onun neft ehtiyatlarının *istismarının* bünövrəsi qoyuldu. Dənizin dərinliklərində böyük neft yatağı aşkar edildi. Bu, "Qara daşlar" idi. 1949-cu ildə neftçilərimizin ilk dəstəsi "Qara daşlar"a yollandı. Dünya təcrübəsində ilk dəfə idi ki, sahildən 40 kilometr aralı, açıq dənizdə qazma işləri başlanırdı. Bunun üçün sahildən gətizdirilən köhnə gəmi dənizin dayaz yerində yarıyacan suya "otuzduruldu". Onun göyərtəsində qazmaya hazırlıq işləri görüldü. Sonralar burada daha altı gəmi batırıldı. "Yeddi gəmi adası" adı belə yarandı. Gəmilər neftçiləri dalğalardan qoruyur, onlar üçün ev, anbar, idarə, istirahət yeri kimi xidmət edirdi.

**4.** "İstismar" sözünün bu abzasda işlənmiş mənasını digər mənaları ilə müqayisə edin. Bu sözün omonim, yoxsa çoxmənalı söz olduğunu müəyyənləşdirin.



LAYİHƏ

1949-cu il noyabrın 7-si Azərbaycanın neft tarixinə həmişəlik yazıldı. Bu, dünya neft tarixində də fövqəladə bir hadisə idi. Həmin gün dərinliyi 1000 metr olan 1 saylı quyu güclü fontan vurdu. Quyunun gündəlik istismarı 100 ton idi. Bu nailiyyətin şərəfinə ərazinin əvvəlki "Qara daşlar" adı "Neft daşları" ilə əvəzləndi. Neft Daşları gündən-günə böyüyür, genişlənir, quyuların sayı artırdı. Dünyada ilk dəfə olaraq polad dayaqlar üzərində dəniz yolları – estakadalar quruldu, ümumi uzunluğu 300 kilometrə çatdırıldı. Estakadalar Neft Daşlarını qəsəbəyə çevirdi. Bu qəsəbəyə xas həyat tərzi, sosial-məişət münasibətləri yarandı. Burada neftçilərin yeni nəsli yetişdi, formalaşdı, təşəkkül tapdı.

**5.** Təxəyyülünüzə uyğun olaraq "Neft daşları"nda yaşayanların həyat tərzini təsvir edin.

Neft Daşları Xəzərdə neft ehtiyatlarının gələcəkdə daha geniş, daha dəqiq tədqiqinin əsasını qoydu. Sonralar Türkmənistan, Qazaxıstan, Dağıstan sularında kəşf edilib istismara verilən neft yataqları da Azərbaycan neftçilərinin adı ilə bağlıdır. **Neft Daşlarında hazırlıq keçmiş mütəxəssislərimiz öz zəngin təcrübələrini keçmiş SSRİ-nin bütün bölgələrində, ... Bolqarıstanda, Vyetnamda, Hindistanda, Braziliyada, Pakistanda və başqa ölkələrdə yaydılar.**

Neft Daşlarının 1999-cu ildə keçirilmiş 50 illik yubileyində ümummilli liderimiz Heydər Əliyev dəniz neftçilərinə ünvanladığı təbrikdə Neft Daşlarını "XX əsrdən XXI əsrə atılmış bir körpü" adlandırmaqla bu dəniz şəhərinin böyük gələcəyinə inamını ifadə etmişdi.

**6.** Heydər Əliyevin "Neft daşları" haqqında işlətdiyi ifadəni izah edin.

Bu gün dünyanın səkkizinci möcüzəsi adlandırılan Neft Daşları – Abşeron yarımadasından 42 kilometr cənub-şərqdə, dənizin dibinə bərkidilmiş metal dirəklərin üstündəki estakadalar üzərində, dəniz səthindən bir neçə metr hündürlükdə salınan, Azərbaycanın şərqində ən sonuncu yaşayış məntəqəsi olan əfsanəvi dəniz şəhəri – yurdumuzu dünyaya tanıdan unikal məkanlardan biridir.

**7.** Sonuncu cümlədən aldığınız məlumatları müstəqil cümlələrlə ifadə edin.

*Nazim Rza İsrafiloğlunun*
*"Odlu məmləkət" kitabından*



LAYİHƏ

### Düşün və cavab ver

**8.** Aşağıdakı parça mətnin hansı hissəsinə uyğun gəlir?

*"Yeddi gəmi" adasındakı gəmilər arasında 1887-ci ildə İsveçin gəmi tərsanəsində Lüdviq Nobelin layihəsinə əsasən hazırlanmış "Zoroastr" ("Zərdüşt") adlanan və dünyada ilk neft tankeri olan gəmi də var idi. Sonralar onu dənizin dibindən çıxarmaq cəhdləri heç bir nəticə vermədi. Bakı inşaatçıları öz işlərini çox keyfiyyətli görmüşdülər – tanker dənizin dibinə həmişəlik pərçim olunmuşdu.*

### Yazı

**9.** "Neft Daşları filmlərimizdə" mövzusunda inşa yazın.

### Dil qaydaları

**10.** Mətndə fərqləndirilmiş cümləyə diqqət yetirin. Hansı rənglə verilmiş "keçmiş" sözü feili sifətdir? Həmin cümlədə nöqtələrin yerinə hansı bağlayıcı uyğun gəlir: "o cümlədən", yoxsa "eləcə də"?

**11.** Mətndə göy rənglə verilmiş cümlələrə *eh, ura* sözlərindən uyğun gələnini artıraraq hislərinizi ifadə edin. Bu hissin sevinc, kədər, qorxu və s. bildirdiyini izah edin.

**Yadda saxla!** **NİDA**

Dilimizdə elə sözlər var ki, danışarkən hisslərimizin (sevinc, qorxu, həyəcan və s.) ifadəsinə kömək edir. Belə sözlər nida adlanır:

*Aha, tanıdım səni! Vay! Vay! Deyəsən, başər deyil bu! (M.Ə.Sabir)*

Nida cümlə daxilində vergül işarəsi ilə ayrılır. Bu cür cümlələrin sonunda nida işarəsi qoyulur:

*Ura, biz yenə birinciyik!*

Bəzən nida bağlı olduğu cümlədən nida işarəsi ilə ayrılır:

*Vay! Nə yaman çətinə düşdük!*

Bəzi nidalar qoşulduğu sözlərlə birlikdə müraciət olunanı – xitabı bildirir. Bu nidalardan sonra vergül qoyulmur:

*Ey* Vətən, torpağın əzizdir mənə. *(S.Rüstəm)*

**12.** Oxuyun, nidaları müəyyən edin. Durğu işarələrinə diqqət yetirin.

1. Uy, mən bu kişidən qorxuram!
2. Nə kifir kişidir bu, ay Allah!



LAYİHƏ

3. Aha, deyəsən, məndən qorxurlar!
4. A Məşədi, belim qırıldı, düş aşağı!
5. Ey, kimsən orda, aç qapını!
6. Oho!.. Qız da oxuyur ki!
7. Ha-ha-ha, o kişi zarafat edibdir! *(Ü.Hacıbəyli)*
8. Ah, nələr duyuram onun səsində,
   Bu ellər qızının xoş nəfəsində! *(S.Vurğun)*
9. Ay haray, köməyə gəlin!
10. Pəh-pəh, nə ətirli çaydır!
11. Vay-vay, nə yaman yerdə axşamladım!
12. Ay-hay, buna çətin iş deyirsiniz?!

**13.** Cümlələri oxuyun və nidaların hansı hiss ifadə etdiyini araşdırın.

A. Of, ürəyimdən tikan çıxdı!
B. Vay, uşaqlar bilsə, aləm bir-birinə qarışacaq!
C. Ay can-ay can, axşam gəzməyə gedirik!
D. Ay aman, bu nə iş idi, mən düşdüm!
E. Ah, hanı o gözəl günlər.

| | | | | | |
|---|---|---|---|---|---|
| Narahatlıq, qorxu ifadə edir. | A | B | C | D | E |
| Həsrət, qəm-qüssə ifadə edir. | A | B | C | D | E |
| Şadlıq, sevinc ifadə edir. | A | B | C | D | E |

**14. Debat.** Misraların məzmununa görə eyni nidaların hansı hissləri ifadə etdiyini müəyyənləşdirin.

Bizdən də bir söz qalacaq, ay aman!
Kimlər bizdən söz salacaq, ay aman! *(M.Şəhriyar)*
A) Birinci misrada – sevinc, ikinci misrada – narahatlıq.
B) Hər iki misrada – qorxu və narahatlıq.

**15.** Hansı cümlələrdə nida yoxdur? Nida ilə omonim olan sözləri göstərin və hansı nitq hissəsi olduğunu müəyyənləşdirin.

1. Ahına anan qurban, ay bala!
   Ah, biz bir daha görüşməyəcəyik!
2. Vayda da, toyda da əskik olmaz.
   Vay, nə yaman qəzəblə baxır!
3. Ay aman, uşağın qızdırması var!
   Ondan aman gözləmə.

LAYİHƏ

## ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1.** Sizcə, bölmədəki mətnləri hansı ideya birləşdirir?

**2.** Hansı mətnlər sizdə fərəh və qürur, hansılar təəssüf və hiddət doğurdu?

Ü.Hacıbəylinin “O olmasın, bu olsun” operettasından Məşədi İbadın monoloqunu oxuyun, 3-cü və 4-cü tapşırıqları yerinə yetirin.

Zarafat deyildir, bir ətək pul verirəm, bir baxım görüm, mal nə cür maldır, verdiyim pula dəyərmi? A kişi, mən bircə bilmədim ki, camaat mənim harama qoca deyir! Vallah, görünür ki, xalqın gözü pis görür. Budur, bu ayna, bu da mən. Allaha şükür, dişlərim hamısı cabəca, saqqalım da qapqara, şəvə kimi. Deyəsən, burda bir dənə ağ tük vardır. Gərək dartam çıxsın. Ay zəhrimar!.. Görünür ki, heyvan balası dəllək hənanı pis yaxıbdır. Puf!.. Rədd ol, şarlatan!.. Qoca odur ki, dişləri olmaya, gözü görməyə, qulaqları eşitməyə, özü də yerindən tərpənə bilməyə; mən ki, əlhəmdülillah, quş kimiyəm. Maşallah deyim ki, göz dəyməsin. Özüm də əlli yaşım ya ola, ya olmaya... Yaxşı, indi mən papağımı nə cür qoyum ki, qızın xoşuna gəlsin. Hərgah belə qoysam, onda qız qorxar, elə bilər ki, Bakı qoçusuyam. Əgər belə qoysam, onda da qız ürkər, elə bilər ki, Qarabağın pambıq bəylərindənəm. Bəs nə tövr qoyum? Hamısından yaxşısı budur ki, başıaçıq oturram, onda qızın xoşuna gələr, elə bilər ki, abrazavonnıyam. Doğrudan da, mən bir qədər abrazavonnıyam, çünki uruslar mən ilə çox alış-veriş eyləyiblər və mən onlardan urus dilini də yaxşı öyrənmişəm. Aha, deyəsən, qız gəlir!..

**3.** Altından xətt çəkilmiş köməkçi nitq hissələrini aşağıdakı cədvələ uyğun qruplaşdırın.

| Qoşma | Bağlayıcı | Ədat | Modal söz | Nida |
|---|---|---|---|---|
| | | | | |

**4.** Eyni rənglə verilmiş sözlər arasında morfoloji baxımdan fərqləni tapın.

**5.** Dördündən biri nitq hissəsinə görə fərqlidir:

A) ha, di, ha-ha, axı
B) paho, aha, əhsən, ha
C) afərin, bəlkə, nəhayət, ümumiyyətlə

LAYİHƏ

**6.** Durğu işarələrini əlavə etməklə cümlələri köçürün.

1. Paho xoş gördük, həmişə sən gələsən
2. Vay mənim qızıma nə olub
3. Oy nə qəşəng ceyrandır
4. Sanki onlar xəyal imiş heyhat
5. Ax Necə kef çəkməli əyyam idi,
   Onda ki övladi-vətən xam idi *(M.Ə.Sabir)*
6. Ay-hay mənə badalaq gələnə bax

**7.** Cümlənin əvvəlinə müxtəlif modal sözlər artırmaqla fikrə münasibətinizi bildirin.

1. (yəqinlik bildirən) ... qəzəblə başlanan bir iş xəcalətlə qurtara bilər.
2. (nəticə bildirən) ... qəzəblə başlanan bir iş xəcalətlə qurtara bilər.
3. (fikrin mənbəyini bildirən) ... qəzəblə başlanan bir iş xəcalətlə qurtara bilər.
4. (şübhə bildirən) ... qəzəblə başlanan bir iş xəcalətlə qurtara bilər.

**8.** Verilmiş sifətlərə uyğun ədatlar artırmaqla sifətin çoxaltma dərəcəsini düzəldib cümlədə işlədin.

*ən, lap, daha*

gözəl, zərif, qəribə

**9.** Nöqtələrin yerinə uyğun ədatlar artırın, ədatların yazılış qaydalarına əməl edin.

*sana*$^{2}$*, mı*$^{4}$*, ha, di, də, ki, bəs, ən*

1. Bir körpə qəlbini sevindirmək ... böyük savabdır.
2. Ana ürəyi övladından heç küsər... ?
3. Dediklərimi unutma ..., oğul!
4. Sözün düzünü üzə deyərlər ... .
5. ... get, gecən xeyrə qalsın.
6. Çoban qardaş, bu dağların sirrini bizə də de... .
7. Kim ... milyonlar axtarır, nadir halda onu tapır. *(Balzak)*
8. ... bu gözəl meşələr, buz bulaqlar cənnət deyil... ?
9. ... böyük qələbələr qurbanlar bahasına əldə edilir.

LAYİHƏ







# VI BÖLMƏ

# İXTİRALAR VƏ KƏŞFLƏR



LAYİHƏ

# İSAAK NYUTON



İsaak Nyuton 1643-cü ildə İngiltərədə fermer ailəsində dünyaya gəlmişdir. Onun valideynləri azsavadlı adamlar idilər. Lakin uşaqlarına yaxşı təhsil verməyə çalışırdılar.

Xasiyyətcə adamayovuşmaz olan İsaak məktəbdə o qədər də fəal deyildi. Belə bir uşağın gələcəkdə böyük alim olacağı heç kəsin ağlına belə gəlmirdi.

Balaca İsaak qəribə oyuncaqlar düzəltməyi sevirdi. Onun düzəltdiyi kiçik yeldəyirmanı təkcə uşaqları deyil, böyükləri də heyrətə gətirirdi. Külək əsəndə dəyirmanda az miqdarda buğda da üyütmək mümkün idi. Küləksiz havada isə dəyirmanı canlı "dəyirmançı" – siçan hərəkətə gətirirdi. Siçanı dəyirman çarxının üstünə çıxmağa məcbur etməkdən ötrü İsaak çarxın üzərində kiçik buğda torbası asmışdı.

On dörd yaşında olanda o, pedalla hərəkətə gətirilən araba ixtira etdi. Bu arabanı velosipedin əcdadı saymaq olardı.

Məktəbi bitirən Nyuton Kembricə gedərək dünyanın ən yaxşı universitetlərindən birinə daxil oldu. O, kasıb olduğu üçün həm oxuyur, həm də xidmətçi kimi işləyirdi. Günlərin birində universitet rəhbərliyi onun istedadlı tələbə olduğunu başa düşdü və ona təqaüd kəsdi. Bundan sonra İsaak daha xidmətçilik etmədi, bütün diqqətini yalnız təhsilə yönəltdi.

İstedadlı oğlanın kiçik ixtiraları sonralar daha böyük kəşflərlə əvəz olundu. Yeni tipli teleskop yaratdığına görə Nyutonu London Kral Cəmiyyətinə, başqa sözlə desək, İngiltərə Elmlər Akademiyasına üzv seçdilər.

Nyuton böyük alim olduqdan sonra da ətrafdakılara qapalı, hətta bir qədər kütbeyin adam təsiri bağışlayırdı. Bu da onun daim elmi düşüncələr içində olmağından irəli gəlirdi. Böyük alimin qəribəlikləri haqqında rəvayətlər var. Deyirlər, bir gün Nyuton itinə və pişiyinə qapı açmaqdan bezir və qapının aşağı hissəsində iki dəlik açır: böyüyü it üçün, kiçiyi isə pişik üçün.

**1. Nyutonun bu hərəkətindəki qəribəliyi izah edin.**

Nyutonun ən böyük kəşflərindən biri ümumdünya cazibə qanunudur. Bu kəşf də məşhur rəvayətlə bağlıdır. Deyilənə görə, 1666-cı ildə Nyuton öz bağında dincələn zaman başına ağacdan alma düşür və o anlayır ki, hansısa bir qüvvə cisimləri Yer səthinə düşməyə məcbur edir.

LAYİHƏ

Beləliklə, adi bir alma Nyutonu *cazibə* qüvvəsi haqqında dərindən düşünməyə vadar etdi. Amma bu düşüncələri qanun formasına salmaq, onların elmi təsdiqini vermək üçün fizikə 20 il vaxt lazım oldu. Nyutona qədər, yəqin ki, çoxlarının başına alma düşmüşdü, amma onlar heç nə kəşf etməmişdilər. Nyuton isə kəşf etdi, çünki o, dahi idi. Böyük alim ətrafı müşahidə edir və daim özünə "niyə?" sualını verirdi. Bu dəfə də o düşündü: "Niyə alma həmişə Yerə *perpendikulyar* xətlə düşür? Niyə o, Yerin mərkəzinə istiqamətlənir? Niyə yana əyilmir, yaxud uçmur?

Bu cür "niyə?" suallarını verə-verə dahi alim astronomiya, fizika, kimya və riyaziyyatda çoxlu kəşflər etmişdi.

Nyuton səksən dörd il yaşadı. O, İngiltərə krallarının, dövlət xadimlərinin dəfn olunduğu yerdə böyük şərafətlə torpağa tapşırıldı.

Nyutonun şərəfinə qoyulmuş abidələrdən birinin üzərində belə sözlər həkk edilmişdir: "Nyuton bəşəriyyətin yaraşığıdır".

*Rafiq Ələkbəroğlu*

### Söz ehtiyatı

**2.** "Cazibə", "perpendikulyar" sözlərinin mənalarını kontekstə görə izah edin.

### Düşün və cavab ver

**3.** Sillogizm qurmaqla ümumdünya cazibə qanununun neçənci ildə kəşf edildiyini müəyyənləşdirin.

**4.** Mətndəki məlumatlardan istifadə etməklə altından xətt çəkilmiş ifadənin doğru, yoxsa yanlış olduğunu sübut edin.

İsaak Nyuton bağda dincələrkən onun başına alma düşməsi və bununla dahi fizikin ümumdünya cazibə qanununu kəşf etməsi geniş yayılmış əfsanələrdəndir. Bu əhvalatı fransız filosofu Volter <u>1731-ci ildə, Nyutonun ölümündən bir il sonra</u> dərc olunmuş kitabına daxil edib.

**5.** Nyutonun başına alma düşməsi ilə bağlı abzası bir daha oxuyun. Abzasdakı hansı ifadə bu əhvalatın rəvayət olduğuna işarə edir?

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş sözlərin cümlədəki mənasına diqqət yetirin. Sual verməklə həmin sözlərin əsas və ya köməkçi nitq hissəsi olduğunu müəyyənləşdirin.



LAYİHƏ

**Yadda saxla!** **ƏSAS VƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN OMONİMLİYİ**

Bir sıra köməkçi nitq hissələri əsas nitq hissələri ilə omonimlik təşkil edir. Bunları fərqləndirərkən nəzərə almaq lazımdır ki, köməkçi nitq hissələri cümlədə heç bir suala cavab vermir, ayrılıqda cümlə üzvü olmur:

*Məndən <u>sonra</u>* (qoşma) *sən gəldin.*
*Mən <u>sonra</u>* (zərf) *gedəcəyəm.*
*<u>Artıq</u>* (ədat) *gecdir.*
*İçəridə <u>artıq</u>* (sifət) *adamlar var.*
*<u>Yaxşı</u>,* (modal söz) *gedək, gecdir.*
*<u>Yaxşı</u>* (sifət) *iş üz ağardar.*

**7.** Fərqləndirilmiş sözlərin cümlələrdəki mənalarına diqqət yetirin. Onların hansı nitq hissələrinə aid olduğunu müəyyənləşdirin və əsaslandırın.

1. **Elə** adam tanımıram. **Elə** mən də onu tanımıram.
2. Dünəndən **bəri** külək əsir. **Bəri** gəl, görüm nə deyirsən.
3. Sən **nə** düşünürsən? Sən **nə** düşüncəlisən.
4. **Tək** əldən səs çıxmaz. **Tək** sən buna laqeyd deyilsən.

**8.** Cümlələrdə altından xətt çəkilmiş sözlərə diqqət yetirin və nümunəyə əsasən cədvəli doldurun.

| | Qoşma | Əsas nitq hissəsi |
|---|---|---|
| 1. | A | B |
| 2. | ... | ... |

1. A) Onun <u>kimi</u> rejissor az tapılar.
   B) Mən ondan <u>kimi</u> gözlədiyini soruşdum.
2. A) Yaxşı götür-qoy edib <u>sonra</u> işə başladıq.
   B) Tamaşadan <u>sonra</u> qızğın müzakirə başlandı.
3. A) Zabit üzünü əsgərə <u>tərəf</u> çevirib nə isə dedi.
   B) Qarşı <u>tərəf</u> məğlubiyyəti ilə barışmalı olacaq.
4. A) <u>Qabaq</u> belə şeylər məni narahat etməzdi.
   B) Bu hadisə müharibədən çox-çox <u>qabaq</u> olub.

LAYİHƏ

**9.** Sözləri cümlələrdə işlədin.

**kimi** — qeyri-müəyyən əvəzlik kimi
— yönlük halda olan sözə qoşulmuş qoşma kimi
— yiyəlik halda olan sözə qoşulmuş qoşma kimi

**sarı** — sifət kimi
— qoşma kimi
— feil kimi

**doğru** — sifət kimi
— qoşma kimi
— zərf kimi

**10.** Mətndən modal sözləri seçin və əsas nitq hissəsi ilə omonimlik təşkil edənləri müəyyənləşdirin.

*Əlbəttə, sənin dediklərində həqiqət var. Mən buna heç şübhə də etmirəm. Ancaq unutma, qarşı tərəf, yəqin, öz arqumentlərini hazırlayıb. Bəlkə də, onlar sənin sərt cavabını gözləyirlər ki, dediklərini sübut etsinlər. Doğrudur, sənin səhvin yoxdur. Amma bəzən haqlı olsan da, susmaq lazım gəlir. Məncə, hələ söz deməyin vaxtı çatmayıb. Səbir elə…*

**11. Qruplarla iş.** Verilmiş sözləri həm əsas, həm də köməkçi nitq hissəsi kimi cümlələrdə işlədin. Onların hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

**I qrup:** *qoy, yaxşı, deməli, özgə, görünür*
**II qrup:** *bax, qeyri, əsl, deyəsən, doğrudan, düz*
**III qrup:** *başqa, bir, elə, əvvəl, nə, necə, qabaq, belə*

**12.** Lüğətin köməyi ilə "yalnız" sözünün ifadə etdiyi mənaları araşdırın. Bu sözü cümlələrdə həm əsas, həm də köməkçi nitq hissəsi kimi işlədin.

**13.** Bayatıda işlənmiş "barı" sözünün yerinə görə qrammatik mənasını müəyyənləşdirin və sinonimlərini tapın.

*Əzizinəm, din barı,*
*Danış barı, din barı.*
*İgidə tab gətirməz*
*Yağı tikən min barı.*



LAYİHƏ

# AVTOMOBİL

"Avtomobil" sözü *autos* (yun. "özü", "müstəqil") və *mobile* (lat. "hərəkət edən") sözlərinin birləşməsindən yaranıb. Özü hərəkət edən araba düzəltmək insanların çoxdankı arzusu olub. Onlar gah pedal düzəldib onun vasitəsilə təkərləri fırladır, gah da arabaya yelkən taxırdılar. Maraqlıdır ki, bir çox xalqlar avtomobilə, sadəcə, "araba" deyirlər (türk. "araba", ing. "car", ital. "vettura", frans. "vuatyur").

XVII əsrdə buxar *mühərriki* ixtira edildi. Bu mühərrik buxarın yaratdığı təzyiq hesabına işləyirdi: qazanda su qaynadılır, bu zaman yaranan güclü buxar mühərrikə ötürülürdü və beləliklə, mexanizm hərəkətə gəlirdi.

Bu ixtiradan sonra arabaya at əvəzinə buxar maşını qoşmağı qərara aldılar. Bu arabanı "lokomobil" (yerdə hərəkət edən araba) adlandırdılar. Bir anlığa təsəvvür edin: araba küçədə hərəkət edir, onun qabağına mis qazan bağlanıb, arxasındakı skamyada isə sürücü oturub sükanı fırladır. Araba bir qədər gedəndən sonra dayanır. Çünki qazanda su soyuyub və buxar qurtarıb. Deməli, sürücü arabadan düşüb ocağı yandırmalıdır ki, qazanda su qaynasın, buxar alınsın və maşın yenidən hərəkətə gəlsin. Elə buna görə də sürücünü fransızca "şofer" adlandırmışlar. Tərcümədə bu söz "ocaqçı" mənasını verir.

**1.** Lokomobil haqqında əldə etdiyiniz məlumatları aşağıdakı şəkillər əsasında genişləndirib danışın.



İngiltərədə isə buxar maşınını örtülü arabaya qoşaraq sərnişin daşımağa başladılar. Qoşquda bir nəfər oturub daim ocaq qalayırdı ki, qazandakı suyu soyumağa qoymasın. Artıq yollarda bacasından tüstü çıxan buxar avtobuslarına tez-tez rast gəlmək olurdu. Bu avtobuslarda yol getmək qorxulu, həm də təhlükəli idi, çünki qazan partlaya bilərdi.



LAYİHƏ

İxtiraçılar daha yüngül və rahat mühərrik yaratmaq haqqında düşünürdülər. İlk belə yüngül mühərriki belçikalı mühəndis Lenuar düzəltdi. Onun yaratdığı mühərrikdə silindrin içərisindəki porşen yanan qazın yaratdığı təzyiq nəticəsində hərəkət edirdi. Lenuar bu mühərriki "daxiliyanma mühərriki" adlandırdı.

Lakin "atsız araba" ixtiraçıları kimi tarixin yaddaşında başqa adlar qalmışdır: Karl Bens ilə Qotlib Daymler. Onlar ixtiraçıya vacib olan hər şeyi etdilər: ixtiranın ideyasını fikirləşib tapdılar, onun ilk nümunəsini yaratdılar, ixtiranı *patentləşdirdilər* və onu istehsalata tətbiq etdilər.

Alman mexaniki Karl Bens XIX əsrin 80-ci illərində benzinlə işləyən daxiliyanma mühərrikini ixtira etmişdi. Bens bu mühərriki üçtəkərli bir *karetə* bərkitdi. Beləliklə, 1885-ci ildə saatda 16 km sürətlə hərəkət edən avtomobil sınaqdan keçirildi.

Həmin ildə alman mühəndisi Qotlib Daymler də benzinlə işləyən, yüngül və sürətli bir mühərrik ixtira etdi. Bu mühərrik taxta bir velosiped üzərinə qoyuldu və nəticədə ilk motosikl ixtira olundu. 1889-cu ildə Daymler ilk dördtəkərli avtomobili düzəltdi. Bu avtomobilin təkərləri xüsusi mexanizm ilə hərəkətə gətirilirdi.

Daymler "Daymler motor kompani" şirkətini yaratdı. Bu şirkətin buraxdığı avtomobillər "Mersedes" adlandırıldı.

**2. Hansı şəkildə benzinlə işləyən ilk avtomobil təsvir olunub?**

1



2



*Bəs nəyə görə "Mersedes"?*

Emil Yellinek adlı bir avtomobil həvəskarı "Daymler" maşınında ilk avtomobil yarışında qalib gəldi. Bundan sonra o, "Daymler" zavoduna 36 ədəd avtomobil sifariş etdi. Razılaşmaya əsasən, zavodun buraxdığı avtomobillərə "Mersedes" adı verildi. Mersedes Emil Yellinekin qızı idi. O zaman Mersedesin 10 yaşı var idi.

Sonralar Daymlerin şirkəti Bensin şirkəti ilə birləşdi. Məşhur "Mersedes-Bens" avtomobil şirkəti belə yarandı.

XX əsrin əvvəllərində avtomobillər çox baha idi. ABŞ-ın Miçiqan ştatında, fermer ailəsində dünyaya göz açmış Henri Ford başa düşürdü ki,



LAYİHƏ

avtomobilin qiymətini ucuzlaşdırmaqla ona olan tələbatı kəskin şəkildə artırmaq mümkündür. 1903-cü ildə o, “Ford motor” adlı şirkət təsis etdi. Ford ilk dəfə olaraq avtomobillərin düzəldilməsində *konveyer* üsulunu tətbiq etdi. Beləliklə, “Ford” avtomobilinin kütləvi istehsalına başlanıldı. Ford öz zavodunda hər gün 1000 ədəd avtomobilin yığılmasına nail oldu.

Bir neçə ildən sonra Bakı yollarında görünən ilk avtomobil də “Ford” oldu. Onu şəhərə neft milyonçusu Hacı Zeynalabdin Tağıyev gətizdirmişdi.

*Rafiq Ələkbəroğlu*

### Söz ehtiyatı

**3.** “Mühərrik”, “karet”, “patent”, “konveyer” sözlərinin mənalarını kontekstə görə izah edin.

### Yazı

**4.** İnternetdən və digər mənbələrdə olan məlumatlardan istifadə etməklə avtomobilin ixtira olunma tarixi haqqında inşa yazın.

### Dil qaydaları

**5.** Mətndə göy rənglə verilmiş sözlərdən birini “və” bağlayıcısı ilə əvəz edin. Hər iki sözü qrammatik mənalarına görə fərqləndirin.

**Yadda saxla!** **KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN OMONİMLİYİ**

Köməkçi nitq hissələri bir-biri ilə də omonimlik təşkil edə bilər. Onları fərqləndirmək üçün sözün cümlədəki funksiyasına diqqət yetirmək lazımdır:

*Bu işi ancaq* (ədat: mənanı qüvvətləndirir) *sən həll edə bilərsən.*
*Bu işi sən yerinə yetir, ancaq* (bağlayıcı: cümlə üzvlərini bağlayır) *diqqətli ol.*

**6.** Fərqləndirilmiş sözlərin mətndəki yerinə görə bağlayıcı və ya ədat olduğunu müəyyən edin.

1. Qoyma öz qanına boyana ceyran,
   **Nə** gözəl yaraşır Muğana ceyran. *(S.Vurğun)*
   Hələ sən çox gəncsən, **nə** müharibələr görmüsən, **nə də** qalalar fəth etmisən. *(M.S.Ordubadi)*

2. **Yəni** bu tanıdığımız xanların hamısının dədə-babaları xan olmuşdur? *(Y.V.Çəmənzəminli)*
   Həqiqətdən uzaq insanda, **yəni** beyni qapalı, kar, kor insanda kin, ədavət hissi güclü olur. *(İ.Hüseynov)*



LAYİHƏ

**7.** Cümlələrdə *"ilə (-la²)"* sözünün qoşma, yoxsa bağlayıcı olduğunu müəyyən edin və fikrinizi əsaslandırın.

1. Qatarın qəfildən fit verməyi **ilə** tərpənməyi bir oldu. *(M.Oruc)*
2. Divarlar açıq-mavi kağız**la** örtülmüşdü.
3. Hökmdar vəzirin müşayiəti **ilə** çadıra daxil olduqda qullar alınlarını torpağa qoydular. *(İ.Əfəndiyev)*
4. Səfər**lə** Miraxur Kürün qırağına qədər bir yerdə getdilər, orada halallaşıb ayrıldılar. *(Y.V.Çəmənzəminli)*

Nümunələrə əsaslanaraq aşağıdakı cümləni tamamlayın.

- *İlə" (-la²)* cümlədə bağlayıcı və ... ola bilir.
- *İlə" (-la²)* bağlayıcı kimi çıxış edəndə onu ... bağlayıcısı ilə əvəz etmək olur.

**8.** Buraxılmış durğu işarələrini əlavə etməklə cümlələri köçürün. Fikrinizi əsaslandırın.

1. De mənə kim günahkardır, deyim ki kimi cəzalandıracaqlar. *(A.Perlyuk)*
2. Kim ki mənimlə deyil, o mənə qarşıdır.
3. Mən ki bu barədə heç kimə deməmişəm.
4. Soruşma ki ölkən sənin üçün nə edə bilər, soruş ki sən özün ölkən üçün nə edə bilərsən. *(C.Kennedi)*
5. Kasıb o adam deyil ki az şeyi var, kasıb o adamdır ki çox şey istəyir. *(İngilis məsəli)*

Gəldiyiniz qənaətlərə əsasən, nöqtələrin yerinə müvafiq nitq hissələrinin adlarını yazmaqla aşağıdakı cümlələri tamamlayın:

*"Ki" cümlələri birləşdirərkən ..., cümlənin və ya sözün təsir gücünü artırarkən ... olur. ... kimi işlənəndə "ki"dən sonra vergül işarəsi qoyulur.*

***9. Araşdırma.** Altından xətt çəkilmiş sözlərin hansı nitq hissəsi olduğunu müəyyənləşdirin. Mənbəyə istinad edərək fikrinizi əsaslandırın.

Nə təmiz, nə böyük təbiəti var,
Ona bənzəsəydi bütün insanlar.
*(S.Vurğunun "Vaqif" dramından)*

LAYİHƏ

# BUMERANQI KİM İCAD EDİB



*Aborigenlərin* ov və döyüş silahını – bumeranqı kim tanımır ki. **(1)** Əksəriyyət əmindir ki, **(2)** bumeranq Avstraliyada icad edilib və qədimdə yalnız bu qitədə istifadə olunub. Çoxumuz hətta uşaqlıqda özümüzü Avstraliya aborigenlərinə bənzədərək ağacdan bumeranq da **(1)** düzəltmişik və onun hədəfə dəydikdən sonra niyə geri qayıtmadığına təəccüblənmişik. Axı oxumuşuq və kinolarda **(2)** görmüşük ki, bu əyri, yastı, balaca dəyənək fırlana-fırlana sonda mütləq atıldığı nöqtəyə qayıdır. Hələ də **(3)** belə düşünürük. Ona görə də kiminsə pis əməli özünə qayıdanda bunu "bumeranq effekti" adlandırırıq.

Maraqlıdır ki, bumeranq haqqında bu təsəvvürlərdə bir neçə yanlışlığa yol verilmişdir.

Əvvəla, bumeranqın məhz Avstraliyada icad olunduğuna dair heç bir sübut yoxdur. Son arxeoloji qazıntılar göstərir ki, bumeranqı avropalılar ixtira ediblər. Qazıntılar zamanı üzə çıxarılmış ən qədim Avstraliya bumeranqlarının yaşı 10-15 min ildir. Karpat dağlarındakı mağaralardan birində tapılmış bumeranqın yaşının isə azı 23 min il olduğu müəyyənləşdirilib. Həmin bumeranqın buraya Avstraliyadan gətirildiyini güman etmək olmaz. Təkcə yolun uzaqlığına görə yox, həm də ona görə ki, bu alət mamontun diş sümüyündən düzəldilib.

**1.** Sonuncu abzasdan hansı nəticəyə gəlmək olar?
A) Avstraliyada kifayət qədər ciddi arxeoloji qazıntılar aparılmayıb.
B) Karpat dağları Orta Asiyada yerləşir.
C) Avstraliyada mamont yaşamayıb.
D) Avstraliyalılar bumeranqı dəmirdən düzəldirdilər.

Beləliklə, bumeranqdan yalnız Avstraliyada deyil, dünyanın müxtəlif qitələrində istifadə olunub. Hətta Misirdə Tutanxamonun sərdabəsi yaxınlığında fil sümüyündən olan bəzəkli bumeranqlar aşkar edilib. Braziliya *şamanları* isə bu gün də bumeranqdan dini *ayinlərin* icrası zamanı istifadə edirlər.



LAYİHƏ

Bumeranq mütləq atıldığı yerə qayıdırmı? Sən demə, bu alətlərin əksəriyyətinin belə xüsusiyyəti yoxdur.

Ümumiyyətlə, bumeranqlar iki yerə bölünür: qayıdan və qayıtmayan bumeranqlar. Geri qayıtmayan bumeranqlardan, adətən, döyüşdə və iri heyvan ovunda istifadə edirdilər, geri qayıdan – "ağıllı" bumeranqlar isə daha çox quş ovu, oyunlar və dini ayinlər üçün idi.

"Ağıllı" bumeranq düzəltmək bizim uşaqlıqda düşündüyümüz qədər də sadə iş deyil. Onun sirrini açmaq üçün holland alimi Feliks Hess uzun illər tədqiqat aparmış və 600 səhifəlik kitab yazmışdır. Kitabın adı belədir: *"Bumeranqın aerodinamikası"*. Hess müəyyən edib ki, bumeranqın geri qayıda bilməsi üçün ona xüsusi forma vermək gərəkdir: alətin qanadları arasında bucağın, qanadların qalınlığının, uzunluq nisbətinin, onların alt və üst tərəflərinin nə dərəcədə yastı, ya qabarıq olmasının bumeranqın uçuş *trayektoriyasına* çox təsiri var. Amma bu da azdır. Hətta ideal formada hazırlanmış bumeranqı da düzgün atmağı bacarmaq lazımdır. Döyüş bumeranqlarından fərqli olaraq, geri qayıdan bumeranqlar şaquli istiqamətdə atılmalı, onun başlanğıc sürəti saatda 10 kilometrdən, fırlanma sürəti isə saniyədə 10 dəfədən az olmamalıdır.

* * *

Bəs bu yanlışlıqlar nədən yaranıb və nəyə görə insanların beynində bu qədər dərin kök salıb?

Görünür, ilk növbədə, ona görə ki "bumeranq" sözü avropalıların dilinə XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Avstraliya aborigenlərindən keçib. Araşdırmalar göstərir ki, bir sıra Avropa dillərində də vaxtilə bu alətin öz adı olub. Lakin avropalılar ox icad edildikdən sonra belə bir alətin mövcudluğunu tamam unutmuşlar. Anlayışla birlikdə söz də unudulmuşdur. Amma avstraliyalılar oxa keçmək əvəzinə uçan dəyənəklərini təkmilləşdirməkdə davam etmişlər.

Bu yanlışlıqların ömrünün uzadılmasında elmi və bədii əsərlərin də böyük rolu olub. Jül Vernin "Kapitan Qrantın uşaqları" romanı bütün dünyada uşaqların ən sevimli kitablarından biridir. Bu əsərdə Jül Vern bumeranqın bir bölük quşu yerə sərdikdən sonra atıldığı yerə qayıtdığını təsvir edir. Yuxarıda yazılanları oxuyandan sonra, yəqin, başa düşürsünüz ki, bu, mümkün olan iş deyil.

*Arif Əliyev*

**Söz ehtiyatı**

**2.** "Aborigen", "şaman", "ayin", "aerodinamika", "trayektoriya" sözlərinin mənalarını kontekstə görə izah edin.



LAYİHƏ

**Düşün və cavab ver**

**3.** Bumeranqla bağlı təsəvvürlərdəki yanlışlıqları və onların əsas səbəbini izah edin.

**Yazı**

**4.** I abzasdakı məlumatlardan istifadə etməklə "Bumeranq effekti" ifadəsi ilə bağlı kiçik bir hekayə yazın. Hekayəni uyğun gələn atalar sözləri ilə zənginləşdirin.

**Dil qaydaları**

**5.** Mətndə göy rənglə verilmiş "ki" və "da (də)"nin cümlədəki rolunu müəyyən edin:
**"ki":** a) cümlənin təsir gücünü artırır; b) cümlələri bir-birinə bağlayır.
**"da (də)":** a) iştirak məzmunu yaradır; b) əşyanın yerini bildirir; c) özündən əvvəlki sözün təsir gücünü artırır.

**Yadda saxla!** **BAĞLAYICI, ƏDAT, YOXSA ŞƏKİLÇİ?**

*Ki, da (də), -la² (ilə)* köməkçi nitq hissələrini səs və hərf tərkibi eyni olan şəkilçilərlə səhv salmaq olmaz.

| | |
|---|---|
| **Yerlik hal şəkilçisi kimi:** | *Sözdə cəsur olmaq asandır.* |
| **Bağlayıcı kimi:** | *Söz də kəsərli silahdır.* |
| **Sifət düzəldən şəkilçi:** | *Dünənki yağışdan sonra hava çox rütubətli idi.* |
| **Ədat kimi:** | *Dünən ki yağış yox idi.* |
| **Bağlayıcı kimi:** | *İstərdim ki, sən də gələsən.* |

**6.** Altından xətt çəkilmiş sözlər aşağıdakılardan hansına uyğundur?

A) isim + qoşma    B) isim + bağlayıcı    C) zərf

1. Hara qaçacaqsan göz qabağından.
   Bu zalım dünyayla neyləyəcəksən. *(R.Rövşən)*
2. İctimai rəylə mübarizə aparmaq yeldəyirmanları ilə mübarizə aparmaq kimi bir şeydir. *(A.Morua)*
3. İki qulaqla bir dil bizə ona görə verilib ki, çox dinləyib az danışaq. *(Zenon)*
4. Namusla yaşamaq üçün əməyi sevməlisən.
5. Dostu çətinliklə əldə edib asanlıqla əldən vermək nadanlıqdır.
6. İnsan ruhuna silahla deyil, məhəbbət və alicənablıqla qalib gəlmək olar. *(Spinoza)*
7. Elmlə əxlaq insanın bəzəyidir.



LAYİHƏ

**7.** Dəftərinizdə nümunəyə uyğun cədvəl qurun və cümlələrdəki "ki"nin vəzifəsini müvafiq xanalarda qeyd edin.

1. Mən ki damdan-bacadan baxmaz idim.
   Su kimi hər tərəfə axmaz idim. *(M.Ə.Sabir)*
2. Mən bir çinaram ki, şöhrətim, adım
   Əlimdən çıxarsa, solub yanaram. *(Ə.Kərim)*
3. Dünənki sərçə bugünkü sərçəyə civ-civ öyrədir.
4. Mən bir susmaz duyğuyam ki, ürəkləri bəzərəm. *(C.Cabbarlı)*
5. Kişinin ki taxılı başının altında olmadı, ruzusunu əvvəldən tədarük etmədi... *(C.Cabbarlı)*
6. Umdum nə verdi ki, küsdüm nə verə? *(M.Araz)*
7. Mənim könlüm deyir ki,
   Hələ bunlar nədir ki? *(M.Müşfiq)*

| | Ədat | Bağlayıcı | Leksik şəkilçi |
|---|---|---|---|
| 1. | | | |
| ... | | | |

**8.** Dəftərinizdə nümunəyə uyğun cədvəl çəkin və *da(də)*-nin funksiyasını müəyyənləşdirib müvafiq xanalarda qeyd edin.

1. Yazıq Balakərim şeytan fəhləsidi <u>də</u>... *(Elçin)*
2. Bəzi evlər<u>də</u> isə müharibə qoxusu, nigaranlıq, narahatlıq bayram sevinci üzərinə kölgə salmışdı.
3. Yoxluq içində bir qaraltı <u>da</u> göründü.
4. Lap uzaq<u>da</u> bir gurultu qopdu.
5. Günü günə satmaq olmaz <u>da</u>...
6. Könül<u>də</u> bəslənən dilək satılmaz,
   Vətənim "öl" desə, ölən şairəm. *(S.Rüstəm)*
7. Demişdim <u>də</u>, bu işin axırı yoxdur.
8. Dövlətliyik, əlbəttə, şərafət <u>də</u> bizimdir,
   Əmlak bizimdirsə, ədalət <u>də</u> bizimdir. *(M.Ə.Sabir)*

**Nümunə:**

| | Bağlayıcı | Ədat | Yerlik hal şəkilçisi |
|---|---|---|---|
| 1 | ✓ | | ✓ |
| 2 | | | |
| 3 | | | |



LAYİHƏ

# ƏL-XARƏZMİ



Orta Asiya ərazisində yerləşən qədim Xarəzm vilayətinin Xivə şəhərində bir *kahin* nəsli yaşayırdı. İslam dini Orta Asiyaya yayıldıqdan sonra bu nəsil də müsəlmanlığı qəbul etdi. 780-ci ildə bu ailədə anadan olmuş uşağa uca peyğəmbərimizin adını qoydular. Məhəmməd kiçik yaşlarından babalarının nəsildən nəslə ötürdüyü bilikləri mənimsəməklə yanaşı, doğma şəhərində tanınmış böyük alimlərdən dərs alır, hind və yunan elmi ilə yaxından tanış olurdu.

Bu dövr islam dünyasının elmi və mədəni yüksəliş dövrü idi. Xilafətin paytaxtı olan Bağdad şəhəri dörd min hektar sahəni əhatə edirdi. Böyük İpək yolunun üstündə yerləşən bu şəhər dövrün ən böyük ticarət və mədəniyyət mərkəzlərindən biri idi.

Abbasilər sülaləsinin hökmdarı xəlifə Harun ər-Rəşidin ölümündən sonra böyük islam dünyasını onun oğlu xəlifə əl-Məmun idarə edirdi. Bu şəxs islam tarixində elmin inkişafına səy göstərən tərəqqipərvər hökmdar, alimlərin böyük himayədarı kimi iz qoymuşdur. O, dünyanın hər yerindən tanınmış alimləri Bağdada dəvət edirdi. 819-cu ildə artıq yetkin bir alim kimi tanınan Məhəmməd əl-Xarəzmi də xəlifənin dəvəti ilə Bağdada gəldi. O, burada “Hikmətlər evi” adlanan elm ocağının yaradılmasında yaxından iştirak etdi.

825-ci ildə fəaliyyətə başlamış Hikmətlər evində o zamanlar üçün misli görünməmiş layihələr həyata keçirilirdi. Mərkəzin qədim əlyazmalarla zəngin olan kitabxanası, rəsədxanası, xəstəxanası və tədris hissəsi var idi. Burada 90-a yaxın alim çalışırdı. Alimlər o dövrə qədər yaradılmış məşhur əsərləri ərəb dilinə tərcümə edirdilər. Dörd əsrdən çox fəaliyyət göstərmiş bu elm ocağında yüzlərcə yeni elmi əsərlər yaradıldı. Sonralar bu əsərlər Avropada elmin inkişafında böyük rol oynadı.

Ömrünün sonuna kimi Hikmətlər evində yaşayıb işləmiş əl-Xarəzmi riyaziyyat, coğrafiya və astronomiya sahəsində 20-yə yaxın qiymətli əsərin müəllifi olmuşdur. Əl-Xarəzminin ən məşhur əsərləri riyaziyyat sahəsindədir. Onun adı, ilk növbədə, “Əl-cəbr...” *traktatı* ilə elm tarixinə həkk olunub. Bu əsərdə əl-Xarəzmi cəbri müstəqil elm sahəsi kimi təqdim edib. Kitabın adındakı “cəbr” sözü sonralar riyaziyyatın bu sahəsi üçün əsas terminə



LAYİHƏ

çevrildi və bir çox xalqların dillərinə, o cümlədən bizim dilimizə daxil oldu. Kitabda tənliklər sistemləşdirilərək altı növdə cəmləşdirilir və onların ədədi həlli üsulları verilir. Həmçinin müxtəlif həndəsi fiqurların sahələri və həcmlərinin ölçülməsi üsullarından bəhs edilir. Kitabın ikinci hissəsi tətbiqi məsələlərdən ibarətdir. **...** alim burada məişət, ticarət və hüquq, əmlak və torpağın bölüşdürülməsi, kanalların tikilməsi və başqa sahələrdə məsələlərin həlli üçün riyazi üsullar təklif edir.

**1.** Sonuncu cümlədə nöqtələrin yerinə hansı ifadə daha çox uyğun gəlir?
A) Daim yorulmadan çalışan
B) Riyaziyyatın müxtəlif sahələrinə toxunan
C) Elmi insanların xidmətinə verməyə çalışan
D) Ensiklopedik biliklərə malik

Əl-Xarəzmi "Hind hesabı haqqında" adlı ikinci riyazi traktatında o dövrdə Hindistanda yayılmış onluq say sistemini təsvir etmiş və bu sistemə uyğun hesab qaydaları vermişdir. Alim ilk dəfə olaraq hind rəqəmləri ilə ədədlərin yazılışında "əs-sifr" adlandırdığı "0" rəqəmindən istifadə etdi. Bizim işlətdiyimiz "sıfır" və "şifr" sözlərinin kökü də "əs-sifr" sözü ilə bağlıdır. Beləliklə, hind rəqəmləri əl-Xarəzminin kitabı vasitəsilə bütün dünyaya yayıldı və yanlış olaraq ərəb rəqəmləri adlandırıldı.

Əl-Xarəzminin riyazi traktatları üç əsr sonra ərəb dilindən latın dilinə, sonra isə başqa Avropa dillərinə çevrildi. Bu əsərlər bir neçə əsr Avropa universitetlərində riyaziyyatdan əsas dərslik kimi istifadə edildi və onların əsasında bir çox riyaziyyat dərslikləri yazıldı. Əl-Xarəzminin əsərləri sayəsində o zaman Hindistanda yayılmış onluq say sistemi Avropada tanındı və elmin inkişafında mühüm rol oynadı.

Xəlifə əl-Məmunun sifarişi ilə əl-Xarəzmi Yer kürəsinin diametrini ölçmək üçün araşdırmalar aparmışdı. Bu hesablamalar sonrakı 700 il ərzində Yer kürəsinin ölçüləri ilə bağlı ən dəqiq araşdırma hesab olunurdu.

Əl-Xarəzminin astronomiya sahəsində də ciddi işləri var. O, Hikmətlər evinin rəsədxanasından göy cisimlərini müşahidə edərək Günəşin, Ayın, eləcə də bir sıra planetlərin yerini, Günəş tutulmalarının vaxtını kifayət qədər dəqiq hesablamışdı. <u>Alim astronomik cədvəllər tərtib etmiş, romalıların təqvimini təsvir etmiş, onu ərəblərin Ay təqvimi ilə müqayisə etmişdi.</u>

**2.** Əvvəlki bölmələrdə aldığınız məlumatlardan istifadə edərək altından xətt çəkilmiş cümləni genişləndirin.

Müasir informatika elminin əsas anlayışlarından olan "alqoritm" termini əl-Xarəzminin adının latın dilində yazılışından götürülüb.



LAYİHƏ

Təəssüf ki, əl-Xarəzminin əsərlərinin az bir qismi bizə gəlib çatmışdır. 1258-ci ildə monqolların Bağdada yürüşü Hikmətlər evinin məhvi ilə nəticələndi. Deyilənə görə, Dəclə çayının suyu ona atılmış saysız-hesabsız kitabların mürəkkəbindən qara rəngə boyanmışdı.

Əl-Xarəzmi dünya elm və mədəniyyətinin görkəmli nümayəndələrindən biridir. Bu dünyadan köçəndən sonra onun qoyduğu elmi irs əsrlər boyu bəşəriyyətə xidmət edib.

Özbəkistanın Xivə şəhərində böyük alimin heykəli ucalır: dərin düşüncələrə dalmış müdrik qoca sanki yeni bir elmi traktat üzərində işləyir...

*Reyhan Yusifqızı*

### Düşün və cavab ver

**3.** Aşağıdakı cümlələri mətnin hansı hissələrinə əlavə etmək olar?

1. Xəlifə əl-Məmun ucsuz-bucaqsız əraziləri olan xilafəti idarə etməyin yolunu müxtəlif elm sahələrini inkişaf etdirməkdə görürdü.
2. Hikmətlər evində ərəb dilinə tərcümə olunan əsərlər arasında Hippokrat, Platon, Aristotel və Arximedin əsərləri də vardı.
3. Əl-Xarəzminin ulduz falı, Günəş saatları haqqında da qiymətli elmi əsərləri var.

**4.** Sillogizm qurmaqla aşağıdakı suallara cavab verin.

1. Əl-Xarəzmi neçə yaşında Bağdada köçdü?
2. Bağdaddakı Hikmətlər evi neçə il fəaliyyət göstərdi?

**5.** Mətndəki məlumatlardan istifadə etməklə "cəbr", "sıfır", "şifr", "alqoritm" sözlərinin etimologiyası haqqında şifahi təqdimat hazırlayın.

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş hansı sözlər bir-birini əvəz edə bilər?

**Yadda saxla!** **KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN SİNONİMLİYİ**

Bəzi köməkçi nitq hissələri bir-biri ilə sinonimlik təşkil edir. Bu zaman onlar cümlə daxilində bir-birini əvəz edə bilir: *Uşaqlar meşəyə* ***tərəf (doğru, sarı)*** *qaçdılar. Dərs qurtarmışdı,* ***amma (ancaq, lakin)*** *o, evə getməyə tələsmirdi.*

**7.** Fərqləndirilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin və onları sinonimi ilə əvəz edin.

Sızlayır əhvalıma sübhə **qədər** tarım mənim,



LAYİHƏ

**Təkcə** tarımdır qara günlərdə dildarım mənim. *(Şəhriyar)*

**8.** Qoşmaları sinonimi ilə əvəz edin və cümlələri dəftərinizə köçürün.

1. Onu təpədən-dırnağa<u>dək</u> isladan yağış artıq dayanmışdı.
2. Evin bünövrəsinə ilk daşı qoymazdan <u>əvvəl</u> dodağının altında dua oxumağa başladı.
3. Azıxa <u>doğru</u> uzanan yol təpənin başında yox olurdu.
4. Həqiqi dostluqdan <u>savayı</u>, bütün münasibətlər müvəqqətidir. *(J.Renar)*
5. Başqa musiqi alətləri <u>kimi</u> tar da uzun əsrlər boyu formalaşmışdır.
6. XX əsrin 20-ci illərinə <u>kimi</u> Azərbaycanda ərəb qrafikalı əlifbadan istifadə etmişlər.

**9.** Cümlələrdəki köməkçi nitq hissələrini seçin və nümunəyə uyğun cədvəli doldurun.

1. Ümid Sara xatuna qalmışdı: bu məsələni yalnız o həll edə bilərdi.
2. Sanki bir pəridir, pəri yox, bir ay,
   Qəhrəman bir qızdır, başda kəlağay. *(N.Gəncəvi)*
3. Kür qırağının əcəb seyrəngahı var,
   Yaşılbaş sonası, hayıf ki, yoxdur. *(M.P.Vaqif)*
4. Müəllimin sualına hamıdan qabaq Zəhra cavab verərdi.
5. Həmişə sülh tərəfdarı ol, amma müharibəyə də hazır ol. *(Napoleon)*
6. Hərgah deyilənlər doğru olsa, siz sərbəst buraxılacaqsınız.
7. Ağılla xəyal birləşəndə möcüzələr yaranır. *(F.Qoyya)*
8. Doğrudan da, hər gecənin bir gündüzü var.
9. Madam ki israr edirsiniz, sizə həqiqəti söyləyərəm.
10. Ana oğlunun gələcəyi yola sarı həsrətlə boylanırdı.

| | Söz | Sinonim | Nitq hissəsi |
|---|---|---|---|
| 1 | *yalnız* | *ancaq* | *ədat* |
| | | | |

**10.** Aşağıdakı cümlədə "ilə" sözü təkrar olunur. Onlardan birini sinonimi ilə əvəz etməklə redaktə işi aparın.

*İnteraktiv veriliş canlı yayım zamanı aparıcı ilə tamaşaçıların qarşılıqlı əlaqəsi ilə müşayiət olunan televiziya verilişidir.*

LAYİHƏ

# KOMPÜTER OYUNLARINI KİM İXTİRA EDİB



Yəqin ki, müəllim və valideynlərinizin qadağalarına baxmayaraq, imkan düşən kimi **(1)** kompüterdə sevimli oyunlarınıza kifayət qədər vaxt sərf edirsiniz. Bəs heç düşünmüsünüzmü, milyonlarla insanın zamanını oğurlayan kompüter oyunlarını kim ixtira edib? Elə isə kompüterdə növbəti oyunun "start" düyməsini basmazdan əvvəl sosial şəbəkələrdə axtarış verin: "Kompüter oyunlarını kim yaradıb?" Müxtəlif məlumat-sorğu bazalarından fərqli cavablar alacaqsınız, daha çox Stiv Rasselin və Ralf Bayerin adlarına rast gələcəksiniz. Bayer bütün dünyada "Videokompüter oyunları kralı" kimi **(2)** tanınıb, amma nə o, nə də Rassel bu oyunların ilk ixtiraçısıdır.

Kompüter oyunlarının tarixi 1940-cı illərin sonlarından başlanır. Əvvəlcə ingilis riyaziyyatçısı **Alan Türinq** kompüterdə şahmat oyununun alqoritmini tərtib edib, ardınca amerikalı mühəndis **Klod Şennon** bu oyun üçün proqram yazıb. Amma həmin illərdə bu proqramla işləməyə gücü çatacaq elektron-hesablama maşını, müasir dildə desək, kompüter yox idi. Ona görə də Şennon "Kompüterlər üçün şahmat oyunlarının proqramlaşdırılması" məqaləsini dərc etməklə kifayətlənməli olub.

Növbəti addım İngiltərənin Kembric Universitetinin alimi **Aleksandr Duqlas** tərəfindən atıldı. O, 1952-ci ildə uzun müddət üzərində çalışdığı "İnsan – kompüter interaktivliyi" mövzusunda *doktorluq dissertasiyasını* bitirdi. Dissertasiyaya əlavə olaraq o, əyani vəsait də hazırladı. Bu vəsait, faktik olaraq, kompüter üçün ilk elektron-qrafika oyunu idi. "OXO" adlanan oyunun çox sadə qaydaları vardı: doqquzxanalı kvadratdakı xanaları oyunçu və kompüter növbə ilə "X" və "O" hərfləri ilə doldururdu. Şaquli, üfüqi və ya diaqonal istiqamətdə bir sıranı eyni hərflərlə dolduran oyunçu qalib sayılırdı. Oyun müəllimlərin də, tələbələrin də çox xoşuna gəlmişdi. Onlar universitetdəki yeganə kompüterin önündə növbəyə düzülür, maşından ağıllı olduqlarını sübut etmək istəyirdilər. Bu oyunu yaradarkən Duqlas kommersiya məqsədi güdmürdü. Ona görə də ixtirasını patentləşdirmək onun heç ağlına da gəlmirdi.



LAYİHƏ

**1. Cütlərlə işləyin.** "X" hərfini yazan kompüter, "O" işarəsini yazan istifadəçi olmaq şərti ilə vərəq üzərində "OXO" oyununu davam etdirin.

| | | |
|---|---|---|
| X | | |
| | | |
| | | |

Nəhayət, 1961-ci ildə **Stiv Rassel** başda olmaqla bir qrup proqramçı "Kosmik müharibə" oyununu yaratdı. Bu, məhdud yanacaq və silah ehtiyatına malik iki ulduz gəmisinin döyüşü idi. Yanacağı və silahı daha tez tükənən tərəf məğlub olurdu. "Kosmik müharibə" kommersiya tipli ilk kompüter oyunu oldu. Lakin müəlliflərinə gəlir gətirmədi. Oyunu yaradanlardan biri deyirdi: "Mənim "Kosmik müharibə"dən əldə etdiyim yeganə gəlir oyun *sənayesi* ilə bağlı məhkəmə proseslərində *ekspert* qismində iştirakıma görə aldığım qonorarlar oldu".

**2.** Sizcə, kompüter oyun sənayesi ilə bağlı məhkəmələrdə hansı iddialar irəli sürülə bilərdi?

Kompüter oyunları insanlarda bunca maraq doğururdularsa, bəs niyə *kommersiya* uğuru gətirmir, zəif yayılırdılar? Çünki 1970-ci illərin ortalarınadək kompüterlər həddən artıq böyük və olduqca baha idi. Onu yalnız varlı təşkilatlar, elmi müəssisələr və fərdi qaydada milyonçular ala bilərdilər. Məsələn, Rasselin qrupunun ixtira etdiyi oyunun yazıldığı kompüter soyuducu boyda, qiyməti isə 120 min dollardan artıqdı.

Alman əsilli Amerika alimi **Ralf Bayer** belə bir vəziyyətdən çıxış yolu tapdı: o, kompüter oyunu yox, videooyunların yeni tipini və onları televizorun ekranına çıxarmaq imkanı verən kiçik, ucuz qurğu ixtira etdi. 1971-ci ildə o, "Magnavox Odyssey" qoşma cihazına patent aldı.

Beləliklə, **...** kommersiya tipli ilk kompüter oyunu yaratmış qrupun rəhbəridir, **...** isə, həqiqətən, "kompüter və video oyunları kralı"dır. Amma məhz **...** tarixdə ilk kompüter oyunu yaratmış şəxsdir.

**3.** Mətndən əldə etdiyiniz məlumatlara əsasən sonuncu cümlədə nöqtələrin yerinə müvafiq şəxslərin adlarını yazın.

1970-ci illərin ikinci yarısında fərdi kompüterlərin istehsalına başlandıqdan sonra video və kompüter oyunları biznesi sürətlə inkişaf etməyə başladı. 1983-cü ildə dünya üzrə kompüter oyunları bazarının *dövriyyəsi* 3,2 milyard dollar təşkil edirdi. Sonrakı 30 ildə bu rəqəm 90 milyard dollara qədər yüksəldi.

Azərbaycanda kompüter oyunları çox geniş yayılsa da, uzun illər "yerli məhsul" olmayıb. Ölkəmizdə ilk kompüter oyunu 2012-ci ilin iyununda



LAYİHƏ

yaradılıb. "İşğal altında" adlanan bu oyun Qarabağ müharibəsinə həsr edilib, Şuşa şəhərinin görüntüləri üzərində qurulub və gənclərin hərbi vətənpərvərlik ruhunu yüksəltməyə xidmət edir.

*Arif Əliyev*

### Yazı

**4.** Mətnə əsasən aşağıdakı cədvəli doldurun və onu şərh etməklə "Kompüter oyunlarının tarixi" mövzusunda təqdimat hazırlayın. Təqdimat zamanı bu mövzuda başqa mənbələrdən əldə etdiyiniz məlumatlardan da istifadə edin.

| Kompüter oyunlarının ixtirası sahəsində | | | |
|---|---|---|---|
| № | *Kim?* | *Nə zaman?* | *Nə edib?* |
| | | | |
| | | | |
| | | | |
| | | | |

### Dil qaydaları

**5.** Qırmızı hərflərlə verilmiş sözlərə diqqət yetirin. Onları kök və şəkilçilərə ayırın. Hər bir şəkilçinin qrammatik funksiyasını izah edin. Bu sözlərdə hansı səhvlərə yol verilib?

**6.** Göy rənglə verilmiş hansı qoşmaları sinonimləri ilə əvəz etmək olar?

*__7.__ Birinci abzasda nömrələnmiş qoşmalar haqqında verilmiş fikirlərdən yanlış olanını seçin.

A) 1-ci qoşma zaman, 2-ci qoşma bənzətmə mənası ifadə edir.
B) 1-ci qoşma feili sifətə, 2-ci qoşma isə ismə qoşulmuşdur.
C) 1-ci qoşma *tək* qoşmasının sinonimi kimi çıxış edir.
D) Bu qoşma əsas nitq hissəsi ilə omonimlik xüsusiyyətinə malikdir.

**8.** *"Gecə kimi qara gözlər*
*Kimi gözlər?"* – nümunəsində qoşmanın qoşulduğu ismi yönlük halda işlədin. Məna dəyişikliyini izah edin.



LAYİHƏ

**9.** Fərqləndirilmiş sözlərin cümlələrdəki mənasına görə əsas və ya köməkçi nitq hissəsi olduğunu müəyyən edin.

1. A) *Artıq* tamah baş yarar. *(Atalar sözü)*
   B) *Artıq* səni bürüməyə bir şeyim qalmadı, bala. *(Ə.Məmmədxanlı)*
2. A) Necə olub ki, *belə* kinli adam bu cür gözəl çiçəklər yetirə bilib? *(M.S.Ordubadi)*
   B) Moskvada bir kəs *belə* məni yad etməyəcək. *(Y.Səmədoğlu)*
3. A) *Elə* gərək bu dəyirmandan başlayasınız?
   B) *Elə* ucaltmısan, enə bilmərəm,
   *Elə* yandırmısan, sönə bilmərəm. *(T.Bayram)*
4. A) *Bir* qaşığı əlinə götür, gör nə dadır. *(İ.Şıxlı)*
   B) *Bir* kəlmə, *bircə* işarə bəs deyildimi ki, bu bədbəxtlik olmayaydı? *(İ.Hüseynov)*
5. A) Axı mən də kişiyəm, *qoy* bir fikir eləyim. *(Y.V.Çəmənzəminli)*
   B) Götürdüklərini yerinə *qoy*, a bala!
6. A) *Gör* nə qədər qocaltdıq həsrətin mənzilini. *(Ə.Kərim)*
   B) Şəhərə gələndə bir məni *gör*, sənə deyiləsi sözüm var.
7. A) Alim deyir öz-özünə: "*Nə* xoşbəxtəm bu gecə mən". *(N.Rəfibəyli)*
   B) Sən *nə* düşünürsən?
8. A) Zərnigar xanım *düz* iki il idi ki, kənd qızlarını gözdən qoymurdu. *(İ.Şıxlı)*
   B) Az getdi, uz getdi, dərə-təpə *düz* getdi.

**10.** Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

Nağıl edirlər ki, bir gün Ənuşirəvan şah <u>üçün</u> ovalıqda kabab bişirirdilər, lakin duz yox idi. Duzdan <u>ötrü</u> kəndə bir adam göndərmək lazım gəldi. Ənuşirəvan ona dedi:

– Duzu zorla deyil, pulla al ki, kənd xaraba qalmasın.

Soruşdular:

– Azacıq duzla kənd necə xaraba qalar?

Ənuşirəvan cavab verdi:

– Zülm dünyada əvvəlcə az idi, ancaq sonra hər gələn onu bir az artırdı, nəhayət, indiki həddə gəlib çatdı. *(S. Şirazi, "Gülüstan" əsəri)*

1) Altından xətt çəkilmiş qoşmaları sinonimləri ilə əvəz edin və ismin halında baş vermiş dəyişikliyi izah edin.
2) *-la* sonluğu ilə bitən sözlərdə bu sonluğun qrammatik funksiyasını araşdırın.
3) Mətndə *ancaq* bağlayıcısını sinonimi ilə əvəz edin, *sonra* sözünü başqa cümlədə qoşma kimi işlədib yazın.



LAYİHƏ

## ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1.** Bu bölmədə tanış olduğun hansı kəşflərdən gündəlik həyatda daha çox istifadə edilir?

**2.** Sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

*cazibə, ayin, konveyer, şaman, mühərrik*

1. Müasir dövrdə istehsal prosesləri ... üsulu ilə aparılır.
2. Qədim xalqlarda dini ... zamanı əsas rolu ... oynayırdı.
3. ... sıradan çıxdığı üçün avtomobil yerindən tərpənmədi.
4. Ümumdünya ... qanununu İ.Nyuton kəşf etmişdir.

**3.** Mətndəki sinonim qoşmaları tapın.

Obamızın şimal tərəfi qərbdən şərqə doğru uzanmış çılpaq qayalıq, daha sonra qalın bir meşəlik idi.

Dərə qərbə sarı getdikcə qayalıq, dağlıq, iri və oyuq daşlarla dolu yerlərdən ibarət idi. Biz oralara getməyə qorxardıq, çünki kəndlilər "ayı var" deyə bizi qorxutmuşdular. Bu qorxu ucundan dərənin qərb tərəfinə getməzdik. *(A.Şaiq)*

**4.** Cümlələrdəki ədatları seçin və funksiyasını müəyyən edin.

1. Oğul, mənim axtardığım yer elə buradır. 2. Özünü bircə ondan gözlə. 3. Məsləhət görürəm ki, öz yolunla düz keçib-gedəsən. 4. Əgər məclisdə belə igid varsa, qoy dursun, baxım, tanıyım, sonra da özünə layiq tərifini deyim.

**5.** Verilmiş cümlələrdə "da"nın qrammatik funksiyasını araşdırın.

1. Nə qədər vurdularsa, zalımın səsi də çıxmadı. 2. İnsan öz atasından köməklə yanaşı, dostluq da umur. *(S.Sabançı)* 4. Demişdim də, bu işin axırı yoxdur.

Hansı cümlədə *da*:

A) bağlayıcıdır

B) *belə* ədatının sinonimidir

C) *axı* ədatının sinonimidir

**6.** Hansı cümlədə *ki* ədat kimi işlənib? (Vergül buraxılmışdır.)

A) Atalar deyib ki bu günün işini sabaha qoyma.

B) Mən ki gözəl deyildim.

C) Çoban gördü ki Həsən çörəyin hamısını yeyəcək.

D) İbrahim elə bir nərə çəkdi ki quşlar da göydə qanad saxladılar.



LAYİHƏ




# VII BÖLMƏ

# KİTABIN TARİXİ



LAYİHƏ

# QƏDİMDƏ KİTAB İŞİ



Orta əsrlərin canlı mətbəələri *xəttatlar*, nəqqaşlar, *müsəhhihlər*, rəssamlar və cildçilər idi.

Xəttatlıq nüfuzlu və geniş yayılmış sənət növlərindən biri idi. Məşhur xəttatların adları kitab müəllifləri ilə yanaşı çəkilirdi. Onların gördükləri iş çətin olmaqla yanaşı, məsuliyyətli idi. Hər bir müəllifin və əsərin tanınmasında xəttatların da böyük rolu olmuşdur.

Ustad xəttatlar gündə səkkiz-on beytə qədər şeir köçürə bilirdilər. Lakin ustadlıq yalnız məhsuldarlıqla ölçülmürdü. Tarixi mənbələrdə belə bir rəvayət var.

*Bir dəfə Buxara xanı Əbdüləziz öz sarayının baş xəttatı Xacə Yadigara Hafizin divanını köçürməyi tapşırır və soruşur:*

*– Ustad, gündə nə qədər köçürə bilərsən?*

*– Əgər çalışsam, gündə 10 beyt köçürə bilərəm.*

*Əbdüləziz deyir:*

*– Mən eşitmişəm ki, Çində qırx ilə bir çini qab düzəldirlər, Bağdadda isə gündə 100 ədəd. Bunların hər ikisinin qiymətini sən, sözsüz ki, bilirsən. Bu sənət də belədir. Sən xəttatsan və biz sənə bu kitabı köçürməyi tapşırmışıq. Gündə on beyt köçürülən xətdə nə gözəllik ola bilər? Əgər səbrin çatırsa, gündə bir beyt, çatmazsa, iki beyt köçür.*

Xəttat bu tapşırıqdan sonra Hafizin divanını 7 ilə tamamlamışdı. Bu hesabla Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si kimi şah əsərlərin neçə ilə köçürüldüyünü təsəvvür etmək olar.

Tanınmış xəttatların zəhmət haqqı xeyli baha olurdu. Deyilənə görə, adlı-sanlı xəttatlara bir beytin üzünü köçürmək üçün bir qızıl onluq verirdilər.

Yaxın Şərqin bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da hökmdar saraylarında kitab emalatxanaları fəaliyyət göstərirdi. Azərbaycan öz xəttatları və miniatürçüləri ilə məşhur idi. Teymurun ordusu Təbrizi işğal etdikdən sonra Azərbaycanın bir çox kitab ustaları Herata aparılmışdı. Təbrizli məşhur xəttat **Cəfər Təbrizi** Herat saray kitabxanasına müdir təyin



LAYİHƏ

edilmiş, ömrünün sonuna qədər (60 il) bu vəzifənin öhdəsindən şərəflə gəlmişdir. Kitabxanada görülən işlər haqqında Cəfər Təbrizinin Herat hakiminə vaxtaşırı yazılı hesabat verməsi orta əsrlərin kitabxana tarixində ən maraqlı səhifələrdəndir. Fars dilində yazılmış həmin hesabatlardan biri hazırda İstanbulun Topqapı sarayı muzeyindədir.

Herat kitabxanasında surəti çoxaldılan xeyli kitabın üzünü Cəfər Təbrizinin özü köçürmüşdü: Nizaminin “Xəmsə”si, Sədinin “Gülüstan”ı, Firdovsinin “Şaһnamə”si, “Kəlilə və Dimnə” və s. Bu kitablar һazırda İstanbul, Teһran və başqa şəһərlərin kitabxanalarında saxlanılır.

Cəfər Təbrizinin başçılıq etdiyi kitab emalatxanasında 40 nəfərdən çox sənətkar çalışırdı. Onların arasında öz istedadı ilə seçilən **Kəmaləddin Behzad** da var idi. 28 yaşlı Behzad 1484-cü ildə Herat kitabxanasına müdir təyin edildi. Şah İsmayıl Heratı alandan sonra Azərbaycanın bir çox sənət adamları ilə birlikdə Behzad da Təbrizə köçüb Səfəvi kitabxanasına başçılıq etmişdi. Burada onunla yanaşı, məşhur Azərbaycan xəttatı **Şah Mahmud Nişapuri** də çalışırdı. Onun dəstxəti ilə yazılmış bir çox kitablar hazırda Şedrin kitabxanasında (Sankt-Peterburq), Britaniya muzeyində, Parisin Milli Kitabxanasında saxlanılır. Şah Mahmud Nişapuri həm də şair olmuş, bir sıra qəzəllər, qəsidələr, rübailər yazmışdır.

Şah İsmayıl Xətai istedadlı sənət adamlarına yüksək qiymət verirdi. Tarixi mənbələrdə deyilir ki, Şah İsmayıl Çaldıran döyüşü ərəfəsində Behzadı və digər saray xəttatı Mahmud Nişapurini düşmən əlinə əsir düşməsinlər deyə bir mağarada gizlətmişdi. “Kim bilir, bəlkə, müharibədə öldüm və ya məmləkətimdə qarət və qarışıqlıq baş verdi... Sizin hifzinizi Allaha tapşırdım”, – deyərək Sultan Səlimlə döyüşə getmişdi. Döyüşdən məğlub qayıdan Şah İsmayıl, ilk növbədə, sənətkarları gizlətdiyi yerə getmiş, onları sağ-salamat görüb Allaha şükür etmişdi. 1514-cü il Çaldıran döyüşündən sonra Azərbaycandan Türkiyəyə üç min kitab ustası aparılmışdı.

XVI əsrin ən görkəmli rəssamı və kitab mədəniyyətimiz tarixində misilsiz xidmətləri olan **Sultan Məhəmməd** də Şah İsmayılın kitabxanasında işləmiş və onun oğlu Təhmasibə rəssamlıq sənətinin sirlərini öyrətmişdir. Sonralar saray kitabxanasının müdiri və baş rəssamı vəzifəsində çalışan Sultan Məhəmmədin əsərləri dünya kitab sənətinin ***qızıl fonduna daxil olmuşdur.*** O, Firdovsinin “Şahnamə”sinə, Hafizin “Divan”ına, Nizaminin “Xəmsə”sinə misilsiz rəsmlər çəkmişdir. Onun bu nadir yaradıcılıq nümunələri dünyanın ən məşhur muzey və kitabxanalarında saxlanılır. **“Keçmiş və hazırkı rəssamlar”** əlyazmasında Sultan Məhəmməd dünya rəssamlıq tarixindən bəhs edir. Müəllifin hələ də çap üzü görməmiş bu məşhur əsəri bu gün İstanbulun Topqapı sarayının kitabxanasında saxlanılır.



LAYİHƏ

Beləliklə, orta əsrlərdə elmin və ədəbiyyat nümunələrinin gələcək nəsillərə ötürülməsində, xalqın intellektual-mədəni səviyyəsinin yüksəlməsində kitab ustalarının böyük rolu olmuşdur. Azərbaycan tarixçisi İsgəndər bəy Münşi (1560-1634) "Tarixe-aləmarayi-Abbasi" (Dünyanı bəzəyən Abbasın tarixi) əsərində yazmışdır ki, Behzad və Sultan Məhəmməd kimi misli-bərabəri olmayan sənət adamları öz əvəzsiz xidmətləri ilə həm çalışdıqları kitabxananı məşhurlaşdırmış, həm də özləri nəcib sənətlərinin zirvələrinə yüksəlmişlər.

*Dilrüba Cəfərova*

### Söz ehtiyatı

**1.** "Xəttat", "müsəhhih" sözlərinin mənasını kontekstə görə izah edin.

### Düşün və cavab ver

**2.** Altından xətt çəkilmiş cümlələri ümumiləşdirərək gəldiyiniz nəticəni söyləyin.

**3.** Mətndə adı çəkilən hansı sənətkarın yaradıcılığı haqqında heç bir məlumat verilməmişdir?

**4.** Sonuncu abzasda əks olunmuş fikirləri mətnin müvafiq hissələri ilə əlaqələndirin.

### Yazı

**5.** Mətndə verilmiş rəvayətdən çıxış edərək gəldiyiniz nəticəni qısa şəkildə yazın.

### Dil qaydaları

**6.** Mətndə göy rənglə verilmiş cümlələrin hansının bir, hansının iki qrammatik əsası var?

**Yadda saxla!** **CÜMLƏNİN QURULUŞCA NÖVLƏRİ**

Cümlənin quruluşca növləri onun qrammatik əsasına görə müəyyən edilir. Cümlələr quruluşca iki cür olur: sadə, mürəkkəb. Sadə cümlənin bir, mürəkkəb cümlənin isə iki və daha artıq qrammatik əsası olur:

*Yazın gəlişinə sevinən quşlar nəğmə oxuyurdu.* (sadə cümlə)

*Payız gəldi, havalar soyudu, artıq tez-tez yağışlar yağırdı.* (mürəkkəb cümlə)



LAYİHƏ

**7.** Cümlələrin sadə və ya mürəkkəb olduğunu təyin edin.

1. Qocalığa cavanlıqdan başlamaq lazımdır. *(Məhəmməd Peyğəmbər)*
2. Müəllim şagirdləri çağırdı və sabah ekskursiyaya gedəcəklərini xəbər verdi.
3. Qılınc yarası sağalar, söz yarası sağalmaz.
4. Qoyun, quzu dağın döşünə səpələnmişdi.
5. Çoban çomağına söykənib göy yaylaqlara tamaşa edirdi.

**8.** Sadə cümlələri mürəkkəb cümləyə çevirib yazın.

1. Reyhan evə tərəf boylananda Aqil arxadan səsləndi.
2. Zəng vurulanda şagirdlər dəhlizə çıxdılar.
3. Cəlal tapşırığı bitirər-bitirməz müəllim onu lövhəyə çağırdı.
4. Günəş çıxanda təbiət cana gəlir.
5. Uşaqlar mövzunu müəyyənləşdirib esse yazmağa başladılar.

**9.** 3-cü abzasdakı cümlələrin qrammatik əsasını təyin edin. Həmin cümlələrdə xəbərin ifadə vasitəsini müəyyənləşdirin.

**10.** "Birləşdir" feilini aşağıdakı şərtlərə uyğun olaraq cümlədə işlədib yazın. Müvafiq yerlərdə durğu işarəsi qoyun və həmin cümlələri quruluşuna görə müqayisə edin.

1. Feilin xəbər şəklində, *idi* köməkçi sözü artırmaqla
2. Feilin xəbər şəklində, *isə* köməkçi sözü artırmaqla

**11.** Cümlələrin quruluşca növünü müəyyənləşdirin.

1. Koroğlu uzun yol gəlmişdi, çox acmışdı və bərk də yorulmuşdu.
2. Mən axtardığımı tapmışam, şikarımı da çoxdan ovlamışam.
3. Çoban elə bircə bunu gördü, Qırat bayaq ha gözdən itdi.
4. Yaz təzəcə açılmışdı, Çənlibel gülə, nərgizə boyanmışdı.
5. Nigar necə baxdısa, Koroğlunun bağrı qana döndü.
6. Eyvaz da yaraqlandı, yasaqlandı, atı ilə dava məşqinə çıxdı.

*("Koroğlu" dastanından)*



LAYİHƏ

# KİTABXANALAR



Orta əsrlərdə bir çox alim və şairlərin yetişməsində, eləcə də qiymətli əsərlərin mühafizəsi və təbliğində kitabxanaların misilsiz xidməti olmuşdur. Onu demək kifayətdir ki, Gəncədə zəngin kitabxanalar olmasa idi, bəlkə də, Nizami dühası yetişməzdi. Dayısı Xacə Ömərin sayəsində kitabxananın qapısı şairin üzünə həmişə açıq olmuşdur. Böyük şairin əsərlərində qeyd edilir ki, Gəncə kitabxanasında o zaman 10-dan çox dildə kitab olmuşdur. Nizami yaradıcılığının təhlili göstərir ki, o, bir neçə dil bilmiş, dünya tarixinə, elminə və ədəbiyyatına yaxından bələd olmuşdur. Ömrünü Gəncədə keçirmiş şair bu bilikləri yalnız kitablardan əldə edə bilərdi.

**1.** Oxuduğunuz parçadan hansı nəticəyə gələ bilərsiniz?

* * *

Azərbaycanda ən qədim və zəngin kitabxanalardan biri **Marağa kitabxanası** olmuşdur. Bu kitabxana böyük Azərbaycan alimi Nəsirəddin Tusinin (1201-1274) təşəbbüsü ilə yaradılmışdı. Tusi 20 ildən çox Qəzvin şəhərinin şimalındakı Ələmut qalasında həbsdə olmuşdur. 1256-cı ildə Hülakü xan onu həbsdən azad edib özünə baş məsləhətçi təyin edir. Tusi Hülakü xanı Marağada rəsədxana və onun nəzdində kitabxana yaratmağa razı salır. Alim özü tikintiyə rəhbərlik edirdi. 330 kvadratmetr sahəsi olan kitabxana gözəl bir binada yerləşirdi. Kitab fondu, emalatxana, mədrəsə, alimlər üçün iş otaqlarından ibarət olan bu elm və tədris ocağı 12 ilə tikilmişdi. Tusi dünyanın müxtəlif ölkələrindən bura yüz minlərlə kitab gətirtmişdi. Əlbəttə, bu cür zəngin kitabxananın səmərəli fəaliyyət göstərməsi üçün burada iş *biblioqrafiya* elminin əsasları üzərində qurulmuşdu. Belə ki, kitabxananın *kataloqu*, kitabların *təsnifatı*, oxuculara xidmət göstərən onlarla əməkdaş var idi.

* * *

Azərbaycanda kitabxanaların inkişafında böyük siyasi xadim, Elxanilər dövlətinin saray hakimi, baş vəzir Fəzlullah Rəşidəddinin (1247-1318)



LAYİHƏ

əvəzsiz rolu olmuşdur. Onun Təbriz şəhəri yaxınlığında saldırdığı Rəşidiyyə şəһərini, müasir dildə desək, akademiya şəhərciyi adlandırmaq olardı. Azərbaycanın tarixində ilk universitet sayılan Rəşidiyyə Universiteti də bu şəhərdə yerləşirdi. Universitetdə 450 alim dərs deyirdi. Bura һər il Şərq ölkələrindən 7 min tələbə təhsil almağa gəlirdi. Tələbələr kitabla pulsuz təmin olunur, onlardan təhsil, yemək və müalicə xərci alınmırdı. Universitetin nəzdində fəaliyyət göstərən kitabxana öz zənginliyinə görə bütün Şərq dünyasında məşhur idi.

Rəşidiyyə şəhəri elm və təhsilin ayrı-ayrı saһələrinə uyğun olaraq məһəllələrə bölünmüşdü. Məһəllələrin birində kitab һazırlayanlar – xəttatlar, cildçilər, rəssamlar yaşayır və işləyirdilər. Onların arasında Hindistandan, Çindən, Misirdən dəvət olunmuş ustalar da var idi. Onların һərəsi öz sənətini ildə 10 nəfər yerli gəncə öyrətməli idi. Rəşidəddin ən zəruri kitabların üzünü köçürtdürüb ölkənin başqa kitabxanalarına da göndərirdi ki, təbii fəlakətlər və işğallar vaxtı xalqın kitab sərvəti itib-batmasın.

* * *

Azərbaycan kitabının inkişafında, xalqın maariflənməsində bir sıra mütərəqqi dövlət xadimlərinin də böyük rolu olmuşdur. Bunların sırasında Ağqoyunlu һökmdarı Uzun Həsənin (1424-1478) də adını çəkmək olar. Tarixi mənbələrdə onun təşkil etdiyi kitabxanada 58 alimin çalışdığı bildirilir. Bu dövrdə Azərbaycanda (Təbrizdə) dünyanın bir çox ölkələrinin səfirlikləri var idi. Uzun Həsən onların vasitəsilə xaricdən kitab gətizdirib tərcümə etdirirdi. “Quran” da ilk dəfə Uzun Həsənin vaxtında Azərbaycan dilinə tərcümə olunmuşdu. Kitabçılığın, elm və ədəbiyyatın inkişafı saһəsində Uzun Həsənin başladığı işi onun oğlu Sultan Yaqub davam etdirmişdir.

* * *

Böyük Səfəvi hökmdarı Şah İsmayıl öz һakimiyyəti dövründə əsası Uzun Həsən tərəfindən qoyulmuş Təbriz kitabxanasına və onun fonduna diqqəti daһa da artırmışdı. Onun dövründə Səfəvilərin dövlət kitabxanası, bir növ, “incəsənət akademiyası”na çevrilmişdi. Kitabxana üç şöbədən ibarət idi. Birinci şöbədəki otaqlarda qiymətli ağaclardan һazırlanmış geniş kitab rəfləri var idi. İkinci şöbədə rəssamlara və xəttatlara, üçüncü şöbədə isə cildçilərə məxsus emalatxanalar yerləşirdi.

Təbriz kitabxanasından başqa, Şah İsmayıl Ərdəbildə Şeyx Səfi məqbərəsi yanında böyük kitabxana da tikdirmişdi. Bu kitabxana XIX əsrin əvvəllərinə qədər fəaliyyət göstərmişdir. Səfəvi kitabxanalarının qapıları uzaq yerlərdən gələnlərin də üzünə açıq idi. Elm öyrənmək və tədqiqatla



LAYİHƏ

məşğul olmaq üçün burada hər cür şərait yaradılmışdı. Orta əsrlərdə Avropadan və Şərq ölkələrindən Azərbaycana gəlmiş elə bir məşhur şair, alim, səyyah olmamışdır ki, bu kitabxananı görməmiş geri qayıtsın.

* * *

Azərbaycanda yalnız hökmdar saraylarında deyil, bir çox mədrəsələrdə də kitabxanalar var idi. Belə tədris ocaqlarından biri də Şamaxı mədrəsəsi idi. 1637-ci ildə məşhur alman alimi Adam Oleari Azərbaycanın bir sıra yerlərində, o cümlədən üç ay Şamaxıda olmuşdu. O, qeydlərində buradakı mədrəsələrdən birini təsvir edərək yazırdı ki, bu binanın çoxlu girişləri və otaqları var. Bir neçə yerdə böyüklərin və uşaqların əllərində kitab gördük. Məlum oldu ki, bura mədrəsədir, yəni gimnaziya və ya akademiya kimi bir yerdir. Bunlardan Səfəvilər dövlətinin ayrı-ayrı yerlərində bir neçəsi var və hər birində zəngin kitabxana fəaliyyət göstərir. Müəllimlərin və tələbələrin tədris və mütaliə ədəbiyyatına olan ehtiyacını da, ilk növbədə, həmin kitabxanalar ödəyir. Bundan başqa, kitab satan dükanlar da az deyil. Tələbələr arasında pulu kitaba xərcləmək yeməyə xərcləməkdən üstün tutulur.

Təəssüf ki, bir çox elm və təhsil ocaqları kimi, kitabxanalarımız da müxtəlif dövrlərdə yadellilər tərəfindən talan olunmuş, məhv edilmişdir. 1235-ci ildə monqollar Gəncəni işğal etdikdən sonra bir çox mədəni abidələr kimi, Gəncə kitabxanaları da yerlə-yeksan oldu. Akademik Ziya Bünyadov "Azərbaycan Atabəyləri dövləti" kitabında yazır ki, erməni qriqorian kilsəsinin havadarları Qarabağa soxularaq bir çox mədəni abidələri, o cümlədən qədim Bərdənin nəhəng kitabxanasını vəhşicəsinə yandırmış, külünü Tərtər çayına tökmüşlər. Bununla belə, Azərbaycanda həmişə elmə, ədəbiyyata və onların daşıyıcısı olan kitaba böyük hörmət, sevgi olmuşdur.

*Aynur Xanlarqızı*

### Söz ehtiyatı

**2.** "Biblioqrafiya", "kataloq", "təsnifat" sözlərinin mənasını kontekstə görə izah edin.

### Düşün və cavab ver

**3.** Mətndə haqqında danışılan kitabxanaların hamısı üçün səciyyəvi olan cəhətləri və hər birinin fərqli xüsusiyyətini göstərin.

### Dil qaydaları

**4.** Mətnin 1-ci abzasında göy rənglə verilmiş cümlələrin neçə qrammatik əsası var?



LAYİHƏ

**5.** Göy rənglə verilmiş hansı bağlayıcılar cümlələri bağlayır?

**6.** Mətndə altından xətt çəkilmiş sözlərdən biri qrammatik məna növünə görə digərlərindən fərqlidir.

**7.** 6-cı tapşırıqda seçilmiş feillər üçün ortaq olan cəhətləri müəyyən edin.
1. Hamısı feilin müəyyən qrammatik növündədir.
2. Quruluşca düzəltmədir.
3. Quruluşca sadədir.
4. Şühudi keçmiş zamandadır.
5. *İdi* hissəciyi ilə işlənmişdir.
6. Məchul növdədir.

**8. Debat.** "*Yaradılmışdı*" feilinin başlanğıc forması:
A) "yarat (d)+ıl"
B) "yar+at (d)+ıl"

**9.** Hansı söz verilmiş feildən düzəlmişdir?

| **dara** | **din** |
|---|---|
| A) daranmaq B) daralmaq | A) dinləmək B) dindirmək |
| **qaz** | **qov** |
| A) qazanmaq B) qazdırmaq | A) qovurmaq B) qovdurmaq |

***10.** Bənddə altından xətt çəkilmiş feillər haqqında verilən düzgün fikirləri müəyyənləşdirin.

Dostu bu dünyada seçib taparlar,
Dost-düşmən seçilər, Vətən seçilməz.
Qayanı yararlar, dağı çaparlar,
Dağ, qaya kiçilər, Vətən kiçilməz.
*(Məmməd İsmayıl)*

1. II misradakı feillər feildən, IV misradakılar sifətdən düzəlmişdir.
2. "Seçilər" feili düzəltmə, "kiçilər" sadə feildir.
3. II misradakı feillər məchul, IV misradakılar məlum növdədir.
4. Feillərin hamısı məchul növdədir.
5. Feillərin hamısı *-ıl⁴* şəkilçisi ilə düzəlmişdir.
6. Feillərin hamısı məlum növdədir.



LAYİHƏ

# KİTAB ÇAPININ İXTİRASI

Kitab çapı, yəni kitabların üzünün əllə köçürməklə deyil, mexaniki üsulla çoxaldılması insanları uzun müddət düşündürən bir məsələ olmuşdur. Aydındır ki, nəyi isə kütləvi şəkildə çoxaltmaq üçün əvvəlcə onun *qəlibini* hazırlamaq lazımdır. Kitab çapında atılan ilk addımlar da bu sadə ideyanın dərk olunması ilə başlandı.

İlk çap kitablarını ksiloqrafik kitablar (yun. *ksilo* – ağac, *qrafo* – yazıram) adlandırırlar. Onları belə düzəldirdilər: taxta lövhənin hamar səthi üzərində mətnin güzgüdəki kimi əksinə çevrilmiş təsvirini yazırdılar. Usta taxtanın üzərində yazılan hərfləri saxlamaqla qalan hissəni bıçaqla kəsib çıxarırdı. Beləliklə, mətnin relyefli, qabarıq təsviri alınırdı. Bu taxta lövhə çap forması – mətn üçün qəlib rolunu oynayırdı. Sonra boyaqla qabarıq şriftləri rəngləyir, üstünə kağız vərəq qoyurdular. Taxtadakı rəng vərəqlərə hopurdu və onda yazılan mətnin düz əksi alınırdı.

Ksiloqrafik çap üsulu çox çətin başa gəlirdi. Mətn dəyişdikcə hər dəfə taxta lövhədə minlərlə hərf, heroqlif kəsmək lazım idi.

XI əsrdə Çin imperator ailəsindən çıxmış Bi Şen ayrı-ayrı literlər (lat. *littera* – hərf) – heroqlif qəlibləri hazırlamaqla çap üsulunu bir qədər təkmilləşdirdi. Bunun üçün o, gildən çoxlu miqdarda heroqlif düzəldib bişirir, sonra isə onları *qatranla* metal lövhələrə bərkidirdi. Artıq hər bir mətn üçün ayrıca qəlib hazırlamaq lazım gəlmirdi, hazır literləri düzgün ardıcıllıqla lövhəyə bərkitmək kifayət idi. Lakin bu üsul da kamil deyildi, çünki külli miqdarda şrift qəlibləri tələb olunurdu, onların bir-bir hazırlanması isə çox vaxt aparırdı.

Bir müddət də keçdi. Nəhayət, XV əsrdə alman ixtiraçısı İohann Qutenberq (1400-1468) literlər hazırlamaq üçün metal matrislər (lat. *matrix* – mənbə, başlanğıc) yaratmağa nail oldu. Matrisin üzərində hər bir literin formasına uyğun dərinliklər var idi. Qurğuşunla qalayın qarışığından olan ərintini matrisin üzərinə tökərək tez bir zamanda külli miqdarda liter düzəltmək mümkün idi. Qutenberq müxtəlif kitab ölçülərinə uyğun standart taxta lövhələr düzəltdi. Onların üzərində literlərdən sözlər, sözlərdən cümlələr, cümlələrdən mətn yığaraq çap forması ixtira etdi. Buradakı literlər metaldan olduğuna görə daha davamlı idi və külli miqdarda surət almağa imkan verirdi. Qutenberq mətbəədə istifadə etmək üçün boyaların reseptini də hazırlamışdı. Çap vaxtı çap formasındakı literlər rənglənir və üzərinə kağız vərəq qoyulurdu.



LAYİHƏ



İohann Qutenberq

Çap üsulunun təkmilləşdirilməsi üçün Qutenberqin digər ixtirası çap prosesinin avtomatlaşdırılması idi. Bu məqsədlə o, bitkilərdən yağ çıxarmaq üçün istifadə olunan adi *presi* mətbəə dəzgahına çevirdi və onu çap prosesinə uyğunlaşdırdı. Pres kağızı çap formasına möhkəm sıxdığından səhifələrin surətləri çox dəqiq və səliqəli alınırdı. Artıq kağız vərəqin çap formasının üzərinə qoyulub götürülməsi də mexaniki üsulla baş verirdi. Bir səhifənin minlərlə surəti çıxarıldıqdan sonra digər səhifənin çap olunmasına keçilirdi.

Qutenberqin 1445-ci ildə öz mətbəəsində buraxdığı "Bibliya"dan 42 sətirlik bir hissə dünya tarixində ilk çap nümunəsi sayılır.

Qutenberqin ixtirası İohann Faust adlı varlı bir tacirin marağına səbəb olmuşdu. O, Qutenberqə kitab istehsalını genişləndirmək üçün borc vermişdi. Lakin ixtiraçı mühəndis bu borcu vaxtında qaytara bilməmişdi. Buna görə də tacir ona qarşı məhkəmə iddiası qaldırmışdı. Prosesi udan Faust Qutenberqin bütün çap dəzgahlarını *müsadirə etdirmişdi*. Sonra isə özü mətbəə təşkil etmişdi. Qutenberq öz ixtirasının Avropada necə sürətlə yayıldığını, başqalarının bu işdən necə varlandığını kədərlə seyr etməli olmuş, maddi ehtiyaclar içərisində vəfat etmişdi.

Artıq 1500-cü ildə İtaliyada 100, İspaniyada isə 30 çap dəzgahı işləyirdi.

XVIII əsrin sonlarında qəzet və kitablara olan tələbat o qədər artmışdı ki, əllə hərəkətə gətirilən çap maşınları artıq bu tələbatı ödəyə bilmirdi. Saksoniyalı mühəndis-çapçı Fridrix Köniq 1814-cü ildə buxarla işləyən ilk çap dəzgahını işə saldı. Buxar mühərrikli maşınla saatda 1000 səhifə çap olunurdu ki, bu da əvvəlki dəzgahla müqayisədə dörd dəfə çox idi.

1866-cı ildə avtomatik yığım dəzgahı – linotip ixtira edildi. Çap olunacaq mətn çap makinasında olduğu kimi, klaviatura ilə yığılırdı. Burada sözlər və sətirlər səliqəli intervallarda yerləşdirilirdi. Linotipdə şriftlərin yığılması çap işini xeyli sürətləndirdi.

Müasir dövrdə çap işi görünməmiş səviyyədə təkmilləşdirilmiş və *poliqrafiya* adlanan sənaye sahəsinə çevrilmişdir.

*"İxtiralar və kəşflər" kitabından*

**Söz ehtiyatı**

1. "Qəlib", "şrift", "qatran", "pres", "poliqrafiya" sözlərinin, "müsadirə etmək", "məhkəmə iddiası qaldırmaq", "prosesi udmaq" ifadələrinin mənalarını izah edin.



LAYİHƏ

### Düşün və cavab ver

**2.** Kitab çapının inkişafındakı mərhələləri qrafik informasiya şəklində təqdim edin.

### Dil qaydaları

**3.** Cədvəli dəftərinizdə çəkin. Mətndə altından xətt çəkilmiş sözləri aşağıdakı kimi qruplaşdırın.

| Məsdər | Feili sifət | Feili bağlama |
|---|---|---|
| | | |

**4.** Cümlələrdən təsriflənən və təsriflənməyən feilləri seçib dəftərinizə yazın, cümlələrin quruluşca növünü müəyyən edin.

1. Çaydan keçmək üçün kiminsə gəlib körpü salacağını gözləmə.
2. Elm təkcə bilik deyil, həm də şüurdur, yəni bilikdən necə istifadə etməyi öyrədəndir. *(Klyuçevski)*
3. Nə qədər ki yaşayırsan, öyrən, düşünmə ki, qocalıq gələndə sənə kamal gətirəcək. *(Solon)*

**5.** Altından xətt çəkilmiş sözləri feili bağlama ilə əvəz edərək sadə cümlə düzəldib yazın.

1. Torpağı həvəslə <u>şumladı</u>, toxumu bir-bir ləklərə basdırdı.
2. Dərdini heç kimə <u>demədi</u>, şəhəri tərk etdi.
3. Oğlan <u>yedi</u>, oyuna getdi.
   Çoban <u>yedi</u>, qoyuna getdi.
4. Oğru qalana <u>yanar</u>, mal sahibi gedənə yanar.
5. Ota <u>qatsan</u>, at yeməz,
   Ətə <u>qatsan</u>, it yeməz.

**6.** Şeiri nəsrə çevirin. Cümlələrin sadə, yoxsa mürəkkəb olduğunu müəyyən edin.

O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə.
...Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə.
Onlar bu şərtlərə sözünü desin,
Zənciri kim vurdu şir biləyinə?

*B.Vahabzadə*



LAYİHƏ

# AZƏRBAYCANDA İLK MƏTBƏƏLƏR

Azərbaycanda ilk çap dəzgahı hələ XIX əsrin əvvəllərində Təbrizdə quraşdırılmışdı. Daha sonra, 1830-cu ildə isə Şuşada mətbəə fəaliyyətə başlamışdı.

XIX əsrin II yarısında Azərbaycanın iqtisadi və ictimai inkişafı milli mətbuatımızın yaranmasına gətirib çıxardı. Çətinliklə olsa da, görkəmli maarifçi Həsən bəy Zərdabi hökumətə müraciət edərək "Əkinçi" qəzetinin nəşrinə icazə ala bildi. Qəzetin nəşri üçün Zərdabi İstanbuldan xüsusi ərəb qrafikalı mətbəə şriftləri gətizdirdi və nəhayət, xeyli əziyyətdən sonra 1875-ci il iyulun 22-də Bakıda qəzetin ilk nömrəsi işıq üzü gördü. Beləliklə, milli mətbuatımızın əsası qoyuldu.

1. Sizcə, nə üçün o dövrdə qəzet nəşrinə icazə almaq bu qədər çətin idi?
2. H.Zərdabi nə üçün qəzet nəşr etmək üçün ərəb qrafikalı mətbəə şriftləri gətizdirməli oldu?

Azərbaycan mətbuatı üçün "Əkinçi"nin ayağı yüngül oldu. Bir çox yazıçı və şairlər öz əsərlərini qəzet və jurnallarda dərc etdirirdilər. Yazdıqlarını kitab şəklində görmək istəyən bu ədiblər vəsait tapan kimi mətbəə açmağa çalışırdılar.

XIX əsrin sonunda Azərbaycanda nəşriyyat işinin inkişafında Ünsizadə qardaşlarının (Səid, Cəlal, Kamal) böyük rolu olmuşdur.

Səid Ünsizadə 1879-cu ildə Tiflisdə **"Ziya"** qəzetini nəşr etməyə başlamışdır. Sonralar mətbəəsini Şamaxıya köçürmüş və bu qəzetlə yanaşı, dini kitabların çapı ilə də məşğul olmuşdur. S.Ünsizadə özü din xadimi olduğundan *risalələr* yazmış, mətbəəsindən də islam ideyalarının təbliği üçün istifadə etmişdir.

"Ziya" ilə bir vaxtda Səid əfəndinin qardaşı Cəlal Ünsizadə "Kəşkül" qəzetini, sonralar eyniadlı jurnalı buraxmışdır. C.Ünsizadə öz dünyəvi baxışları ilə qardaşından seçilirdi. O, bir sıra rus və Ukrayna yazıçıları, ... S.Ə.Şirvani, F.Köçərli kimi Azərbaycan ziyalıları ilə əməkdaşlıq edirdi. Bu da onun mütərəqqi baxışlarının formalaşmasında müəyyən rol oynamışdı. "Kəşkül"ün səhifələrində çap etdiyi dünya ədəbiyyatı nümunələrinin bir neçəsini Cəlal əfəndi öz mətbəəsində ayrıca kitab şəklində buraxmışdı.

**3.** Sonuncu abzasda nöqtələrin yerinə aşağıdakı bağlayıcılardan hansı uyğun gəlmir?
A) eləcə də B) o cümlədən C) həmçinin



LAYİHƏ

XX əsrin əvvəllərində senzuranın zəifləməsi ilə əlaqədar Bakıda mətbuat daha sürətlə inkişaf etməyə başladı. Bu illərdə Bakıda xeyli sayda qəzet və jurnal çıxırdı. Qəzet və məcmuələrdən əlavə, mətbəələrdə kiçik tirajlarla olsa da, Azərbaycan yazıçılarının əsərləri kitab şəklində çap edilib yayılırdı.

4. Senzuranın zəifləməsi mətbuatın inkişafına necə təsir edə bilərdi?

**Cəlil Məmmədquluzadə** öz dostu **Ömər Faiq Nemanzadə** ilə birlikdə 1905-ci ildə "Şərqi-Rus" qəzetinin mətbəəsini aldı. Həmin vaxtdan "Qeyrət" adı altında fəaliyyət göstərən bu mətbəə az keçmədən irihəcmli nəşrlərin – elmi-kütləvi və bədii ədəbiyyatın, dərsliklərin çapına başladı. Mətbəədə işıq üzü görən ilk kitablardan biri C.Məmmədquluzadənin **"Poçt qutusu"** idi. Ədibin redaktorluq etdiyi **"Molla Nəsrəddin"** jurnalı da bir neçə il bu mətbəədə çap olunmuşdu.

XX əsrin əvvəllərində Azərbaycanda ən böyük və məşhur nəşriyyat Orucov qardaşlarının nəşriyyat-mətbəəsi idi.

Oruc, Qənbər və Abuzər Orucov qardaşları Bərdənin Alpout kəndində doğulmuş, Tiflisdə, Gəncədə və Rusiyada yüksək təhsil almışdılar. Rus, ərəb və fars dillərini mükəmməl bilmələri onların sonralar həm də jurnalist, tənqidçi, tərcüməçi və *redaktor* kimi işləmələrinə imkan vermişdi.


Oruc Orucov  Qənbər Orucov

Ata-babalarından qalma mülkü və əmlakı satmaqla əldə etdikləri vəsait hesabına qardaşlar Almaniyadan yeni çap ləvazimatı və mətbəə avadanlığı alaraq Bakıya gətirmiş, o dövr üçün kifayət qədər güclü və müasir mətbəə qurmuşdular. Bu, Bakıda elektrik enerjisi ilə işləyən ilk mətbəə idi. Mətbəə Tağıyevin açdığı və himayə etdiyi Qız məktəbinin binasında yerləşirdi. Yer kirayəsi kimi Orucov qardaşları hər il məktəbi bitirən məzunlara nəfis nəşr olunmuş "Qurani-Kərim" kitabı hədiyyə edirdilər.

5. Sonuncu cümlələr H.Z.Tağıyev haqqında hansı fikirləri söyləməyə əsas verir?

Nəşriyyat buraxdığı kitabların dövri mətbuatda reklamına da xüsusi diqqət yetirir, vaxtaşırı qəzetlərdə həmin kitablar haqqında kiçik elanlar yerləşdirirdi.

Beləliklə, Orucov qardaşları, sözün əsl mənasında, nəşriyyat biznesini



LAYİHƏ

müasir səviyyədə qurmuş iş adamları idilər. Onlar bir çox qəzet və jurnalların *naşiri* kimi çıxış edirdilər.

Orucov qardaşları Azərbaycan mətbuatı tarixində ilk dəfə olaraq müəlliflərə qonorar verməyə başladılar. Məsələn, böyük yazıçımız Sabirə hər gün yazdığı *taziyanələri* üçün ayda on manat qonorar verirdilər.

Dünya və rus ədəbiyyatından tərcümə olunmuş kitablar da nəşriyyatın iş planında mühüm yer tuturdu. Orucov qardaşları bir çox görkəmli yazarların əsərlərini Azərbaycan oxucularına təqdim etmişdilər.

Orucov qardaşlarının mətbəəsi oxucular arasında kitabların təbliği məqsədi ilə vaxtaşırı müxtəlif kitab kataloqları da buraxırdı. Bu kataloqlarda nəşr olunmuş kitablar sahələr üzrə qruplaşdırılırdı. Onların qısa *biblioqrafik* göstəriciləri və *annotasiya* ilə siyahısı dərc edilirdi.

1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaranarkən qardaşlar könüllü olaraq öz mətbəələrini müstəqil dövlətin ixtiyarına vermişdilər. Lakin bolşevik-kommunist rejimi hakimiyyətə gəldikdən sonra Orucov qardaşlarının mətbəəsi "milliləşdirmə" adı altında əllərindən alındı.

Sovet hakimiyyəti dövründə Orucov qardaşları təqiblərə məruz qalaraq Bərdəyə, öz doğma kəndlərinə qayıtdılar. Lakin burada da təqibdən yaxa qurtara bilməyən Qənbər və Abuzər 30-cu illərdə dünyalarını dəyişdilər. Böyük qardaş Oruc isə 1954-cü ildə Bərdədə vəfat etmişdir.

*"Azərbaycanda nəşriyyat işi" kitabından*

**Söz ehtiyatı**

**6.** "Ayağı yüngül olmaq" ifadəsinin və "dünyəvi", "tiraj", "redaktor", "taziyanə", "annotasiya" sözlərinin mənalarını izah edin.

**Düşün və cavab ver**

**7.** XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda nəşriyyat-mətbəə işinin inkişaf mərhələlərini qrafik informasiya (cədvəl, sxem və s.) şəklində təqdim edin.

**8.** Əlavə mənbələrdən istifadə etməklə nəşriyyat işi ilə mətbəəçilik arasındakı fərqi müəyyənləşdirin.

**9.** Jurnalist, tənqidçi, tərcüməçi, redaktor və naşirin peşə vəzifələrini açıqlayın.

**Yazı**

**10.** Verilmiş mətnə annotasiya yazın.

**11.** Oxuduğunuz kitabların kataloqunu tərtib edin.



LAYİHƏ

### Dil qaydası

**12.** 2-ci abzasda qoşmaları və onların qoşulduğu nitq hissəsini müəyyənləşdirin, yaratdığı məna çalarını izah edin.

**13.** Sonuncu abzasda altından xətt çəkilmiş bağlayıcıları sinonimləri ilə əvəz edib yazın.

**14.** *Üçün* qoşması hansı cümlədə səbəb, hansında məqsəd mənası bildirir?

1. Başqalarının hörmətini qazanmaq üçün özünə hörmətlə yanaşmalısan.
2. Məni çoxdan görmədiyi üçün harada yaşadığımı bilmirdi.

**15.** Hansı cümlədə sinonim qoşmalar işlənmişdir?

A. Nənə səhərəcən yatmayıb əsgər nəvəsi üçün corab hördü.
B. Ovçu kəndə sarı boylananda bir uşağın ona tərəf gəldiyini gördü.
C. Uşaqlar müharibə veteranları ilə görüşə çoxdan bəri hazırlaşırdılar.

**16.** Cümlələrdə bağlayıcıları tapın, onların cümlələri, yoxsa cümlə üzvlərini bağladığını müəyyən edin.

1. Onlar az-az görüşərdilər, ancaq söhbətləri uzun çəkərdi.
2. Müəllim təəccüblə gah mənə, gah da dostuma baxırdı.
3. Həm güclü, həm də zəif cəhətlərimi bilirəmsə, deməli, mübarizəyə hazıram. *(K.Parker)*
4. Hadisələrin gedişatı bizim iradəmizdən və səylərimizdən asılıdır.
5. Mən bilirəm ki, bu məğlubiyyətim sonradan qələbəyə çevriləcək.
6. İnsana ən böyük mükafatı da, cəzanı da onun öz vicdanı verir.

*(Mahatma Qandi)*

**17.** Köməkçi nitq hissələrini seçib yazın.

Bəs qartal? Qartal ovçudan qorxmurdu? Yox... Axı qartal tək deyildi. Məgər qartalı dağlar, hüdudsuz səma, qüdrətli günəş, sakit gecələrin sehrli laylası, sıldırım qayaların arxasında qaynayan bulaqların sərin suyu, göydə dəliqanlı igidlər kimi oynaşan ildırımlar – məgər bunlar qartalı ovçunun hiyləgər niyyətindən qorumurdumu?

*(Yusif Səmədoğlu)*



LAYİHƏ

# ELEKTRON KİTAB



Azərgil yay tətili günlərində Gəncəyə gedəcəkdilər. Bir ay orada qalmalı idilər. Çoxlu kitab oxumağı planlaşdıran Azər əvvəlcədən həmin kitabları seçib yığmışdı. Atası maşının yük yerini açdı. Anası oraya ailənin istifadə edəcəyi əşyaları yığmağa başladı. Azər kitablarının hamısını yerləşdirə bilmədi.

Yolboyu Azərin fikri götürə bilmədiyi kitabların yanında qalmışdı. Amma nə etmək olar? Axı əşyaları da götürmək vacib idi. Yadına düşdü ki, informatika müəllimləri onlara elektron kitablardan danışmışdı. Demişdi ki, bəzi saytlarda kitabların hazır elektron variantları olur. Hətta onların nümunələrini də nümayiş etdirmişdi. Bu fikir onda bir az toxtaqlıq yaratdı. Çox güman ki, qalacaqları yerdə internet olacaq. Həmin saytlara daxil olub lazım olan kitabları tapa bilsə, əla olar!

Elə də oldu. Bilsə idi, gətirdiyi kitabları da evdə qoyar, hamısını saytdan oxuyardı. Azər internetdən tapdığı kitabları kompüterinin yaddaşına yüklədi. Özlüyündə fikirləşdi ki, artıq o, müasir oxucudur. Onun elektron kitabxanası var.

**1.** Elektron kitabxana yaratsa idiniz, ora, ilk növbədə, hansı kitabları yerləşdirərdiniz? Onların qovluqlar üzrə təsnifatını necə tərtib edərdiniz?

Tətildən sonra Azər, ilk növbədə, informatika müəllimi ilə görüşmək, təəssüratlarını onunla bölüşmək istəyirdi. İnformatika kabinetinin qapısını açanda həmişəki kimi Maqsud müəllimi kompüterin arxasında gördü. Salamlaşdıqdan sonra cibindən *yaddaş kartını* çıxarıb müəllimə göstərdi.

– Maqsud müəllim, mənim artıq elektron kitabxanam var, – dedi.

Maqsud müəllim kartı *notbuka* taxıb orada yerləşdirilmiş kitabların kataloqunu nəzərdən keçirdi, deyəsən, şagirdindən razı qaldı:

– Afərin, oğlum, sən çox ağıllı bir iş görmüsən! – dedi. – Müasir informasiya texnologiyaları oxucuların işini yüngülləşdirmək üçün xeyli nailiyyət əldə edib. Son vaxtlaradək "elektron kitab" deyiləndə kompüterdə yığılan kitab nəzərdə tutulurdu. İndi isə "elektron mətni oxuyan qurğu" anlayışını da özünə birləşdirib. **Elektron kitab**, əslində, kitabların elektron *formatda* saxlanması və oxunması üçün istifadə olunan qurğudur. Xarici görünüşü



LAYİHƏ

kitaba oxşayan bu qurğular internetdən kitab yükləyib istənilən vaxt istifadə etməyə imkan yaradır.

– Onda  mən bu kitabları oxumaq üçün ayrıca qurğu da almalıyam, eləmi?

– Yox, Azər, sən bu kitabları öz kompüterində də oxuya bilərsən. Amma kompüterdən hər yerdə istifadə edə bilmirsən. Elektron kitablar isə bu imkanı yaradır. Onlar planşet kompüterlərin inkişafı və ixtisaslaşması nəticəsində yaranıb. Birekranlı və ikiekranlı olur.

Azəri maraq götürdü:

– Bəs kitabları bu qurğudan oxumaq gözü çox yormur ki, müəllim?

– Elektron kitabların təsvir imkanları müxtəlifdir. Maye-kristal ekranlı e-kitablar planşetə bənzəsə də, onlar kimi çoxfunksiyalı deyil. Belə ekrandan oxuyarkən gözlər planşetlərdə olduğu kimi çox tez yorulur. Amma elektron kitabların elə tipləri var ki, ekranı gözü yormur.

– Bəs bu qurğuların yaddaş imkanı necədir?

– Onlar oxucuya böyük bir kitabxananı heç bir çətinlik çəkmədən  özü ilə gəzdirməyə imkan verir. Həmçinin elektron kitablarda axtarış aparmaq, mənasını bilmədiyin sözlərin izahını tapmaq və müəyyən dillərə tərcümə etmək də mümkündür. Axtarış prosesi istifadəçinin verdiyi sorğuya əsasən avtomatik olaraq həyata keçirilir.

– Onda daha kağız kitablara ehtiyac qalmır ki...

– Mən elə deməzdim. Hər zaman köhnə ilə yeni arasında mövqe mübarizəsi gedir. Amma bu mübarizələrin çoxunda tam qələbə heç kimə qismət olmur. Kino və televiziyanın yaranması ilə teatrın tədricən aradan çıxacağı haqqında illərlə gedən mübahisələrin nəticəsi də bunu təsdiq edir. Teatr bu gün də yaşayır, inkişaf edir. Kağız kitabların da öz üstünlükləri var. Məsələn, bədii əsərləri, romanları oxumaq üçün nəfis çap olunmuş kitabların yerini heç nə verə bilməz. Amma sorğu ədəbiyyatı – lüğət və ensiklopediyalar, eləcə də tədris materialları ilə işləyərkən elektron formatın üstünlükləri açıq-aşkar hiss olunur. Çoxcildli qalın sorğu kitablarını hər yerə özünlə daşımaq çətindir. Bundan əlavə, adi lüğətdə və ya ensiklopediyada hər hansı bir sözü axtarmaq da xeyli vaxt aparır. Xüsusi proqramla yığılmış elektron lüğətdə isə istənilən sözün izahını tapmaq üçün o sözü yazmaq kifayət edir. Eyni zamanda elektron informasiya materiallarında *multimedia* imkanlarını – *audio* və videonu da unutmaq olmaz. Onlar məlumatın, biliyin daha dərindən qavranılmasına kömək edir. Bir sözlə, Azər, texnoloji yeniliklərlə ayaqlaşmaq, onları mənimsəmək lazımdır. Bunsuz inkişaf mümkün deyil.

*Hidayət Fehruzoğlu*



LAYİHƏ

### Söz ehtiyatı

**2.** “Notbuk”, “yaddaş kartı”, “format”, “multimedia”, “audio” sözlərini kontekstə görə izah edin.

### Düşün və cavab ver

**3.** Sizcə, tədris materiallarının elektron formatda təqdimatının hansı üstünlükləri ola bilər?

**4.** Kağız və elektron kitabların bir-biri ilə müqayisədə üstünlükləri barədə daha nə deyə bilərsiniz?

### Dil qaydaları

**5.** Altından xətt çəkilmiş cümlədə modal sözü elə dəyişin ki, oxucu müəllimin Azərdən tam razı qaldığı qənaətinə gəlsin.

**6.** Göy rənglə verilmiş sözün hansı nitq hissəsi olduğunu müəyyənləşdirin və sinonimi ilə əvəz edin.

**7.** “Axı əşyaları da götürmək vacib idi” cümləsində ədatı aşağıda verilmiş ədatlardan hansı ilə əvəz etsək, sual cümləsi yaranacaq?

A) məhz B) ancaq C) məgər D) bəli

8. “Mən ona demişdim ki, hamını öz arşını ilə ölçməsin” cümləsində “ki” bağlayıcısı “mən” əvəzliyindən sonra işlənərsə, hansı qrammatik məna dəyişikliyi yaranar?

9. Durğu işarələrini artırıb cümlələri dəftərinizə köçürün.

1. Əgər inkişaf yoxdursa deməli durğunluq gözlənilir. *(Seneka)*
2. Bəli kommersiyada dostluq yoxdur.
3. Axı mən həmişə deyirdim ki bu əla ideyadır.
4. Bağışlayın vallah mən səhv etmişəm.
5. Əgər eksperiment baş tutmayıbsa deməli nəsə qaydasında deyil.
6. Kim ki öyrətməyi bacarır o da idarə edir.

Cümlələrin qrammatik əsasını göstərməklə onları quruluşca növünə görə fərqləndirin.



LAYİHƏ

## ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1.** Bölmənin mətnlərindən orta əsrlər Azərbaycan mədəniyyəti haqqında hansı nəticələrə gəlmək olar?

**2.** Bu mətnlərdə Azərbaycanın sizə məlum olan hansı tarixi şəxsiyyətlərinin adları çəkilir? Onlar haqqında bildiklərinizə nələr əlavə olundu?

**3.** Köməkçi nitq hissələrini qruplaşdırıb cədvələ yazın.

1. Ah, bəlkə, anam da elə yuxuya getmişdi. *(S.S.Axundov)*
2. Vay, Allah səni yox eləsin, nə murdar səsi var. *(S.S.Axundov)*
3. Sənəm xanım həyəcanla gah şairə, gah da atasının üzünə baxırdı. *(Y.V.Çəmənzəminli)*
4. Evin sonbeşiyi olduğuna görə hamı onun başına pərvanə kimi dolanırdı. *(İ.Şıxlı)*
5. Çərkəz axıracan tab gətirə bilməyəcəkdi. *(İ.Şıxlı)*

| Qoşma | Bağlayıcı | Ədat | Modal söz | Nida |
|---|---|---|---|---|
| | | | | |

**4.** Altından xətt çəkilmiş sözlərin nəqli keçmiş zamanda işlənmiş təsriflənən feil, ya feili bağlama olduğunu müəyyən edin.

Cilvələnib nə qarşımda durubsan,
Canım sana qurban, ay sarıköynək.
Mələksən, çıxıbsan cənnət bağından,
Heç kim olmaz sana tay, sarıköynək. *(Aşıq Ələsgər)*

**5.** Altından xətt çəkilmiş sözü eyni məna daşıyan "söz + qoşma" ilə əvəz edin.

Hər kim çətinliyi görsə doyunca,
Ömrün iç üzünü o anlayacaq. *(S.Vurğun)*

**6.** Feili bağlama şəkilçisini hansı ilə əvəz etsəniz, şeirin qafiyəsinə və məzmununa xələl gəlməyəcək?

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar. *(Aşıq Ələsgər)*

A) -ınca$^4$ B) -ar-maz$^2$ C) -madan$^2$ D) -ıb$^4$

**7.** Verilmiş feili sifətləri cümlədə işlədib yazın.

*tələsən, yetişmiş, alınacaq, əkdiyim, qarşılanası*



LAYİHƏ

**8.** Feilləri seçib qrammatik məna növünü müəyyən edin.

1. Günün saçaqları yayılır düzə,
   Çünki təslim olur gecə gündüzə. *(S.Vurğun)*
2. Səslənir yamaclar, dağlar, dərələr,
   İnsanı güldürür bu mənzərələr.
   Oğru qarğalara tüfəng atılır,
   Qocalmış torpağa dərman qatılır. *(S.Vurğun)*

**9.** Cümlələri cədvələ əsasən qruplaşdırın.

| Sadə cümlə | Mürəkkəb cümlə |
|---|---|
| 1. ... | |

1. Nə Məşədi ağa, nə Əkbər yoldaş, nə də onun ailəsi yatmışdı. *(M.S.Ordubadi)*
2. Xəmiri kündələyib yığır, yuxanı bir-bir yayıb süfrəyə qoyur, sacın qızmağını gözləyirdi. *(M.S.Ordubadi)*
3. O gördü ki, Dədə bəy sərkərdə olmaq təklifindən razı qalıb. *(F.Kərimzadə)*
4. Uşaq ailənin səadət və sevincidir.
5. Göyün üzü tutulur, yağış damcılayır, quşlar aşağıdan uçurdu.
6. Ovçu əlində tüfəng boz bir qayaya daldalanıb pusquda durmuşdu. *(Y.Səmədoğlu)*

**10.** Altından xətt çəkilmiş sözlər haqqında düzgün fikirləri seçin.

*Ah! Nə deyim, nə ad verim bu aləmdə mən sana!*
*Al, bu qələm, bu da kağız, öz hüsnünü yazsana!* (S.Vurğun)

1. I misrada verilmiş *sana* "sənə" əvəzliyinin qafiyə məqsədilə təhrif edilmiş formasıdır.
2. II misrada verilmiş *yazsana* feilin şərt şəklindədir, şərt məzmunludur.
3. Hər iki söz *sən* əvəzliyinin tələffüz formasıdır.
4. II misrada verilmiş söz *-sana*$^{2}$ ədatıdır, cümlənin təsir gücünü artırır.

**11.** Verilmiş köməkçi nitq hissələrini cümlələrdə işlədib yazın. Düzgün yazı qaydalarına əməl etməklə yanaşı, müvafiq yerlərdə durğu işarələrini işlədin.

*sanki, doğrudan da, demə, mı*$^{4}$*, sana*$^{2}$*, tək, də*

LAYİHƏ

# SÖZLÜK

**aborigen** *is.* [lat.] – 1) yerli, yerli mənşəli; 2) ölkənin ilk yerli sakinlərinə verilən ad.

**aerodinamika** *is.* [yun.] – havanın və digər qazların hərəkətindən bəhs edən elm.

**analoq** *is.* [yun.] – eyni təyinatlı, bənzər, oxşar olan.

**annotasiya** *is.* [lat.] – kitabın, məqalənin, film və ya verilişin qısa məzmunu.

**antitezis** *is.* [lat.] – tezisin ziddinə yürüdülən mühakimə.

**audio** *is.* [lat.] – 1) səs sahəsi ilə bağlı olan bir sıra mürəkkəb sözlərin birinci hissəsi; 2) insan qulağının eşidə biləcəyi hər hansı bir səslə əlaqədar olan anlayış; kino, televiziya və radio yayımının səslə bağlı bölməsi.

**avtoritar** *sif.* [fr.] – bütün vasitələrlə öz hakimiyyətini və ya təsirini möhkəmləndirməyə çalışan.

**ayin** *is.* [fars.] – 1) qayda, qanun; 2) dini mahiyyətdə olan mərasim; ibadət.

**bərəkallah** [ər.] – "əhsən", "mərhəba" və s. mənasında tərif, bəyənmə ifadə edən nitq etiketi.

**biblioqrafiya** *is.* [yun.] – müəyyən məsələyə dair kitab, məcmuə və məqalələrin siyahısı; kitabiyyat; kitabların məzmununun elmi təsviri və onların siyahı və qeydlərinin tərtibi.

**bismillah** [ər.] – 1) hərfi mənada: "Allahın adı ilə"; dindar müsəlmanların bir işə başlarkən dua kimi işlətdikləri söz; 2) *dan.* "buyur", "başla", "elə", "et"; 3) *dan.* təəccüb bildirən nida.

**buxarı** *is.* – divar içində hörülmüş ocaq.

**cazibə** *is.* – 1) cisimlərin bir-birini özünə cəzb etməsi xassəsindən ibarət fiziki hadisə; 2) *məc.* insanın könlünü cəzb edən xassə, cəzbedici qüvvə, lətafət.

**centlmen** *is.* [ing.] – kübar cəmiyyətin bütün nəzakət qaydalarına və əxlaq normalarına ciddi riayət edən kişi; öz ciddi, zövqlü geyimi, incə davranışı ilə fərqlənən, sözünün yiyəsi olan, nəzakətli, tərbiyəli adam.



LAYİHƏ

**dekada** *is.* [yun.] – 1) on günə bərabər olan zaman kəsiyi, ongünlük; 2) hər hansı ictimai və ya mədəni hadisəyə həsr olunmuş, on gün davam edən tədbirlər silsiləsi.

**dərgah** *is.* [fars.] – 1) *klas.* astana, kandar, qapı önü; böyük adamların qapısı; saray, iqamətgah; 2) *məc.* Allahın mərhəməti, şəfqəti, köməyi, inayəti.

**dəstxət** *is.* [fars. və ər.] – birisinin şəxsən öz əli ilə yazdığı yazı.

**dissertasiya** *is.* [lat.] – elmi dərəcə almaq üçün təqdim edilən elmi tədqiqat əsəri.

**divan** *is.* [fars.] – Yaxın və Orta Şərq ədəbiyyatında bir şairin yazdığı şeirlər məcmuəsi; divanda şeirlər qafiyələnən sözlərin və ya rədiflərin axırıncı hərflərinə görə əlifba sırası ilə düzülür.

**dövriyyə** *is.* [ər.] – gəlir əldə etmək və təkrar istehsal üçün pulun, malın dövr etməsi, tədavülü.

**duzaq** *is.* – quş və vəhşi heyvan tutmaq üçün alət; tələ.

**dünyəvi** *sif.* [ər.] – dünyaya aid olan, dünya ilə bağlı olan; din ilə əlaqəsi olmayan, dini mahiyyətdə olmayan.

**ekspert** [lat.] – 1) mübahisəli məsələlərin həlli üçün dəvət edilən mütəxəssis və ya mütəxəssislər qrupu; 2) yoxlayıcı, müzakirəedici komissiya.

**ekstremal** [lat.] – adi şəraitdən fərqlənən, qeyri-adi, təhlükəli; təbii fəlakətə, hərbi vəziyyətə, siyasi çaxnaşmalara və s.-yə xas olan (situasiya).

**enerji bloku –** fəaliyyəti birbaşa elektrik enerjisindən asılı olan hər hansı sənaye sahəsinin və ya iri müəssisənin (məs.: neftçıxarma, televiziya və radio yayımı) enerjinin paylanmasını tənzimləyən bölməsi.

**eqoizm** *is.* [fr.] – cəmiyyətə və adamlara münasibətdə öz şəxsi maraqlarını hər şeydən üstün tutmaq; altruizmin əksi olan əxlaqi keyfiyyət.

**əstəğfürullah** *nida* [ər.] – hərfi mənada: “Allahdan bağışlanmağımı istəyirəm”; bəzən Azərbaycan dilində “Allah eləməsin, haşa, əsla, qətiyyən, heç vaxt, heç elə şey ola bilməz, heç elə şeyə razı ola bilmərəm” mənalarında da işlənir.

**fasad** *is.* [fr.] – tikilinin xarici, çölə baxan əsas tərəfi, qarşıdan görünən tərəf; öndən görüntü.



LAYİHƏ

**filateliya** *is.* [fr.] – kolleksiya üçün marka və poçt ödənişi nişanlarından yığıb saxlama.

**format** *is*. [alm.] – 1) kitab nəşrində ölçü; 2) hər hansı tədbirin təşkili və təqdimatı üsulları; mediada materialı təqdimetmə üsulu.

**fövqəladə** *sif.* [ər.] – 1) qeyri-adi, adətdənxaric, görünməmiş, eşidilməmiş; 2) son dərəcə güclü; 3) təcili, xüsusi olaraq müəyyən olunmuş, qəbul edilmiş, növbədənxaric; 4) ölkənin həyatında əmələ gələn müstəsna vəziyyətdən törəyən, onunla əlaqədar olan.

**girdab** *is.* [fars] – 1) dərin çayda, ya dənizdə suyun buruldüğu yer; 2) *məc*. ağır, qorxulu hal, həyatın keşməkeşi, çıxılmaz vəziyyət.

**hali** *is.* [ər.] – bir hadisə, iş haqqında məlumatı, xəbəri olan; xəbərdar, agah.

**hücrə** *is.* [ər.] – məscid, təkyə, karvansara və s. yanındakı kiçik otaqlardan hər biri.

**xal** *is.* **–** 1) anadangəlmə və ya sonradan dəri üzərində əmələ gələn xırda, dəyirmi ləkə; 2) idman yarışlarında və oyunlarında qiymət qoyarkən hesablama vahidi; 3) musiqinin əsas melodiyası ilə həmahəng olan yeni hissə, yeni cəhət.

**xaniman** *is.* [fars.] – 1) ev-eşik, ata yurdu, ocaq, dudman, məskən; 2) ev, ev adamları, ailə.

**xaric** *is.* [ər.] – 1) bayır, dışarı; bayır tərəf (daxilin əksi); 2) xarici ölkə, məmləkət.

**xaric etmək** – qovmaq, kənar etmək, çıxarmaq.

**xaric olmaq** – 1) kənar olmaq, çıxmaq; 2) musiqidə: mövcud ölçü və ahəngdən kənara çıxma, yanlış çalma, ya oxuma.

**illah** [ər.] **–** xüsusən,ələlxüsus.

**illüstrasiya** *is.* [lat.] – kitab və jurnallarda mətnin məzmununa aid şəkillər.

**instinkt** *is.* [lat.] – qeyri-iradi, qeyri-şüuri reaksiya, hərəkət; sövq-təbii hiss, duyğu.

**karbürasiya** *is.* [fr.] – daxiliyanma mühərriklərində duru yanacaq ilə havanın qarışmasından yanacaq qatışığının əmələ gəlməsi.

**karbürator** [fr.] – daxilində karbürasiya əmələ gələn cihaz (daxiliyanma mühərriklərində).



LAYİHƏ

**karet** *is.* [pol.] – *arx.* hər tərəfi örtülü, dördtəkərli, at qoşulan, yaylı minik arabası.

**kataloq** *is*. [yun.] – müəyyən qayda üzrə tərtib edilmiş şeylərin (kitabların, əlyazmaların, muzey eksponatlarının və s.) siyahısı.

**katolik** *is.* – xristianlıqda əsas məzhəblərdən biri.

**kazarma** *is.* [fr.] – 1) hərbi hissələri yerləşdirmək üçün xüsusi bina; qışla; 2) *arx*. fabrik və ya zavod yanında fəhlələr üçün ümumi yataqxana.

**kəsdirə bilməmək** – müəyyən edə bilməmək, qətiləşdirə bilməmək; təxmin edə bilməmək, qərara gələ bilməmək.

**koloniya** *is.* – 1) imperialist dövləti tərəfindən zorla tutulub istismar edilmiş, siyasi və iqtisadi istiqlaliyyətini itirmiş ölkə; 2) bir dövlətin ərazisində əcnəbilərin və ya bir ölkədə başqa yerdən köçüb gələnlərin yaşadığı yer, məhəllə, qəsəbə; 3) bu və ya başqa məqsədlə (islah edilmək, işləmək, müalicə olunmaq və i.a.) köçürülmüş adamların yaşadığı yer; 4) bir-biri ilə bitişik yaşayan orqanizmlər qrupu.

**konfiqurasiya** *is.* [lat.] – 1) zahiri görünüş, kontur, surət; cisimlərin qarşılıqlı yerləşməsi; mürəkkəb cisimlərin tərkib hissələrinin nisbəti; 2) Günəş sistemindəki cisimlərin xarakterik qarşılıqlı vəziyyəti.

**kontekst** *is*. [lat.] – sözün və ya ifadənin mənasını dəqiqləşdirməyə kömək edən mətn və ya mətnin bir parçası.

**konveyer** *is.* [ing.] – işlənib hazırlanma prosesində olan məmulatı bir yerdən başqa yerə ötürmək, yaxud nəql etmək üçün arasıkəsilmədən hərəkət edən nəqliyyat qurğusu.

**korrektor** *is.* [lat.] – mətnlərin korrekturasını aparan mətbəə və ya nəşriyyat işçisi; müsəhhih, təshihçi.

**korrektura** *is.* [lat.] – kitab, qəzet və s. nəşri zamanı mətnlərdəki orfoqrafik səhvlərin düzəldilməsi; təshih edilməsi.

**qazi** *sif*. və *is*. – düşmənə qarşı döyüşərək qəhrəmanlıq göstərən şəxs.

**qəlib** *is.* – 1) bir şeyə bu və ya digər bir şəkil vermək üçün onun içinə keçirilən alət; ülgü; 2) tökmə vasitəsilə müəyyən formalı şeylər hazırlamaq üçün içərisi həmin formaya uyğun şəkildə düzəldilmiş qab, alət (bu qablara ərgin və ya horra halında tökülən maddə soyuduqdan və ya quruduqdan sonra həmin qabın içinin şəklini alır).

**qərq olmaq** [ər.] – 1) batmaq; 2) boğulmaq (suda); 3) adətən, tərkiblərdə işlənib bir şeyin çoxluğunu, şiddətini, dərinliyini və s.-ni bildirən ifadə.



LAYİHƏ

**qiyamət** *is.* [ər.] – 1) dini etiqadlara görə, axırzamanda aləm dağıldıqdan sonra bütün ölülərin dirilib qalxması; məhşər günü.

**qlobal** [fr.] – bütün Yer kürəsini bürüyən, dünya miqyaslı; hərtərəfli, əhatəli, universal.

**qonorar** *is.* [lat.] – elmi, ədəbi-bədii və s. işlər üçün ödənilən əməkhaqqı, mükafat.

**qumru** *is.* – göyərçin cinsindən boz rəngli quş.

**maşallah** *nida* [ər.] – 1) "Allah gözdən saxlasın", "afərin", "mərhəba" kimi mənalarda bəyənmə və alqış bildirən nitq etiketi; 2) bəzən istehza, kinayə məqamında işlənən nitq etiketi.

**multimedia** *is.* [ing.] – müasir texnologiyalar vasitəsilə bir rəqəmsal görüntüdə mətn, səs, qrafika, foto və videonun birləşdirilməsi.

**mücəssəmə** *is.* [ər.] – 1) hər hansı bir təbiət hadisəsi və ya qüvvəsinin canlı bir cisim şəklində təsviri; 2) hər hansı bir keyfiyyəti, xüsusiyyəti təcəssüm etdirən adam, şey haqqında; 3) surət, obraz; heykəl; 4) timsal, təmsil.

**mühafizəkar** *is.* [ər. və fars.] – vaxtı keçmiş, köhnə qaydaları, adət və ənənələri sevən, onlara riayət edən adam, köhnəlik tərəfdarı; köhnəpərəst.

**mühərrik** *is.* [ər.] – hər hansı enerjini mexaniki enerjiyə çevirən maşın, bir şeyi hərəkətə gətirən maşın, motor.

**müntəzir** *sif.* [ər.] – gözləyən, intizar içində olan, intizarda qalan.

**müsadirə etmək** – bir şəxsin, yaxud şirkət, təşkilat, müəssisənin əmlak, pul və s.-ni dövlətin xeyrinə zorla və əvəzsiz olaraq zəbt etmək.

**müşk** *is.* [fars.] – ceyranın göbəyindən çıxarılan xoş iyli maddə.

**nagahan** *sif.* [fars] – 1) gözlənilməyən, gözlənilməz, naqafil; 2) *zərf kimi:* gözlənilmədən, birdən-birə, qəfildən, xəbərsiz.

**nəqqaş** *is.* [ər.] – evlərin divarlarına, tavanına, şeylərin üstünə yağlı və ya sulu boya ilə naxış vuran sənətkar.

**notbuk** *is.* [ing.] – həcmcə masaüstü kompüterdən kiçik, maye-kristal displeyli, klaviaturalı, asanlıqla daşına bilən portativ mini-kompüter.

**oktava** *is.* [lat.] – 1) diatonik qammanın 8-ci tonu, həmçinin 1-ci və 8-ci ton arasındakı interval; musiqidə ən aşağı bas; 2) birinci altı misrası iki çarpaz qafiyəli, sonuncu iki misrası isə yanaşı qafiyəli səkkizmisralı şeir bəndi.



LAYİHƏ

**orakul** *is.* [yun.] – antik dövrdə qeybdən xəbər verən kahin; falçı, rəmmal.

**orijinal** *is.* [yun.] – 1) bir yazının, şəklin və s.-nin əsli; 2) başqa dilə tərcümə üçün əsas olan mətn, başqa dilə tərcümə olunan mətnin əsli.

**ornament** *is.* [lat.] – rəssamlıqda, heykəltəraşlıqda və s.-də: təkrarlanan həndəsi elementlərdən və ya bitki və heyvan motivlərindən ibarət naxış, bəzək.

**pasifist** *is.* [lat.] – pasifizm tərəfdarı.

**pasifizm** *is.* [lat.] – hər cür müharibəni, o cümlədən ədalətli müharibələri də inkar edən siyasi cərəyan.

**patent** *is.* [lat.] – ixtiraçının ixtirasını təsdiq edən şəhadətnamə, sənəd.

**pedantizm** *is.* [ital.] – həddindən artıq formalizm (rəsmiyyətçilik); ifrat xırdaçılıq.

**perpendikulyar** *is.* [lat.] – başqa bir düz xətt və ya müstəvi ilə düz bucaq təşkil edən düz xətt.

**pərçim** *is.* – iki şeyi bir-birinə bağlamaq (bənd edib bərkitmək) üçün metal mil və onun döyülüb yastılanan ucu.

**pərdə** *is.* [fars.] – bəzi simli musiqi alətlərinin (tar, saz və s.) qolundakı bölmələrdən hər biri (bunların hər birinə barmaqla və ya mizrabla toxunduqda fərqli səs çıxarır).

**pnevmoniya** *is.* [yun.] – ağciyər iltihabı.

**poliqrafiya** *is.* [yun.] – çap məhsulları istehsalının bütün növlərini əhatə edən texnika, sənaye sahəsi.

**populyarlıq** *is.* – məşhurluq; geniş kütlə tərəfindən tanınma, sevilmə, onun rəğbətini qazanma.

**praporşik** *is.* [rus.] – ordu və donanmada ən kiçik zabit rütbəsi; habelə belə rütbəsi olan hərbi xidmətçi; gizir.

**pres** *is.* [lat.] – materialları təzyiq vasitəsilə işləmək, emal etmək üçün maşın, qurğu; basqı aləti, məngənə, sıxac.

**prototip** *is.* [yun.] – 1) ədəbi surət, habelə qəhrəman obrazı yaratmaq üçün müəllifin orijinal kimi istifadə etdiyi həqiqi şəxs; 2) sonra gələn bir şəxsin və ya şeyin sələfi olan şəxs, ya şey.

**psixoloji** *sif.* [yun.] – 1) psixologiyaya aid olan, psixologiya ilə bağlı olan; 2) insanın ruhi vəziyyəti ilə bağlı olan; 3) təsvir olunan surətlərin psixologiyasının dərin təsviri əsasında qurulmuş, yaradılmış.



LAYİHƏ

**redaktə etmək** – hər hansı bir mətni yoxlamaq və düzəltmək, sonuncu dəfə işləyərək çapa hazırlamaq.

**redaktor** [lat.] – hər hansı bir kitabı, qəzeti, jurnalı və s.-ni redaktə edən adam, nəşriyyat, redaksiya mütəxəssisi.

**risalə** *is.* [ər.] – hər hansı bir məsələyə dair kiçik kitab; kitabça.

**sent** *is.* [lat.] – bir sıra ölkələrdə istifadə olunan xırda pul vahidi.

**sentimentallıq** *is.* – həddindən artıq nazikürəklilik, həssaslıq.

**senzor** *is.* [lat.] – mətbuat üzərində nəzarəti həyata keçirən vəzifəli şəxs.

**senzura** *is.* [lat.] – çap məhsulları (qəzet, kitab, jurnal və s.), teleradio verilişləri, kino, teatr və s. üzərində dövlət nəzarəti sistemi.

**sənaye** *is.* [ər.] – 1) yeraltı sərvətləri çıxaran və xammalı emal edən müəssisələri birləşdirən xalq təsərrüfatı sahəsi; 2) maşın texnikası tətbiq edən fabrik-zavod müəssisəsi.

**sənə** *is.* [ər.] – il.

**strategiya** [yun.] – 1) hərb sənəti; hərbi əməliyyat, müharibə hazırlama və aparma bacarığı, sərkərdəlik məharəti haqqında elm; 2) *məc*. ictimai-siyasi fəaliyyətdə bir işi planlaşdırmaq, qurmaq və ona rəhbərlik etmək məharəti.

**studiya** *is.* [ital.] – 1) rəssam və ya heykəltəraş emalatxanası; 2) kinofilmlər istehsal edən müəssisə; 3) televiziya və radio verilişlərini aparmaq üçün xüsusi təchiz olunmuş bina, otaq, yer.

**süslənmək** *f.* – bəzənmək, özünə zinət vurmaq, yaraşıq vermək.

**şaman** *is.* – ruhlara, magiyaya inanan xalqlarda (əsasən, şimal xalqlarında): sehrbaz, ovsunçu, cadugər (şamanlar oxumaqla, dəf çalıb-oynamaqla özlərini cuşa gətirərək, guya ruhlarla münasibətə girərək adamların xəstəliklərini sağaltdıqlarına, onlara uğurlu ov təmin etdiklərinə və s.-yə inanırdılar).

**şöngümək** *f.* – çömbəlmək.

**şrift** *is.* [alm.] – müxtəlif ölçü və biçimdə olan mətbəə hərfləri.

**taktika** [yun.] – 1) döyüşü aparmaq sənəti; hərb sənətinin tərkib hissəsi; 2) bu və ya digər məqsədə çatmaq yolları; ictimai və siyasi mübarizə aparmağın vasitə və üsulları.



LAYİHƏ

**taxça** *is.* [fars.] – şey qoymaq üçün divarda açılan oyuq.

**tanker** *is.* [ing.] – maye yükləri daşımaq üçün böyük gəmi (bu gəmilərdə neft və s. mayelər birbaşa gəminin xüsusi hazırlanmış çənlərinə tökülür).

**taziyanə** *is.* [fars.] – 1) *arx.* qırmanc, qamçı; 2) *məc*. kiçik satirik şeir.

**terrarium** *is.* [lat.] – suda-quruda yaşayan və sürünən heyvanların saxlanılması üçün xüsusi qab.

**tezis** *is.* [yun] – doğruluğu dəlillərlə sübut edilməli olan fikir, iddia.

**tərsanə** *is.* [ər.] **–** gəmi düzəldilən və təmir olunan yer, zavod.

**təsnifat** *is.* [ər.] – hər hansı eynicinsli şeylərin və ya anlayışların müəyyən ümumi əlamətlərə görə siniflərə, qruplara, bölmələrə ayrılması sistemi; klassifikasiya.

**tiraj** *is.* [fr.] – 1) istiqraz və ya lotereya uduşlarının oynanılması; 2) buraxılmış nəşrin (kitab, qəzet və s.) nüsxələrinin sayı.

**traktat** – ayrıca bir məsələdən, problemdən bəhs edən elmi əsər.

**trayektoriya** *is.* [lat.] – hərəkət edən hər hansı bir nöqtə və ya cismin fəzada cızdığı xətt.

**tuş** *is.* [lat.] – xüsusi surətdə hazırlanmış qara və ya başqa rəngli sulu boya (çertyoj, rəsm çəkmək və yazmaq üçün).

**uzurpasiya** *is.* [alm.] – qanunsuz şəkildə (hiylə və ya zorla) hakimiyyəti zəbtetmə və ya başqasının hüququnu mənimsəmə.

**ülfət** *is.* [ər.] – bir-birinə bağlanma, mehr salma, bir şeyə alışma, dostluq, səmimilik, məhəbbət.

**ümman** *is*. [ər.] – 1) böyük dəniz, dərya, okean; 2) *məc*. hədsiz, həddən artıq, sonsuz, çox.

**vəcdə gəlmək** – son dərəcə sevinmək, şadlanmaq, şövqə gəlmək, ruhlanmaq.

**vüsət** *is*. [ər.] – genişlik.

**yaddaş kartı** *is.* – elektron hesablama maşınlarında verilənləri mühafizə etmək üçün istifadə olunan elektron qurğu. Yaddaş kartından rəqəmsal fotoaparatlarda, telefonlarda, notbuklarda və s.-də geniş istifadə olunur.

**zövcə** *is.* [ər.] – arvad, həyat yoldaşı, qadın.



LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

**AZƏRBAYCAN DİLİ – 7**
*Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün*
*“Azərbaycan dili” (tədris dili) fənni üzrə dərslik*

***Tərtibçi heyət:***

***Müəlliflər:*** ***Rafiq Ələkbər oğlu İsmayılov***
***Aynur Xanlar qızı Rüstəmova***
***Hidayət Fehruz oğlu Allahverdi***
***Sahibə Xasay qızı Məmmədova***

Elmi redaktor: ***Dilrüba Cəfərova***
Dil redaktoru: ***Arzu Quliyeva***
Rəssamlar: ***Elçin Cabbarov***
***Şəlalə Rüstəmova***
***Səidə Eyvazova***
Dizayner: ***Rəşad Nəbiyev***
Korrektor: ***Aqşin Məsimov***

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2022–...**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 17. Fiziki çap vərəqi 11. Kağız formatı 70x100 1/16.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 176.
Ofset kağızı. Məktəb qarnituru. Ofset çapı.
Sifariş___. Tirajı ... Pulsuz. Bakı – 2022.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 06.06.2022**

Çap məhsulunu nəşr edən:
**“Altun kitab” MMC** (Bakı, Ə.Naxçıvani küç., 63)

Çap məhsulunu istehsal edən:
**“Şərq-Qərb” ASC** (Bakı, Aşıq Ələsgər küç., 17)

LAYİHƏ

PULSUZ

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



LAYİHƏ